AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ
İQTİSADİYYAT İNSTİTUTU

ISSN 2707-9309 (Print)
ISSN 2707-9317 (Online)

# İQTİSADİ ARTIM VƏ İCTİMAİ RİFAH

ELMİ JURNAL

2024, №3

**JOURNAL OF ECONOMIC GROWTH AND SOCIAL WELFARE**

*Jurnalın indeksləņməsi / Indexed by*

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası

ICI WORLD of JOURNALS

INTERNET ARCHIVE

ROAD DIRECTORY OF OPEN ACCESS SCHOLARLY RESOURCES

Academia.edu share research

calaméo

doi

SCRIBD

Academic Resource Index ResearchBib

**İQTİSADİ ARTIM və İCTİMAİ RİFAH**
Elmi jurnal. 2011-ci ildən nəşr edilir.
ISSN 2707-9309 (Print)
ISSN 2707-9317 (Online)

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində mətbu nəşrlərin reyestrinə daxil edilmişdir. Reyestr № 3402

"İqtisadi Artım və İctimai Rifah" jurnalı iqtisadiyyat sahəsində elmi-nəzəri məqalələrin, araşdırma materiallarının müasir dövrün tələblərinə uyğun formatda nəşrini həyata keçirir. Jurnalda Azərbaycanda və dünyada mikroiqtisadiyyat, makroiqtisadiyyat, iqtisadi siyasət, regionların sosial-iqtisadi inkişafı, ətraf mühitin iqtisadiyyatı, aqrar iqtisadiyyat, bank işi, vergi, audit, menecment, marketinq, mühasibat uçotu, gömrük və digər iqtisadi məsələlər elmi-nəzəri baxımdantəhlilə cəlb olunur. Azərbaycanın, eləcə də dünyanın aparıcı iqtisadçı alimlərinin elmi nəzəriyyələrinə, bu nəzəriyyələrin həyatımızın müxtəlif sahələrinə tətbiqinin fundamental nəticələrinə, təklif və tövsiyələrinə geniş yer verilir. Məqalələr Azərbaycan, rus, türk və ingilis dillərində, ildə 4 dəfə dərc olunur. Jurnalda müəlliflərin şəxsi maraqlarını əks etdirən, elmi- nəzəri,praktik nəticəsi olmayan məqalələr qəbul edilmir. Jurnal Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi elmi nəşrlər sırasındadır.

© 2024 İqtisadi Artım və İctimai Rifah

**ECONOMIC GROWTH and SOCIAL WELFARE**
Scientific journal. This journal has been published since 2011.
ISSN 2707-9309 (Print)
ISSN 2707-9317 (Online)

The journal is included in the register of publications in the Ministry of Justice of the Republic of Azerbaijan. Register № 3402

Journal of “Economic Growth and Social Welfare” publishes scientific and theoretical articles, research materials in the field of economics in a format in accordance with modern requirements. The journal analyzes microeconomics, macroeconomics, economic policy, socio- economic development of the regions, environmental economics, agrarian economy, banking, taxation, audit, management, marketing, accounting, customs and other economic issues in Azerbaijan and the world from a scientific and theoretical point of view. This journal covers the scientific theories of leading economists of Azerbaijan, as well as the world, the fundamental results, proposals and recommendations for the application of these theories to various areas of our lives. Articles are published in Azerbaijani, Russian, Turkish and English 4 times a year. The journal does not accept articles that reflect the personal interests of the authors and do not have scientific-theoretical or practical results. The journal is one of the scientific publications recommended by the Supreme Attestation Commission under the President of the Republic of Azerbaijan.

© 2024 Economic Growth and Social Welfare

**Təsisçi**
AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ
İQTİSADİYYAT İNSTİTUTU

**Baş redaktor**
Nazim Müzəffərli (İmanov) − iqtisad elmləri doktoru, professor

**Baş redaktorun müavini**

**Məsul katib**
Yunus Sadıqov − iqtisad üzrə fəlsəfə doktoru, dosent

**Redaksiya heyəti**
Abdullayeva R.S. – dosent (Azərbaycan)
Aykaç A.E. − professor (Türkiyə)
Əliyev T.N. – professor (Azərbaycan)
Gülalıyev M.G. – dosent (Azərbaycan)
Hacıyev Ş.H. – professor (Azərbaycan)
Hüseynov T.H. – professor (Azərbaycan)
İsmayılov E.M. − professor, Gürcüstan MEA-nın xarici üzvü (Gürcüstan)
Meznik İvan − professor (Çex Respublikası)
Muradov A.N. – dosent (Azərbaycan)
Muradov Ə.C. – professor (Azərbaycan)
Muradov Ş.M. − professor, AMEA-nın müxbir üzvü (Azərbaycan)
Müslümov S.Y. – professor (Azərbaycan)
Novruzov V.T. – professor (Azərbaycan)
Nuriyev Ə.X. − professor, AMEA-nın müxbir üzvü (Azərbaycan)
Pey Chanqhonq − professor (Çin Xalq Respublikası)
Petr Stepanoviç − professor (Ukrayna)
Satıbaldin A.A. – akademik (Qazaxıstan)
Səmədzadə Z.Ə. − akademik, AMEA-nın həqiqi üzvü (Azərbaycan)
Sultanova R.P. – professor (Azərbaycan)
Tsvetkov V.A. – professor, Rusiya EA-nın müxbir üzvü (Rusiya)
Vladimir Papava − akademik (Gürcüstan)
Yüzbaşiyeva G.Z. – professor (Azərbaycan)

**Dizayner və texniki redaktor:**
İ.f.d., dos. Yunus Sadıqov

Redaksiyanın ünvanı: AZ 1143, Bakı şəhəri, H.Cavid prospekti, 115 E-mail: econspaper@gmail.com
http://www.economics.org.az

**Founder**
SCİENCE AND EDUCATİON MİNİSTRY OF AZERBAIJAN REPUBLİC
INSTITUTE OF ECONOMICS

**Editor-in-Chief**
Nazim Muzaffarli (Imanov) − doctor of economic sciences, professor

**Deputy Editor-in-Chief**

**Executive Secretary**
Yunus Sadiqov − PhD in Economics, associate professor

**Editorial Board**
Abdullayeva R.S. − associate professor (Azerbaijan)
Aykach A.E. − professor (Turkey)
Aliyev T.N. − professor (Azerbaijan)
Gulaliyev M.G. − associate professor (Azerbaijan)
Hajiyev S.H. – professor (Azerbaijan)
Huseynov T.H. – professor (Azerbaijan)
Ismayilov E.M.− professor, Foreign Member of the Georgian NAS (Georgia)
Meznik Ivan − professor (Czech Republic)
Muradov A.N. − associate professor (Azerbaijan)
Muradov A.J. – professor (Azerbaijan)
Muradov S.M. − professor, Corresponding member of ANAS (Azerbaijan)
Muslimov S.Y. – professor (Azerbaijan)
Novruzov V.T. – professor (Azerbaijan)
Nuriyev A.K. − professor, Corresponding member of ANAS (Azerbaijan)
Pei Changhong − professor (People's Republic of China)
Petr Stepanovich − professor (Ukraine)
Satibaldin A.A. − academician (Kazakhstan)
Samadzade Z.A. − academician, Full Member of ANAS (Azerbaijan)
Sultanova R.P. – professor (Azerbaijan)
Tsvetkov V.A. – professor, Corresponding member of the Russian AS (Russia)
Vladimir Papava − academician (Georgia)
Yuzbashiyeva G.Z. – professor (Azerbaijan)

**Designer and technical editor:** Ph.D in economics,
Assoc. prof. Yunus Sadiqov
Address: 115 H. Javid avenue, Baku, Azerbaijan 1143
E-mail: econspaper@gmail.com
http://www.economics.org.az

# MÜNDƏRİCAT / №3, 2024

**Tərbiz Əliyev, Aytən Əbdürrəhmanova**
Azərbaycanın emal sənayesi müəssisələrində dəyər zəncirinin innovativ yanaşmalar əsasında formalaşdırılması 10

**Fuad Qənbərov**
Orta dəhlizin region ölkələri arasındaki iqtisadi əlaqələrə təsiri 23

**Akifə Ağayarova**
Azərbaycanda miqrasiyanın dövlət tənzimlənməsinin makroiqtisadi metodları 32

**Jalə Əliyeva**
Kənd yerlərinin inkişafına müasir yanaşmalar 41

**Günay Əliyeva**
Təhsilin sosial təsirləri və aspektləri 50

**İntizar Qurbanova**
Ali təhsil alan gənclərin məşğulluğu ilə bağlı əsas məsələlər: problemlər və həlli yolları 58

**Ülkər Məmmədova**
Rabitə və internet xidmətlərinin təzimləməsinin mexanizimləminin təkmilləşdirilməsi 69

**Mehrab Kərimli**
Məcmu kapitalın strukturunun optimallaşdırılması 78

**Elmir Mehdiyev**
SOCAR-ın neft-kimya məhsullarının Avropa bazarlarına ixracının qiymətləndirilməsi 88

**Rəfiqə Abdalova**
Qadın məşğulluğunun təmin olunması xüsusiyyətləri və qiymətləndirilməsi 97

**Xəzər Abbaszadə**
İqtisadi inkişafın dönüm nöqtəsi: bərabərsizlik, avtomatlaşdırma və iqlim dəyişikliyinin öhdəsindən gəlmək 106

**Cavanşir Burhanzadə**
Azərbaycanın post-konflikt ərazilərində investisiya fəaliyyətinin təhlili və investisiya cəlbediciliyinin artırılması istiqamətləri 113

**Murad Şıxıyev**
ÜDM artım tempi və Əsas kapitala yönəlmiş investisiyaların artım tempi arasında Granger səbəbiyyət əlaqələrinin analizi: ölkələrin müqayisəli təhlili 120

**Aytən Ağayeva**
Universitetlərin iqtisadi səmərəliliyinin artırılması üçün iqtisadi həll və mexanizmlər 130

**Emin Əlirzayev**
Sosial proqnozlaşdırma kontekstində sosial müdafiə sisteminə konseptual yanaşma (Azərbaycan Respublikası nümunəsində) 136

**Həsən Qənbərov**
Azərbaycanda bank sisteminin kövrəklik indeksinin hesablanması 150

**Günay Hüseynzadə**
İqtisadi qərarların qəbulunda həssaslıq analizi 156

# CONTENTS / №3, 2024

**Tarbiz Aliyev, Ayten Abdurrahmanova**
Formation of a value chain in the enterprises of the manufacturing industry of Azerbaijan based on innovative approaches 10

**Fuad Ganbarov**
The impact of the Middle Corridor on the economic relations between the countries of the region 23

**Akifa Agayarova**
Macroeconomic methods of state regulation of migration in Azerbaijan 32

**Zhala Aliyeva**
Modern approaches to development of rural areas 41

**Gunay Aliyeva**
Social effects and aspects of education 50

**Intizar Gurbanova**
Key issues related to the employment of young people with higher education: problems and solutions 58

**Ulker Mammadova**
Improving the mechanism of regulation of communication and internet services 69

**Mehrab Karimli**
Optimization of the structure of total capital 78

**Elmir Mehdiyev**
Evaluating exports of petrochemical products of SOCAR to European markets 88

**Rafiga Abdalova**
Characteristics and assessment of women's employment 97

**Khazar Abbaszade**
Economic growth at a crossroads: navigating inequality, automation, and climate change 106

**Javanshir Burhanzade**
Analysis of investment activity in post-conflict territories
of Azerbaijan and directions of increasing investment attractiveness 113

**Murad Shikhiyev**
Analysis of Granger causality between GDP growth rate and fixed capital
investment growth rate: a comparative analysis of countries 120

**Ayten Aghayeva**
Economic solutions and mechanisms for increasing
the economic efficiency of universities 130

**Emin Alirzayev**
Conceptual approach to the social protectıon system in the context of
social forecasting (in the example of the Republic of Azerbaijan) 136

**Hasan Ganbarov**
Calculation of the fragility index of the banking system in Azerbaijan 150

**Gunay Huseynzade**
Sensitivity analysis in economic decision making 156

DOI: https://doi.org/10.36719/2707-9317/03/10-22

# Formation of a value chain in the enterprises of the manufacturing industry of Azerbaijan based on innovative approaches

**Tarbiz Aliyev**
Doctor of Economics, Professor, Head of Department, Institute of Economics, Ministry of Science and Education of the Republic of Azerbaijan
e-mail: tarbiz.aliyev47@bk.ru
https://orcid-org/0000-0002-3956-2161

**Ayten Abdurrahmanova**
Researcher at the Institute of Economics of the Ministry of Science and Education of the Republic of Azerbaijan
e-mail: ayten.abdullayeva1995@mail.ru
https: //orcid.org/0000-0001-5548-0900

**Abstract:** The article examines the theoretical-methodological and organizational-economic aspects of the value chain at enterprises of the manufacturing industry of Azerbaijan based on innovative approaches. At the same time, the main attention is paid to the justification of the relevance of the topic, the approach of scientists to this problem, the point of view of the authors to them is indicated. Along with this, a distinctive fundamental structure of the value chain has been developed, from the formation, a block diagram of sustainable development, the necessary conditions have been classified taking into account the specifics of the studied industries, possible chain financed value chains have been indicated. In addition, the negative impact of institutional reforms on the volume of added value has been determined, the main indicators characterized by the activities of enterprises in the country, food products and beverages, the corresponding reserves have been identified and recommendations for their effective use have been proposed.

**Key words:** Manufacturing industry, agro-processing enterprises; value chain; added value; innovative approaches; industry cluster; food security.

hppt://dx.doi.org/

**JEL L16, L25; UDC 339.56:330**

**To cite this article:** Aliyev T.N., Abdurahmanova A.F. (2024) Formalization of the value chain in the enterprises of the processing industry of Azerbaijan based on innovative methods. *Economic Growth and Social Welfare,* No..., p...

**Article history:** Received - .....; Accepted - .........

# Azərbaycanın emal sənayesi müəssisələrində dəyər zəncirinin innovativ yanaşmalar əsasında formalaşdırılması

**Tərbiz Əliyev**
AR ETN İqtisadiyyat İnstitutunun şöbə müdiri, i.e.d., professor
e-mail: tarbiz.aliyev47@bk.ru
https://orcid-org/0000-0002-3956-2161

**Aytən Əbdürrəhmanova**
AR ETN İqtisadiyyat İnstitutunun elmi işçisi
e-mail: aytən.abdullayeva1995@mail.ru
https://orcid.org/0000-0001-5548-0900

**Xülasə:** Məqalədə Azərbaycanın emal sənayesi müəssisələrində dəyər zəncirinin innovativ yanaşmalar əsasında formalaşdırılmasının nəzəri-metodoloji və təşkilati-iqtisadi aspektləri araşdırılmış, əsas diqqət mövzunun aktuallığının əsaslandırılmasına, alimlərin problemə dair yanaşmalarına müəlliflərin onların mövqelərinin açıqlanmasına yönəldilmişdir. Bunlarla yanaşı emal sənayesinin və aqrar-emal sferasının spesifik xüsusiyyətləri nəzərə alınmaqla dəyər zəncirinin fərqli prinsipial quruluşu, onun formalaşdırılmasının və dayanıqlığının təmin edilməsinin blok sxemi işlənilmiş, zəruri şərtləri təsnifləşdirilmiş, dəyər zəncirinin maliyyələşdirilməsinin mümkün mənbələri göstərilmişdir.

Məqalədə eyni zamanda sahədə baş verən institusional dəyişikliklərin yaranan əlavə dəyərin həcminə mənfi təsiri müəyyən olunmuş, ölkədə fəaliyyətdə olan qida və içki istehsalı müəssisələrinin işini xarakterizə edən göstəricilər təhlil edilib qiymətləndirilməsi nəticəsində müvafiq ehtiyat imkanlar aşkar edilərək onlardan səmərəli istifadə edilməsi üzrə tövsiyələr verilmişdir.

**Açar sozlər**: emal sənayesi; aqrar-emal müəssisələri; innovativ metodlar; dəyər zənciri; əlavə dəyər; sahə klasteri; ərzaq təhlükəsizliyi.

hppt://dx.doi.org/
**JEL L16; L25; UDC 339.56:330**
**Məqaləyə istinad**: Əliyev T.N., Əbdürəhmanovla A.F.(2024) Azərbaycanın emal sənayesi müəssisələrində dəyər zəncirinin innovativ metodlar əsasında formalaşdırılması. *İqtisadi Artım və İctimai Rifah*, №..., səh....
**Məqalə tarixçəsi**: göndərilib - ......... qəbul edilib - .....

## Giriş / İntroduction

Son illər Azərbaycan keyfiyyətcə yeni sosial-iqtisadi inkişafı növbəti onillikdə əhatə edən strateji inkişaf mərhələsinə daxil olmuşdur. Həmin dövrdə beynəlxalq standartlara cavab verən yeni nəsil institusional islahatlar vasitəsi ilə milli iqtisadiyyatın innovativ yönümünün və maliyyə dayanıqlığının təmin edilməsi, ölkə iqtisadiyyatının qlobal dəyər zəncirinə səmərəli inteqrasiya olunması, eləcə də ayrı-ayrı iqtisadi fəaliyyət sahələrində dəyər zəncirinin prinsiplərinə riayət etməklə əlavə dəyərin artırılması yolu ilə Azərbaycan öz iqtisadi qüdrətinin möhkəmləndirilməsi istiqamətində sinerji effekti yaradan yeni hədəfləri gerçəkləşdirmək əzmindədir. Lakin buna mənfi təsir edən başlıca amillər sırasında – ölkənin idxaldan asılılığını, ixrac edilən sənaye və aqrar məhsullarının xammal kimi ixracını, müəssisələrin innovasiya aktivliyinin aşağı olmasını, onun zəif təşviq edilməsini, istehsalın zəif şaxələndirilməsini, qeyri-istehsal və idarəetmə xərclərinin dinamik xarakter almasını, eləcə də dəyər və təchizat zəncirinin çox da uğurlu olmayan formada təşkilini və s. göstərmək olar. Bütün bunlar sistemli yanaşmaya üstünlük verməklə dəyər zəncirinin ilk növbədə emal sənayesi müəssisələrində (alt sahələrində) uğurlu formalaşdırılması hesabına orada əlavə dəyərin dinamik artımına imkan verə bilən, innovativ yanaşmaları özündə ehtiva edən kompleks xarakterli metodoloji təşkilati-iqtisadi, texniki-texnoloji və digər təyinatlı tövsiyyələrin işlənilməsinin zəruriliyini ön plana çəkmişdir.

## Əsas hissə / Main Part

## Ədəbiyyatların təhlili

Bazar iqtisadiyyatı modelini iqtisadi inkişafın əsası kimi özündə formalaşdıran ölkələrdə kəskin rəqabət mübarizəsi şəraitində dəyər zənciri prinsiplərinə üstünlük verilməsi başlıca şərt kimi özünü biruzə verir. Məlumdur ki, dəyər zənciri konsepsiyası M.E.Porterin hələ 1985-ci ildə nəşr etdirdiyi "Rəqabətli Üstünlük" kitabında yer almışdır. O, qeyd edirdi ki, dəyər yaratmaq üçün lazım olan fəaliyyətlər silsiləli formada dəyər zəncirini mərhələlərlə təşkil edir. M.Porter dəyər zənciri xəritəsini tərtib edərkən təklif etmişdir ki, bazarın səmərəli olması üçün məhz dəyər zənciri aşağıdakı beş əsas mərhələdə özünü ehtiva etməlidir - giriş logistikası, istehsal, məhsul logistikası, marketinqin təşkili, texniki və satışdan sonrakı xidmət. Onun fikrincə, həmin əsas mərhələlərin icrasını təmin etmək üçün bir sıra dəstəkləyici fəaliyyətin (təchizat, infrastruktur, insan resurslarının və texnologiyaların idarə edilməsi) səmərəli təşkili vacibdir. (23, 2017; 24, 2000). Həmin metodoloji yanaşmanın prinsiplərini nəzərə almaqla 1985-ci ildən bu vaxtadək keçən dövr ərzində iqtisadi alimlər bütünlüklə, yaranan əlavə dəyər və dəyər zəncirinin uğurlu formalaşması üçün bir sıra təşkilati-iqtisadi, institusional tədbirlərin həyata keçirilməsinin zəruriliyini əsaslandırmışlar.

Bu məqalənin müəllifinin fikrincə, ölkənin emal sənayesi sahələrində klasterlərin yaradılması dəyər zəncirini sona çatdıra bilər (11, 2019; 12, 2017). Digər iqtisadçı alim Ş.T.Əliyevin fikrincə xüsusi iqtisadi zonaların yaradılması sahələrarası dəyər zəncirinin formalaşmasına imkan verə bilər (13, 2008). Əməkdar iqtisadçı T.H.Hüseynov hesab edir ki, hazırda xammal kimi ixrac edilən məhsulların ölkədə emalı dəyər zəncirinin tamamlanması və istehsalın səmərəliliyinin artırılması üçün vacibdir (14, 2024).

Respublikamızın digər tanınmış iqtisadçı alimlərdən əməkdar elm xadimi B.X.Ataşov hesab edir ki, aqrar sahədə struktur dəyişikliklərin aparılması, kooperasiya əlaqələrinin genişləndirilməsi tədarük məntəqələrinin sayının artırılması nəticə etibari ilə dəyər zəncirinin səmərəli təşkili ilə yanaşı əlavə dəyərin artırılmasına təminat yaradacaqdır (10, 2017; 21, 2021).

Prof. E.A.Quliyevin fikrincə aqrar sferada dəyər zəncirinin uğurlu təşkili etibarlı ərzaq təminatı sisteminin yaradılmasına, qida təhlükəsizliyinin təmin edilməsinə və nəticədə qlobal ərzaq təhlükəsizliyinin təminatına imkan verəcəkdir (18, 2013; 19, 2020; 20; 2018). Prof V.Ə.Qasımlı hesab edir ki, iqtisadi artıma nail olmaq üçün aralıq istehlak xərcləri səmərəli idarə edilməlidir (17, 2021). Azərbaycanın digər tanınan iqtisadçı alimi İ.H.İbrahimov hesab edir ki, dəyər zənciri iştirakçılarının maliyyə dayanıqlılığının təmin edilməsi yüksək əlavə dəyər yaratmağa hədəflənir (15, 2023).

Əməkdar kənd təsərrüfatı işçisi İ.H.İbrahimov hesab edir ki, kənd təsərrüfatı məhsullarının itkisiz tədarükü, daşınması və saxlanılması dəyər zəncirinin fasiləsizliyinə təminat yaratmış olacaqdır (15, 2016).

Uzun illər kənd təsərrüfatının iqtisadiyyat problemləri üzrə tədqiqat aparan prof. X.A.Xəlilovun fikrincə kənd təsərrüfatı və ərzaq məhsullarının dəyər zəncirində rəqabətlə bağlı problemlər müxtəlif vasitələr arasında mövcud ola bilər (22, 2023).

Tədqiq edilən mövzuya dair qısa əbəbiyyat xülasəsindən göründüyü kimi iqtisadçı alimlərin dəyər zəncirinin formalaşmasına dair sistemli yanaşmaya əsaslanan yetkil fikirlərə rast gəlinmir. Ən çox fikir ayrılığı aqrar-emal sferasında dəyər zəncirinin və əlavə dəyərin tərkib hissələrinin qarşılıqlı əlaqəsində hiss edilir.

Görünür ona görə də "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlərdə (1, 2021) nəzərdə tutulan hədəflərin icrasını özündə ehtiva edən sosial-iqtisadi inkişaf Strategiyasında (2, 2022) qarşıdakı onillik müddətdə - yeni inkişaf modeli çərçivəsində milli iqtisadiyyat dərindən şaxələnməklə innovativ metodlar əsasında müasir dəyər zəncirinin qurulmasının vacibliyi ön plana çəkilmişdir.

**Metodologiya.**

Məqalədə tədqiqat üsulu kimi sistemli və konseptual yanaşma analitik ümumiləşdirmə, müqayisəli və statistik təhlil metodlarından istifadə edilmişdir. Tədqiqatın informasiya bazarının Azərbaycan Respublikasının müvafiq normativ-hüquqi aktları, Dövlət Statistika Komitəsinin, internet şəbəkəsinin rəsmi məlumatları təşkil etmişdir.

**Nəticələr və müzakirə.**

**Dəyər zəncirinin formalaşmasına dair fərqli metodiki yanaşmalar.**

Emal sənayesi sahələrində onların spesifik xüsusiyyətləri nəzərə alınmaqla dəyər zəncirinin formalaşmasında sistemli və kompleks yanaşmaya əsaslanan yetkil fikrin və metodologiyanın olmadığını nəzərə alaraq məqalədə tərəfimizdən işlənilən fərqli metodoloji yanaşmanın şərhinə üstünlük verilmişdir. Bu ilk növbədə emal sənayesinin spesifik xüsusiyyətləri nəzərə alınmaqla dəyər zəncirinin tərtib edilən prinsipial quruluşunda öz əksini tapmışdır **(blok-sxem 1)**.




**Blok-sxem 1. Emal sənayesi müəssisələrində dəyər zəncirinin prinsipial quruluşu (M.Porterin metodiki yanaşması nəzərə alınmaqla, müəlliflər tərəfindən tərtib edilmişdir).**

Aparılan tədqiqatın məntiqi nəticəsi olaraq onu da qeyd etmək vacibdir ki, dəyər zəncirinin əsas və köməkçi tərkib hissələrinin əhatə dairəsi, zəncirin dayanıqlılığının təmin edilməsi və ümumi dəyərlə əlaqəsindəki başlıqları nəzərə alaraq onun fərqli prinsipial sxemi tövsiyə edilmişdir **(şəkil 1)**.

**Aqrar –emal sferasında dəyər zəncirinin formalaşdırılması.**

Fəaliyyətdə olan ayrı-ayrı aqrar-emal sahələrində dəyər zəncirini tam formalaşdırmaq və yaxud onu xammal bazasından başlayaraq zəncirin bütün mərhələlərini keçib çoxçeşidli hazır məhsulu son istehlakçıya çatdırmaq böyük məbləğdə pul vəsaiti tələb etdiyindən beynəlxalq təcrübədə bəzən inklüziv istehsal-satış zəncirindən istifadə edilir. Bu zaman “inklüziv əlavə dəyər zənciri” konsepsiyasına üstünlük verilir və əsas hədəf fərdi, mikro və kiçik müəssisələrin eyni təyinatlı orta və iri kompaniyaların tərkibinə daxil etməklə yeni dəyər zənciri yaratmaq və yüksək sinerji effekti əldə etməkdir. Bizim fikrimizcə, belə təcrübədən ölkəmizin bütün emal sənayesinin alt sahələrində istifadə edilməsi heç vaxt olmadığı kimi vacib və qaçılmazdır. Ona görə də həmin istehsal sahələrində yaranan əlavə dəyərin məbləği artıb-azalan xətlə dəyişir. Bunun başlıca səbəbi isə hər il dəyər zənciri prinsipinə riayət etməyən və yaxud etmək imkanı olmayan çoxsaylı sahibkarlıq subyektlərinin öz fəaliyyətinə xitam verməsidir. Bütün bunlar isə nəticədə böyük məbləğdə şərti məhsul itkisinə, iş yerlərinin bağlanmasına və yaranacaq ümumi əlavə dəyərin azalmasına gətirib çıxarır. Hesab edirik ki, aqrar-emal sferasında dəyər zəncirini formalaşdırmaq üçün innovativ metodlara üstünlük verilməli və zəncirin mərhələləri tərəfimizdən işlənilən prinsipial yanaşmadakı aspektləri özündə ehtiva etməli və zəruri şərtlərə riayət olunmalıdır **(şəkil 2)**. Fikrimizcə, həmin sxem üzrə dəyər zəncirinin qurulması,

ona riayət olunması nəticə etibarı ilə regionda aqrar-emal müəssisələrinin mövsümü iş rejimindən, fasiləsiz və səmərəli iş rejiminə keçirilməsinə, ekoloji və təmiz məhsul istehsalına təminat yaratmış olacaqdır.




**Şəkil 1.** Emal sənayesi müəssisələrində dəyər zəncirinin formalaşdırılmasının və onun dayanıqlığının təmin edilməsinin prinsipial sxemi **(müəlliflər tərəfindən tərtib edilmişdir)**.

Kəskin rəqabət mübarizəsi şəraitində dayanıqlı iqtisadi inkişafa hədəflənmək üçün bütün maraqlı tərəflər dəyər zənciri prosesinə cəlb edilməlidir. Bunu reallaşdırmaq üçün prosesin aşağıdakı mərhələlərinin ardıcıl icrasına nail olmaq vacibdir və bu da yüksək sinerji effekti verə bilər:

**1.** Müəssisədə yüksək ixtisasa, kreativ düşüncəyə malik işçilərin mövcudluğu, sabitliyi və onların əməyinin motivasiyası;

**2.** Dəyər zəncirinin bütün həlqələrinə investisiya yönəltmək iqtidarında olan səhmdarların fəal iştirakı;

**3.** Müəssisədə çoxçeşidli, yüksək keyfiyyətli və ekoloji təmiz məhsul istehsalı hesabına istehlakçıların tələblərinə hədəflənmək;

**4.** İşgüzar dövlət-özəl tərəfdaşlığın qurulması və inkişaf etdirilməsi (əhalinin həyat səviyyəsinin yüksəldilməsini təmin edən innovativ infrastrukturunun qurulmasına hədəflənən məqsədli layihələrin icrasının təmin edilməsi);

**5.** Kütləvi informasiya vasitələrinin prosesə cəlb edilməsi (müəssisənin fəaliyyətinin və dayanıqlı inkişafına yönəldilən hədəflərin mütəmadi olaraq işıqlandırılması, reklam işinin təşkili, qabaqcıl təcrübələrin təbliği və s.




**Şəkil 2.** Aqrar emal sferasında dəyər zəncirinin formalaşmasının prinsipial quruluşu və zəruri şərtləri **(müəlliflər tərəfindən işlənilmişdir).**

**Dəyər zəncirinin maliyyələşdirilməsi.**

Aqrar-emal müəssisələrində dayanıqlı inkişafın təmin edilməsinin başlıca şərti zəncir iştirakçılarının maliyyə təminatıdır. Bunun üçün istehsalçılar, təchizatçılar, emal və satışla məşğul olan müəssisələr bir-biri ilə müqavilə bağlayaraq onun şərtlərinə riayət etməlidirlər. Digər vacib şərt – marketinq fəaliyyətini səmərəli təşkil etməklə anbarlardakı qalıq məhsulu minimuma endirməkdir. Debitor borclarının vaxtında ödənilməsi də maliyyə dayanıqlılığının vacib şərti kimi çıxış edir. Aqrar – emal sferasında dəyər zəncirinin məhsuldarlığını, rəqabət qabiliyyətini və səmərəliliyini, eləcə də ixrac potensialını artırmaq, prioritet istiqamət kimi çıxış etməlidir.

Hazırda Azərbaycanda yetişdirilən kənd təsərrüfatı məhsullarının az bir hissəsi emal edilərək xarici bazara çıxarılır, mütləq əksəriyyəti isə ilkin formada, əlavə dəyər yaratmadan ixrac olunur. Mütəxəssislərin hesablamalarına görə, emal edilən və ya əlavə dəyərə qatılmış hər hansı aqrar məhsulun ixracı ölkəyə ən azı 30-50% əlavə valyutanın daxil olmasını, eləcə də büdcəyə əlavə vergi ödənilməsini şərtləşdirir. Bütünlükdə dəyər zənciri iki formada maliyyələşdirilə bilər. Onlardan biri daxili, digəri isə xarici maliyyələşdirmə formasında çıxış edir. Daxili maliyyələşdirmə dəyər zəncirinin üzvləri tərəfindən aparılır. Xarici maliyyələşdirmə isə dəyər zəncirinə kənardan cəlb edilən maliyyə vəsaitidir. Buna aşağı faizli bank krediti, eləcə də digər kredit təşkilatlarının satış müqaviləsi əsasında verdikləri kredit aid edilə bilər. Təcrübədə hər iki formanın sintezindən də istifadə edilir. Bu zaman emal şirkəti aldığı xarici investisiyanı zəncir daxilindəki iştirakçılar arasında bölüşdürülür. Belə sistemli yanaşma maliyyə təşkilatlarına bir neçə alətləri birləşdirən maliyyələşdirmə modelinin tətbiq etmələrinə imkan yaradır. Onlar riskləri araşdırmaq və zəncirin qabiliyyətini təhlil edərək dəyər zənciri iştirakçılarının kredit ödəmə qabiliyyətini qiymətləndirmək imkanı əldə edirlər. Beləliklə, dəyər zəncirlərinin inkişafında əldə edilə bilən nailiyyətlər nəticə etibarlı ilə maliyyə təşkilatlarının kredit portfelinin, uğurlu müştəri sayının artmasına və gəlirlilik hədəflərinə nail olmalarına imkan vermiş olacaqdır.

**Emal sənayesində baş verən institusional dəyişikliyin əlavə dəyərin həcminə təsirinin qiymətləndirilməsi.**

Rəsmi statistik məlimata görə 2015-2022-ci illərdə emal sənayesi müəssisələrinin sayı 1352 vahid, o cümlədən aqrar-emal müəssisələrinin sayı 377 vahid artmışdır. Həmin dövrdə sənaye fəaliyyəti ilə məşğul olan fərdi sahibkarların sayı uyğun olaraq 9952 nəfər və 3906 nəfər çoxalmışdır. Nəticədə məhsul istehsalının həcmi 2,35 dəfə yüksəlmişdir. Qeyd edilən illər ərzində aqrar-emal müəssisələrin emal sənayesindəki xüsusi çəkisi 3,8 punkt azaldığı halda istehsal edilən məhsulun xüsusi çəkisi 4,1 punkt artmışdır. Həmin istehsal sahələrində fəaliyyətdə olan müəssisələrin orta hesabla 60%-i mikro, 21%-i kiçik, 19%-i isə orta və iri statusa malikdirlər. Təkcə 2019-2023-cü illərdə ölkənin emal sənayesində müxtəlif obyektiv və subyektiv səbəblərdən 136 sahibkarlıq subyekti öz fəaliyyətinə xitam vermişdir. Bu illər ərzində adı çəkilən sferalarda ümumi məhsul buraxılışın həcmi uyğun olaraq 1,44 dəfə, yaradılmış, əlavə dəyərin həcmi isə 2,5 dəfə artmışdır. Hesablamalar göstərir ki, həmin dövrdə orta hesabla bir müəssisədə 5,34 mln.man məhsul buraxılmış, 1,96 mln.man əlavə dəyər yaradılmışdır. Nəzərə alsaq ki, həmin vaxt ləğv edilən müəssisələrin sayı orta hesabla 22 vahid təşkil edir, onda şərti məhsul itkisi 117,5 mln. man, yaranan əlavə dəyər üzrə itki isə 43,1 mln.manat civarında olacaqdır. Fikrimizcə, emal sənayesinin alt sahələrində innovasiya infrastrukturunun şəbəkəsinin genişləndirilməsi və sahədə innovativ metodların tətbiqi üzrə təsirli təşviq mexanizminin tətbiqi qeyd edilən itkilərin azaldılmasına imkan verə bilər.

**Aqrar-emal müəssisələrinin fəaliyyətinin qiymətləndirilməsi.**

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin (ARDSK) 2022-ci ilin yekunları üzrə dərc etdiyi məlumata əsasən ölkənin emal sənayesində fəaliyyət göstərən bütün müəssisələrin 32,9%-ni aqrar emal müəssisələri təşkil edir. Onlara əsasən - qida, içki, tütün məmulatları, geyim, ayaqqabı, dəri və dəri məmulatları, istehsal və toxuculuq sənayesi sahələri aidir. Ərzaq təhlükəsizliyi baxımından qida və içki məhsulları istehsal edən müəssisələr öncül mövqedə dayanır. Odur ki, onların istehsal təsərrüfat fəaliyyətinin qiymətləndirilməsinə burada üstünlük verilmişdir. Emal sənayesinin həmin alt sahələrinin əsas xammal bazasını kənd təsərrüfatı təşkil edir. Bu vacib fəaliyyət sahəsinin özü 80 müxtəlif sahələrdən istehsal resursları alır və 60 sahəyə öz məhsullarını göndərirlər. Həmin sferada son məhsulun 50%-i istehsal edilir. Hər bir nəfər kənd təsərrüfat işçisi əlaqədə olduğu digər sahələrdə 5

nəfərin məşğulluğuna təminat yaradır.

Dəyər zəncirinin formalaşdırılması prosesində yaradılmış əlavə dəyərin həddi iqtisadi və sosial baxımından müstəsna əhəmiyyət kəsb edir. ARDSK-nın məlumatlarına görə 2015-2022-ci illərdə ölkənin qida istehsalı sferasında yaradılmış əlavə dəyərin məbləği 1,95 dəfə, içki istehsalı üzrə isə 2,6 dəfə artmışdır (**diaqram 1).**




**Diaqram 1.** Azərbaycanın qida və içki istehsalı sənayelərində yaradılmış əlavə dəyərin məbləği, milyon manatla **(müəlliflər tərəfindən rəsmi statistik məlumatlar əsasında tərtib edilmişdir).**

Həmin pozitiv dəyişikliyi təmin edən amillərin təsir dairəsini qiymətləndirmək üçün qida və içki istehsalı müəssisələrin fəaliyyətini xarakterizə edən sistem göstəricilərin səviyyəsində baş verən dəyişiklikləri nəzərdən keçirək. Təhlilin əhatə etdiyi dövrdə qida məhsulları istehsal edən müəssisələrin sayı 153,7%, orada məşğul olan fərdi sahibkarların sayı - 169,7%, istehsal edilən məhsulun həcmi 2,1 dəfə artmışdır. Əgər 2015-ci ildə il ərzində bir qida istehsalı müəssisəsində 6,1 mln.man məhsul istehsal edilmişdirsə, 2022-ci ildə onun həddi 8,3 mln.man çatmışdır. Müqayisə dövründə bir müəssisədə yaranan əlavə dəyərin məbləği uyğun olaraq 1,53 və 1,95 mln. man. təşkil etmişdir. Həmin dövrdə alt sahədə aralıq istehlakın məbləği 11,7% azalmışdır. Qida istehsalı müəssisələrində istehsal indeksi artıb-azalan xətlə dəyişmişdir. Həmin sahədə əsas kapitala yönəldilən daxili investisiyaların məbləği 2,35 dəfə, əsas fondların dəyəri isə 2,45 dəfə artmışdır. Bütün bunlara baxmayaraq ölkədə istehsal olunan sənaye məhsulunun ümumi dəyərində sahənin payı, qeyri-neft sektorunda payı, eləcə də yaranmış əlavə dəyərin ÜDM-dən payı xeyli dərəcədə azalmış, müəssisələrin anbarlarında hazır məhsul ehtiyatının (qalığının) həcmi 7,6 dəfə yüksəlmişdir.

***Cədvəl 1.***

**Qida məhsullarının istehsalı ilə məşğul olan müəssisələrin işinin əsas göstəriciləri**

| **Göstəricilər** | | **İllər** | | | | | **2015-2022-ci illərdə artım tempi, faizlə** |
|---|---|---|---|---|---|---|---|
| | | 2015 | 2019 | 2020 | 2021 | 2022 | |
| **1** | Fəaliyyət göstərən müəssisələrin sayı | 382 | 449 | 487 | 540 | 587 | 153,7 |
| Dövlət | | 18 | 9 | 9 | 9 | 7 | 38,9 |
| Qeyri-dövlət | | 364 | 440 | 478 | 531 | 580 | 159,3 |
| **2** | Sənaye fəaliyyəti ilə məşğul olmaq üçün qeydə alınmış fərdi sahibkarların sayı, nəfər | 4079 | 5252 | 6042 | 6623 | 6924 | 169,7 |
| **3** | Sənaye məhsulunun (işlərin, xidmətlərin) dəyəri, müvafiq illərin cari qiymətləri ilə, milyon manat | 2307,6 | 3584,8 | 3884,3 | 4495,6 | 4890,9 | 2,1 dəfə |
| **4** | Müəssisələrin anbarlarında hazır məhsul ehtiyatı, mln. manat | 21,1 | 52,2 | 53,96 | 92,9 | 160,4 | 7,6 dəfə |
| **5** | Hazır məhsul ehtiyatının sənaye məhsulunda xüsusi çəkisi | 0,9 | 1,45 | 1,39 | 2,1 | 3,27 | +2,37 |
| **6** | Sənaye sahəsində yaranan əlavə dəyər, mln.man. | 584,3 | 797,4 | 1103,1 | 1051,0 | 1141,2 | 195,3 |
| **7** | Sənaye sahəsinin aralıq istehlakı, mln.man | 1971,5 | 2796,0 | 2780,7 | 3445,3 | 1740,9 | 88,3 |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| **8** | Aralıq istehlakın sahədəki ümumi buraxılışda payı, faizlə | 77,1 | 77,8 | 71,6 | 76,6 | 76,6 | - 0,5 |
| ***9*** | Sənaye sahəsində yaranmış əlavə dəyərin ÜDM-də payı, faizlə | 1,1 | 1,0 | ,5 | 1,1 | 0,9 | - 0,2 |
| ***10*** | Sənaye istehsalı indeksi, əvvəlki ilə nisbətən, faizlə (sabit qiymətlərlə) | 102,9 | 110,8 | 97,3 | 112,6 | 108,2 | X |
| **11** | Ölkədə istehsal olunan sənaye məhsulunun ümumi dəyərində sahənin payı, faizlə | 8,8 | 7,6 | 10,4 | 8,1 | 5,7 | - 3,1 |
| **12** | Ölkə sənayesinin qeyri-dövlət sektorunda payı, faizlə | 11,5 | 9,3 | 13,3 | 9,8 | 6,5 | -5,0 |
| **13** | Əsas kapitala yönəldilən investisiyalar, mln.man. | 87,9 | 140,3 | 225,1 | 197,8 | 206,5 | 2,35 dəfə |
| **14** | Sahədə əsas kapitala yönəldilən daxili investisiyalar mln.man. | 87,9 | 127,4 | 206,3 | 197,8 | 206,5 | 2,35 dəfə |
| **15** | Sahədə əsas fondların istifadəyə verilməsi, mln.man. | 63,5 | 120,7 | 222,9 | 159,2 | 155,7 | 2,45 dəfə |
| **Mənbə:**Azərbaycanın sənayesi, Bakı, DSK, 2020, s.36; 2023, s.38. Azərbaycanın milli hesabları, Bakı, DSK, 2021, s.35-40; 2023, s.36-41; Azərbaycanda tikinti. Bakı, DSK, 2020, s.96-126-140; 2023, s.56-72-94 (müəllif tərəfindən tərtib edilib hesablanmışdır). | | | | | | | |

Azərbaycanda təkcə 2019-2022-ci illərdə əsas növ qida məhsullarının natyral istifadəsi də istehsal həcminə nəzər yetirərkən aydın olur ki, 19 qrupda məhsul növündən 10 növ üzrə yüksək artım tempi təmin edilmiş, 6 növ üzrə istehsal kəskin azalmışdır. Yüksək artım tempi: kolbasa, dondurma, pendir və kəsmik, balıq yemi, meyvə və tərəvəz konservləri, makaron məmulatları, marqarin, şəkər, təbii çay məhsulları üzrə müşahidə edilir. Qida istehsalının kəskin azalması – süd, bitki yağı, un, və qənnadı məmulatları üzrə qeydə alınmışdırş (**Cədvəl 2).**

***Cədvəl 2***

**Azərbaycanda əsas növ qida məhsullarının natural ifadəsində istehsalı**

| **Məhsulların adları** | **İ l l ə r** | | | | **2019-2022-ci illərdə artım tempi, %** |
|---|---|---|---|---|---|
| | 2019 | 2020 | 2021 | 2022 | |
| Kolbasa məmulatı, min ton | 19,3 | 25,8 | 26,7 | 29,7 | 153,9 |
| Qatılaşdırılmış süd, ton | 4430,1 | 6404,3 | 2011,2 | 3901,7 | 88,1 |
| Ayran, ton | 6176 | 6489 | 5423,2 | 6115,3 | 99,0 |
| Dondurma, ton | 855,8 | 2243,2 | 3413,5 | 5865,0 | 6,6 dəfə |
| Qaymaq, xama, ton | 7620,2 | 7742,2 | 9126,0 | 8192 | 107,5 |
| Pendir və kəsmik, min ton | 51,3 | 53,5 | 59,3 | 57,9 | 112,9 |
| Kərə yağı, min ton | 25,3 | 25,8 | 27,0 | 25,9 | 102,4 |
| Yeməli balıq məhsulları (balıq konservləri daxil olmaqla), min ton | 1,1 | 1,7 | 2,6 | 2,7 | 2,5 dəfə |
| ondan nərə kürüsü, ton | 0,1 | 0,1 | 0,6 | 0,9 | 9 dəfə |
| Meyvə və tərəvəz konservləri, min ton | 191,5 | 186,7 | 216,1 | 237,8 | 124,2 |
| ***Makaron məmulatları, min ton*** | 4,7 | 11,8 | 20,0 | 26,3 | 5,6 dəfə |
| ***Bitki yağlan, min ton*** | 75,1 | 75,1 | 72,9 | 67,9 | 90,4 |
| ***Marqarin, min ton*** | 47,3 | 49,9 | 47,6 | 59,5 | 125,8 |
| Qənnadı məmulatları, min ton | 69,3 | 58,1 | 71,3 | 67,2 | 97,0 |
| Qənd və şəkər, min ton | 271,0 | 246,5 | 340,6 | 379,9 | 140,2 |
| Un, min ton | 1781,7 | 1843 | 1498,2 | 1365,1 | 76,6 |
| Çörək, min ton | 1256,4 | 1294,6 | 1278,1 | 1246 | 99,3 |
| ***Təbii çay, min ton*** | 9,8 | 10,6 | 10,2 | 12,0 | 122,4 |
| ***Yodlaşdırılmış duz, min ton*** | 74,7 | 74,3 | 69,5 | 75,5 | 101,1 |
| **Mənbə:**Azərbaycanın sənayesi, Bakı, DSK, 2023, s.38-39. (müəllif tərəfindən tərtib edilib hesablanmışdır). | | | | | |

Emal sənayesinin alt sahələri içərisində içki istehsalı müəssisələri önəmli mövqedədir.

Əksəriyyəti qeyri-dövlət mülkiyyətində olan həmin müəssisələrin sayı 2015-2022-ci illərdə 137,5%, orada çalışan fərdi sahibkarların sayı 107,6%, sənaye məhsulunun həcmi 2,85 dəfə, sahədə yaranan əlavə dəyər 2,6 dəfə, aralıq istehlak 2,9 dəfə, il ərzində bir müəssisədə istehsal edilən məhsulun həcmi 2,1 dəfə, yaranan əlavə dəyər 189,2% artmışdır. Həmin illər ərzində aralıq istehlakın sahədəki ümumi buraxılışdakı payı 2,7 punkt artmış, qeyri-dövlət sektorundakı payı 0,3 punkt azalmışdır. Təhlil dövründə sahədə əsas kapitala yönəldilən daxili investisiyanın və əsas istehsal fondlarının dəyəri 176% yüksəlmişdir (**cədvəl 3).**

*Cədvəl 3*

**İçki istehsalı ilə məşğul olan müəssisələrin işinin əsas göstəriciləri**

| Göstəricilər | | İllər | | | | | 2015-2022-ci illərdə artım tempi, faizlə |
|---|---|---|---|---|---|---|---|
| | | 2015 | 2019 | 2020 | 2021 | 2022 | |
| 1 | Fəaliyyət göstərən müəssisələrin sayı | 120 | 126 | 131 | 146 | 165 | 137,5 |
| Dövlət | | 3 | 1 | 1 | 1 | 1 | 33,3 |
| Qeyri-dövlət | | 117 | 125 | 130 | 145 | 164 | 140,2 |
| 2 | Sənaye fəaliyyəti ilə məşğul olmaq üçün qeydə alınmış fərdi sahibkarların sayı, nəfər | 224 | 235 | 260 | 255 | 241 | 107,6 |
| 3 | Sənaye məhsulunun (işlərin, xidmətlərin) dəyəri, müvafiq illərin cari qiymətləri ilə, mln. man. | 197,7 | 433,1 | 427,6 | 490,9 | 563,0 | 2,85 dəfə |
| 4 | Müəssisələrin ambarlarında hazır məhsul ehtiyatı, mln. manat | 27,7 | 28,2 | 30,6 | 34,4 | 31,8 | 114,8 |
| 5 | Hazır məhsul ehtiyatının sənaye məhsulunda xüsusi çəkisi | 14,0 | 6,5 | 7,2 | 7,0 | 5,6 | -8,4 |
| 6 | Sənaye sahəsində yaranan əlavə dəyər, mln.man. | 88,8 | 195,8 | 192,9 | 209,2 | 231,2 | 2,6 dəfə |
| 7 | Sənaye sahəsinin aralıq istehlakı mln.man | 108,0 | 237,9 | 236,4 | 284,3 | 314,3 | 2,9 dəfə |
| 8 | Aralıq istehlakın sahədəki ümumi buraxılışda payı, faizlə | 54,9 | 54,9 | 55,1 | 57,6 | 57,6 | +2,7 |
| 9 | Sənaye sahəsində yaranmış əlavə dəyərin ÜDM-də payı, faizlə | 0,2 | 0,2 | 0,3 | 0,2 | 0,2 | x |
| 10 | Sənaye istehsalı indeksi, əvvəlki ilə nisbətən, % (sabit qiymətlərlə) | 88,8 | 141,4 | 88,1 | 102,7 | 97,8 | +9,0 |
| 11 | Ölkədə istehsal olunan sənaye məhsulunun ümumi dəyərində sahənin payı, faizlə | 0,7 | 0,9 | 1,1 | 0,9 | 0,7 | x |
| 12 | Ölkə sənayesinin qeyri-dövlət sektorunda payı, faizlə | 1,0 | 1,1 | 1,5 | 1,1 | 0,7 | -0,3 |
| 13 | Əsas kapitala yönəldilən investisiyalar, mln.man. | 23,7 | 21,3 | 39,4 | 39,1 | 45,4 | 191,6 |
| 14 | Sahədə əsas kapitala yönəldilən daxili investisiyalar, mln.man. | 23,7 | 21,3 | 39,4 | 39,1 | 41,7 | 176,0 |
| 15 | Sahədə əsas fondların istifadəyə verilməsi, mln.man. | 23,9 | 18,9 | 33,8 | 35,9 | 41,9 | 176,0 |

**Mənbə:**Azərbaycanın sənayesi. Bakı, DSK, 2020, s.37; 2023, s.32-33; 39-40. Azərbaycanın milli hesabları. Bakı, DSK, 2021, s.34-40; 2023, s.36-41; Azərbaycanda tikinti. Bakı, DSK, 2020, s.96-118-140; 2023, s.56-76-94 (müəllif tərəfindən tərtib edilib hesablanmışdır).

Araşdırmalar göstərir ki, təhlilin əhatə etdiyi son dörd ildə alkoqolsuz içki, üzüm şərabı və viski, konyak istehsalı yüksək templə artmış, spirt, araq və pivə istehsalı xeyli dərəcədə azalmışdır (**cədvəl 4).**

*Cədvəl 4*

**Azərbaycanda əsas növ içki məhsullarının natural ifadəsində istehsalı**

| Məhsulların adları | | İ l l ə r | | | | 2019-2022-ci illərdə artım tempi, faizlə |
|---|---|---|---|---|---|---|
| | | 2019 | 2020 | 2021 | 2022 | |
| 1 | Alkaqolsuz içkilər, min dkl. | 26827,9 | 28619,3 | 38550,6 | 41417,5 | 154,5 |
| 2 | Spirt, min dkl. | 0,5 | 726,1 | 980,9 | 824,2 | 94,5 |
| 3 | Araq, min dkl. | 2238,4 | 1718,7 | 1783,8 | 1609,1 | 67,4 |
| 4 | Üzüm şərabı, min dkl | 877,3 | 895,0 | 1011,6 | 1080,0 | 106,0 |
| *5* | ***Viski, konyak,*** min dkl. | 24,9 | 50,8 | 33,5 | 95,9 | 3,85 dəfə |
| *6* | ***Pivə,*** min dkl. | 5083,3 | 5466,5 | 4707,3 | 4683,5 | 92,1 |
| **Mənbə:**Azərbaycanın sənayesi. Bakı, DSK, 2023, s.40. (müəlliflər tərəfindən tərtib edilib hesablanmışdır). | | | | | | |

Emal sənayesinin qida və içki məhsullarının natural formada istehsalında baş verən həmin dəyişikliklər nəticədə ölkəmizin ərazaq məhsulları ilə özünütəminat səviyyəsinə də öz təsirini göstərmişdir. ARDSK-nın rəsmi məlumatına görə 2015-2022-ci illərdə 23 məhsul qrupu növündən 6 qrup üzrə həmin səviyyə ən aşağı həddədir. Təmizlənmiş düyü, yarma, qənnadı məmulatları, şəkər istehsalı üçün xammal üzrə idxaldan asılılıq səviyyəsi olduqca yüksəkdir, 10 məhsul üzrə özünütəminat səviyyəsi 90%-dən yuxarıdır. Bütün bu faktlar onu göstərir ki, bütünlükdə ölkəmizin emal sənayesində və onun alt sahələri olan qida və içki istehsalı sferalarında təchizat və dəyər zəncirlərinin formalaşdırılması prosesində çoxsaylı təşkilati-iqtisadi, texniki-texnoloji, logistik xarakterli ehtiyat imkanları mövcuddur və onlardan səmərəli istifadə edilməsi üzrə tövsiyyələrin işlənilməsinə zəruri ehtiyac duyulur.

## Nəticə / Conclusion

Tədqiqatın yekunu olaraq aşağıdakı nəticə əldə edilmiş və tövsiyələr irəli sürülmüşdür:

- Emal sənayesinin alt sahəsində təchizat və dəyər zəncirinin formalaşdırılmasında, əlavə dəyərin tərkib hissələrinin qarşılıqlı əlaqəsinin təşkilində sistemli və kompleks yanaşmadan, innovativ metodlardan, mütərəqqi təşviq mexanizmlərindən bəhrələnməyə zəruri ehtiyac duyulur;
- Dəyər zəncirinin formalaşdırılması prosesində əsas və dəstəkləyici fəaliyyətlər sıralanarkən onun dayanıqlığının təmin edilməsi, innovativ infrastrukturun qurulması zamanı emal sənayesinin alt sahələrinin spesifik xüsusiyyətləri nəzərə alınması vacibdir;
- Emal sənayesində əlavə dəyərin artırılması, aralıq istehlak xərclərinin azaldılması məqsədilə "inklüziv əlavə dəyər" konsepsiyasından istifadəyə üstünlük verilməsi, fərdi, mikro və kiçik emal müəssisələrinin eyni təyinatlı orta və iki firmaların tərkibinə daxil edilməsi əlverişli dəyər zənciri yaratmaqla yüksək sinerji effekti əldə etməyə imkan vermiş olacaqdır;
- Dəyər zəncirinin bütün həlqələrinə zəruri məbləğdə investisiya yönəltmək və oraya kreativ düşüncəyə malik gənc kadrların cəlb edilməsi, onların startup layihələrinin dəstəklənməsi və əməyinin fasiləsiz motivasiya edilməsi;
- Aqrar–emal sferasında zəruri şərtlər nəzərə alınmaqla dəyər zəncirinin mərhələlərinin ardıcıllığına və işrirakçıların zəncirə cəlb edilməsi prosesində qabaqcıl təcrübədə istifadə edilən təşviq mexanizmlərindən bəhrələnmək;
- Xammal kimi ixrac edilən aqrar məhsulların ölkə daxilində emalının təşkili, əlavə dəyərin həcminin əsaslı şəkildə artırılmasına hədəflənmək;
- Emal sənayesinin alt sahələrində müvafiq klasterlərin yaradılması texnoloji və təchizat zənciri prinsipinə riayət etməklə yanaşı iştirakçıların idarəetmə və logistika xərclərin azadılmasına, dayanıqlı inkişafa, ixrac potensialının artırılmasına imkan yaratmış olacaqdır;
- Tədqiq edilən sahələrə xarici investisiyaların fəal cəlb edilməsi hesabına istehsalın, texnoloji və təchizat zəncirinin şaxələndirilməsi, 4-cü sənaye inqilabının tələblərinə uyğun biznes modelin qurulması ümumi əlavə dəyərin uğurlu formalaşdırması ilə yanaşı, idxalı əvəz edən və ixrac yönümlü

emal məhsulunun istehsalına, əhalinin emal məhsulları ilə özünütəminat səviyyəsinin yüksəldilməsinə şərait yaradacaqdır;

- Ərzaq təhlükəsizliyinin təmin edilməsi, aqrar-emal müəssisələrinin il boyu fasiləsiz işinin təşkil olunması məqsədilə region əhalisinin fərdi təsərrüfatlarından becərilən və hazırlanan bütün növ kənd təsərrüfatı məhsullarının emal prosesinə cəlb edilməsi məqsədilə təşviq mexanizminin tətbiqi və marketinq şəbəkələrinin (tədarük məntəqələrinin) şəbəkəsinin genişləndirilməsi;
- İstehsalçı emal müəssisələrinin anbarlarında qalıq məhsulun həcminin minimuma endirilməsi üçün səmərəli marketin fəaliyyətinin təşkili ilə yanaşı texniki şərtlər əsasında buraxılan məhsulların beynəlxalq standartlara uyğunlaşdırılması üzrə təxirəsalınmaz tədbirlərin həyata keçirilməsi.

**İstifadə edilmiş ədəbiyyat / References**


1. "Azərbaycan – 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" Bakı, "Respublika" qəzeti, 03 fevral 2021-ci il (https://president.az/azarticles/50473);
2. Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası. Bakı, 2022, 82 s. (https://president.az/azarticles/5672);
3. Azərbaycanın statistik göstəriciləri. Statistik məcmuə. Bakı, "DSK", 2021, 748 s.; 2023, 720 s.
4. Azərbaycanın milli hesabları. Statistik məcmuə. Bakı, DSK, 2021, 148s. 2023, s.128.
5. Azərbaycanın xarici ticarəti. Statistik məcmuə. Bakı, DSK, 2023, 208s.
6. Azərbaycanın tikinti. Statistik məcmuə. Bakı, "DSK", 2021, 215s.; 2023, 248s.
7. Azərbaycanın sənayesi. Statistik məcmuə. Bakı, "DSK", 2020, 165s., 2023. 214s.
8. Azərbaycanın ərzaq balansları. Statistik məcmuə. Bakı, "DSK", 2021, 120s.; 2023, 139s.
9. Azərbaycanda yerli təchizatçılar və xarici investorlar arasında əlaqələrin gücləndirilməsi. İƏİT, 2019, 95s.
10. Ataşov B.X. Aqrar sahədə struktur və səmərəlilik problemləri (nəzəriyyə və praktika) / B.X.Ataşov, Monoqrafiya, Bakı, "Kooperasiya", 2017, 536s.
11. Əliyev T.N. "Klasterlər: beynəlxalq təcrübə və innovativ inkişaf", Bakı, "Elm və bilik", 2019, 536s.
12. Əliyev T.N., Məmmədova S.R. Azərbaycanın kimya sənayesində klasterlərin yaradılmasının təşkilati-iqtisadi üstünlükləri. AMEA-nın Xəbərləri İqtisadiyyat seriyası, №4, Bakı, "Elm", 2017, s.41-48
13. Əliyev Ş.T. Xüsusi iqtisadi zonaların təşkili problemləri və inkişaf perspektivləri. Bakı, "Elm", 2008, 252s.
14. Hüseynov T.H. Emal sənayesi dayanıqlı inkişafın lokomativi kimi//"İqtisadi artım və ictimai rifah", №2, Bakı, "Avropa", 2024, 10-21s.
15. İbrahimov İ.H. "Aqrar sahənin iqtisadiyyatı", Monoqrafiya, Bakı, "BBU", 2016, 655s.
16. İbrahimov E.Ə. Azərbaycan Respublikasında iqtisadiyyatın davamlı inkişafının strateji iqstiqamətləri, Monoqrafiya, Bakı, "Kooperasiya" 2023, 368s.
17. Qasımov V.Ə. İqtisadi artım, Bakı, "AzPrinnt MMC", 2021, 243s.
18. Quliyev E.A. Etibarlı ərzaq təminatı sistemi. Kooperasiya və inteqrasiya problemləri// Quliyev E.A., Bakı, "Elm", 2013, 308s.
19. Quliyev E.A. Qida təhlükəsizliyinin gücləndirilməsi problemləri və strateji istiqamətləri. Monoqrafiya, Bakı, "Kooperasiya" nəşriyyatı, 2020, 464s.
20. Quliyev E.A. Qlobal ərzaq təhlükəsizliyi: reallıqlar, çağırışlar və perspektivlər., Bakı, "Koopereasiya" nəşriyyatı, 2018, 480s.
21. Quliyev E.A, Ataşov B.X., Ələkbərov E.B. Kooperasiya hərəkatı: təkamülü, mövcud durumu və inkişaf meylləri. Monoqrafiya, Bakı, "Kooperasiya" nəşriyyatı, 2021,344s.
22. Xəlilov X.A., Hacıyeva S.İ., Qasımova N.F. Modern dəyər zəncirinə keçid şəraitində kənd təsərrüfatı məhsulları bazarında rəqabət mühitinin xüsusiyyətləri//Kənd təsərrüfatının iqtisadiyyatı, №1, Bakı, 2023, 9-26s.
23. Портер М. Международная конкуренция: конкурентное преимущество стран (пер. с англ.) Международные отношения, 2017, 947с.

24. Porter M.E. Location, Competition, and Economic Development: local cluters in a global economy//Economic Development Quarterly, 2000, vol.14, №1. Pp 15-34.

# Формирование цепочки стоимости на предприятиях обрабатывающей промышленности Азербайджана на основе инновационных подходов

**Тарбиз Алиев**
Д.э.н., проф. завотделом Института Экономики Министерства Науки и Образования Азербайджанской Республики
e-mail: tarbiz.aliyev47@bk.ru
**Айтен Абдуррахманова**
Научный сотрудник Института Экономики Министерства Науки и Образования Азербайджанской Республики
e-mail: ayten.abdullayeva1995@mail.ru

**Резюме:** В статье исследуются теоретика-методологические и организационно-экономические аспекты цепочки стоимости на предприятиях обрабатывающей промышленности Азербайджана на основе инновационных подходов. При этом основное внимание уделяется обоснованию актуальности темы, подходу ученых к данной проблеме, указывается точка зрения авторов к ним. Наряду с этим разработана отличительная принципиальная структура цепочки стоимости, от формирования, блок схема устойчивого развития, классифицированы необходимых условия с учетом специфики исследуемых отраслей, указаны возможные цепочный финансированная цепочки стоимости. Кроме того, определены негативный влияния институционных преобразованный, отрасли на объём добавленной стоимости, проанализированы и степени основная показатели, характеризуемые деятельности предприятий страны, производственная пищевые продукту и напитки, выявлены соответствующие резервы и предложены рекомендации по их эффективному использованию.

**Ключевые слова:** обрабатывающая промышленность, агро-перерабатывающие предприятия; цепочка на стоимости добавленная стоимость; инновационные подходы; отраслевой кластер; продовольственная безопасность.

DOI: https://doi.org/10.36719/2707-9317/03/23-31

# The impact of the Middle Corridor on the economic relations between the countries of the region

**Fuad Ganbarov**
Doctor of Economic Sciences, Institute of Economics Ministry of Science and Education of the Republic of Azerbaijan,
Head of the foreign economic activity regulation department
fd.ganbarov@gmail.com

**Abstract:** The article provides information on the forms of international transport corridors and analyzes their performance indicators. The current situation with cargo transportation in transport corridors passing through the territory of Azerbaijan has been studied, and the main factors hindering the increase in the volume of cargo transportation along the Middle Corridor have been indicated. The article also assesses the impact of the opening of the Zangezur corridor on the development of economic ties between the countries of the region. It is noted that despite the high share of foreign trade turnover between the countries of the region, the lack of direct transport links between some countries has a negative impact on trade relations.

**Key words:** transport corridor, foreign trade, cargo transportation, economic efficiency.

**UOT: 339.9**

# Orta dəhlizin region ölkələri arasındaki iqtisadi əlaqələrə təsiri

**Fuad Qənbərov**
İqtisad elmləri doktoru, professor
Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi
İqtisadiyyat İnstitutu "Xarici iqtisadi fəaliyyətin tənzimlənməsi" şöbəsini müdiri
fd.ganbarov@gmail.com

**Xülasə:** Məqalədə beynəlxalq nəqliyyat dəhlizlərinin formaları barədə məlumat verilərək, onların səmərəlilik göstəriciləri təhlil edilir. Azərbaycan ərazisində keçən nəqliyyat dəhlizlərində yük daşımaların mövcud vəziyyəti araşdırılır və xüsusilə Orta Koridor vasitəsilə yükdaşımaların həcminin artmasına mane olan əsas amillər göstərilir. Məqalədə həmçinin Zəngəzur dəhlizinin açılmasının region ölkələr arasında iqtisadi əlaqələrin inkişafına təsiri qiymətləndirilir. Qeyd edilir ki, region ölkələri arasında xarici ticarət dövriyyəsinin xüsusi çəkisinin yüksək olmasına baxmayaraq, bəzi ölkələr arasında birbaşa nəqliyyat əlaqələrinin olmaması ticarət əlaqələrinə mənfi təsir göstərir.

**Açar sözlər:** nəqliyyat dəhlizi, xarici ticarət, yük daşımaları, iqtisadi səmərəlilik.

**UOT: 339.9**

## Giriş/ introduction

Nəqliyyat dəhlizlərinin iqtisadi artıma və xarici iqtisadi əlaqələrə təsiri ilə bağlı bir sıra araşdırmalar mövcüddur. Araşdırmalara görə, ölkələrin okeanlara çıxışının olması, Qərbi Avropa ölkələri ilə sərhədlərin mövcudluğu, ölkənin iri şəhərləri ilə Avropanın şəhər mərkəzləri arasındakı məsafənin yaxınlığı, dənizdən 100 kilometr aralı yaşayan əhalinin xüsusi çəkisinin çox olması və.s amillər iqtisadi artıma müsbət təsir göstərir.

Nəqliyyat dəhlizləri o zaman effektli olur ki, minimum xərc və az zamanla təhlükəsizlik şəraitində yüklərin hərəkəti təmin edilsin. Yük daşımaları xərci malların qiymətlərində hazır məhsullar üzrə 5-10%, xammal üzrə isə 50%-dək dəyişir. Bu isə yük daşımaların daha az vaxtla və az xərclə həyata keçirilməsinin malların rəqabətqabiliyyətlilyinə bir-başa təsir etdiyinin əsas göstəricisidir. Dünya bankı isə ölkələrin logistik performansını müəyyən etmək üçün hər il "Logistik Performans İndeksi" reytinqini hesablayır. Bu hesabatda nəqliyyat dəhlizlərinin səmərəliliyini ölçmək üçün aşağıdakı göstəricilər əsas götürülür:

Tənzimləmə Prosesinin Effektivliyi: Bu ölçü, rəsmiləşdirmə proseslərinin sürətini, həmçinin prosedurların asanlığını və gömrük və digər tənzimləyici prosedurlar vasitəsilə malların rəsmiləşdirilməsində ümumi səmərəlilik kimi amilləri nəzərə alır.

İnfrastruktur və Ticarət Keyfiyyəti: Bu, limanlar, yollar, nəqliyyat qovşaqları və informasiya texnologiyaları sistemləri daxil olmaqla ticarət üçün mühüm əhəmiyyət kəsb edən infrastrukturun vəziyyətini və keyfiyyətini araşdırır. O, ticarət əməliyyatlarını asanlaşdırmaq üçün infrastrukturun həm mövcudluğunu, həm də etibarlılığını nəzərə alır.

Rəqabətli qiymət siyasəti: Bu meyar, müəssisələrin rəqabətqabiliyyətli qiymətlərlə daşımaları planlaşdıra və həyata keçirə bilməsi asanlığına diqqət yetirir. O, nəqliyyat seçiminin mövcudluğu, qiymətlərin şəffaflığı və logistika xidmətlərinin əlçatanlığı kimi amilləri əhatə edir.

Logistika xidmətlərinin keyfiyyəti: Bu amil nəqliyyat operatorlarının, gömrük brokerlərinin, ekspeditorların və malların daşınmasında iştirak edən digər vasitəçilərin xidmətləri daxil olmaqla, göstərilən logistik xidmətlərin keyfiyyətini qiymətləndirir. O, logistik xidmət təminatçılarının etibarlılığı, peşəkarlığı və cavabdehliyi kimi amilləri nəzərə alır.

Yüklərə nəzarət və izləmə istemi: Bu ölçü, ölkələrin tədarük zənciri boyunca yükləri izləmək üçün texnologiya və proseslərin mövcudluğunu və effektivliyini qiymətləndirir.

Çatdırılmanın vaxtında olması: Bu meyar, tranzit vaxtları, çatdırılma cədvəllərinin etibarlılığı və vəd edilmiş çatdırılma müddətlərinə riayət edilməsi kimi amilləri nəzərə alır.

Bu amillər nəqliyyat dəhlizlərinin əsas səmərəlilik göstəriciləridir. Qlobal münaqişələrin artdığı

indiki zamanda isə, təhlükəsizlik məsələsi yük daşımalarında əsas rola malikdir.

Qeyd edək ki, beynəlxalq nəqliyyat dəhlizləri milli, iki tərəfli, çox tərəfli, multimodal və intermodal olmaqla 5 yerə bölünür. Milli koridorlar ölkə daxilində olmaqla, malların hərəkəti eyni sərhədlər daxilində baş verir. İkitərəfli koridorlar isə iki müxtəlif ölkənin ərzazisindən keçir və bu zaman iki müxtəlif gömrük xidmətindən istifadə edilir. Bu nəqliyyat dəhlizlərinə Boliviya-Çili, Şərqi Benqal, Hindistan koridorlarını aid etmək olar. Üç və daha çox ölkə ərazisindən keçən dəhlizlər isə çox tərəfli dəhlizlərdir. TRASECA, Pan Amerika koridorları bu tip nəqliyyat dəhlizləridir. Multimodel nəqliyyat dəhlizləri bir neçə ölkəni birləşdirməklə yanaşı su, dəmir yol və quru nəqliyyat növlərindən istifadə etməklə yüklərin daşınması həyata keçirilir. Buna Çin-Monqolustan-Rusiya iqtisadi nəqliyyat dəhlizini misal gətirmək olar. İntermodel nəqliyyat dəhlizləri isə müxtəlif qitələri birləşdirən, müxtəlif nəqliyyat dəhlizlərini əhatə edən bir yoldur və əsasən dünyanın əsas ölkələrinin maraq dairəsində olur. Bu nəqliyyat dəhlizinin ən bariz nümunəsi Böyük İpək Yolu olan "Bir kəmər-bir yol" nəqliyyat dəhlizidir.

## Əsas mətn

### Azərbaycandan keçən əsas nəqliyyat dəhlizləri

Son illər ölkəmizdə yaranan nəqliyyat habı hesabına Azərbaycan, Asiyanı Avropa ilə birləşdirən mühüm əhəmiyyətli Şimal-Cənub və Şərq-Qərb nəqliyyat dəhlizləri vasitəsilə tarixi İpək yolunun bərpasını təmin edib və hal-hazırda regionda qitələr arası daşınmaların həyata keçirilməsində böyük rol oynayır. Azərbaycanın 44 günlük Vətən müharibəsi zamanı əldə etdiyi qələbə nəticəsində isə, Qarabağın işğaldan azad edilməsi ilə Azərbaycanın regionda mövqeyi daha da güclənmiş və nəqliyyat layihələrinin həyata keçirilməsi üçün geniş imkanlar yaranmışdır. Azərbaycanın əsas iştirakçısı olduğu nəqliyyat dəhlizlərindən biri Şimal-Cənub nəqliyyat dəhlizidir. Bu nəqliyyat dəhlizinin ən böyük üstünlüyü yük daşımalar üzrə digər marşurutlardan daha az zaman sərf edilməsidir. Belə ki, Hindistandan Rusiyaya, eləcə də Şimali və Qərbi Avropaya gedən yüklərin hazırkı marşrut (Suveyş kanalı) üzrə çatdırılma vaxtı 45-60 gündən, Şimal-Cənub vasitəsilə 14-20 günə salınması nəzərdə tutulur.

Lakin Azərbaycan ərazisinən keçən və bir neçə böyük dövlətlərin maraq dairəsində olan nəqliyyat dəhlizi Şərq-Qərb marşurutu və ya başqa adla Orta Koridordur. Orta Koridor Çindən Qazaxıstan ərazisinə dəmir yol xətti ilə keçərək Aktau limanına oradan Xəzər dənizi vasitəsilə Azərbaycana, dəmir yol xətti və ya quru yolla Gürcüstana və oradan isə Qara dəniz vasitəsilə Avropaya yük daşımalarının həyata keçrirldiyi bir yoldur. Bu yol həmçinin Türkiyə ərazisi ilə də Avropaya çıxışı nəzərdə tutur. Ancaq Türkiyədə logistik infrastrukturun inkişaf etməməsi yüklərin daha çox Qara dənzi vasitəsilə daşınmasına səbəb olur. Mərkəzi Asiya ölkələrindən Şərqi Avropaya 4250 km dəmir yol xətti və 500 km dəniz yolu xətti əhatə edən bu dəhliz Avrasiya Şimal Dəhlizindən təqribən 2000 km az, eləcə də tranzit vaxtına qənaət deməkdir. Bu dəhliz istifadəyə verildikdən sonra Çin və Avropa arasında ümumi nəqliyyat müddəti 53 gündən 22 günə düşüb. Sonrakı illərdə isə, 10-15 günə endirmək planlaşdırılır. Həmçinin Rusiya Ukrayna müharibəsi ilə əlaqədar olaraq bu dəhlizin əhəmiyyəti daha da artmışdır. Müharibədən əvvəl Rusiya marşrutu Avropa və Uzaq Şərq arasında dəmir yolu daşımalarının 90%-dən çoxunu daşıyırdı – sonradan isə sanksiyalar Avrasiya Şimal Dəhlizi üzərindən daşımaların 2022-ci ildə 40%-ə qədər azaldıb. Ancaq buna baxmayaraq hələ də, Orta Koridor tam potensialı qədər istifadə edilmir. Belə ki, Orta Koridor ilə yük nəqlinin ən pik ili sayılan 2022-ci ildə ümumilikdə 20 futluq ekvivalentdə 80 000 konteyner daşınıb ki, bu da 2021-ci ildə Şimal Dəhlizi ilə nəql edilən 1.5 milyon konteynerlə müqayisədə olduqca azdır.

Statistik məlumatlara görə, 2022-ci ildə Şərq-Qərb nəqliyyat dəhlizi ilə Xəzər dənizində yükdaşımaların 419.2 min tonu idxalın, 2021.7 min tonu ixracın, 3918.7 min tonu tranzit malların payında düşüb. Yük daşımaların Azərbaycan hissəsində isə əsasən TRASECA vasitəsilə daşımalar həyata keçirilir. Şərq-Qərb dəhlizi ilə 2022-ci ildə yük daşımaların həcmi cəmi 5% artaraq 8.6 mln. ton olmuşdur. (Qrafik:1)

**Qrafik:1**




**Qrafik Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, "Azərbaycanda nəqliyyat-2022" buraxılışı əsasında hazırlanıb.**

Statistik məlumatlara görə, Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizində yük daşımaları 30% artsa da, hələ də pandemiyadan əvvəlki dövrlərdəki həcmlərdən aşağıdır. (2015-ci ildə 52240 min ton) Burada ən əsas problem Bak-Tbilisi-Qars dəmir yolunun tam potensialından istifadə edilməməsidir. Belə ki, hesablamalara görə, hazırda BTQ dəmir yol xətti potensialının cəmi 10%-dən istifadə edilir.

Bu yol vasitəsilə yüklərin 55-56%-i isə avtomobil nəqliyyatı vasitəsilə daşınır ki, Azərbaycan-Gürcüstan sərhədində növbələrin çox olması daşınma zamanının çox olmasına səbəb olur.

Qeyd edək ki, 2022-ci ildə tranzit yük daşımaların həcmində də, cüzi artım olmuşdur. Belə ki, Şərq-Qərb dəhlizi vasitəsilə tranzit yük daşımaların həcmi 2022-ci ildə əvvəlki illə müqayisədə 14% artaraq 3.9 mln ton təşkil etmişdir. (Qrafik:2)

**Qrafik:2**




**Qrafik Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, "Azərbaycanda nəqliyyat-2022" buraxılışı əsasında hazırlanıb.**

Qeyd edək ki, Orta Koridor vasitəsilə daşınan yüklərin həcminin artmasına mane olan bir sıra amillər mövcuddur:

1. İnfrastrukturun zəif inkişaf etməsi;
2. Mürəkkəb daşımaçılıq;

3. Xəzər dənizində gəmilərin azlığı;
4. Limanların tutumu;
5. Tariflərin yüksək olması;
6. Rəqəmsallaşma problemi;
7. Koordinasiya çatışmazlığı.

Nəqliyyat dəhlizinin keçdiyi ölkələrdə logistika infrastrukturunun inkişaf etməməsi yüklərin daşınmasına mane olan əsas amillərdən biridir. Dünya Bankının son Logistik Performans İndeksində Çin 19-cu yeri tutsa da, digər ölkələrin xüsusilə Qazaxıstan, Gürcüstan, Özbəkistan və Rusiyanın mövqeyi çox aşağıdır. Xüsusilə "Logistik xidmətin keyfiyyəti və rəqabətliyi" göstəricisi üzrə bu ölkələr 90-120-ci yerdədirlər. (Cədvəl:1) Qeyd edək ki, artıq bir neçə ildir ki Azərbaycan bu hesabatda yer almır.

Logistik Performans İndeksi 2023, Dünya Bankı, Cədvəl:1

| Ölkələr | LPİ | Gömrük xidmətinin effektivliyi | İnfrastruktur | Beynəlxalq daşıma | Logistik xidmətin keyfiyyəti və rəqabətliliyi | Vaxtında çatdırılma |
|---|---|---|---|---|---|---|
| Çin | 19 | 31 | 14 | 14 | 20 | 30 |
| Türkiyə | 38 | 47 | 43 | 26 | 38 | 35 |
| Gürcüstan | 79 | 74 | 108 | 85 | 92 | 76 |
| Qazaxıstan | 79 | 74 | 80 | 91 | 81 | 93 |
| Rusiya | 88 | 90 | 68 | 121 | 92 | 93 |
| Özbəkistan | 88 | 74 | 89 | 91 | 92 | 102 |
| İran | 123 | 110 | 89 | 111 | 134 | 110 |
| Qırğızıstan | 123 | 110 | 89 | 111 | 127 | 130 |

*Cədvəl Dünya Bankının Logistics Performance İndex (LPİ) hesabatı əsasında hazırlanıb*

Nəqliyyat dəhliznin keçdiyi ərazilərdə mürəkkəb daşımaçılıq prosesi də, inkişafa mane olan əsas amillərdən biridir. Məsələn, hazırda nefti Qazaxıstandan Azərbaycana Orta Koridor vasitəsilə nəql etmək üçün neft əvvəlcə dəmir yolu ilə ya Qazaxıstanın Kurık limanına, ya da Aktau limanına nəql edilir, oradan boşaldılır və yenidən gəmiyə yüklənir və Bakıya ötürülür və orada yenidən gəmiyə yüklənir, qatar ilə daşınaraq boru kəmərinə nəql edilir. Qazaxıstandan Qara dəniz limanına Xəzər Boru Kəməri Konsorsiumu (CPC) vasitəsilə Rusiya marşrutlarının asanlığı ilə müqayisədə, Orta Koridorda daşınma prosesi kifayət qədər uzun çəkir və texniki cəhətdən daha çətindir.

Digər bir problem Türkmənistanla bağlıdır. Türkmənistanda mürəkkəb sanitar və maddi-texniki tələblər var. Türkmənbaşı limanından keçən, daha sonra Xəzər dənizi ilə Gürcüstanın Poti limanına gedən marşrut ən yüksək tranzit tarifinə malikdir, gəmilərin sayı azdır və Türkmənistan beynəlxalq müqavilələrin iştirakçısı deyil. Bu, əlavə olaraq ikitərəfli razılaşmalar tələb edir ki, Türkmənistan tərəfinin maraq göstərməməsi səbəbindən müqavilələr imzalamaq mümkün olmur.

Qeyd edək ki, Orta Koridorun inkişafı üçün potensial imkanlar mövcüddur. Belə ki, Çin ilə Avropa Birliyi ölkələri arasında ticarət dövriyyəsinin həcmi 1 trln. dollara yaxındır ki, bunun da gələcəkdə daha da artması gözlənilir. Həmçinin Mərkəzi Asiya Respublikaları ilə Avropa Birliyi və Türkiyə arasında ticarət əlaqələrinin genişlənməsi bu nəqliyyat dəhlizinin potensial imkanlarının olduğunu göstərir. (Şəkil:1)

**Şəkil:1**




**Şəkil** https://www.trademap.org/ **statistik bazasının məlumatları əsasında hazırlanıb**

Qeyd edək ki, Dünya Bankı 2030-cu ilə qədər Orta Koridor vasitəsilə yük daşımalarının artaçağını proqnozlaşdırır. Belə ki, Dünya Bankının hesablamalarına görə, 2030-cu ildə Xəzər dənizi vasitəsilə yüklərin daşınması 3 dəfədən çox artaraq 11 mln. ton olacağı gözlənilir. Azərbaycanın Xəzər dənizi vasitəsilə yük daşımalarının həcmi isə 2021-ci illə müqayisədə 86% artaraq 2030-cu ildə 0.7 mln. tona çatacağı proqnozlaşdırılır.

2030-cu ildə Xəzər dənizi vasitəsilə yük daşımaların proqnozu (Şəkil:2)




Orta Koridorun inkişafı region ölkələrinin nəqliyyat xidmətlərinin idxal-ixracından da əlavə gəlirlər əldə etməsinə imkan verəcək. Hazırda nəqliyyat xidmətlərinin ixracında ən yüksək paya malik Türkiyədir. Sonrakı yerlər Qazaxıstan və Azərbaycana məxsusdur. 2022-ci ildə Azərbaycanın nəqliyyat xidmətləri idxal-ixracı 5.97 mlrd dollar olmuşdur ki, bu da ümumi xidmət ticarətində 42.2% təşkil edir.

Bu baxımdan Orta Koridorda yük daşımalarının artması nəqliyyat xidmətləri ixracının və tranzit gəlirlərinin artmasına imkan yaradacaq.




Qrafik https://www.trademap.org/ statistik bazasının məlumatları əsasında hazırlanıb

**Zəngəzur dəhlizi**

Azərbaycanın iştirak etdiyi layihələrin içərisində region ölkələrinin və ümumilikdə Avropa və Asiyanın əksər ölkələrinin maraq dairəsində olanı Zəngəzur dəhlizinin açılmasıdır. Zəngəzur qədim Azərbaycan torpağı olmaqla 1921-ci ildə Sovet İttifaqı tərəfindən Ermənistana birləşdirilmişdir. Bununla da, Azərbaycanın Naxçıvan və Türkiyə ilə birbaşa əlaqəsi kəsilmişdir. Azərbaycanın Ermənistan üzrərində şanlı qələbəsi nəticəsində, 2020-ci ili 10 noyabrında imzalanmış üçtərəfli bəyanata əsasən icrası nəzərdə tutulmuş maddələrdən biri də Zəngəzur dəhlizinin istifadəyə verilməsidir. Bu dəhliz Zəngəzurdan keçərək Naxçıvan və Türkiyəyə uzanan Bakı-Horadiz-Meğri-Naxçıvan dəmir yolu xətti və Bakı-Ağdam-Xankəndi-Laçın-Gorus-Naxçıvan avtomobil yollarının yenidən bərpa edilərək, istifadəyə verilməsini nəzərdə tutulur. Qeyd edək ki, SSRİ dövründə Zaqafqaziyanın dəmiryol daşımalarının 80%-i Azərbaycan vasitəsilə həyata keçirilirdi. Birinci xətt SSRİ-ni Türkiyə ilə birləşdirən Tbilisi-Yrevan-Culfa xətti, ikinci isə SSRİ-ni Türkiyə ( Leninakan, Qars-Ərzurum-Ankara) və İran ilə birləşdirən Culfa-Tehran xətləri idi. SSRİ-dən Türkiyə və İrana bu xəttlər vasitəsilə ildə 5 mln. ton yük daşınırdı. Lakin Ermənistanın Azərbaycana qarşı işğalçı siyasətinin başlaması ilə bu nəqaliyyat yolunun fəaliyyəti dayanmışdır.

Zəngəzur dəhlizinin açılması region ölkələrinin inkişafına təkan verməklə, dünyanın güc mərkəzlərinin maraq dairəsindədir. Uzun illərdir beynəlxalq nəqliyyat layihəsi olan TRASEKA-nın Azərbaycandan keçən hissəsi yalnız Bakı-Ələt-Qazı Məmməd-Yevlax-Gəncə-Gürcüstanla dövlət sərhədinə uzanan marşurutdan deyil, eyni zamanda Bakı-Əli Bayramlı-Saatlı-Horadiz-Zəngilan-Meğri-Naxçıvan-İrəvan marşurutundan ibarət olsa da, Ermənistanla hərbi münaqişə səbəbindən bu marşurut fəaliyyət göstərmir. Zəngəzur dəhlizinin açılması ilə TRASECA layihəsi regionda tam gücü ilə işləmək imkanı yaranacaq.

Zəngəzur dəhlizi ilə daşımaların Şimal-Cənub və Şərq-Qərb layihələrinə qoşulması region ölkələri üçün xüsusi əhəmiyyət daşıyacaq. Çinin "Bir kəmər, bir yol", "Lapis-Lazuli" nəqliyyat marşurutları layihəsi, Hindistan-İran-Rusiya arasındakı "Şimal-Cənub" nəqliyyat marşurutunun Zəngəzur dəhlizi ilə birləşdirilməsi qeyd edilən nəqliyyat layihələrinin səmərəliliyini daha da artıracaq.

Digər tərəfdən mühüm məslələrdən biri də, bu istiqamət üzrə Bakıdan Qarsa yeni dəmir yol xəttinin birləşdirilməsinin mümkünlüyüdür. Bununla da, Bakı-Tbilisi-Qars dəmir yol xətti Bakı-Naxçıvan-İqdır-Qars dəmir yol xəttinə birləşəcək ki, bu da regionun bütün ölkələri üçün əlavə imkanlar

yaradacaq. Bəzi qiymətləndirmələrə görə, Zəngəzur dəhlizinin Türkiyənin Naxçıvan istiqaməti ilə İqdır və Qars şəhərlərinə qədər uzadılması Gürcüstan ərazisindən keçən yoldan təqribən 340 km qısadır. Bu da əlavə olaraq 20 tonluq vaqon üçün 400-500 dollar daha ucuz başa gəlir. Və bu yollarda təqribən 3000 işçiyə qənaət deməkdir.

Zəngəzur dəhlizinin siyasi və regional iqtisadi inteqrasiya üçün əhəmiyyəti ilə yanaşı, region ölkələri arasında xarici ticarətin artırılması üçün də əhəmiyyəti böyükdür. Son illərdə Azərbaycanın Rusiya, Türkiyə və İran ilə xarici ticarət əlaqələrində önəmli artım olsa da, tam potensial imkanlara uyğun deyil. 2022-ci ildə Azərbaycan və Türkiyə arasında ticarət dövriyyəsi 2020-ci illə müqayisədə 40 faiz artıb. Buna baxmayaraq Azərbaycan Türkiyə arasında xarici ticarət əlaqələri birbaşa nəqliyyat əlaqəsinin olmaması səbəbindən tam potensial imkanlardan qat-qat aşağı səviyyədədir. Ticarət əlaqələrində əmtəələrin rəqabətqabiliyyətliliyi üçün ən önəmli məsələ qiymətdir ki, bunun da formalaşmasında əsas rollardan biri nəqliyyat xərcləridir. Digər tərəfdən Azərbaycanın MDB ölkələri ilə azad ticarət tariflərinin olması Türkiyənin qiymət rəqabətindən uduzmasına səbəb olur. Bunun qarşısının alınması üçün bir sıra sazişlər imzalanıb və bunlardan ən önəmlisi 1 iyul 2020-ci il tarixində təsdiq edilən "İki hökumət arasında Preferensial Ticarət Sazişi"dir. Bu saziş, 15 mal qrupunda tariflərin azaldılması, qeyri-tarif maneələrinin aradan qaldırılmasanı nəzərdə tutub. Qeyd edək ki, 2020-ci ildə Azərbaycan və Türkiyə liderlərinin Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının VIII iclasındakı çıxışında bu rəqəmin 15 mlrd. dollara çatdırılmasının hədəfləndiyi bildirilib. Zəngəzur dəhlizinin açılması ilə bu hədəfə çatılması daha da sürətlənəcək.

Qeyd edək ki, Bakıdan Horadizə gedən dəmir yol xətti istifadə üçün hazırdır. Horadiz-Ağbənd dəmir yol xəttinin tikintisinə 2021-ci ilin fevral ayından başlanılıb. Ermənistan ərazisindən keçən yolun hələ də təmirinə başlanılmayıb. Ermənistanda bəzi qüvvələrin əleyhinə olmasına baxmayaraq bir müddət sonra Zəngəzur dəhlizinin açılması proqnozlaşdırılır. Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyev öz çıxışlarında dəfələrlə bildirib ki, Ermənistan istəsə də, istəməsə də Zəngəzur dəhlizi açılacaq. Bu baxımdan Zəngəzur dəhlizinin fəaliyyət göstərməsi yaxın müddətdə mümkün olacaq.

*Cədvəl 2*

**Region ölkələri arasında idxal-ixrac əməliyyatları, mln. dollar (2019)**

| | Azərbaycan | | Türkiyə | | Rusiya | | İran | | Ermənistan | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | İxrac | İdxal | İxrac | İdxal | İxrac | İdxal | İxrac | İdxal | İxrac | İdxal |
| **Azərbaycan** | 0,0 | | 1788,8 | 411,2 | 2312,5 | 857,5 | 410,5 | 20,6 | 0 | 0 |
| **Türkiyə** | 2862,7 | 1646,7 | 0,0 | | 21149,7 | 4978,8 | 2367,2 | 2580,4 | 2,1 | 265,4 |
| **Rusiya** | 724,3 | 2287,1 | 4152,1 | 23115,2 | 0,0 | 0,0 | 280,5 | 1342,6 | 719,7 | 1489,3 |
| **İran** | 41,1 | 452,6 | 2737,3 | 3608,2 | 1518,2 | 584,5 | | | 83,8 | 324,7 |
| **Gürcüstan** | 96,9 | 71,4 | 1578,1 | 272,4 | 882,6 | 449,4 | 161,5 | 8,1 | 68,9 | 78,3 |
| **Ermənistan** | 0,0 | 0,0 | 0,2 | 2,7 | 1690,9 | 854,7 | 158,9 | 22,2 | 0,0 | 0,0 |
| **Orta Asiya Respublikaları** | 81,9 | 463,9 | 3475,6 | 3164,2 | 21248,3 | 7398,3 | 784,1 | 184,2 | 18,1 | 11,4 |
| **Ölkə üzrə cəmi** | 9635,2 | 13649,5 | 180835,9 | 210343,5 | 426720,3 | 247261,7 | 96617,5 | 41236,2 | 2620,1 | 5071,0 |
| **Region üzrə cəmi** | 3806,9 | 4921,7 | 13732,1 | 30573,9 | 48802,2 | 15123,2 | 3752,2 | 4147,5 | 892,6 | 2169,1 |
| **Region üzrə xüsusi çəki** | 19,4% | 36,1% | 7,6% | 14,5% | 11,4% | 6,1% | 3,9% | 10,1% | 34,1% | 42,8% |

*Qeyd: İrana aid məlumatlar 2018-ci ili əhatə edir*

Cədvəldən göründüyü kimi, region ölkləri arasında, xüsusilə də Azərbaycan və Ermənistanın regionun digər ölkələri ilə idxal-ixrac əməliyyatlarının xüsusi çəkisi yüksəkdir. Azərbaycan üzrə boru vasitəsiləTürkiyəyə ixrac edilən, eyni zamanda ümumi ixracdan mineral yanacağın məbləğini çıxsaq, Azərbaycanın region üzrə ixracının xüsusi çəkisi xeyli artacaq. Ermənistanın ümumi xarici ticarət dövriyyəsində Rusiya və İranın xüsusi çəkisinin yüksək olmasına baxmayaraq malların daşınmasında əsaslı manelər var. Lakin Zəngəzur dəhlizinin açılması ilə Ermənistanın bu ölkələrlə ticarət dövriyyəsində ciddi artım olması mümkündür.

**Nəticə**

Azərbaycan Şərq-Qərb, Şimal-Cənub nəqliyyat dəhlizlərinin reallaşmasında aktiv şəkildə iştirak etdiyindən, bu dəhlizlər, Azərbaycan üzərindən daşınan beynəlxalq yüklərin həcminin, dolayısı ilə ölkəmizin beynəlxalq yükdaşımalardan əldə etdiyi gəlirin artmasına imkan verəcək. Azərbaycanın coğrafi mövqeyi və nəqliyyat infrastrukturu beynəlxalq yükdaşımaların həcmini, o cümlədən Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarının qeyri-neft məhsulları üzrə iqtisadi poternsialından istifadənin artırılmasına, həmçinin region ölkələrinin xarici ticarət əlaqələrinin optimal nəqliyyat marşrutları əsasında inkişafına geniş imkanlar yaradacaqdır. Türk Dövlətləri arasında iqtisadi əlaqələrin genişlənməsində və inteqrasiya proseslərinin sürətlənməsində də, Orta Koridor və Zəngəzur dəhlizinin böyük əhəmiyyəti var.

**İstifadə olunmuş ədəbiyyat**


1. https://president.az/az/pages/view/azerbaijan/silkroad
2. https://jamestown.org/program/azerbaijan-and-kazakhstan-optimize-middle-corridor/
3. https://lpi.worldbank.org/international/global
4. «Средний торгово-транспортный коридор: политика и инвестиции для увеличения объемов грузоперевозок в три раза и сокращения времени в пути вдвое к 2030 году». Вашингтон, округ Колумбия: World Bank (2023).., с. 9
5. ttps://www.trademap.org/Bilateral_TS.aspx?nvpm=1%7c031%7c%7c792%7c%7cTOTAL%7c%7c%7c2%7c1%7c1%7c2%7c2%7c1%7c1%7c1%7c1%7c1
6. https://president.az/az/articles/view/35961
7. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, "Azərbaycanda nəqliyyat", Bakı 2023., səh. 26


## Влияние среднего коридора на экономические отношения между странами региона


**Фуад Ганбаров**

Доктор экономических наук, Институт Экономики
Министерство Науки и Образования Азербайджанской Республики,
Заведующий отделом «Регулирование внешнеэкономической деятельности»
fd.ganbarov@gmail.com



**Резюме:** В статье представлена информация о формах международных транспортных коридоров и проанализированы показатели их эффективности. Исследована текущая ситуация с грузоперевозками в транспортных коридорах, проходящих через территорию Азербайджана, и указаны основные факторы, препятствующие увеличению объёмов грузоперевозок по Среднему коридору. В статье также оценивается влияние открытия Зангезурского коридора на развитие экономических связей между странами региона. Отмечается, что несмотря на высокую долю внешнеторгового оборота между странами региона, отсутствие прямого транспортного сообщения между некоторыми странами оказывает негативное влияние на торговые отношения.



**Ключевые слова:** транспортный коридор, внешняя торговля, грузоперевозки, экономическая эффективность.

**UOT: 339.9**

DOI: https://doi.org/10.36719/2707-9317/03/32-40

# Macroeconomic methods of state regulation of migration in Azerbaijan

**Akifa Agayarova**
PhD in Economics, leading researcher Institute of Economics
"Demography and employment problems " department, Azerbaijan
E-mail: aqayarova.akifa@yandex.ru
https://orcid.org/0000-0003-4714-5330

**Abstract:** The article analyzes the main features of the regulation of international migration in the Republic of Azerbaijan. The methodology of the study is based on comparative analytical analysis. The study analyzed the theoretical and methodological foundations of the regulation of international migration and the experience of economic development of some countries of the world, and to assess the impact in the article, the methods of statistical analysis, generalization, regression and econometric assessment were used. macroeconomic factors of migration. The current state of changes in international migration processes of the population in the Republic of Azerbaijan was analyzed, assessed and the results were obtained.

**Key words:** international population migration, emigration, highly qualified personnel, immigration, brain drain, unemployment, state regulation.

**JEL O15, R23; UDC 331.556**

# Azərbaycanda miqrasiyanın dövlət tənzimlənməsinin makroiqtisadi metodları

**Akifə Ağayarova**
İ.f.d., aparıcı elmi işçi AR ETN İqtisadiyyat İnstitutu, "Demoqrafiya və məşğulluq problemləri" şöbəsi. E-mail: aqayarova.akifa@yandex.ru
https://orcid.org/0000-0003-4714-5330

**Xülasə:** Məqalədə Azərbaycan Respublikasında beynəlxalq miqrasiyanın tənzimlənməsinin əsas xüsusiyyətləri təhlil edilir. Tədqiqat metodologiyası müqayisəli analitik təhlilə əsaslanır. Tədqiqatda beynəlxalq miqrasiyanın tənzimlənməsinin nəzəri və metodoloji əsaslarını və bəzi dünya ölkələrinin iqtisadi inkişaf təcrübəsini təhlil edilmiş, həmçini makroiqtisadi amillərin miqrasiyaya təsirini qiymətləndirmək üçün məqalədə statistik təhlil, ümumiləşdirmə, reqressiya və ekonometrik qiymətləndirmə üsullarından istifadə olunmuşdur.

Azərbaycan Respublikasında əhalinin beynəlxalq miqrasiya proseslərində baş verən dəyişikliklərin mövcud vəziyyəti təhlil edilmiş, qiymətləndirilmiş və nəticələr əldə edilmişdir.

**Açar sözlər:** beynəlxalq əhalinin miqrasiyası, emiqrasiya, yüksək ixtisaslı kadrlar, immiqrasiya, beyin axını, işsizlər, dövlət tənzimlənməsi.

**JEL O15, R23; UDC 331.556**

## Giriş / *Introduction*

Tarixən əhalinin miqrasiya genezisi hər bir ictimai - iqtisadi formasiyaya xas olan maddi nemətlər istehsalına uyğun ictimai şəraitə əsasən formalaşmışdır. Bu da o deməkdir ki, miqrasiyanın xarakteri cəmiyyətdəki məhsuldar qüvvələrin və istehsal münasibətləri üzrə təkrar istehsalın inkişaf səviyyəsilə və xarakterilə müəyyən edilir. Dünya təcrübəsi göstərir ki, miqrasiya prosesləri məhsuldar qüvvələrin və istehsal münasibətlərinin inkişaf mərhələsinin yalnız surətlə təkrarlanma prosesi deyildir, o, əsasən keçmişdə mütəmadi baş verən demoqrafik və sosial-iqtisadi dəyişikləri olduqca təsirli şəkildə özündə əks etdirməkdə olan bir proses kimi çıxış edir [5]. Əhalinin miqrasiyası (mexaniki hərəkəti) iqtisadi cəhətdən müsbət hadisə olmaqla, istehsalda daim baş verməkdə olan struktur dəyişikliklərinin obyektiv tələbatı kimi təzahür etməkdədir.

Əhalinin bir ölkədən digərinə köçüb etməsi həmin ölkələrin əhalisinin və əmək ehtiyatlarının, sayına, cins-yaş quruluşuna, milli tərkibinə və sair kəmiyyət və keyfiyyət göstəricilərinə müxtəlif istiqamətlərdən təsir göstərir. Yüksək ixtisaslı kadrların mənşə ölkəsindən getməsi bu ölkənin iqtisadiyyatına mənfi təsir göstərir.

Təyinat ölkəsi isə belə kadrların əldə etməklə öz iqtisadiyyatını daha da gücləndirir. Təyinat ölkəsində əmək fəaliyyəti ilə məşğul olan müxtəlif bilik və bacarığa malik olan miqrantların mənşə ölkəsinə pul köçürmələri həmin ölkədə əhalinin həyat səviyyəsinə müsbət təsir göstərir.

Azərbaycan müstəqillik əldə etdikdən sonra ölkəmizdə miqrasiya prosesi hər iki istiqamətdə, yəni həm emiqrasiya, həm də immiqrasiya istiqamətlərində xeyli dəyişmişdir. Belə ki, müstəqillik ərəfəsində və müstəqilliyimizin ilk dövrlərini əhatə edən 5 il (1990-1994-cü illər) ərzində xarici ölkələrdən daimi yaşamaq üçün ölkəmizə gəlmiş immiqrantların sayı 211,2 min nəfər; daimi yaşamaq üçün respublikamızı tərk edərək xarici ölkələrə gedən miqrantların sayı isə 342,3 min təşkil etmiş və ya miqrasiya qalığı (saldosu) mənfi 131,1 min nəfər təşkil etmişdirsə; sonrakı 13 il ərzində (1995-2007-ci illərdə) daimi yaşamaq üçün ölkəmizə gəlmiş immiqrantların sayı cəmi 45,0 min nəfər; daimi yaşamaq üçün respublikamızdan başqa ölkələrə çıxıb getmiş miqrantların sayı 101,2 min nəfər təşkil etmiş və ya miqrasiya qalığı (saldosu) mənfi; 56,2 min nəfər təşkil etmişdir. 2008-2022-ci illəri əhatə edən sonrakı 14 il ərzində isə əksinə xarici ölkələrdən daimi yaşamaq üçün ölkəmizə gəlmiş immiqrantların sayı 38,7 min nəfər təşkil etdiyi halda; daimi yaşamaq üçün ölkəmizi tərk edib xarici ölkələrə getmiş miqrantların sayı cəmi 17,7 min nəfər təşkil etmiş və əhali miqrasiyasının qalığı

(saldosu) müsbət 21,0 min nəfər təşkil etmişdir [2].

Azərbaycanda miqrasiyanın əsas səbəbləri digər ölkələrdən ciddi fərqlənmir. Lakin hər hansı zaman kəsiyində hər bir ölkə üçün xarakterik olan səbəblər arasında daha əhəmiyyətli səbəblərin ayrılmasına ehtiyac olur. Məsələn, Ukrayna-Rusiya müharibəsinə qədər Ukraynadan Avropaya miqrasiyanın səbəbləri arasında siyasi qeyri-sabitlik, fiziki təhlükəsizliklə bağlı səbəblər, demək olar ki, yox idi. Amma müharibə bu səbəbləri əsas səbəblərə çevirdi. Həmçinin Rusiyadan olan emiqrasiya səbəbləri arasında mobilizasiya yalnız son dönəmdə mühüm səbəbə çevrildi. Keçən əsrin 90-cı illərində Azərbaycandan emiqrasiyanın səbəbləri arasında siyasi qeyri - sabitlik və Ermənistanın Azərbaycana qarşı təcavüzün nəticəsində həyat şəraitinin kəskin pisləşməsini qeyd etmək lazımdır. Lakin 1994-cü ildən cari dövrə qədər ölkədə formalaşan siyasi sabitlik və iqtisadiyyatın davamlı inkişafı, cəmiyyətdə etnik, dini qarşıdurmalara yol verilməməsi, geniş tolerantlıq və mədəni müxtəlifliyə hörmət hissinin təbliği insanların miqrasiyası üçün bu səbəblərdən yararlanmasına imkan vermir.

Azərbaycanda miqrasiya proseslərinin idarəedilməsi üçün zəruri hüquqi sistemin formalaşması, əmək miqrantlarının ölkəyə daxil olması və iş icazələrinin alınmasındakı aşkarlıq və "bir pəncərə" sisteminin tətbiqi də öz təsirini müəyyən qədər göstərir. Lakin son illərdə miqrasiyanın mənfi saldosu, yəni emiqrasiyanın immiqrasiyadan üstün olması deməyə əsas verir ki, belə mənfi artımı dövlətin birbaşa müdaxiləsi ilə aradan qaldırmaq mümkün deyil. Emiqrasiyaya birbaşa müdaxilə insanların şərbət hərəkətinə qoyulan məhdudiyyət kimi qəbul edilir və insan hüquqlarına ziddir. Xüsusilə, belə yerdəyişmələrin daxildə baş verməsinin inzibati yolla nizamlanmasına cəhd əksər hallarda mənfi nəticələrə səbəb ola bilər. Azərbaycan qloballaşma prosesinə qoşulan, demokratik inkişaf yoluna qədəm qoyan mütərəqqi ölkə olaraq, emiqrasiya yolunu seçən hər bir vətəndaşın hüququna hörmətlə yanaşır. Heç bir Azərbaycan vətəndaşı cinayət törətmədikləri və ölkə qarşısında hər hansı öhdəlikləri olmadığı halda digər ölkələrə emiqrasiya edə bilər. Əlbəttə, bu zaman təyinat ölkəsinin miqrasiya rejimlərinin tələblərinə əməl olunması tələb olunur.

Azərbaycanda miqrasiya proseslərinin birbaşa tənzimlənməsi müvafiq qanunlarla, qaydalarla və digər hüquqi normativ aktlarla həyata keçirilir. Son 30 ildə miqrasiya proseslərinin tənzimlənməsinə həsr edilən 20-dən çox qanun qəbul edilmişdir. Müxtəlif ölkələrin, xüsusilə inkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, miqrasiyanın tənzimlənməsi miqrasiya axınına təsir göstərir. Bir anlıq fərz edək ki, ABŞ-da və ya hər hansı inkişaf etmiş ölkədə miqrasiyanın tənzimlənməsinə həsr edilən qanunlar yoxdur. O halda bu ölkələrə miqrasiya axını kəskin artar və bu ölkələrdə sabitlik, həmçinin rifah səviyyəsi dəyişər. Lakin miqrasiya qanunlarının inkişaf etməkdə olan ölkələrə təsirləri o qədər də hiss edilmir. Xüsusilə, inkişaf etməkdə olan 0-ölkələrə immiqrasiya axınının az olması belə ölkələrdə miqrasiyanın tənzimlənməsinin təsirlərini azaldır. Lakin belə ölkələrdən emiqrasiya axını çox olduğundan və əksər hallarda emiqrasiyanın birbaşa qanunlarla tənzimlənməsi bu prosesin dolayı tənzimlənməsi məsələsini aktual edir. Çünki emiqrasiya inkişaf etməkdə olan ölkələrdən "beyin axınlarını" yaradaraq, ölkənin iqtisadiyyatına mənfi təsir edir.

Azərbaycandan emiqrasiya həcminin müxtəlif ölkələrdə, o cümlədən inkişaf etmiş ölkələrdə davamlı olaraq artması və bu prosesin qanunlarla tənzimlənməməsi miqrasiyaya təsir edən daha ciddi amillərin olduğunu və bu amillər vasitəsilə miqrasiyanın tənzimlənməsinin həyata keçirilməsinin vacibliyini üzə çıxarır. Daha dəqiq desək, hər bir ölkə üçün yüksək ixtisaslı kadrların itirilməsi insan kapitalının itirilməsi deməkdir və belə itki özünü ÜDM-in həcmində biruzə verir. Digər tərəfdən, emiqrasiya edən əhalinin böyük əksəriyyəti, əvvəlki paraqraflarda qeyd etdiyimiz kimi əmək qabiliyyətli yaşda olanlardır.

Miqrasiya prosesinə hər hansı bir fərdin öz iradəsi ilə bir ölkədən digər ölkəyə müvəqqəti və ya daimi yaşamaq üçün yerdəyişməsi kimi yanaşsaq, bu prosesdə əsas motiv təhlükəsizlik və ya rifahdır. İnsanlar müxtəlif iqtisadi vəziyyətlərdə miqrasiya edə bilərlər. Elə qrup insanlar var ki, onların miqrasiya üçün hətta minimum maddi imkanları yoxdur. Belə ki, miqrasiya müəyyən xərc tələb edir. Bəzi qrup insanlar üçün isə miqrasiya etməyin heç bir anlamı yoxdur. Çünki onlar istədikləri ölkələrdə istədikləri qədər yaşamaq imkanına malikdirlər. Əlbəttə, belə insanlar birincilərə nisbətən daha az saydadır. Bu iki qrup arasında üçüncü, yəni orta qrup da vardır ki, onlar öz maddi imkanları çərçivəsində müəyyən ölkələrə miqrasiya etmək gücündədirlər. Lakin potensial miqrantın miqrasiya

üçün seçdiyi təyinat ölkəsindəki mümkün gəlirlərin mənşə ölkəsindəkindən çox olması mühüm motivdir. Lakin bu motiv o zaman təsirli olur ki, potensial miqrant tələb olunan səviyyədə bilik və bacarıqlara malik olsun. Əks halda, yalnız gəlir fərqlərinin mövcudluğu miqrasiya üçün motiv ola bilmir.

Şübhəsiz ki, əmək miqrasiyası, xüsusilə yüksək ixtisaslı kadrların miqrasiyası daha yüksək həcmli insan kapitalı ilə bağlı olduğundan təyinat ölkəsinin iqtisadiyyatına müsbət, mənşə ölkəsinin iqtisadiyyatına mənfi təsir göstərir. Aşağı ixtisaslı kadrların miqrasiyasında isə vəziyyət bir qədər fərqlidir. Belə ki, aşağı ixtisaslı işçilərin əmək miqrasiyası zamanı onların öz ölkəsinə göndərdiyi pul köçürmələri mənşə ölkəsinin iqtisadiyyatına və sosial rifaha müsbət, təyinat ölkəsinə isə müəyyən qədər mənfi təsir göstərə bilər. Bu problemlər də iqtisadi ədəbiyyatda geniş tədqiq edilib. Məsələn, Murakami və digərləri[6] belə hesab edirlər ki, miqrantların öz ailələrinə etdikləri pul köçürmələri mənşə ölkəsində istehlak xərclərinin artması ilə məcmu tələbi artırır. Digər tərəfdən, inkişaf etməkdə olan ölkədən inkişaf etmiş ölkəyə gələn əmək miqrantı olan bu ölkədə yeni bacarıqlar toplaya bilər. Bu təcrübələr öz ölkəsinə qayıdanda onların daha yüksək təcrübəli işçi kimi çalışmasına şərait yarada bilər. Belə təcrübə toplama təyinat ölkəsində əlavə insan kapitalının yığılması və mənşə ölkəsinə qayıtması deməkdir. Bu, dolayı yolla inkişaf etməkdə olan ölkənin cəmiyyətinin qloballaşma prosesinə qoşulmasında və beynəlxalq dəyərlərin mənşə ölkə tərəfindən mənimsənilməsində mühüm rol oynayır. Amma bir daha qeyd edək ki, belə ölkələrdən yüksək ixtisaslı kadrların daha inkişaf etmiş ölkələrə axını mənşə ölkəsində iqtisadi inkişafa mənfi təsir edir.

Yuxarıda qeyd etdiyimiz problemlər inkişaf etməkdə olan və yüksək orta gəlirli ölkə kimi Azərbaycana və bu ölkədəki miqrasiya proseslərinə də aiddir. Azərbaycandan emiqrasiya əsasən iki fərqli mahiyyətli və istiqamətlidir. Emiqrasiyadakı iki fərqlilik emiqrantların bilik və bacarıq səviyyələri ilə bağlıdır. Belə ki, Azərbaycandan həm yüksək ixtisaslı kadrların axını, həm də aşağı ixtisaslı işçilərin axını müşahidə edilir. Digər tərəfdən, Azərbaycana gələn immiqrantlar arasında yüksək ixtisaslı kadrlarla yanaşı, həm də aşağı ixtisaslı əmək miqrantları var. Ona görə də, miqrasiyanın dövlət tənzimlənməsi miqrantların strukturundan asılı olaraq, dəyişməlidir. Hər bir ölkə istəyir ki, onun yüksək ixtisaslı kadrları ölkəni tərk etməsin və ya ölkəyə gələn miqrantlar yüksək ixtisaslı olsun. Başqa sözlə desək, yüksək ixtisaslı kadrlar uğrunda beynəlxalq səviyyədə rəqabət gedir. ABŞ və Avropa ölkələri, həmçinin Yaponiya yüksək ixtisaslı kadrların bu ölkələrə immiqrasiyası üçün xüsusi viza rejimləri tətbiq edirlər. İnkişaf etməkdə olan ölkələr isə belə kadrların ölkədə daha yaxşı iqtisadi və sosial mühitdə yaşayıb işləmələri üçün şərait yaradırlar. Azərbaycanda emiqrasiyanın mahiyyətindən asılı olaraq, onun istiqamətləri də fərqlidir. Belə ki, yüksək ixtisaslı emiqrantlar inkişaf etmiş ölkələrə, xüsusilə, ABŞ-a, Aİ ölkələrinə üz tuturlar. Aşağı ixtisaslı əmək miqrantları isə əsasən Rusiya, Qazaxıstan, Türkiyə və Belarusu özləri üçün təyinat ölkəsi hesab edirlər. Əgər digər ölkələrin təcrübəsinə və aparılan tədqiqatlara əsaslansaq, fərz edə bilərik ki, birinci istiqamətli emiqrasiya Azərbaycan iqtisadiyyatına mənfi, ikinci istiqamətli emiqrasiya isə müsbət təsir göstərə bilər. Həmçinin ölkəyə gələn miqrantların iki fərqli mahiyyətli olduğunu nəzərə alaraq, yüksək ixtisaslı kadrların immiqrasiyasına "yaşıl işıq", aşağı ixtisaslı əmək miqrantların gəlişinə isə "qırmızı işığın" yandırılması, əksər ölkələrdə olduğu kimi, Azərbaycanda da miqrasiyanın tənzimlənməsində mühüm tədbirlərdən biri olmalıdır. Lakin belə siyasətin həyata keçirilməsinin əsaslandırılması üçün ciddi kəmiyyət qiymətləndirilməsinə ehtiyac var.

Miqrasiyanın dövlət tənzimlənməsi tədbirlərinin ölkəyə, həmçinin ölkədən miqrant axınına və ya həcminə təsirlərini ümumi halda

$$Y_t = \beta_0 + \sum \beta_j \cdot X_{j,t} + \mathcal{E}_t \qquad (1)$$

Reqresiya tənliyi kimi ifadə edə bilərik.

Burada (1.1) tənliyi $Y_t$ - miqrasiya göstəricisi ilə $X_t$ - iqtisadi inkişaf göstəricisi arasındakı əlaqəsini ifadə edir. Burada $X_t$ olaraq, ümumdaxili məhsul həcmi ($GDP_t$), ümumdaxili məhsul həcminin illik dəyişməsi ($\Delta GDP_t$), yaxud adambaşına ÜDM ($GDPPC_t$) və sair götürə bilərik. $Y_t$ olaraq a) ali təhsillilərin emiqrasiya axını ($EMEF_t$); b) ali təhsililərin immiqrasiya axını ($IMEF_t$); c) emiqrasiya edən digər əmək miqrantların axını ($EMF_t$); d) immiqrasiya edən digər əmək miqrantların

sayı ($EMS_t$) götürülə bilər. Qeyd edək ki, bu zaman $H_0$ hipotezi $\beta_j$=0 hesab edilir.

Miqrasiyaya təsir edən digər göstəricilərin də (1) modelinə daxil edilməsi vacibdir. Məsələn, ölkədə işsizlik səviyyəsi ($UNEMP_t$), orta əmək haqqı səviyyəsinin minimum əmək haqqı səviyyəsinə nisbəti ($wage_t$), elmə ayrılan vəsaitin həcmi ($R\&D_t$), ölkədə səhiyyə xərcləri ($HEXP_t$), təhsilə çəkilən dövlət xərclərinin həcmi ($EDU_t$) göstəriciləri daxil edilməklə (1.1) çoxdəyişənli reqresiya tənliyində miqrasiya göstəriciləri ilə makroiqtisadi göstəricilər arasındakı əlaqənin empirik modelini qura bilərik. Qeyd edək ki, bəzi tədqiqatçılar miqrasiyanın asılı olduğu amillər arasına mənşə və təyinat ölkələrinin qloballaşma səviyyəsini də əlavə edirlər. Məsələn, Gülalıyev [4] belə hesab edir ki, miqrasiyaya təsir göstərən mühüm amillərdən biri də ölkələrin qloballaşma səviyyəsidir. O, empirik qiymətləndirmələrlə sübut edir ki, Azərbaycanda emiqrasiya və immiqrasiya axını digər ölkədəki miqrasiya proseslərindən bəzi özünəməxsusluğu ilə fərqlənir. Emiqrasiya axını ilə adambaşına ÜDM həcmi, MƏH səviyyəsi, əmək haqqı alan işçilərin sayının ümumi məşğulların sayındakı payı göstəricisindən müəyyən səviyyədə asılı olsa da, KOF qloballaşma indeksindən asılılıq, həmçinin iqtisadi azadlıq səviyyəsindən asılılıq daha güclüdür.

Müxtəlif ölkələrin timsalında aparılan tədqiqatlar göstərir ki, miqrasiya proseslərində iqtisadi və sosial amillərin üstün təsirləri olduğu kimi, iqtisadi inkişafda da digər amillərlə, məsələn, texnologiya, əsas kapital və əməklə yanaşı, miqrasiyanın təsirləri güclüdür. Yuxarıda qeyd etdiyimiz kimi, yüksək ixtisaslı kadrların emiqrasiyası ÜDM həcminə mənfi, immiqrasiyası müsbət təsir göstərə bilər. Başqa sözlə desək, iqtisadi inkişaf miqrasiyaya, miqrasiya isə iqtisadi inkişafa təsir göstərərək qarşılıqlı səbəb - nəticə əlaqəsini formalaşdıra bilər. Buna görə də, bu göstəricilər arasındakı qarşılıqlı (iki istiqamətli) əlaqəni (2) tənliyi vasitəsilə ifadə edə bilərik:

$$\begin{cases} Y_t = \alpha_0 + \sum \alpha_j \cdot Y_{t-j} + \sum \beta_j \cdot X_{t-j} + \varepsilon_t \\ X_t = \alpha_0 + \sum \alpha_j \cdot X_{t-j} + \sum \beta_j \cdot Y_{t-j} + u_t \end{cases} \quad (2)$$

(2) tənliyi əslində $Y_t$ -miqrasiya göstəricisi ilə $X_t$ - iqtisadi inkişaf göstəricilər arasındakı Granger mahiyyətli səbəb - nəticə əlaqəsini ifadə edir.

Hesablamalar zamanı bəzi fərzlərin qəbul edilməsinə ehtiyac var. Belə ki, ali təhsilli emiqrantların və ya immiqrantların sayının hesablanması üçün qəbul edəcəyik ki, inkişaf etmiş ölkələrə emiqrasiya edənlər əsasən ali təhsilli və ya yüksək ixtisaslı kadrlardır. Digər ölkələrə, o cümlədən, post-sovet ölkələrinə (Baltikyanı ölkələrdən başqa) gedən və ya gələn miqrantlar ali təhsilli hesab edilməyəcək. Əlbəttə, belə fərzlər məlumatların xeyli təhrif olunmasına səbəb olur. Lakin birinci yaxınlaşmada biz “beyin axınını” adi miqrasiyadan ayırmaq üçün belə etməyə məcburuq. Biz “beyin axını” yaradan emiqrantların sayı olaraq, ABŞ-a, Böyük Britaniyaya, Almaniyaya, İsrailə, Baltikyanı ölkələrə, Polşaya və Yunanıstana gedən emiqrantların sayını qəbul edəcəyik. Məhz bu ölkələrə gedən emiqrantların ingilis dili bilikləri olmalıdır. Baltikyanı ölkələr istisna olmaqla, digər post - sovet ölkələrinə emiqrasiya zamanı rus dili kifayət edir. Şübhəsiz ki, belə miqrantların arasında çoxlu sayda ali təhsilli olanlar var. Lakin biz, yuxarıda qeyd etdiyimiz kimi, dil biliklərini və inkişaf etmiş ölkələrə və Avropa ölkələrinə emiqrasiyanın çətinliyini nəzərə alaraq, belə miqrantları daha yüksək ixtisaslı hesab edəcəyik.

Hesablamalar zamanı işsizlik səviyyəsi əvəzinə əmək haqqı almayan və özüməşğul hesab edilən məşğulların sayı ilə işsizlərin sayının cəmindən istifadə ediləcək. Bu ona görə edilir ki, əmək miqrantlarının mühüm hissəsi məhz özüməşğullar arasındadır. Belə şəxslər kənd regionlarında torpaq sahələrinə və ya hər hansı həcmdə mülkiyyətə malik olduğundan ilin müəyyən fəslində özüməşğul olsalar da, əksər hallarda iş axtarmaq üçün miqrasiya etməyə məcbur olurlar.

***Cədvəl 1***

**Miqrasiya prosesinə aid əsas göstəricilər**

| | **ali təhsillilərin emiqrasiya axını** | **ali təhsillilərin immiqrasiya axını** | **emiqrasiya edən digər əmək miqrantların axını** | **immiqrasiya edən digər əmək miqrantların axını** |
|---|---|---|---|---|
| | $EMEF_t$ | $IMEF_t$ | $EMF_t$ | $İMF_t$ |

| | | | | |
|---|---|---|---|---|
| 1990 | 9500 | 423 | 128400 | 83856 |
| 1991 | 6794 | 313 | 99605 | 65987 |
| 1992 | 3017 | 283 | 46883 | 35422 |
| 1993 | 2402 | 141 | 26098 | 16109 |
| 1994 | 1586 | 57 | 18015 | 8572 |
| 1995 | 2352 | 55 | 13681 | 6167 |
| 1996 | 2177 | 38 | 10974 | 5743 |
| 1997 | 666 | 71 | 15037 | 7457 |
| 1998 | 380 | 24 | 10118 | 5380 |
| 1999 | 415 | 29 | 8727 | 4777 |
| 2000 | 371 | 49 | 9576 | 4312 |
| 2001 | 245 | 31 | 7043 | 2543 |
| 2002 | 82 | 8 | 4238 | 1249 |
| 2003 | 96 | 9 | 3658 | 2491 |
| 2004 | 89 | 25 | 2711 | 2382 |
| 2005 | 42 | 17 | 2864 | 1996 |
| 2006 | 22 | 11 | 2622 | 2221 |
| 2007 | 44 | 18 | 3039 | 1936 |
| 2008 | 46 | 19 | 2484 | 3578 |
| 2009 | 21 | 23 | 1352 | 2269 |
| 2010 | 26 | 16 | 773 | 2212 |
| 2011 | 28 | 19 | 456 | 2162 |
| 2012 | 16 | 23 | 210 | 2149 |
| 2013 | 50 | 59 | 731 | 3070 |
| 2014 | 55 | 39 | 740 | 1820 |
| 2015 | 42 | 32 | 1515 | 2617 |
| 2016 | 64 | 34 | 1647 | 3199 |
| 2017 | 64 | 34 | 1837 | 3039 |
| 2018 | 56 | 51 | 1524 | 3169 |
| 2019 | 61 | 35 | 1593 | 2007 |
| 2020 | 19 | 32 | 549 | 1637 |
| 2021 | 30 | 17 | 540 | 2380 |
| 2022 | 115 | 24 | 954 | 2844 |
| 2023 | 328 | 21 | 2155 | 3617 |

*Mənbə [1;7] əsasında müəllif tərəfindən tərtib edilib*

***Cədvəl 2.***

**Azərbaycanda bəzi makroiqtisadi göstəricilərin dinamikası**

| | **Məşğulların sayı (min nəfər)** [Error! Reference source not found.] | **Işsizlərin sayı (min nəfər)** [Error! Reference source not found.] | **Özüməşğullar ın sayı (min nəfər)** [Error! Reference source not found.] | **elmə ayrılan vəsaitin həcmi (mln.ABŞ dolları)** [Error! Reference source not found.] | **ölkədə səhiyyə xərcləri (mln.ABŞ dolları) [7]** | **təhsilə çəkilən dövlət xərcləri (mln.ABŞ dolları)** [Error! Reference source not found.] |
|---|---|---|---|---|---|---|
| | $EMP_t$ | $UNEMP_t$ | $semp_t$ | $R\&D_t$ | $HEXP_t$ | $EDU_t$ |
| 1990 | 3703.4 | m/y | m/y | m/y | m/y | m/y |
| 1991 | 3732.0 | 31.699 | 1950.343 | m/y | m/y | m/y |
| 1992 | 3722.0 | 65.712 | 2015.835 | m/y | m/y | 27.037 |
| 1993 | 3714.6 | 171.144 | 2082.033 | m/y | m/y | m/y |
| 1994 | 3631.3 | 248.878 | 2112.327 | m/y | m/y | m/y |
| 1995 | 3613.0 | 292.505 | 2188.394 | m/y | m/y | 80.676 |
| 1996 | 3686.7 | 333.671 | 2316.354 | 7.475 | m/y | 111.571 |
| 1997 | 3694.1 | 378.681 | 2391.930 | 14.640 | m/y | m/y |
| 1998 | 3701.5 | 419.253 | 2453.724 | 18.730 | m/y | 150.288 |
| 1999 | 3782.8 | 462.070 | 2558.308 | 18.000 | m/y | 192.976 |
| 2000 | 3855.5 | 503.574 | 2637.548 | 17.717 | 45.710 | 203.213 |
| 2001 | 3891.4 | 464.345 | 2686.233 | 19.407 | 45.095 | 199.965 |
| 2002 | 3931.1 | 425.400 | 2729.756 | 18.804 | 45.800 | 196.708 |
| 2003 | 3972.6 | 387.104 | 2766.121 | 23.647 | 56.686 | 239.125 |
| 2004 | 4016.9 | 336.103 | 2798.173 | 25.894 | 75.026 | 299.273 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| **2005** | **4062.3** | **307.421** | **2830.204** | **29.133** | **121.578** | **394.010** |
| **2006** | **4110.8** | **280.549** | **2848.784** | **36.017** | **181.729** | **536.224** |
| **2007** | **4162.2** | **274.418** | **2861.096** | **56.205** | **299.731** | **842.546** |
| **2008** | **4215.5** | **259.247** | **2876.657** | **80.870** | **421.958** | **1192.455** |
| **2009** | **4271.7** | **256.377** | **2886.388** | **110.622** | **500.816** | **1428.095** |
| **2010** | **4329.1** | **254.933** | **2945.953** | **115.596** | **534.795** | **1471.206** |
| **2011** | **4375.2** | **247.845** | **2987.824** | **139.052** | **625.162** | **1606.344** |
| **2012** | **4445.3** | **240.158** | **2964.571** | **149.312** | **776.038** | **1440.806** |
| **2013** | **4521.2** | **233.709** | **3007.050** | **155.515** | **788.421** | **1811.192** |
| **2014** | **4602.9** | **235.242** | **3074.277** | **157.847** | **848.741** | **1981.212** |
| **2015** | **4671.6** | **241.855** | **3163.140** | **117.995** | **691.356** | **1566.586** |
| **2016** | **4759.9** | **248.479** | **3245.300** | **78.147** | **440.550** | **1099.449** |
| **2017** | **4822.1** | **251.686** | **3297.352** | **75.471** | **409.478** | **1010.940** |
| **2018** | **4879.3** | **249.465** | **3327.683** | **86.763** | **437.529** | **1156.825** |
| **2019** | **4938.5** | **247.519** | **3350.772** | **96.411** | **617.387** | **1291.590** |
| **2020** | **4876.6** | **313.254** | **m/y** | **95.782** | **m/y** | **m/y** |
| **2021** | **4988.2** | **326.248** | **m/y** | **m/y** | **m/y** | **m/y** |
| **2022** | **4901,1** | **293,3** | **m/y** | **120.531** | **1005.007** | **2285.883** |
| **2023** | **4963.3** | **286.4** | **m/y** | **132.509** | **1060.974** | **2592.018** |

*Mənbə [1,7,9] əsasında müəllif tərəfindən tərtib edilib.*

***Cədvəl 3.***

**Azərbaycanda miqrasiya göstəriciləri ilə bəzi makroiqtisadi göstəricilər arasında çoxdəyişənli reqresiya asılılığı**

| | $EMEF_t$ | $IMEF_t$ | $EMF_t$ | $İMF_t$ |
|---|---|---|---|---|
| $r^2$ | 0,936738 | 0,837509 | 0,972468 | 0,630376 |
| **Müşahidələrin sayı** | 20 | 20 | 20 | 20 |
| $\beta_0$ | | | | |
| **əmsal** | - 572,728 | - 128,807 | - 1408 | - 856,208 |
| **Standart xəta** | 249,6358 | 65,21226 | 4479,855 | 4567,688 |
| **t - statistika** | - 2,29425 | - 1,97519 | - 0,3143 | - 0,18745 |
| **p - qiymət** | 0,039073 | 0,069871 | 0,758283 | 0,854203 |
| $\beta_1$ $(EMP_t)$ | | | | |
| **əmsal** | 0,799529 | 0,358838 | 16,27688 | 18,215 |
| **Standart xəta** | 0,451257 | 0,117882 | 8,098064 | 8,256837 |
| **t - statistika** | 1,771781 | 3,044054 | 2,009972 | 2,206051 |
| **p - qiymət** | 0,099854 | 0,009407 | 0,065657 | 0,045984 |
| $\beta_2$ $(UNEMP_t)$ | | | | |
| **əmsal** | 1,248299 | 0,069184 | 23,887 | 0,251213 |
| **Standart xəta** | 0,255014 | 0,066617 | 4,57637 | 4,666095 |
| **t - statistika** | 4,895023 | 1,038524 | 5,219639 | 0,053838 |
| **p - qiymət** | 0,000293 | 0,317957 | 0,000165 | 0,957883 |
| $\beta_3(sempt_t)$ | | | | |
| **əmsal** | - 1,07033 | - 0,47259 | - 24,401 | - 25,0374 |
| **Standart xəta** | 0,655675 | 0,171282 | 11,76645 | 11,99715 |
| **t - statistika** | - 1,6324 | - 2,75915 | - 2,07377 | - 2,08695 |
| **p - qiymət** | 0,126569 | 0,016251 | 0,058529 | 0,057149 |
| $\beta_4(R\&D_t)$ | | | | |
| **əmsal** | - 1,18238 | 0,052394 | - 71,5596 | - 3,3224 |
| **Standart xəta** | 1,262141 | 0,329708 | 22,64983 | 23,0939 |
| **t - statistika** | - 0,93681 | 0,15891 | - 3,15939 | - 0,14386 |
| **p - qiymət** | 0,365936 | 0,876182 | 0,007534 | 0,887814 |
| $\beta_5(HEXP_t)$ | | | | |
| **əmsal** | - 0,11439 | - 0,10867 | 1,538666 | - 7,72257 |
| **Standart xəta** | 0,26255 | 0,068586 | 4,711603 | 4,80398 |
| **t - statistika** | - 0,4357 | - 1,58444 | 0,32657 | - 1,60754 |
| **p - qiymət** | 0,670199 | 0,137108 | 0,749192 | 0,131942 |

| $\beta_6\ (EDU_t)$ | | | | |
|---|---|---|---|---|
| **əmsal** | 0,118759 | 0,017864 | 3,581534 | 1,776647 |
| **Standart xəta** | 0,082341 | 0,02151 | 1,477658 | 1,50663 |
| **t - statistika** | 1,442282 | 0,830504 | 2,42379 | 1,17922 |
| **p - qiymət** | 0,17288 | 0,421245 | 0,030686 | 0,259443 |
| **F - əhəmiyyətlilik** | 3,02E - 05 | 0,006795 | 1,73E - 07 | 0,27632 |

*Qeyd: 1 və 2-ci cədvəllərdəki göstəricilər əsasında müəllif tərəfindən hesablanıb*

3-cü cədvəldəki modellərə əsasən qeyd etmək olar ki, Azərbaycandan yüksək ixtisaslı kadrların emiqrasiyası yuxarıda qeyd edilən göstəricilərdən yalnız birindən əhəmiyyətli dərəcədə asılıdır. Bu, ölkədə işsizlərin sayıdır. Alınan nəticəyə əsasən, ölkədə işsizlərin sayı artdıqca, ölkədən yüksək ixtisaslı kadrların emiqrasiyası da artır. Məşğulların sayının artması isə ölkəyə gələn yüksək ixtisaslı immiqrantların sayını artırır. Aşağı ixtisaslı əmək miqrantlarının ölkədən getməsinə isə daha üç amil əhəmiyyətli dərəcədə təsir edir. Bunlar işsizlərin sayı, elmə ayrılan vəsaitlərin miqdarı və təhsilə ayrılan xərclərin miqdarıdır. İşsizlərin sayı artdıqca ölkədən gedən əmək miqrantlarının sayı da artır. Elmə ayrılan xərclər əmək miqrasiyasına mənfi təsir edir.

**Nəticə**

Elmə ayrılan xərclərlə əmək miqrasiyası arasında tərs əlaqə var. Təhsilə ayrılan xərclərlə əmək miqrasiyası arasında isə müsbət əlaqə mövcuddur. Sonuncu nəticə deməyə əsas verir ki, təhsilin müəyyən səviyyəyə qədər artması, lakin işsizliyin yüksək səviyyədə mövcud olması ölkədən gedən təhsilli miqrantların artmasına səbəb olur. Təhsilin inkişaf etdirilməsi vacibdir, lakin təhsilli insanların ölkə iqtisadiyyatına xidməti üçün zəruri tədbirlərin görülməsi daha da vacibdir. İnkişaf etməkdə olan ölkələrdən Azərbaycana gələn əmək miqrantlarının sayına qeyd etdiyimiz göstəricilər ciddi təsir göstərmir.

## İstifadə olunmuş ədəbiyyat / References


1. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Əhalinin beynəlxalq miqrasiyası. Statistik məcmuə / -Bakı: - 2024.
2. Azərbaycanın demoqrafik göstəriciləri. Statistik məcmuə. –Bakı: -2023.
3. Ağayarova, A.A. Azərbaycanda miqrasiyanın dövlət tənzimlənməsinin təkmilləşdirilməsi "İqtisadi Artım və İctimai Rifah", 2022 № IVs.194 – 201
4. Gülalıyev, M.G. Xarici iqtisadi əlaqələr: tənzimləmə ilə liberallığın tarazlığı/ M. Gülalıyev (Yenidən işlənmiş ikinci nəşr) - Bakı: Elm və bilik nəşriyyatı - 2018. -382 s.
5. Лукьянова, В.Ю. Правовые проблемы формирования межгосударственных объединений (на примере зоны свободной торговли и таможенного союза ЕВРАЗЭС): монография / Отв. ред. В.Ю. Лукьянова. — М.: «Анкил», 2012. — 336 стр.
6. Murakami, E. The impact of migration and remittances on labor supply in Tajikistan// *Journal of Asian Economics*, E. Murakami, E.Yamada, E.P. Sioson - 2021.*73*, 101268. https://doi.org/10.1016/j.asieco.2020.101268
7. World Bank. - 2022 e. Government expenditure on education, total (% of GDP) Elektron resurs: https://data.worldbank.org/indicator/SE.XPD.TOTL.GD.ZS və https://data.worldbank.org/indicator/NY.GDP.MKTP.CD
8. https://www.knomad.org/data/migration/emigration
9. https://www.meclis.gov.az/news-layihe.php?id=2282&lang=az&par=0

# Макроэкономические методы государственного регулирования миграции в Азербайджане

**Акифа Агаярова**
К.е.н., ведущий научный сотрудник, Институт Экономики Отдел "Демография и проблемы занятости"
E-mail: aqayarova.akifa@yandex.ru

**Резюме:** В статье анализируются основные особенности регулирования международной миграции в Азербайджанской Республике. Методология исследования основана на сравнительном аналитическом анализе. В исследовании были проанализированы теоретико-методологические основы регулирования международной миграции и опыт экономического развития некоторых стран мира, а для оценки влияния в статье использованы методы статистического анализа, обобщения, регрессии и эконометрической оценки. макроэкономических факторов миграции.

Проанализировано, оценено современное состояние изменений в международных миграционных процессах населения в Азербайджанской Республике и получены результаты.

**Ключевые слова:** международная миграция населения, эмиграция, высококвалифицированные кадры, иммиграция, утечка мозгов, безработные, государственное регулирование.

**JEL O15, R23; UDC 331.556**

DOI: https://doi.org/10.36719/2707-9317/03/41-49

# Modern approaches to development of rural areas

**Zhala Aliyeva**
PhD in Economics,
İnstitute of Economics of the Ministry of Science and Education,
AZ1143, Republic of Azerbaijan, Baku city, 115 G. Javida avenue;
Azerbaijan University, Faculty of Economics and Management,
Baku, Nasimi district, Jeyhun Hajibeyli, 71

**Abstract:** The main goal in the development of rural areas is to raise the standard of living of the rural population and create more opportunities for socio-economic development. İn order to achieve the goals of sustainable development and to achieve prosperity in the country, sustainable development of rural areas is necessary. Currently, every country in the world is interested in the development of the rural areas.

The article discusses modern approaches and recommendations of international organizations for the development of rural areas, as well as problems and prospective opportunities related to the development of rural areas in our country. It is noted that reducing poverty is the main condition for achieving rural development. The development of rural areas in Azerbaijan requires an innovative approach, digitization, expansion of the use of alternative energy sources, electronic provision of public services, and environmental protection. İn the research, were used adopted normative documents related to socio-economic development of rural areas and reports prepared by international organizations in this direction.

**Key words:** rural areas, international organizations, well-being, standard of living of the population, digital inclusion, poverty reduction.

**JEL İ3, İ31, İ32, İ38, İ39**
**UOT 33**

# Kənd yerlərinin inkişafına müasir yanaşmalar

**Jalə Əliyeva**
iqtisad üzrə fəlsəfə doktoru,
Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutu,
AZ1143, Azərbaycan Respublikası, Bakı ş., H.Cavid pr., 115;
Azərbaycan Universiteti, İqtisadiyyat və idarəetmə kafedrası
ORCID 0000-0003-4469-6399
(+99450)6722490
jale-2015@rambler.ru

**Xülasə:** Kənd yerlərinin inkişafında əsas məqsəd kənd əhalisinin həyat səviyyəsini yüksəltmək və sosial-iqtsiadi inkişaf üçün daha çox fürsətlər yaratmaqdır. Dayanıqlı İnkişaf Məqsədlərinə çatmaq, ölkədə rifaha nail olmaq üçün kənd yerlərinin davamlı və dayanıqlı inkişafı zəruridir. Hazırda kəndin inkişafı dünya ölkələrinin hər birini maraqlandırır.

Tədqiqat işində kənd yerlərinin inkişafına dair beynəlxalq təşkilatların müasir yanaşmalarından və tövsiyələrindən bəhs edilir. Həmçinin, ölkəmizdə kənd yerlərinin inkişafı ilə bağlı problemlər və perspektiv imkanlar araşdırılır. Qeyd edilir ki, kəndin inkişafına nail olmaq üçün yoxsulluğun azaldılması başlıca şərtdir. Azərbaycanda kənd yerlərinin inkişafı innovativ yanaşma, rəqəmsallaşma, alternativ enerji mənbələrindən istifadənin genişləndirilməsi, ictimai xidmətlərin elektron təminatı, ətraf mühitin mühafizə edilməsi kimi məsələləri zəruri edir. Tədqiqatda kənd yerlərinin sosial-iqtisadi inkişafı ilə bağlı qəbul edilmiş normativ sənədlərdən, beynəlxalq təşkilatların bu istiqamətdə hazırladıqları hesabatlarından istifadə edilmişdir.

**Açar sözlər:** kənd yerləri, beynəlxalq təşkilatlar, rifah, əhalinin həyat səviyyəsi, rəqəmsal inklüzivlik, yoxsulluğun azaldılması.

**JEL İ3, İ31, İ32, İ38, İ39**
**UOT 33**

**Giriş.** “Kəndin inkişafı” geniş anlayışdır. Bu kateqoriya kənd yerlərində yaşayan, nisbətən təcrid olunmuş ərazilərdə və seyrək məskunlaşmış əhalinin də həyat keyfiyyətinin və rifahının yaxşılaşdırılmasını nəzərdə tutur. Başqa sözlə desək, kəndin inkişafı *“kənd yerlərində yaşayan əhalinin həyat keyfiyyəti də daxil olmaqla, şəhərdən kənar ərazilərin saxlanılması, böyüməsi və genişlənməsi konsepsiyasını təşviq etmək məqsədi daşıyan sosial-iqtisadi xarakterli səyləri əhatə edir”* [6].

Əvvəlki paraqraflarda qeyd etdiyimiz kimi ölkəmiz də daxil olmaqla bütün dünyada kənd yerlərində yaşayanların sayı getdikcə azalmaqdadır, proqnozlar bu tendensiyanın davam edəcəyini göstərir. Dünya əhalisinin 45%-i (3,4 mlrd. nəfər) kənd yerlərində məskunlaşmışdır, onların isə 90%-i Afrika və Asiyanın payına düşür. Hindistan (892 mln. nəfər) və Çin (569 mln. nəfər) dünyanın ən çox kənd əhalisi olan ölkələridir. Həmçinin dünyada yoxsulluqdan əziyyət çəkən hər beş nəfərdən dördü kənd yerlərində yaşayır.

Bütün dünyada kənd yerlərinin inkişafı şəhər yerləri ilə müqayisədə geri qalır. Kənd yerlərində həyat şəraitinin yaxşılaşdırılması istiqamətində tədbirlər görülsə də reallıq görülən tədbirlərin yetərsiz olduğunu deməyə əsas verir. Kənd yerləri əhalinin qocalması, şəhər ərazilərinə miqrasiya, iqlim dəyişikliyi və ətraf mühitin deqradasiyası, artan temperatur, resursların tükənməsi, maliyyəyə və bazarlara məhdud çıxış və s. kimi problemlərlə üzləşir.

Eyni vəziyyət ölkəmiz üçün də keçərlidir. Kənd yerlərinin inkişafına nail olunması iş yerlərinin əlçatanlığının təmini, aztəminatlıların həyat səviyyəsinin yüksəldilməsi, keyfiyyətli təhsil və səhiyyəyə çıxış, təmiz içməli su ilə təmin olunma, kənd yollarının bərpası və s. kimi məsələlərin həllini tələb edir.

Baxmayaraq ki, kənd yerlərində kənd təsərrüfatı əhəmiyyətli rol oynayır, lakin, yalnız bu sahənin inkişafı ilə kənd yerlərində əhalinin rifahını yaxşılaşdırmaq mümkün deyil.

Hazırda kənd yerlərinin inkişafı dünya ölkələrinin hər birini maraqlandırır. Kəndin inkişafı olmadan ölkədə ümumi rifaha nail olmağın mümkün olmaması qənaəti tədqiqatçıları bu sahədə geniş tədqiqatlar aparmağa sövq edir. Kənd yerlərində inkişafa nail olmaqla bağlı aparılan tədqiqatların əhatə dairəsi və intensivliyi artmaqdadır. Son illər kənd yerlərinin inkişafı problemlərinə tədqiqat obyekti kimi daha çox müraciət olunur. "Scopus verilənlər bazası əsasında dünyada kənd yerlərinin inkişafı ilə bağlı nəşrlərin sayının dinamikasının təhlili 2000-2021-ci illər arasında sözü gedən məsələ ilə bağlı təxminən on dəfə artım baş verdiyini göstərir" [183] .

Müxtəlif ölkələrdə kənd yerlərinin inkişafı ilə bağlı ərazinin inkişaf səviyyəsindən, potensialından asılı olaraq fərqli proqramlar həyata keçirilir, maliyyə ayrılır. Ölkəmizdə də kənd yerlərinin inkişafına nail olunması məqsədilə yoxsulluğun azaldılması, özünüməşğulluq proqramları vasitəsilə məşğulluğun artrılması, infrastruktur obyektlərinin tikilməsi istiqamətində işlər görülür. Kənd əhalisinin həyatında əhəmiyyətli rola malik olan kənd təsərrüfatının inkişafı ilə bağlı tədbirlər həyata keçirilir.

**Kənd yerlərinin inkişafına beynəlxalq təşkilatların yanaşmaları**

Kənd yerlərinin inkişafına nail olmadan Dayanıqlı İnkişaf Məqsədlərinə çatmaq mümkün deyil. Covid 19 pandemiyası qarşıya qoyulmuş məqsədlərə nail olmaqla bağlı çətinliklər yaratdı. Bu isə ölkələrdən kənd yerlərinin inkişafı ilə bağlı həyata keçirdikləri strategiyalarında mühüm dəyişikliklər edilməsini tələb edir. Hazırda beynəlxalq təşkilatlar kənd yerlərinin inkişafına böyük maraq göstərirlər. Kənd yerlərində sosial, iqtisadi və mədəni inkişafın təmini, infrastrukturun inkişafı, xidmətlərin keyfiyyətinin yüksəldilməsi ilə bağlı ölkələrə dəstək göstərirlər. Bunu həm maliyyə yardımı etməklə, həm də məsləhət və təlimatlar verməklə həyata keçirirlər. Beynəlxalq təşkilatlardan bəzilərinin kənd yerlərinin inkişafı ilə bağlı yanaşma və tövsiyələrini nəzərdən keçirək.

*BMT: "kəndin inkişafına yenidən baxılmalıdır"*

BMT-nin İqtisadi və Sosial Məsələlər Departamentinin (UNDESA) 2021-ci ildə hazırladığı "Kəndlərin İnkişafını Yenidən Düşünmək" adlı Dünya Sosial Hesabatında qeyd edilir ki, ölkələr kəndlərin inkişafı ilə bağlı həyata keçirdikləri siyasətlərini yenidən nəzərdən keçirməlidirlər. Hesabatda kəndlərin dayanıqlı inkişafı üçün müxtəlif beynəlxalq təşkilatlar, hökumətlər və digər maraqlı tərəflərin əməkdaşlığının zəruriliyi önə çəkilir. Həmçinin kənd-şəhər fərqinə son qoymağa və şəhər yaşayış səviyyəsinə çatmağa imkan verən yeni yanaşma təklif edilir və radikal ideya irəli sürülür. İdeya əvvəllər yalnız şəhərlərdə icra edilən geniş iqtisadi fəaliyyətlərin, kənd yerlərində də mümkün ola bilməsinə əsaslanır. Bunun üçün yeni rəqəmsal texnologiyaların imkanlarından istifadə etmənin, kənd təsərrüfatı ilə yanaşı qeyri-kənd təsərrüfatı sahələrini genişləndirmənin, ictimai xidmətlərə və kənd infrastrukturuna investisiyaların artırılmasının zəruriliyindən bəhs edilir.

Sənəddə kənd yerlərində tez-tez insan kapitalının itirilməsi ilə nəticələnən miqrasiyanın qarşısını alan *"in-situ urbanizasiya"*[1] konsepsiyası və təcrübəsi araşdırılır. Qeyd edilir ki, ölkələr kənd yerlərinin dayanıqlı inkişafını təmin etmək üçün daha konkret iqtisadi, sosial və ekoloji tədbirlər həyata keçirməlidirlər. Bunun üçün: *"Kənd yerlərində ərzaq və qeyri-ərzaq sahələrinə investisiya qoymağa maneələri aradan qaldırmaq, investisiyanın təşviqi üçün kənd təsərrüfatı məhsullarının qiymətlərinin stabilləşdirilməsi, daxili və xarici şərtlər nəzərə alınmaqla kənd təsərrüfat subyektlərinin qlobal dəyər zəncirində iştirak dərəcəsinin müəyyənləşdirilməsi, uzaq kənd yerlərinin daha çox yeni texnologiya ilə əhatəliliyinin genişləndirilməsi vacibdir. Həmçinin kənd yerlərinin fiziki və rəqəmsal infrastrukturuna yüksək və davamlı xərclər cəlb etmək, habelə ixtisaslı işçi qüvvəsinin kənd yerlərində qalması üçün əmək bazarının qorunmasını təmin etmək lazımdır"* [13].

COVID-19 pandemiyası yoxsulluq və bərabərsizliyi artırmaqla yanaşı, dünyada kənd yerlərinin inkişafına ciddi maneə yaratmışdır. Bununla belə, kənd yerlərində daha yaşıl və sağlam gələcək qurmaq üçün imkanlarda mövcuddur. Pandemiyanın təcrübəsi göstərdi ki, yüksək keyfiyyətli internet bağlantısı çevik iş tənzimləmələri ilə birləşdirildikdə, əvvəllər yalnız şəhər yerlərində yerinə yetirilə bilən bir çox iş kənd yerlərində də yerinə yetirilə bilər. Buna isə kənd yerlərində internetə çıxışın asanlaşdırılması ilə nail olmaq olar.

*İƏİT XXI Əsr üçün Yeni Kənd İnkişaf Paradiqması təklif edir*

İƏİT-nın 21-ci əsr üçün kənd inkişafı paradiqmasında inkişaf etməkdə olan ölkələrdə inkişafa nail

[1] *"in-situ urbanizasiya" kənd yaşayış məntəqələrinin və onların əhalisinin coğrafi yerdəyişmə olmadan özlərini şəhər və ya yarı-şəhərlərə çevirdiyi bir fenomendir.*

olmaq üçün alətlər dəstindən bəhs edilir. Alətlər dəsti səkkiz əsas komponenti özündə ehtiva edir. Təşkilat inkişaf etməkdə olan ölkələrə kənd yerlərinin inkişafı ilə bağlı həyata keçirdikləri siyasətdə bu komponentləri nəzərə almalarını tövsiyə edir. Bu komponentlər DİM hədəfləri ilə üst-üstə düşür və aşağıdakılardan ibarətdir:

*İdarəetmə*. Əgər icra imkanları zəifdirsə, ardıcıl və möhkəm strategiya kifayət etmir. Bütün səviyyələrdə idarəetmə potensialının və şəffavlığın artırılması vacibdir.

*Çoxsaylı sektorlar*. Kənd təsərrüfatı inkişaf etməkdə olan ölkələrdə əsas sektor olaraq qalır. Kənd təsərrüfatı ilə yanaşı, sənaye və xidmət sektorunun inkişafı, bu sahədə məşğulluğun artırılması təşviq edilməlidir.

*İnfrastruktur*. İnfrastrukturun təkmilləşdirilməsi inkişaf etməkdə olan ölkələrdə strategiyanın əsas hissəsi olmalıdır. Xüsusilə kənd yerlərində təhsil və səhiyyə xidmətlərinə çıxışın əlçatanlığı təmin edilməlidir.

*Şəhər-kənd əlaqələri*. Kəndlərin məhsul və xidmətlərə, yeni texnologiyalara çıxışı şəhər mərkəzlərinin fəaliyyətindən asılıdır. Kəndin inkişaf üçün kənd ərazilərinə təcrid olunmuş ərazi kimi deyil, həm kənd, həm də şəhər yerlərindən ibarət bütöv sistemin bir hissəsi kimi yanaşılmalıdır.

*İnklüzivlik*. Hökumətlər ölkədə yoxsulluğun və bərabərsizliyin həllində bütün sosial qrupları nəzərə almalı, heç kəsi kənarda qoymamalıdır.

*Gender*. Qadınların kənd yerlərinin inkişafında rolunun artırılması ilə yanaşı, onların mülkiyyət hüquqlarının tanınması və resurslara əlçatanlıq imkanlarının genişləndirilməsi də təmin edilməlidir.

*Demoqrafiya*. Əhalinin sürətlə qocalması hazırda inkişaf etməkdə olan ölkələrdə kənd yerlərinin üzləşdiyi ən aktual problemlərdəndir. Bu problemin həlli təhsil, səhiyyə və sosial müdafiə siyasətləri, eləcə də ailə planlaması arasında yaxşı əlaqələndirməni nəzərdə tutur.

*Davamlılıq*. Kənd yerlərində diqqət yalnız təbii resurslardan yüksək asılılığın azaldılmasına deyil, həmçinin iqlim dəyişikliyi, enerji, ərzaq və su qıtlığından yaranan təhlükələrə qarşı da artırılmalıdır [11].

Səkkiz komponentə əsaslanan yeni kənd inkişafı yanaşması inkişaf etməkdə olan ölkələrdə balanslaşdırılmış və davamlı inkişafa töhfə verə bilər.

*Beynəlxalq Kənd Təsərrüfatının İnkişafı Fondu (İFAD)*

Beynəlxalq Kənd Təsərrüfatının İnkişafı Fondu (İFAD) BMT-nin ixtisaslaşmış qurumudur. Fondun məqsədi inkişaf etməkdə olan ölkələrdə kənd təsərrüfatı və kənd yerlərinin inkişafına dəstək vermək və yoxsulluqla mübarizə aparmaqdır. Bunun üçün kənd təsərrüfatının və kənd yerlərinin inkişafı layihələrinin maliyyələşdirilməsini təmin edir. Xüsusilə sosial inkişaf, gender bərabərliyi, gəlirlərin artırılması, ərzaq istehsalı, ekoloji dayanıqlılıq və səmərəli idarəetməyə yönəlmiş layihələri dəstəkləyir. Həmçinin strateji planların hazırlanmasında və layihələrin icrasında da iştiak edir, ölkələrə uzunmüddətli, aşağı faizli kredit və qrant imkanları təklif edir. 177 ölkə IFAD-ın üzvüdür. Azərbaycan 1997-ci ildən IFAD-ın üzvüdür. Təşkilat Azərbaycanda 232,3 milyon ABŞ dolları dəyərində altı layihəyə dəstək verib.

Qurum 2016-cı ildə "Kəndin inkişafı" adlı hesabat hazırlamışdır. Hesabat yoxsulluğun və aclığın aradan qaldırılması və davamlı inkişaf üçün inklüziv kənd transformasiyasına (inclusive rural transformation) diqqət yetirməyə çağırış edir. Kənd transformasiyası dedikdə isə kəndlərin kənd təsərrüfatından asılılığının azaldılması və əlavə gəlir mənbələrinə çıxış imkanın yaradılması prosesi nəzərdə tutulur. Hesabatda qeyd edilir ki, "*kənd yerləri sürətlə dəyişməli, davamlı şəkildə inkişaf edən iqtisadiyyatlara daxil edilməli və ümumi rifaha töhfə verməlidir*" [7].

Həmçinin Fond 2016-2025-ci illəri əhatə edən strategiya hazırlamışdır. Bu sayca fondun 5-ci strategiyasıdır. Strategiyanın məqsədi dünyada kənd əhalisinə maliyyə dəstəyi göstərmək, yoxsulluğu azaltmaq və ərzaq təhlükəsizliiyinə nail olmaqdır. Sənəddə üç əsas strateji hədəf müəyyən edilib: "*yoxsul kənd əhalisinin istehsal imkanlarını artırmaq, bazarda iştirakdan əldə etdikləri faydanı artırmaq, iqtisadi fəaliyyətlərin iqlim dəyişikliklərinə davamlılığını gücləndirmək*" [8].

*Asiya İnkişaf Bankının kəndin inkişafı ilə bağlı tövsiyələri*

AİB-nin hazırladığı 2030-cu ilədək inkişaf strategiyasının məqsədi həddindən artıq yoxsulluğun aradan qaldırılması üçün səylərin davam etdirilməsi, firavan, inklüziv, möhkəm və davamlı Asiya və Sakit okean regionuna nail olmaqdır. Məqsədə nail olmaq üçün yeddi prioritet müəyyənləşdirilib ki,

bunlardan biri də "Kənd inkişafı və ərzaq təhlükəsizliyinin təmin edilməsi"dir. Prioritetdə kənd yerlərinin inkişafına diqqətin artırılması və kənd təsərrüfatı dəyər zənciri əlaqələrinin genişləndirilərək bazara çıxışın asanlaşdırılması nəzərdə tutulub.

Sənəddə qeyd edilir ki, *"məhsul yığımından sonrakı itkilərin azaldılması və kənd təsərrüfatında əlavə dəyər yaradılmasının təşviq edilməsi kənd gəlirlərinin artırılmasına və regionda ərzaq təhlükəsizliyinin artırılmasına kömək edəcəkdir. Qabaqcıl texnologiyalardan istifadə məhsuldarlığın artırılmasına, torpaq və su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsinə, qida təhlükəsizliyinin təmin edilməsinə və təbii ehtiyatların idarə edilməsinin təkmilləşdirilməsinə yardım edəcəkdir"* [4].

Prioritetə çatmaq üçün kənd-şəhər əlaqəsinin gücləndirilməsi, etibarlı enerji, su təchizatının təmin edilməsi, kanalizasiyaya çıxışın genişləndirilməsi və bərk tullantıların idarə edilməsi, keyfiyyətli səhiyyə və təhsil xidmətlərinin gücləndirilməsi, ekoturizmin təşviqi və kənd yerlərində kənd iqtisadi mərkəzlərin yaradılması vaibdir.

*Avropa Komissiyasının "Kənd Paktı"*

Avropa Komissiyasının sədri Ursula fon der Leyen kəndin inkişafı ilə bağlı fikrini belə ifadə edir *"kənd yerləri cəmiyyətimizin toxumasıdır və iqtisadiyyatımızın ürək döyüntüsüdür. Onlar bizim iqtisadi potensialımızın əsas hissəsidir və biz kəndlərimizi qoruyub saxlayacağıq, onların gələcəyinə sərmayə qoyacağıq"* [9].

Kənd yerlərinin mühüm rollarını davam etdirə bilməsini təmin etmək üçün Avropa Komissiyası 2040-cı ilə qədər uzunmüddətli hədəf müəyyən etmişdir. Uzunmüddətli hədəfin bir hissəsi kimi "Kənd Paktı" işə salınmış və "Kənd Fəaliyyət Planı" hazırlanmışdır.

Kənd Paktı Avropa, milli, regional və yerli səviyyədə dövlət orqanları, vətəndaş cəmiyyəti, biznes, akademik dairələr və vətəndaşlar arasında əməkdaşlığa xidmət edir. Paktın üç məqsədi var: Kəndin səsini gücləndirmək və siyasi gündəmə çatdırmaq; şəbəkə, əməkdaşlıq və qarşılıqlı öyrənmənin təmin edilməsi; könüllü öhdəliklərin təşviq edilməsi və monitorinqi [3].

**Davamlı inkişafa nail olmaq üçün kənd yerlərinin inkişafı zəruridir**

21-ci əsrdə dünyanın gələcəyi üçün imkanları baxımından kənd yerləri əhəmiyyətlidir. Demoqrafik proqnozlar 2050-ci ilədək dünya əhalisinin 9 mlrd-dan çox olacağını göstərir. Kənd yerləri artan ərzaq tələbatının ödənilməsində əsas rola malikdir. Rəqəmsallaşma, ağıllı texnologiyaların tətbiqi, kompyuterləşmə kənd yerləri üçün imkanlar yaradır. Ölkələrin sosial-iqtisadi şəraitindən, texnoloji inkişafından, mədəni xüsusiyyətlərindən asılı olaraq kənd yerlərinin inkişafına yanaşmalarında fərqlər müşahidə olunur. 2000-ci illərdən sonra isə yanaşmalarda daha çox çoxsahəlilik, sosial inklüzivlik, rəqabətli cəmiyyət, yerli tələbatın yaradılması, vahid siyasət əvəzinə yerli diferensiallaşdırılmış siyasət və strategiyalar, informasiya texnologiyalarından istifadə kimi məsələlər yer almağa başlamışdır. Hazırda ölkələrdə kənd yerlərinin inkişafı startegiyası Davamlı İnkişaf Məqsədləri (SDGs) çərçivəsində formalaşır.

**Azərbaycanda kənd yerlərində yoxsulluğun azaldılması**

Kəndin inkişafına nail olmaq üçün yoxsulluğun azaldılması başlıca şərtdir. Bütün beynəlxalq təşkilatların və hökumətlərin kəndin inkişafı ilə bağlı tövsiyələrində yoxsulluğun azaldılması ilk sıralarda yer alır. Kənd yerləri təmiz su, kanalizasiya, keyfiyyətli səhiyyə və təhsil xidmətlərinə, infrastruktura çıxışla bağlı çətinliklərlə üzləşirlər. Bu çatışmazlıqlar kənd yerlərinin inkişafına mane olur. Kənd əhalisinin yaşadığı sağlamlıq bərabərsizliyi mənfi sosial və ətraf mühit faktorları, eləcə də səhiyyə sisteminin zəif olması nəticəsində yaranır. Kənd yerlərində xidmətlərin, o cümlədən səhiyyə xidmətlərinin gücləndirilməsinin vacibliyi BMT-nin yoxsulluğun aradan qaldırılması ilə bağlı "2018-2027-ci illər üzrə Üçüncü Onillik" üçün fəaliyyət planında da vurğulanmışdır.

Qeyd etdiyimiz kimi dünyada yoxsulluq həddində yaşayanların böyük əksəriyyəti kənd yerlərində cəmləşmişdir. *2013-cü ildə gündəlik gəliri 1,90 dollardan az (ifrat yoxsullar) və ya gündəlik gəliri 1,90-3,10 dollar (orta yoxsullar) arasında gəlirlə yaşayanların müvafiq olaraq 80%-i və 75%-i kənd yerlərində yaşayır"* [5]. Almaniyanın Hanns R. Neumann Stiftung (HRNS) qeyri-kommersiya təşkilatının hesabatlarına əsasən *"kənd təsərrüfatının əsas gəlir mənbəyi olduğu kənd yerlərində yaşayan əhalinin əksəriyyəti üçün təhsil, səhiyyə və digər xərcləri ödəmək və yığım etmək çətin olur. Kənd yerlərində yaşayan əksər kiçik fermerlər ancaq yaşamaq üçün kifayət qədər pul qazanırlar"* [12]. Gəlirlərinin az olması isə onlara sosial rifahlarını təmin etməkdə çətinlik yaradır.

Respublikamızda yoxsulluq səviyyəsində 2005-ci illə müqayisədə 2022-ci ildə 23,8 faiz bəndi qədər azalma baş vermiş, başqa sözlə bu göstərici 29,3%-dən 5,5%-ə enmişdir. Yoxsulluğun səviyyəsində müşahidə edilən azalma pandemiyaya qədər davam etsədə, 2020-ci ildən etibarən yüksəlmişdir. Eyni vəziyyət kənd yerlərində də müşahidə edilir. Kənd yerlərində yoxsuluğun səviyyəsi 2020-ci ildə 7,3%-ə yüksəlmiş, sonrakı illərdə bir qədərdə artaraq 2022-ci ildə 8,6%-ə çatmışdır. Bu göstərici üzrə yaşayış yerləri üzrə fərq mövcuddur. 2022-ci ildə bu fərq 5,7 f.b. olmuşdur. Başqa sözlə şəhər əhalisinin 2,9%-i, kənd əhalisinin isə 8,6%-i yoxsulluq səviyyəsində yaşamışdır. Fərq ümumilikdə müqayisə edilən dövr ərzidə izlənilsədə son illərdə bir qədərdə dərinləşmişdir.

Kənd əhalisinin yoxsulluq səviyyəsinin xərclərə görə qiymətləndirdikdə isə yoxsulların sayının gəlirlərə görə müəyyən edildiyindən daha çox olduğu görünür (2022-ci ildə 10%).

**Azərbaycanda yoxsulluq səviyyəsi və onun dəyişilməsi**

| | 2005 | 2010 | 2016 | 2019 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|---|---|---|
| Yoxsulluq həddi, manat | 42,6 | 98,7 | 135,6 | 185,5 | 194,9 | 204,7 | 229,6 |
| Yoxsulluq səviyyəsi, faizlə | 29,3 | 9,1 | 4,9 | 4,8 | 6,2 | 5,9 | 5,5 |
| *yaşayış yerləri üzrə bölgü, faizlə* | | | | | | | |
| şəhər | - | - | 5,4 | 4,5 | 5,3 | 4,3 | 2,9 |
| kənd | - | - | 6,5 | 5,2 | 7,3 | 7,8 | 8,6 |

*Mənbə: [1] əsasında müəlif tərəfindən hazırlanmışdır.*

Təhlil göstərir ki, bütün dünyada olduğu kimi respublikamızda da yoxsulların əksəriyyəti kənd yerlərində yaşayır. *“Kənd əhalisinin torpaq mülkiyyətçisinə çevrilməsi və istehlak etdikləri məhsulları fərdi təsərrüfatlarından əldə etmə imkanının olmasına baxmayaraq, kənd yerlərində infrastrukturun aşağı səviyyədə olması, enerji, qaz və su təchizatındakı problemlər, maliyyə resursu çatışmazlığı və s. kimi məsələlər ondan istifadəni çətinləşdirir”* [2]. Həmçinin kənd yerlərinə nisbətən şəhər yerlərində xüsüsi ilə də paytaxtda gəlir əldə etmək imkanları daha yüksəkdir.

Yoxsulluq həddi göstəricisinin həcmində artım baş vermiş, 2022-ci ildə bu göstərici 229,6 manat təşkil etmişdir ki, bu da 2005-ci illə müqayisədə 5,4 dəfə çoxdur.

Fikrimizcə yoxsulluq həddinin əhalinin real tələbatlarının nəzərə alaraq müəyyən edilməsi daha məqsədə uyğundur. Həmçinin kənd yerlərində yoxsulluqla mübarizənin davam etdirilməsi zəruridir.

**Azərbaycanda kənd yerlərinin inkişaf perspektivləri**

Qeyd edək ki, ölkədə qəbul edilmiş sosial-iqtisadi inkişaf proqramları çərçivəsində regionlarda əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması ilə bağlı əhəmiyyətli tədbirlər görülmüş və müsbət nəticələr əldə edilmişdir. Bununla belə kənd yerlərinin inkişafı üçün bundan sonra da ciddi işlərin görülməsi vacibdir. Hazırda dünyadakı demoqrafik artım fonunda ərzaq təhlükəsizliyi, xüsusən də Azərbaycan üçün aktual məsələ olan su resurslarının tükənməsi təhlükəsi, enerji mənbələrinin səmərəli istifadəsi, kəndlərdə göstərilən xidmətlərin keyfiyyətinin və səmərəliliyinin artırılması kimi məsələlər “ağıllı kənd” anlayışını da aktual edir.

Kənd yerlərinin inkişafında vacib amil kimi sayılan innovativ yanaşma, rəqəmsallaşma, alternativ enerji mənbələrindən istifadənin genişləndirilməsi, ictimai xidmətlərin elektron təminatı, ətraf mühitin mühafizə edilməsi, tullantıların idarə edilməsi yeni yaradılacaq “ağıllı kənd”lərə kompleks şəkildə tətbiq olunmalıdır. Məlumdur ki, işğaldan azad olunmuş ərazilərimizdə inşa olunacaq yeni yaşayış yerləri “ağıllı kənd” konsepsiyası əsasında tikilir. Böyük Qayıdışa dair I Dövlət Proqramında mütərəqqi beynəlxalq təcrübə, dünya iqtisadiyyatının müasir çağırışları nəzərə alınıb. “Ağıllı kənd” müasir yanaşmalar fonunda yaranıb və hazırda bu konsepsiya təcrübədə həyata keçirilməkdədir. “Ağıllı kənd”lərin əhalinin həyat şəraitinin yaxşılaşdırılmasında son dərəcə əhəmiyyətli rol oynayacağı şübhəsizdir.

**Kənd yerlərində rəqəmsal inklüzivlik**

Beynəlxalq təcrübə rəqəmsal texnologiyaların kənd yerlərinin simasının dəyişdirilməsində mühüm rol oynadığını göstərir. Rəqəmsallaşma prosesi həm kənd təsərrüfatına, həm də ümumilikdə kənd yerlərinə, xüsusilə yeni və daha keyfiyyətli xidmətlərin göstərilməsinə müsbət təsir göstərir. Son illər innovasiyanın tətbiqi, rəqəmsal transformasiya ilə bağlı əhəmiyyətli işlər görülməkdədir. Müəyyən nəticələrin əldə edilməsinə baxmayaraq görülməsi vacib olan işlərin sayı da az deyil.

Respublikamızda yaşayış yerləri arasındakı mövcud rəqəmsal uyğunsuzluq xüsusən sabit infrastruktur çatışmazlığı və rəqəmsal savadlılığın aşağı olması ilə əlaqədardır. Statistik məlumatların təhlili kənd yerlərində internetə çıxışı olan ev təsərrüfatlarının payının ildən-ilə artdığını göstərir. Əgər 2018-ci ildə internetə çıxışı olan ev təsərrüfatlarının payı 71,7% idisə, 2022-ci ildə 12,1 f.b. artaraq 83,8%-ə çatmışıdır. Şəhər yeləri ilə müqayisədə kənd yerlərində internetə çıxışı olan ev təsərrüfatlarının payı dövrün əvvəlində 7,6 f.b., dövrün sonunda isə 7,8 f.b. geri olmuşdur.

**Yaşayış yerləri üzrə internetə çıxışı olan ev təsərrüfatlarının xüsusi çəkisi, %**




*Mənbə: [1] əsasında müəlif tərəfindən hazırlanmışdır.*

Kənd yerlərində mobil telefonlarla əhatə olunma səviyyəsi yüksəkdir. Sabit genişzolaqlı bağlantı şəhər yerləri ilə müqayisədə aşağı olsa belə, kənd yerləri mobil rabitə ilə nisbətən yaxşı təmin olunmuşdur. Kənd yerlərində mobil rabitə telekommunikasiyasından geniş istifadə olunur. 2022-ci ildə kənd yerlərində əhalinin 97,2%-i mobil telefonlara sahib olmuşdur. Ümumi mobil genişzolaqlı şəbəkənin əhatə dairəsi və tətbiqi yüksək olsa da, yaşayış yerləri arasında keyfiyyətli və sürətli internetdən istifadə ilə bağlı ciddi rəqəmsal uyğunsuzluq mövcuddur.

Ölkədə elektron xidmətlər həyata keçirilir, bütün nazirliklər, dövlət qurumları, yerli icra hakimiyyəti orqanları elektron hökumət portal vasitəsilə xidmət göstərir. Lakin kənd yerlərində rabitə və məlumat məhdudiyyətləri bu xidmətlərdən istifadəni məhdudlaşdırır.

Kənd yerlərində inkişafa nail olunmada rəqəmsal inklüzivliyin təmin olunması, başqa sözlə kənd yerlərinin rəqəmsallaşması əhəmiyyətli rol oynayır. Kənd yerlərinin rəqəmsallaşması sosial-iqtisadi inkişafa nail olmada yeni innovativ texnologiyalardan istifadəni nəzərdə tutur ki, bu da son nəticədə kənd yerləri üçün yeni imkanlar yaradır. Hazırda beynəlxalq təcrübədə kənd təsərrüfatı sahəsinin modernləşdirilməsi ilə kənd təsərrüfatının məhsullarının satışının gücləndirilməsi, fermer və istehsalçılar arasında əlaqələrin yaxşılaşdırılmasına nail oluna bilinib. Bu imkaların ölkəmizdə tətbiqi, fermerlərin onlayn bazarda uğurlu və səmərəli fəaliyyəti üçün rəqəmsal bacarıqlarının inkişaf etdirilməsi son dərəcə əhəmiyyətlidir.

**Nəticə.** Beləliklə, 21-ci əsrdə kənd yerləri həm çətinliklərlə, həm də imkanlarla üzləşir. Təbii resurslardan asılılıq, iqlim dəyişikliyi, iqtisadi baxımdan şəhərlə müqayisədə gerilik, internet iqtisadiyyatının qeyri-bərabər təsirləri inkişaf imkanlarını daha da məhdudlaşdırır.

Rəqəmsallaşma, texnogiyanın tətbiqinin genişləndirilməsi yaşayış yerləri arasında fərqi azaltmağa imkan yaradır.

Beynəlxalq təşkilatlar kəndin inkişafına xüsusi əhəmiyyət verirlər. İFAD inkişaf edən dünyanın başlanğıc nöqtəsinin kənd olduğunu bildirir. Təşkilatlar öz səriştə və məqsədələrinə uyğun olaraq kənd yerlərinin inkişafı üçün bəzi tösiyələr irəli sürür. Yoxsulluqla mübarizə isə əsas şərt kimi dəyərləndirilir. Azərbaycanda kənd yerlərində yoxsulluğun azaldılması ilə bağlı işlər görülsədə kənd yerləri iqtisadi imkanlar və keyfiyyətli xidmətlərə əlçatanlıqla bağlı çətinliklərlə üzləşirlər. Bu isə kənd yerlərinin davamlı və dayanıqlı inkişafını zəruri edir.

Kəndin inkişafı çoxfaktorlu məsələdir. Kənd yerlərinin davamlı və dayanıqlı inkişafı dövlət proqramlarının əsas məqsədi olmaqla yanaşı kəndlərdə infrastrukturun inkişafına nail olunması, aqrar sahədə innovasiyanın təşviqi, kənd həyat tərzinə müsbət münasibətin formalaşdırılması zəruridir.

**İstifadə olunmuş ədəbiyyat/References**


1. ARDSK. https://www.stat.gov.az/
2. Əliyeva, J. (2018). Yoxsulluğun azaldılmaası əhalinin həyat səviyyəsinin yüksəldilməsinin istiqaməti kimi // Azərbaycan Kooperasiya Universiteti, Təhsil Nazirliyi, İqtisadçılar İttifaqı, Kənd Təsərrüfatı Nazirliiyinin Aqrar Elm və İnformasiya Məsləhət Mərkəzinin təşkilatçılığı ilə Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş "Müstəqil Azərbaycan dövlətinin ərzaq təhlükəsizliyinin təmin edilməsi və aqrar sahənin rəqabətqabiliyyətliliyinin yüksəldilməsi problemləri" mövzusunda beynəlxalq elmi-praktiki konfrans, Bakı, s.928-930.
3. An official website of the European Union. https://eur-lex.europa.eu/legal-content/EN/ALL/?uri=comnat:COM_2024_0450_FIN (17.04.2024).
4. Asian Development Bank. Strategy 2030 Operatıonal Plan for Priority 5: Promotıng rural development and food securıty, 2019-2024. https://www.adb.org/sites/default/files/institutional-document/495971/strategy-2030-op5-rural-development-food-security.pdf (24.02.2024).
5. Castañeda and others (2018). A New Profile of the Global Poor. World Development, vol. 101, pp. 250-267.
6. Christopher L. Atkinson, (2017). University of West Florida. Global Encyclopedia of Public Administration, Public Policy, and Governance. DOI:10.1007/978-3-319-31816-5_1014-1
7. İFAD. Rural Development Report 2016. Fostering inclusive rural transformation. https://www.ifad.org/documents/38714170/39155702/Rural+development+report+2016.pdf/347402dd-a37f-41b7-9990-aa745dc113b9 (07.01.2024).
8. İFAD. Strategic Framework 2016-2025. Enabling inclusive and sustainable rural transformation. https://www.ifad.org/documents/38714170/40237917/IFAD+Strategic+Framework+2016-2025.pdf/d43eed79-c827-4ae8-b043-09e65977e22d?t=1521824856000 (11.02.2024).
9. Europen Comission. A long-term Vision for the EU's Rural Areas - Towards stronger, connected, resilient and prosperous rural areas by 2040. https://eur-lex.europa.eu/legal-content/EN/TXT/HTML/?uri=CELEX:52021DC0345 (14.03.2024).
10. Marina S. Petukhova, Evgeny V. Rudoy, Nadezhda V. Orlova. (2023). "Key trends of rural development in the world and their projection on Russia," Russian Journal of Economics, ARPHA Platform, vol. 9(4), pages 336-350, December. https://rujec.org/article/109490/download/pdf/955192
11. OECD (2016). A New Rural Development Paradigm for the 21st Century: A Toolkit for Developing Countries, Development Centre Studies, OECD Publishing, Paris. http://dx.doi.org/10.1787/9789264252271-en (21.02.2024).
12. Hanns R. Neumann Stiftung (HRNS). Towards a Living Income in Rural Areas https://www.hrnstiftung.org/muddy-boots/towards-a-living-income-in-rural-areas (19.03.2024).
13. World Social Report 2021 Reconsidering Rural Development. https://socialprotection.org/discover/publications/world-social-report-2021-reconsidering-rural-development (10.01.2024).

# Современные подходы к развитию сельской среды

**Жаля Алиева**
доктор философии по экономике,
Институт Экономики Министерства Науки и Образования,
AZ1143, Азербайджанская Республика, город Баку, проспект Г.Джавида, 115;
Азербайджанский Университет, Факультет Экономики и Управление,
Баку, Насиминский район, Джейхун Гаджибейли, 71

**Резюме:** Основной целью развития сельских территорий является повышение уровня жизни сельского населения и создание дополнительных возможностей для социально-экономического развития. Для достижения целей устойчивого развития и достижения процветания в стране необходимо устойчивое и устойчивое развитие сельских территорий. В настоящее время каждая страна мира заинтересована в развитии села.

В статье рассматриваются современные подходы и рекомендации международных организаций по развитию сельских территорий, а также проблемы и перспективные возможности, связанные с развитием сельских территорий в нашей стране. Отмечается, что сокращение бедности является основным условием достижения развития села. Развитие сельских территорий в Азербайджане требует инновационного подхода, цифровизации, расширения использования альтернативных источников энергии, электронного предоставления государственных услуг и защиты окружающей среды. В исследовании использованы принятые нормативные документы, касающиеся социально-экономического развития сельских территорий и отчеты, подготовленные международными организациями в этом направлении.

**Ключевые слова:** сельская местность, международные организации, благосостояние, уровень жизни населения, цифровая инклюзивность, сокращение бедности.

**JEL İ3, İ31, İ32, İ38, İ39**
**UOT 33**

DOI: https://doi.org/10.36719/2707-9317/03/50-57

# Social effects and aspects of education

**Gunay Aliyeva**
Azerbaijan Technical University
"Economics and statistics" department
PhD in economics, associate professor
Email: gunay.aliyeva@aztu.edu.az
Phone: 055 292 98 19
ORCID-ID : 0000-0001-8145-6488

**Abstract:** In the article, the social effects and aspects of education are investigated and directions for their improvement are justified. In addition, what does social learning mean in education, what are the ways of social learning, the impact of the human development index on education, what is the level of gender equality in education in our country, education and research, etc. such issues are reflected in the article.

**Key words:** social learning, human capital, social aspect, education and welfare, gender inequality in education, formal and non-formal education, educated person and social integration.

# Təhsilin sosial təsirləri və aspektləri

**Günay Əliyeva**
Azərbaycan Texniki Universiteti
"İqtisadiyyat və statistika" kafedrası
iqtisad üzrə fəlsəfə doktoru, dosent
Email: gunay.aliyeva@aztu.edu.az
Tel: 055 292 98 19
ORCID-ID : 0000-0001-8145-6488

**Xülasə:** Məqalədə təhsilin sosial təsirləri, aspektləri araşdırılmış və onların təkmilləşdirilməsi istiqamətləri əsaslandırılmışdır. Əlavə olaraq təhsildə sosial öyrənmə nə deməkdir, sosial öyrənmənin hansı yolları mövcuddur, insan inkişaf indeksinin təhsilə aid təsiri, ölkəmizdə təhsildə gendər bərabərliyi hansı səviyyədədir, təhsil və tədqiqata çəkilmiş və s. kimi məsələlər öz əksini məqalədə tapmışdır.

**Açar sözlər:** sosial öyrənmə, insan kapitalı, sosial aspekt, təhsil və rifah, təhsildə gender bərabərsizliyi, forma və qeyri formal təhsil, təhsilli insan və sosial interqrasiya.

**Giriş**

Təhsil dedikdə nə başa düşülür? İlk öncə bu suala cavab tapmaq lazımdır. Təhsil insanda biliyin, bacarığın və xarakterin formalaşdırılmasının önəmli vasitəsidir. Onun dəqiq tərifi yoxdur. Bəzi tədqiqatçılara görə təhsil hər hansı bir məqsədə çatmaq hədəfi, bəzi tədqiqatçılara isə təhsil insanlarda mədəni dəyərləri və normaları formalaşdıran bir vasitədir. Bu fikir ayrılıqları təhsil formalarının müəyyən edilməsinə, ölçülməsinə və təkmilləşdirilməsinə təsir göstərir. Bildiyiniz kimi, təhsil formal və qeyri formal olmaqla iki yerə ayrılır. Formal təhsil dedikdə bildiyimiz dövlət məktəbləri nəzərdə tutulur. Qeyri-formal təhsil isə təcrübələr vasitəsilə, empirik yanaşmalarla strukturlaşdırılmış öyrənmə sistemidir.

Təhsil cəmiyyətdə, o cümlədən sosial, iqtisadi və siyasi sahələrdə müxtəlif rol oynayır. Sosial müstəvidə təhsil sabit cəmiyyətin qurulmasında və inkişafında öz dəstəyini göstərir. Yəni, insanlara ətraf mühitlə qarşılıqlı əlaqədə olmaq və ehtiyac istəklərini yerinə yetirmək üçün lazım olan əsas bacarıqları əldə etməyə kömək edir. Eyni zamanda təhsil fərdlərin sosial, psixoloji və rifahının yüksəldilməsi üçün mühüm mexanizmdir. Təhsil, həmçinin sağlam həyat tərzini, fərdi inkişafı, şəxsi münasibətləri, ailə və cəmiyyətin rifahını dəstəkləmək və inkişaf etdirməyə kömək edir.

Təhsil vasitəsilə hər bir fərd başqalarına xidmət göstərmək üçün lazım olan texniki və analitik bacarıqlara yiyələnirlər. Təhsil insanlara cəmiyyətin məhsuldar üzvləri olmasına kömək göstərən iqtisadi artımı stimullaşdıran və yoxsulluğu azalda bilən vasitədir. Daha fərdi səviyyədə yanaşsaq görərik ki, təhsil şəxsi inkişafı təşviq edən vasitədir. Şəxsi inkişafa yeni bacarıqların öyrənilməsi, istedadların üzə çıxarılması, yaradıcılığın təşviqi, mövcud problemlərin həlli, qərar qəbul etmə bacarıqlarının təkmilləşdirilməsi kimi amillər daxildir. Şəxsi inkişaf əlavə olaraq rifaha müsbət təsir göstərir.

**Əsas mətn**

Müasir cəmiyyətdə təhsilin əhəmiyyəti böyükdür. İndiki nəslin daha yaxşı iş imkanlarına nail olmaq və özlərini daha yaxşı vətəndaşa çevirmək üçün təhsilə ehtiyacı vardır. Müasir cəmiyyətin yaratdığı poblemlər əlbətdəki təhsilli insan tərəfindən həll edilir.

Təhsil bəlkə də bəşəriyyətin tərəqqisi və yoxsulluğun aradan qaldırılması üçün ən mühüm vasitədir. Təhsil vasitəsi ilə hər bir fərd öz rifahını, təhlükəsizliyini, siyasi, iqtisadi, sosial, inzibati və mədəni inkişafını təmin edə bilər.

Sosial inkişafda təhsil mühüm rol oynayır. Yalnız təhsil vasitəsilə müxtəlif sosial dəyərlər, inanclar, ideallar, mədəni irs haqqında biliklər insana aşılanır və nəticədə insan ictimailəşməyə doğru irəliləyir. Təhsil sayəsində inkişaf etmiş və sistemli bir cəmiyyət fomalaşır. Hər bir bilik bir nəsildən digərinə ötürülür və proses zamanı yeni faktlar, biliklər nəsillər arası mübadilə olunur. Bu proses

davamlı olaraq baş verir və sonda sosial öyrənmə kimi yeni fikirin yaranmasına səbəb olur. Bəs "sosial öyrənmə" özü nədir?

"Sosial öyrənmə" ənənəvi tədris metodunun tam əksi olan öyrənmə metodudur. O, biliklərin ikitərəfli mübadiləsinə və öyrənmə qrupunun üzvləri arasında mübadilə nəticəsində təkmilləşən biliyin ötürülməsinə əsaslanan tədris metodudur. Bir sözlə, sosial öyrənmə başqaları ilə öyrəmə metodudur. Sosial öyrənməni təsvir etmək üçün istifadə oluna bilən bir neçə termin var, məsələn, "həmyaşıd öyrənmə" və "birgə öyrənmə". Sosial öyrənmə metodu 1960-1970-ci illərdə görkəmli sosial psixoloq olan kanadalı tədqiqatçı Albert Bandura tərəfindən hazırlanmış "nəzəriyyə"-dir.

Sosial öyrənmə 4 unikal prosesi əhatə edir:

- ✓ **Diqqət**, (yəni müşahidə) öyrənən şəxsə ona lazım olan məlumata doğru zamanda və yerində köklənməyə imkan verən bir fəal prosesdir;
- ✓ **Saxlama**, seçilmiş faydalı məlumatlar içərisindən istər zehni təsvirlər, istərsə də fiziki təkrarlar vasitəsilə əsas məqamların saxlanması;
- ✓ **Reproduksiya**, praktika vasitəsilə hər hansı biliyin əldə olunması;
- ✓ **Motivasiya,** daim öyrənməyə təşviq edən stimul və yaxud psixoloji hal.

Yuxarıda qeyd olunmuş sosial öyrənmənin dörd növü təhsilin nə dərəcədə insanların davamlı və dayanıqlı inkişafında mühüm rol oynadığına dəlalət edir. Təhsil müasir həyat tərzinin inkişafına və eləcədə xurafata, ənənəvi inanclara qarşı mübarizə apara bilən münasibətlərin inkişaf etdirilməsində böyük rol oynayır. Təhsil cəmiyyətdə dəyişiklik istəyi yaradır çünki, insanlara dəyişiklikləri qəbul etdirmək təhsilin ilkin funksiyasıdır.

BMT tərəfindən qəbul olunmuş Minilliyin İnkişaf Məqsədləri bəyannaməsində vurğulandığı kimi (Hamı üçün Təhsil (Education For All-EFA) vasitəsilə ümumi, pulsuz və zəruri ibtidai təhsilin həyata keçirilməsi bəşəriyyətimizin əsas hədəfidir. Amma (EFA)-ya nail olmaq üçün bir çox maneələr hələdə qalmaqdadır misal olaraq, bəzi milli hökumətlər tərəfindən təhsilə üstünlük verilməməsi, ÜMM-lun faizinin qeyri-adekvat bölüşdürülməsi və beynəlxalq ictimaiyyətin effektiv fəaliyyət göstərməməsi daxildir. Dünyada davam edən yoxsulluq, uşaq əməyində sui-istifadə, gender bərabərsizliyi kimi mənfi sosial amillərin hələ də mövcudluğu uşaqların məktəblərə getməsinə əngəl törədir. Bu kimi əngəlləri aradan qaldırmağın ən yaxşı üsulu təhsilin cəmiyyətdəki aspektlərini araşdırmaqdır.

Təhsilin **sosiallaşma, sosial inteqrasiya, sosial yerləşmə və sosial - mədəni innovasiya** kimi aspektləri mövcuddur. Hər bir aspektin özünəməxsus xarakterik xüsusiyyəti mövcuddur. Bəlkə də təhsilin ən mühüm aspekti ***sosiallaşmadır.*** Sosiallaşma aspektində təhsil alanlar lazım olan normaları, dəyərləri və bacarıqları öyrənməlidirlər ki, cəmiyyətdə fəaliyyət göstərə bilsinlər. Bunun üçün də, təhsil əsas vasitədir. Təhsil müəssisələri hamımızın bildiyimiz kimi, üç R-ni (Rigor, Relevance, Relationships) yəni sərtlik, uyğunluq və əlaqələr öyrədir. ABŞ-da bu norma və dəyərlərə hakimiyyətə hörmət, vətənpərvərlik, punktuallıq, fərdiyyətçilik və rəqabət daxildir.

Təhsilin ikinci aspekti ***sosial inteqrasiyadır.*** Bu aspektə görə cəmiyyətin inkişafı üçün insanlar ümumi inanc və dəyərlər toplusuna qoşulmalıdırlar. Bu gün ABŞ-da minlərlə mühacir gənc ingilis dilini, ABŞ tarixini və Amerika həyatına inteqrasiya etməyə kömək edən digər fənləri öyrənirlər.

Təhsilin üçüncü aspekti ***sosial yerləşdirmədir***. Bu aspekt kapitalist cəmiyyətinin sinfi sisteminə töhfə verir. Sosiologiyada sosial yerləşdirmə uşaqların doğulanda valideynlərinin sosial kimliyini miras alması fikridir. Uşaqlar üçün irq, din və sinif kimi sosial sərhədləri aşmaq olduqca çətindir. Valideynləri kasıb olduğu üçün kasıb doğulan uşaqların təhsilə, resurslara və imkanlara çıxışı məhduddur. Varlı doğulan uşaqların varlı qalma ehtimalı var, çünki sərvət adətən nəsillər boyu miras olaraq qalır. Təhsil vasitəsilə sosial vəziyyəti yaxşılaşdırmaq imkanı da cəmiyyətin mühüm funksiyasıdır. Lakin bir çoxları erkən təhsildə sosial yerləşdirmənin böyük qüsurlu olduğunu iddia edirlər. Buna səbəb kimi iqtisadi tənəzzülü, siyasi çəkişmələri, təhsil xidmətlərinin qiymətinin bahalı olmasını, irqi və cinsi ayrı seçkiliyin olmasını gətirmək olar. Lakin qeyd etmək lazımdır ki, sosial yerləşdirmə gənc nəslin gələcəyini proqnozlaşdırmaq üçün daha böyük imkanlar verə bilər.

Təhsil sürətli iqtisadi inkişafa, azadlıq, sosial ədalət və bərabər imkanlar dəyərlərinə əsaslanan sosial nizamın yaradılmasında ən mühüm amildir. O, iqtisadiyyatın bütün sahələri üçün maddi və insan resurslarını inkişaf etdirir, nəticədə cəmiyyətdə arzu olunan dəyişikliyi yaradır. Aparılmış

mikroiqtisadi və makroiqtisadi tədqiqatlar, xüsusilə, təhsil və məhsuldarlıq arasındakı əlaqəni (bir-biri ilə uzlaşan) və beləliklə, təhsilin gəlir və sərvətə təsirini üzə çıxarmışdır. Həmçinin qeyd edilir ki, təhsil və iqtisadi rifah bir-biri ilə bağlıdır və əlaqə müsbət korreliyasiyadır. Təhsil və iqtisadi rifah arasında iki növ mövcuddur:

1. Təhsil iqtisadi inkişafa töhfə verir, öz növbəsində insanların əldə etdiyi imkanları genişləndirərək insan inkişafını sürətləndirir;
2. İqtisadi artım istehsalın mövcud strukturunun yenidən təşkilinə gətirib çıxarır ki, bu da öz növbəsində müxtəlif bacarıqlara tələblər yaradır.

İnsan kapitalının müəyyənedici elementi sayılan təhsil əmək məhsuldarlığını, yaşayış səviyyəsini yaxşılaşdıran, iqtisadi artımı yüksəltdən üsul hesab olunur. Təhsil müxtəlif yollarla fərdi bacarıqların inkişafına kömək edir, buna görə də həm daxili, həm də instrumental dəyərə malikdir. Təhsilli insan sosial və iqtisadi həyatda daha yaxşı şəkildə iştirak edə bilər. Savadlı insan fərdi və ictimai həyatın müxtəlif problemlərini dərk edə və bununla da onların həlli üçün müvafiq qərarlar qəbul edə bilər. Məhşur iqtisadçı və nobel mükafatçısı Amartya Senin fikrincə, insan inkişafı təhsil imkanları baxımından üç mühüm yanaşmanı ehtiva edir. Bunlar: (I) instrumental rol, (II) səlahiyyətlərin artırılması rolu və (III) yenidən bölüşdürmə rolu. Aparılmış araşdırmalar nəticəsində sübut olunmuşdur ki, hər üç yanaşmanın təsiri nəticəsində təhsil sahəsində sağlam düşüncə güclənmiş və təhsilin demokratiya ilə əlaqəsinin sıx olunduğu isbatlanmışdır.

İqtisadi modellərdən istifadə edən empirik tədqiqatların irəliləməsi ilə təhsilin iqtisadi artım və rifah üçün əsas amil olduğu üzə çıxmışdır. Neoklassik nəzəriyyə hesab olunan ekzogen artım modeli və ekzogen azalan modellərində təhsilin rifah və iqtisadi artıma təsir etdiyi sübut olunmuşdur. Beləki, endogen inkişaf modellərində texnoloji inkişaf və insan kapitalı mərkəzi rol oynamış, endogen artım modelinə görə insan kapitalı təhsil və iş yerlərində təlim vasitəsilə akkumulyasiya olunaraq əməyin məhsuldarlığını artırır. Təhsil, rifah və sağlamlıq yaşayış üçün vacib komponentlərdir. Nəticə olaraq, xalqın rifah ölçüsü ilə bağlı bütün irəliləyişləri nəzərə alaraq, iqtisadi elmdə insanın rifahının ənənəvi olaraq qazanc və zənginliyə bağlı olması fikri dayanır. Təhsil inkişaf üçün vacib investisiya hesab olunur. Çünki güclü təhsil kapitalı təhsilə yatırılan investisiyanın gəlirliyini artırır. Bu da aşağıda qeyd olunanları özündə ehtiva edir.

- ✓ Sağlam olmaq təhsildə yaxşı iştirak etməkdir;
- ✓ Sağlam şagird daha effektiv öyrənəndir;
- ✓ Ömür uzunluğu təhsilin gəlirliyini artırır;
- ✓ Sağlam insanların təhsilə kapitalı daha az amortizasiya olunur;
- ✓ İctimai səhiyyə proqramları məktəbdə qazanılmış biliyə möhtacdır;
- ✓ Əsas və ya sadə gigiyena, sanitar qaydalar məktəbdə öyrədilir;
- ✓ Səhiyyə heyətinin bilikləri də təhsil sistemində qazanılır.

Yuxarıda qeyd olunanları cədvəl halında qeyd etsək görərik ki, yuxarı gəlirli ölkələrdə təhsilə yatırılan investisiya böyük olduğundan rifah halının da faiz göstəriciləri yüksək olur.

**Sxem 1. Təhsil və rifah**




| | Təbii kapital | | Fiziki kapital | | "Görünməz" kapital | |
|---|---|---|---|---|---|---|
| | a/b həcmi, min . $ | Xüsusi çəkisi | a/b həcmi, min . $ | Xüsusi çəkisi | a/b həcmi, min . $ | Xüsusi çəkisi |
| **Aşağı gəlirli ölkələr** | 2.3 | 17.4% | 0.9 | 6.8% | 3.5 | **26.5%** |
| **Yuxarı orta gəlirli ölkələr** | 14.1 | 8.2% | 14.3 | 8.4% | 57.8 | **33.8%** |
| **Yuxarı gəlirli ölkələr** | 10.9 | 0.9% | 98.6 | 8.5% | 473.8 | **40.7%** |

**Mənbə:** müəllif tərəfindən hazırlanmışdır.

Sxem 1-də qeyd olunduğu kimi təhsil insan kapitalı, yüksək məhsuldarlıq, iqtisadi inkişaf və rifah ilə ölçülür. İnsan kaiptalı özü isə təbii, fiziki və görünməz kapitala ayrılır. Aşağı gəlirli ölkələrdə təbii kaiptalın həcmi 2.3 min dollardısa, yuxarı gəlirli ölkələrdə isə hər üşü kapitalın həcmi daha çoxdur. Çünki yuxarı gəlirli ölkələr daha çox insan kapitalının inkişafına investisiya yatırırlar və bu tipli ölkələrdə insan inkişaf indeksi daha yüksəkdir. Bəs Azərbaycan Respublikasında vəziyyət necədir? Təhsil və tədqiqat işləmələrinə nə qədər illər ərzində xərc çəkilməkdədir?

**Qrafik 1.**

**Tədqiqat və işləmələrə çəkilən ümumi xərclər, min manat**




Mənbə: www.stat.gov.az

Aparılmış araşdırmalar nəticəsində müşahidə edə bilərik ki, tədqiqat və işləmələrə çəkilən ümumi xərclər 2022-ci ildə Azərbaycan Respublikasında 204238,2 min manat təşkil etmişdir. Yəni əvvəlki illər ilə müqayisədə xeyli dərəcədə artma müşahidə olunmuşdur. Bu da son dövlərdə elmə marağın olması ilə əlaqədardır.

İnsan İnkişafı İndeksi (İİİ) insan inkişafının əsas ölçüləri üzrə orta nailiyyətlərin ümumi ölçüsüdür: uzun və sağlam həyat, bilikli olmaq və layiqli həyat səviyyəsinə malik olmaq. İİİ üç ölçüsün hər biri üçün normallaşdırılmış indekslərin həndəsi ortasıdır. Təhsil indeksi iki hissədən ibarətdir: böyüklərin savadlılığı və üç təhsil səviyyəsinin məktəbə qəbul səviyyəsi. İkisinin hər biri üçün bir indeks müəyyən edilir. İki indeksin birləşdirilməsi böyüklərin savadlılığının üçdə iki pay indeksinə və üçdə biri təhsildə əhatə dərəcəsinə əsaslanır. ÜDM indeksinə alıcılıq qabiliyyəti paritetində adambaşına düşən ÜDM daxildir. İİİ (insan inkişafı indeksi) bu üç indeksin sadə orta göstəricisi kimi hesablanır, onun dəyərləri tərsinə inkişaf dərəcəsini göstərir.

Azərbaycanın 2022-ci il üçün İİİ dəyəri 0,760 təşkil edir ki, bu da ölkəni 193 ölkə və ərazi arasında 89-da yerləşdirərək Yüksək insan inkişafı kateqoriyasına daxil edir.1995-2022-ci illər arasında Azərbaycanın İİİ dəyəri 26,7 faiz dəyişərək 0,600- dən 0,760-a dəyişib.

1995-2022-ci illər arasında Azərbaycanda doğulanda gözlənilən ömür uzunluğu 11,2 il, gözlənilən təhsil illəri 1,2 il, orta təhsil müddəti isə 0,6 il dəyişib. Azərbaycanda adambaşına düşən ÜDM 1995-2022 -ci illər arasında təxminən 413,7 faiz dəyişib.

**Qrafik 2.**




Mənbə: https://hdr.undp.org/data-center/specific-country-data

Təhsilin sosial aspektləri arasında qeyd olunan sosial interqrasiyanın tərkibinə gender bərabərliyi amili xüsusi yer tutmaqdadır. Yəni təhsildə cinsindən asılı olmayaraq bütün tələbələr üçün bərabər imkan və hüquqlar təmin edilməlidir. Tədqiqatlar göstərir ki, aşağı gəlirli ölkələrdə qadınların yalnız 62%-i savadlıdır, kişilərin savadlılıq səviyyəsi isə 81%-dir. Bu statistika təhsilə çıxışla bağlı kəskin gender bərabərsizliyinə işarə edir. Qadınların təhsil imkanlarını yaxşılaşdırmaq üçün boşluqların harada və nə üçün olduğunu başa düşmək lazımdır. Birləşmiş Millətlər Təşkilatının məlumatına görə, hələ də məktəbə getməyən 130 milyon qız var və daha milyonlarla qız keyfiyyətli təhsil ala bilmir. Maliyyə yardım proqramları həmçinin ailələrin təhsil haqqı yüklərini azaltmağa kömək edir. Eyni zamanda, mentorluq təşəbbüsləri gənc qızlara bu cür maneələrə baxmayaraq uğur qazanmış nümunələr verməklə onları məktəbdə qalmağa təşviq edir. Həqiqətən də, keyfiyyətli təhsilin mövcudluğu cinslər arasında fərqlərin azalmasına əhəmiyyətli dərəcədə təsir göstərə bilər. Çünki bu, qadınlara iqtisadi cəhətdən müstəqil olmağa imkan verən bilik və bacarıqlara çıxış imkanı verir və bununla da onların həyatları və gələcəkləri ilə bağlı qərar qəbul etmək qabiliyyətini artırır. Təhsil gender əsaslı bərabərsizliyin azaldılmasında başqa mühüm məqsədə xidmət edir: qadınlara zülmkar təcrübələrə və onlara qarşı ədalətsizliyi davam etdirən mədəni normalara etiraz etmək üçün onlara səlahiyyət verir. Qadınlar öz hüquqlarını öyrənməklə və akademik uğur vasitəsilə artan inam qazanmaqla özlərini daha effektiv müdafiə edə bilərlər. Eynilə, qızlar lazımi məktəb təhsili aldıqda, onlar cəmiyyətdə nüfuzlu mövqelər tutmaq və digər qadınlar üçün müsbət dəyişiklik etmək üçün lazım olan liderlik bacarıqlarını inkişaf etdirirlər.

Bəs Azərbaycanda sosial aspekt sayılan gender bərabərliyi necə təşviq olunur? Bu sual cavab tapmaq üçün ilk öncə qanunvericiliyin olub-olmamasını bilmək lazımdır. Azərbaycan təhsildə gender bərabərliyini təşviq edən qanun 2006-cı ildə qəbul edilmişdir. qanunlar qəbul etmişdir. Qanunda həm kişi, həm də qız tələbələr üçün bərabər hüquq və imkanları vurğulanır.

Azərbaycanda 2005-2023-cü illərin statistikasına nəzər salsaq görərəik ki, ali təhsil müəssisələrində təhsil alan tələbələrin sayı son 10 ildə çoxalmışdır. Belə ki, 2005-ci ildə 129,9 min nəfər idisə bu göstərici artaraq 2023-cü ildə 222,8 min nəfərə çatmışdır.

**Qrafik 3.**

**Ali təhsil müəssisələrində təhsil alan tələbələrin sayı**




**Tədqiqat və işləmələrlə məşğul olan heyətin cins üzrə bölgüsü (ilin sonuna)**




**Q** 119.7

Mənbə: www.stat.gov.az

Qrafik 3-də həmçinin tədqiqat və işləmələrdə məşğul olan heyətin 2022-ci il üzrə cins bölgüsü qeyd olunmuşdur. Son illərdə tədqiqat işlərində daha çox payı qadınlar tutmaqdadır. Yəni son 10 ildə qadınların sayı 9395 min nəfərdən, 11770 min nəfərə çatmışdır. Kişilərin sayında isə əksinə azalma müşahidə olunmuşdur. Yəni 8769 min nəfərdən 8105 min nəfərə enmişdir. Kişilərin elmi tədqiqat işlərinə cəlb olunmasında azalmanın əsas səbəbi maaş azlığı, elmi tədqiqat laboratoriyaların sayının məhdud olması, sosial həyatda baş verən bəzi nöqsanların olmasını göstərə bilərik.

Elmi tədqiqat işləri ilə məşğul olan təşkilatların sektorlar üzrə faiz ilə bölgüsünə nəzər salsaq görərik ki, ölkəmizdə 62,2%-i dövlət sektoru təşkil etməkdədir. Ali təhsil sektoru bu bölgüdə 27,6%-i təşkil edir. 5,2 % isə sahibkarlıq sektorunun payına düşməkdədir. Qrafik 4-də bunu müşahidə edə bilərik.

**Qrafik 4.**

**2022-ci ilin sonuna tədqiqat və işləmələri yerinə yetirən təşkilatların sektorlar üzrə faizlə bölgüsü**




*Mənbə: www.stat.gov.az*

Məqaləmizin əvvəlində təhsilin aspektləri haqqında məlumatlar qeyd edilmişdir. Bəs təhsilin sosial təsirləri necə yaranır? Hansı göstəricisiləri mövcuddur? Təhsilin sosial həyatımıza əsas təsiri ondan ibarətdir ki, təhsil cəmiyyətdə yaranan hər hansı bir böhrana səbəb ola bilər. İndiki dövrdə təhsilin rolu və əhəmiyyəti daha fərqlidir. Yəni 21-ci əsrin təhsildə əsas iki dimamika mövcuddur: biri diffuziya edilmiş informasiya texnologiyaları, digəri isə insan kapitalın iqtisadi qloballaşmaya çevrilməsi. Qloballaşma dövründə yaşadığımız üçün aldığımız informasiyalar tez-tez dəyişilməyə məruz qalır yəni onlar əvvəlki aktuallığını itirmiş olur. Artıq elmi biliklərin bu şəkildə dəyişilməsi “bilmək”, “səriştəli olmaq” və “öyrənmək” kimi ənənəvi anlayışların özünü belə sual altına qoyur: yəni 21-ci əsrdə artıq kimsə nəyisə tam şəkildə bilməyinə arxayın ola bilmirik. Təhsilin səviyyəsi insanların sağlamlığına, siyasi fəaliyyətinə, klassik musiqi qavrayışına, sosial bağlılıqlarına, intizamlılığına və s. təsir göstərir.

İnsan inkişafında təhsilin rolu iki istiqamətdə aparılır. Birinci istiqamət təhsilin insan potensialının artırılmasına təsiri, ikinci istiqamət isə təhsilin insan kapitalının yaradılmasında rolu.

Təhsilin sosial təsirlərini yaradan əsas istiqamətlər bunlardır:

- Təhsilin xalis iqtisadi dəyəri;
- İbtidai, orta, ali və qeyri-formal təhsilə edilən investisiyalar;
- Təhsilin əmək qüvvəsinin məhsuldarlığına təsiri;
- Təhsilin iqtisadi artımla əlaqəsi;
- Təhsil və siyasət;
- Təhsil və sosial inkişaf;
- Təhsil və bərabərlik.

Hər effektiv icrası 3 istiqamətdə aparılır:

1. Biliklərin əldə edilməsi
2. Biliklərin emalı
3. Biliklərin ötürülməsi.

Dünya müasir təhsil sistemi 3 modeldən ibarətdir.

1. İngilis modeli (yəni liberal model) burada tələbələr əsasən intellektual qabiliyyətlərə və xüsusi şəxsi keyfiyyətlərə malik yetişdirilirlər.

2. Fransız modeli yəni elmi fəaliyyətin ali təhsil müəssisəsi “daxilində” və “xaricində” aparılması.
3. Alman modelində əsas diqqət elmi tədqiqatlara verilir. Burada iki növü seçilir: bunlardan birincisi akademik, ikincisi isə peşəkar təhsil.

**Nəticə**

Beləliklə məqalədə apardığımız tədqiqata əsaslanaraq deyə bilərik ki, yüksək keyfiyyətli təhsil və əmək bazarının tələblərinə cavab verən peşəkar hazırlıq insanlara layiqli məşğulluq, öz potensialını tam inkişaf etdirərək həyata keçirmək, əməyin məhsuldarlığını artırmaq imkanı verir, daxili və xarici sərmayələr üçün münbit şərait yaradır, əmək gəlirlərinin yüksəlməsi, cəmiyyətdə ədalət və bərabərliyin təmin edilməsi, uşaq ölümlərinin azaldılması və sair üçün zəmin yaradır. Müasirləşən cəmiyyətlərdə bilik və bacarıqlar kapital sayılır və iqtisadiyyatın əsas resursuna çevrilir. İntellektual işçilərin üstünlük təşkil etdiyi cəmiyyət insanların ictimai fəaliyyətinə və sosial məsuliyyətinə də yeni tələblər irəli sürür və beləliklə “təhsilli insan” anlayışı da yeni məna kəsb edir. Təhsil hər bir ölkənin insan inkişafı və dövlətin gələcəyi üçün vacibdir. Biz artıq elə bir sürətlə dəyişən dövrdə yaşayırıq ki, təhsil sahəsində atılan addımlar kəmiyyətə deyil, keyfiyyətə yönləndirilir.

**İstifadə olunmuş ədəbiyyat**


1. Deneulin, S.&. Shashani, L.(2009). *An Introduction to the Human Development and Capability Approach,* IDRC, Londra
2. Sen, A. (1997). ‘*Human capital and human capability’*, World Development, vol. 25, nr. 12.
3. Azərbaycan Respublikasında təhsil siyasətinə dair müxtəlif dövlət proqramları və qanunvericilik aktları
4. BMTİP Azərbaycan. İnsan İnkişafı. Dərslik (sınaq nüsxəsi). Bakı - 2013
5. https://www.adb.org/sites/default/files/institutional-document/32448/cga-azerbaijan-az.pdf
6. https://www.unesco.org/en/gender-equality/education
7. www.stat.gov.az
8. https://worldpopulationreview.com/country-rankings/hdi-by-country
9. https://hackscience.net/2020/02/14/social-aspects-of-learning/
10. https://www.theglobaleconomy.com/Azerbaijan/human_development/


# Социальные эффекты и аспекты образования


**Гюнай Алиева**
Азербайджанский Технический Университет
Кафедра «Экономика и статистика»
Кандидат экономических наук, доцент
Электронная почта: Gunay.aliyeva@aztu.edu.az
Телефон: 055 292 98 19
ORCID-ID: 0000-0001-8145-6488



В статье исследуются социальные эффекты и аспекты образования и обосновываются направления их совершенствования. Кроме того, что означает социальное обучение в образовании, каковы способы социального обучения, влияние индекса человеческого развития на образование, каков уровень гендерного равенства в образовании в нашей стране, образовании и исследованиях и т.д. такие вопросы отражены в статье.



**Ключевые слова**: социальное обучение, человеческий капитал, социальный аспект, образование и благосостояние, гендерное неравенство в образовании, формальное и неформальное образование, образованный человек и социальная интеграция.

DOI: https://doi.org/10.36719/2707-9317/03/58-68

# Key issues related to the employment of young people with higher education: problems and solutions

**Intizar Gurbanova**
PhD in economics, Senior researcher,
Institute of Economics of the Ministry of Science and Education,
"Demography and employment problems" department, Azerbaijan
E-mail: q.intizar@mail.ru
https: // orcid.org/0000-0002-4761-8452

**Abstract:** The article examines the employment problems of young people in modern times, the causes of these problems, and the ways out of them. Numerous studies are mentioned in this direction and the importance of conducting surveys with employers to find out the needs of the labor market is mentioned. The article reflects the results of the online employment survey conducted by the author with higher education students in May-June 2024. In the article, the author commented on the problems of youth employment in accordance with the positions of higher education students, and expressed his suggestions and recommendations in the direction of solving the problems. In the conclusion section, the proposals and recommendations are classified by groups: *the task of the education system: responsibility of employers; the joint responsibility of the state and employers; the responsibility of young people.*

**Key words:** employment, higher education students, employers, surveys, employment problems, jobs, employment service.

**UOT: 331.5 JEL: E24, İ25, J21, J24**

# Ali təhsil alan gənclərin məşğulluğu ilə bağlı əsas məsələlər: problemlər və həlli yolları

**İntizar Qurbanova**
i.f.d., Böyük elmi işçi
Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutu,
"Demoqrafiya və məşğulluq problemləri" şöbəsi
Azərbaycan Universiteti, müəllim
E-mail: q.intizar@mail.ru
https: // orcid.org/0000-0002-4761-8452

**Xülasə:** Məqalədə müasir dövrdə gənclərin məşğulluq problemləri, bu problemləri yaradan səbəblər, onlardan çıxış yolları araşdırılır. Bu istiqamətdə çoxsaylı tədqiqatların aparıldığı qeyd edilir və əmək bazarının tələbatlarını öyrənmək üçün işəgötürənlərlə sorğuların keçirilməsinin əhəmiyyətindən bəhs olunur. Məqalədə 2024-cü ilin may-iyun aylarında müəllif tərəfindən ali təhsil tələbələri ilə keçirilmiş onlayn məşğulluq sorğusunun nəticələri öz əksini tapmışdır. Müəllif məqalədə gənclərin məşğulluğu problemlərini ali təhsil tələbələrinin mövqelərinə uyğun şəkildə şərh etmiş, problemlərin həlli istiqamətində təklif və tövsiyələrini bildirmişdir. Nəticə bölümündə təklif və tövsiyələr qruplaşdırılaraq aşağıdakı kimi təsnifləşdirilmişdir: təhsil sisteminin üzərinə düşən vəzifələr: işəgötürənlərin üzərinə düşən məsuliyyət; dövlətin və işəgötürənlərin birgə məsuliyyəti; gənclərin məsuliyyəti.

**Açar sözlər:** məşğulluq, ali təhsil tələbələri, işəgötürənlər, sorğular, işədüzəlmə problemləri, iş yerləri, məşğulluq xidməti.

**UOT: 331.5 JEL: E24, İ25, J21, J24**

## Giriş/ Introduction

Hazırki dövrdə ən aktual məsələlərdən biri sayılan gənclərin məşğulluğunun təmin edilməsi problemi hər zaman müzakirə obyektidir. İstər yerli tədqiqatçılar, istərsə də xarici tədqiqatçılar tərəfindən çoxsaylı araşdırmalar aparılaraq problemlər təhlil olunur və həlli yolları axtarılır. İşəgötürənlərlə mütəmadi sorğuların təşkili ilə əmək bazarındakı uyğunsuzluğun nədən irəli gəldiyi aydınlaşdırılmağa çalışılır. Belə araşdırmalara bizim tədqiqatlarımızda da geniş yer verilmişdir. Bu məqalədə isə problemlərə gənclərin münasibətlərini göstərməyə çalışmışıq. Aparılan tədqiqatlarımız, müşahidələr, tələbələrlə tədris prosesindəki diskussiyalarımız nəticəsində gənclərin məşğulluğu barədə yaranan suallarımıza dair onların öz mövqelərini öyrənmək məqsədilə tərəfimizdən onlayn sorğu təşkil olunmuşdur. Bu şəkildə gənclərin məşğulluğu ilə bağlı problemlərin kökünü aşkara çıxarmağa və həlli yollarını onlarla birlikdə tapmağa çalışmışıq.

## Əsas hissə / Main Part

### Ədəbiyyatların təhlili

Etiraf etməliyik ki, məşğulluq problemlərinin araşdırılmasında işəgötürənlərlə keçirilmiş sorğuların əhəmiyyəti böyükdür. Əmək bazarında onların tələblərinin öyrənilməsi zəruriyyətdir. Təhsil sisteminin isə qarşı tərəf kimi işini, məhz, bu tələblərin ödənilməsi istiqamətində qurması vacibdir. Buna görə də bu məsələlərə çox tədqiqatlar həsr olunur, sorğular keçirilir və proqnozlar hazırlanır. Onlardan yalnız bəzilərini qeyd etməklə kifayətlənəcəyik. Məsələn, 2003-cü ildə T.Sərdarov [4] tərəfindən keçirilmiş sorğunu qeyd edə bilərik, hansı ki, Bakı, Sumqayıt, Gəncə və Xaçmaz şəhərlərində fəaliyyət göstərən 300 işəgötürən arasında onların hansı peşə və ixtisas kadrlarına ehtiyacı olduğunu müəyyənləşdirmək məqsədilə keçirilmişdi. Cavab olaraq avtomexanik, aşbaz, bərbər, qaynaqçı, dizayner, elektrik, kuryer, memar, menecer, mühasib, mühəndis, ofis işçisi, katibə, sürücü, fəhlə, çilingər, əczaçıya daha çox ehtiyac olduğunu bildirmişdilər. Bu cür cavablarla biz 2018-ci ildə

Sumqayıt Məşğulluq Mərkəzində apardığımız sorğuda da rastlaşmışdıq [2]. Belə ki, aradan 15 il ötməsinə baxmayaraq 2018-ci ildə yenə həmin peşələr üzrə kadrlar daha çox axtarılırdı. Məşğulluq xidmətindən isə işəgötürənlərin göndərilən kadrlara biganə yanaşması, vakansiyaların artıq tutulduğunu bəhanə gətirməsi, təcrübə tələb etməsi və aşağı yaş limiti qoymaları kimi problemlərin olduğunu bildirirdilər.

2013-cü ildə Dünya Bankı tərəfindən keçirilmiş sorğular vasitəsilə azərbaycanlı və rusiyalı işəgötürənlərin problemə yanaşmaları öyrənilmişdi. Dünya Bankının 2013-cü ildə 316 iri firmanın iştirakı ilə keçirdiyi sorğuda azərbaycanlı işəgötürənlər lazımi bacarıqlara malik mütəxəssislər tapmaqda çətinlik çəkdiklərini bidirmişdilər [6]. Qeyd olunmuşdu ki, təhsil sistemi sahibkarların əksəriyyətinin ehtiyaclarını qarşılaya bilmir, gənc kadrları iş yerlərinin ehtiyaclarına uyğun praktiki bacarıqlarla təmin etmir və müasir biliklər vermir.

Azərbaycanlı işəgötürənlər, gənc kadrlarda əsasən 3 qrup bacarıqların çatışmadığını qeyd etmişdilər: texniki bacarıqlar, koqnitiv bacarıqlar (əsasən problemçözmə qabiliyyəti) və sosial davranış (komanda işi, ünsiyyətcillik, liderlik və s.).

Müqayisə üçün bildirək ki, oxşar nəticələr 2013-cü ildə rusiyalı sahibkarlarla aparılmış sorğuda da özünü göstərmişdir. Məlum olmuşdur ki, rusiyalı sahibkarlar kadrları işə götürərkən onların peşəkar bacarıqları ilə yanaşı əsas diqqəti vicdanlılıq, sərbəstlik, problem həlletmə və əməkdaşlarla səmərəli qarşılıqlı münasibətlər qurmaq qabiliyyətlərinə yönəldirlər [5].

Beləliklə də işəgötürənlərin əksəriyyəti təhsil sisteminin adekvat təhsil vermədiyini bildirir. Məşğulluq Xidmətindən götürülmüş sorğudan və internetdə yerləşdirilmiş iş elanlarının təhlilindən belə qənaətə gəlmək olur ki, 90%-dək hallarda işəgötürənlər təcrübəli işçi axtarırlar. Belə olduqda əmək bazarına ilk dəfə daxil olmaq istəyən gənclər üçün böyük çətinlik yaranır. Tələbələrlə keçirdiyimiz sorğunun nəticələrindən də görünür ki, gənc kadrlardan təcrübə tələb olunması gənclərin yekdilliklə narazıçılığına səbəb olan bir haldır.

## Nəticələr və müzakirə

**Ali təhsil alan gənclər arasında məşğulluq sorğusunun nəticələri.** Gənclərin səmərəli məşğulluğunun təşkil edilməsinin Azərbaycanda aktual məsələlərdən biri olduğunu nəzərə alaraq tərəfimizdən 2024-cü ilin may-iyun aylarında ali təhsilli gənclər arasında onlayn şəkildə məşğulluq sorğusu keçirilmişdir **[**1**]**. Sorğunun keçirilməsində məqsəd ali təhsil alan gənclərin məşğulluğunun ölkəmizdə mövcud vəziyyətinin qiymətləndirilməsi, problemlərin gənclərlə birlikdə təhlili və qiymətləndirilməsi, onların aradan qaldırılmasına dair təklif və tövsiyələrin hazırlanmasından ibarətdir. Sorğu ölkəmizin ali təhsil müəssisələrinin son kursunda əyani təhsil alan tələbələr arasında könüllülük və gizlilik prinsiplərinə uyğun keçirilmişdir.

Tədqiqatlarımız və müşahidələrimiz əsasında belə qənaətə gəlirik ki, səmərəli məşğulluğun olmamasının əsas səbəblərinin kökündə peşəyönləndirmənin və peşə seçiminin düzgün olmaması dayanır. Peşə təhsilinin məşğulluğa müsbət təsirlərini araşdırarkən məqsədsiz və nəticəsiz ali təhsil almaqdansa iş təminatı ilə nəticələnən peşə təhsilinin alınmasını daha məqbul hesab etdiyimizi bildirmişdik. Tələbələrlə söhbət zamanı ixtisas seçiminin çox zaman onların özləri yox, valideynlərinin istəyi ilə olduğunun şahidi olurduq. Xüsusilə də “Karyera planlaması” fənninin tədrisi zamanı onların əksəriyyətinin düzgün peşə seçiminin önəmi barədə məlumatsızlığı və yaxud biganəliyi, karyera hədəflərinin, planlarının olmaması və rastlaşdığımız digər məsələlər belə bir sorğu keçirilməsi zərurətini ortaya çıxardı. Ona görə də bu sorğuda gənclərin peşə seçimini sərbəst edib etməmələrini, ali təhsil almaq məqsədlərini, gələcək iş həyatına, karyera quruculuğuna nə dərəcədə hazır olduqlarını aydınlaşdırmaq yönündə suallara yer vermişik. Müəyyən suallara konkret cavab variantları qoymuş, bəzilərində isə tələbələrə problemə aid fikirlərini açıq bildirməyə şərait yaratmışıq.

Qeyd edək ki, bu sorğunun ölkəmizin ali məktəblərinin soununcu kurs tələbələri ilə aparılması ona görə nəzərdə tutulmuşdur ki, məhz onlar potensial işçi qüvvəsi kimi əmək bazarının astanasında olan gənclərdir. Hətta onlardan bir çoxu artıq əmək bazarına daxil olmuş və orada özünə müəyyən mövqe tutmuşdurlar.

Sorğuda respublikamızın 10-dan artıq dövlət və özəl aparıcı ali təhsil müəssisəsinin tələbələri könüllü iştirak edərək öz fikirlərini bildirmişlər. Burada iştirak edənlər: iqtisadiyyat, pedaqoji, texniki,

sosial və s. istiqamətlərdə müxtəlif ixtisaslar üzrə təhsil alanlardır. Qeyd edək ki, sosial bir məsuliyyət hesab olunan sorğuda qadın cinsindən olan tələbələr daha aktiv olmuşlar. Belə ki, sorğuda iştirak etmiş 334 nəfərin 64,1 faizini qızlar təşkil etmişdir. Sorğunun nəticələrini izahlı şəkildə aşağıda təqdim edirik.

**Təhsil və ixtisas seçimi barədə suallara cavablar.** *Ali təhsil almaqda əsas məqsədiniz nədir?* sualına 34,4 % respondent "yüksək vəzifə tutmaq", 33,5 % "indiki karyeramda irəliləmək", 21,6 % "yüksək əmək haqqı ala bilmək" cavabını vermişlər. Tələbələrin sərbəst olaraq düşündükləri cavabları açıq yaza bilməsi üçün *digər cavab* bölümü nəzərdə tutulmuşdur. Burada: öz karyeramı qurmağı bacarmaq; öz işimi layiqincə yerinə yetirmək; professional olmaq; həyat imkanlarımı yaxşılaşdırmaq; istədiyim ixtisasda işləmək; diplom almaq; sevdiyim peşəyə sahib olmaq; normal şəkildə düzgün işləmək; insanlığı, öz dünyamızı sevgi ilə gözəlləşdirmək; gələcəyə ümidli baxışlarla baxan insanların olmasına çalışmaq, cəmiyyəti inkişaf etdirmək; sosial iş üzrə ixtisaslaşmış mütəxəssis olmaq; sevdiyim fənni tədris etmək, gələcəyə savadlı şagirdlər yetişdirmək; ölkəmə və millətimə ali təhsilli bir insan kimi xidmət etmək; yüksək savadlı, istedadlı kadr olaraq yaxın gələcəkdə istədiyim karyeranı qurmaq; təhsil almaq, elmi biliklərimi daha da möhkəmləndirmək; ali təhsilli olmaq; zaman və diplom, əsgərlik; gələcəkdə istədiyim səviyyədə ola bilmək; magistr təhsili alıb universitetdə müəllim kimi qalıb işləmək; heçnə; özümü inksaf etdirməklə öz ehtiyaclarımı, istəklərimi ödəyə bilmək və irəliləmək, uğurlu bir gələcəyə sahib olmaq; özünü təkmilləşdirmə; məqsədlərimə çatmaq, dünyagörüşlü bir şəxsiyyət olmaq; savadlı, bilikli olmaq, daha yaxşı işlərdə çalışmaq; daha yaxşı gələcəyə sahib olmaq; ali təhsil diplomum olsun; bir çox iş yerlərində orta ixtisas bitirmiş namizədlər işə qəbul edilmir; biliklər əldə eləmək, dünya görüşümü inkişaf elətdirmək; gələcəkdə daha yaxşi işlə təmin olunmaq; özümü inkişaf etdirmək, uğurlu karyera qura bilmək kimi çox fərqli və bəzən hətta çox düşündürücü cavablar yazmışlar.




**Qrafik 1. Gənclərin ali təhsil almaq məqsədləri**

Cavabların təhlilindən göründüyü kimi düşünülmüş bir məqsədi olmadan (və yaxud da başqa məqsədlə...) ali təhsil alan gənclərimiz də var, lakin həqiqətən də vətənpərvərliyi yüksək olan, cəmiyyətin inkişafını düşünən və konkret olaraq nə istədiyini bilən və öz hədəfləri olan gənclərimiz də var. Hətta əsgərlik problemi ilə bağlı ali təhsil aldığını açıq etiraf edənlər də olmuşdur ki, həqiqətən bu da günümüzün reallığıdır. Məhz bu məsələ ilə bağlı dövlətimiz tərəfindən qanunvericiliyə yenidən baxılmasına və düşünülmüş tədbirlərin görülməsinə ehtiyac vardır. Məsələn, əsgərlikdən möhlət hüququnu digər təhsil səviyyələrinə də (peşə və orta ixtisas təhsili) tətbiq etmək olar ki, oraya da oğlan abituriyentlərin marağı artsın.

Daha öncəki tədqiqatlarımızda da vurğuladığımız kimi, gənclərin məşğulluğunun arzuolunan səviyyədə olmamasının əsas səbəblərindən birini doğru peşə seçiminin olmamasında görürük. Tədris prosesində tələbələrlə aparılan diskussiyalar zamanı da belə qənaətə gəlirik. Buna görə sorğumuza belə bir sual daxil etmişik. *İxtisasınızı nəyə əsasən seçmisiz?* sualına 53,6 % "sevdiyim

ixtisasdır", 18 % "valideyinlərimin məsləhətinə əsasən seçmişəm", 16,2 % "gəlirli ixtisasdır", 12,3 % isə "nüfuzlu ixtisasdır" cavabını vermişlər.




**Qrafik 2. Gənclərin ixtisas seçiminə təsir edən nüanslar**

Baxmayaraq ki, sorğunun anonim olduğunu tələbələrə öncədən bildirmişdik, lakin verilən cavablara baxdıqda müəyyən bir qisminin səmimi cavablar verməkdən çəkindiyini hesab edirik.

*Təhsilinizi magistraturada davam etdirmək istəyirsinizmi?* sualına cavab olaraq 68,9 faiz tələbə müsbət cavab vermişdir. 45,5 % respondent hazırki ixtisası üzrə davam etmək istədiyini; 23,4 % digər peşə üzrə davam etmək istədiyini; 18,6 % təlimlərdə iştirak edib sertifikat almaq istədiyini, 12,6 % respondent isə təhsilini ümumiyyətlə davam etdirmək istəmədiyini bildirmişdir.




**Qrafik 3. Təhsilin davam etdirilməsi istəkləri**

*Əmək bazarı barədə məlumatlısınızmı?* sualına 29,9% müntəzəm maraqlanıram; 20,8% məlumatım çox azdır; 10,5 % seçdiyim ixtisasa tələbatın çox olduğunu düşünmürəm; 31,7% isə seçdiyi ixtisasa tələbatın çox olduğunu araşdırdığını bildirir.




**Qrafik 4. Əmək bazarı ilə tanışlıq göstəriciləri**

**Karyera quruculuğu barədə suallara cavablar.** Gənclər üçün düzgün peşə seçimi qədər önəmli məsələlərdən biri də düzgün karyera planının qurulması ilə bağlıdır. Yaxşı ixtisas alsalar belə düşünülmüş hədəflər seçməyi bacarmadıqda, fürsətləri zamanında dəyərləndirmədikdə və iş həyatında planlı addımlar atmadıqda çox zaman gənclərin karyera yolu uğursuz və ya çox çətin olur. Bu barədə gəncləri düzgün istiqamətləndirmək üçün son illərdə ali məktəblərdə "Karyera planlaması" fənni tədris olunur. Növbəti sualları verməklə biz tələbələrin bu məsələləri həm nə qədər diqqətə aldığını bilmək və həm də bu məsələlərin önəmliliyinə onların diqqətini bir daha çəkmək məqsədi güdmüşük. İstərdik ki, gənclərimiz karyera quruculuğu barədə məsələlərə daha diqqətli yanaşsınlar.

*Özünüz üçün karyera planı qurmusunuzmu?* sualına 74,6 % respondent bəli; 9,6 % xeyr; 10,2 hələ buna hazır deyiləm; 5,7 plana ehtiyac duymuram cavablarını vermişlər. Müəyyən bir işdə çalışan və hələlik olduğu mövqedən irəliyə getmək fikri olmayan tələbələrin bir qismi hesab edirlər ki, artıq öz karyeralarını qurmuşlar və heç bir plana ehtiyacları yoxdur. Tədris zamanı tələbəlrin bu tipli fikirləri ilə rastlaşdığımıza görə belə sualın qoyulması bu cür düşünənlərin xüsusi çəkisini öyrənmək məqsədi daşıyır.




**Qrafik 5. Karyera planı qurulması göstəriciləri**

*Gələcək karyeranızı necə görürsünüz?* sualına 81,7 % uğurlu olacağıma inanıram; 8,4 % kənar dəstəyə ehtiyacım var; 7,8 % şansa güvənirəm; 2,1 % uğurlu olacağıma inamım azdır cavablarını vermişlər.




**Qrafik 6. Gənclərin gələcək karyera gözləntiləri**

*Uğurlu karyera üçün nələr lazımdır?* sualına təqdim olunan cavablardan 65,9 % bacarıq, peşəkarlıq; 60,8 % davamlı özünüinkişaf; 50,3 % yaxşı təhsil; 38 % qətiyyət, təşəbbüskarlıq; 31,1 şans; 27,8 % tanışlıq, dəstək; 37,4 % bunların hamısı cavablarını dəstəkləmişlər.




**Qrafik 7. Uğurlu karyera qurmaq üçün lazım olanlar**

**Gənclərin məşğulluq problemləri barədə.** *Hal-hazırda işləyirsinizmi?* sualına respondentlərin 4,8 faizi ixtisasım üzrə işləyirəm; 12 faizi işləyirəm, ancaq ixtisasım üzrə çalışmıram; 63,2 faizi ümumiyyətlə işləmirəm; 20,1 faizi isə əvvəllər işləmişəm cavabını vermişlər. Deməli, sorğuda iştirak edən gənclərin 36,8 faizi tələbə olmalarına baxmayaraq artıq əmək bazarına daxil olmuş və müəyyən iş təcrübəsi əldə etmişdir. Onlar daha çox aşağıdakı vəzifələrdə çalışdıqlarını qeyd etmişlər: satıcı, mühafizəçi, ofisiant, qarson köməkçisi, kassir, assistent, operator, təlim və inkişaf üzrə kiçik mütəxəssis, təşkilati işlər üzrə təmsilçi, proqramçı, intern, müştəri xidmətləri üzrə mütəxəssis, inspektor, sosial işçi, qrafik-dizayner, təlimçi, repetitor, Sətəm uzrə muhəndis, nəzarətçi, kargüzar, fəhlə, yükvuran, armaturçu, Fullstack developer və s.

Qeyd etdikləri iş yeri və vəzifə adlarından məlum olur ki, işləyən tələbələrin əksər qismi ticarət mərkəzlərində, bank sektorunda, restoran şəbəkələrində, təlim kurslarında, usta və ya fəhlə işlərində, ASAN xidmətdə, Azercell MMC-də və az hallarda müxtəlif dövlət idarələrində çalışırlar, onların arasında şəxsi biznesini quran və ya ailə biznesində çalışanlar da vardır.

İxtisaslarından asılı olmayaraq satıcı vəzifəsində çalışan tələbələrin sayı çoxluq təşkil edir. Qeyd etmək yerinə düşər ki, Məşğulluq Agentliyinin hesablamalarına görə ali təhsili bitirmiş məşğul məzunların da 30 faizdən çox hissəsi ticarət, satış sahələrində çalışırlar [3].

Tədqiqatlar göstərir ki, ali təhsilli gənclərin təhsil səviyyəsindən aşağı vəzifələrdə çalışması peşə və ixtisas ala bilməyən gənclər üçün də əlverişsizdir, ona görə ki, bu cür işlərdə işəgötürənlərin ali təhsillilərə üstünlük verməsi digərlərini əmək bazarından sıxışdırmış olur [6, s.54].




**Qrafik 8. Ali təhsil alanların məşğulluq göstəriciləri**

*Hansı mənbələrə müraciət edərək iş tapmısınız?* sualına 1,8% Məşğulluq xidməti vasitəsilə; 15% dostlarım tapıb; 18,9% internet elanı vasitəsilə tapmışam; 14,4% iş axtarmışam, ancaq tapmamışam; 50% isə hələlik iş axtarmamışam cavabını seçib. Artıq bu suala verilən cavab faizlərindən məlum olur ki, bundan öncəki sualda ümumiyyətlə işləmirəm cavabını verən 63,2 faizdən 14,4 faizi əmək bazarına daxil olmağa cəhd edib, yəni, iş axtarıb, lakin tapa bilməyib. Beləliklə də, sorğuda iştirak edənlərin yarısını işaxtaran hesab edə bilərik, yarısı isə hələlik iş axtarışında olmayanlardır.




**Qrafik 9. Gənclərin istifadə etdiyi işədüzəlmə mənbələri**

*Gənclərin istədiyi işi tapa bilməməsinin səbəbi sizcə nədir?* sualı ilə gənclərin işsizlik probleminin səbəblərini onların öz qiymətləndirməsində görməyə çalışmışıq. Bu məsələdə respondentlərin 65,3 %-i işəgötürənlərin təcrübə tələb etməsini qınamışlar və haqsız da sayılmazlar.

Ona görə ki, tədqiqatlarımıza və sorğulara əsasən biz də belə qənaətə gəlmişdik [2]. 11,4% respondent gənclərdə ixtisas üzrə bilik səviyyəsinin aşağı olması; 10,2% iş axtarışında kifayət qədər aktiv olmamaq; 8,4% bacarıq çatışmazlığı; 4,8% subyektiv amillərin olması cavabını vermişlər.

Əvvəlki tədqiqatlarımızın nəticələrini nəzərə alaraq məsələyə işəgötürənlərin prizmasından baxsaq, burada yüksək faiz sösüz ki, gənclərdə bilik səviyyəsinin aşağı olması və bacarıq çatışmazlığı cavabları üzrə olacaqdı və problemi təhsil müəssisələrinin iş yerlərinin tələblərinə adekvat olan biliklər verməməsi ilə əlaqələndirəcəkdilər. Bizim fikrimizcə, hər iki tərəfin də öz vəzifələri, məsuliyyəti mövcuddur və yalnız qarşılıqlı sıx əməkdaşlıq şəraitində problemin aradan qaldırılması mümkündür.




**Qrafik 10. Gənclərin iş tapa bilməməsinin əsas səbəbləri**

*Gənclərin məşğulluğunun artırılması yollarını necə görürsünüz?* sualına təqdim edilən cavablardan 57,8% iş yerlərinin sayını artırmaq vacibdir; 54,5% şirkətlərdə tələbələr üçün praktika keçmək imkanı yaradırmalı, təcrübəçi yerləri açılmalıdır; 36,8% gənclər özləri fəal və təşəbbüskar olmalıdır; 34,7% hər kəs öz sevdiyi peşəyə və bacardığı işə yönəlsə iş tapması daha asan olar; 34,7% ali təhsil alan gənclərə yanaşı olaraq hər hansı bir peşə (sənət) öyrənmək üçün şərait yaradılması əhəmiyyətli olar; 33,5% təhsilin keyfiyyətinin daha da artırılmasına ehtiyac var; 27,8% gənclərdə sahibkarlıq qabiliyyəti formalaşdırılmalıdır; 12,9% qəbul ballarının artırılması yaxşı olar (daha savadlılar ali təhsil alsın); 19,2% bunların hamısı cavablarını dəstəkləmişlər.




**Qrafik 11. Gənclərin məşğulluğunun artırılması istiqamətləri**

Yuxarıdakı suala digər cavablar bölümündə sorğuya daha səmimi yanaşmağı və sərbəst nəticə çıxarmağı bacaran gənclər öz şəxsi düşüncələrinə uyğun maraqlı cavablar qeyd etmişlər. Belə rasional və əsl iqtisadçı kimi düşünmə tərzinə malik, düzgün nəticə çıxarmağı bacaran gənclərimizin olması

qürurvericidir. Həqiqətən də istedadlı gənclərə şərait yaradılmalıdır, onların potensialından düzgün və səmərəli istifadə olunmalıdır. Bu həm onların özü üçün, həm də dövlətimiz və cəmiyyətimizin inkişafı üçün çox vacibdir. Onların bəzi cavablarını, hansıları ki, təklif kimi də səsləndirmək olar, aşağıda təqdim edirik:

-Təlimlər zamanı həvəsləndirmə və maarifləndirmə işləri daha yüksək səviyyədə həyata keçirilməlidir. Gələcəkdə keçdikləri təlimlərin gənclərə necə yararlı olacağı və bu işlərin əmək haqqısı barədə məlumatlar daha geniş olmalıdır.

-İş yerlərinin təcrübə istəməsi gənclərin işsiz qalmasına səbəb olur. Universiteti bitirən gənc hansı müəssisəyə müraciət edirsə staj tələb edirlər, iş yerlərində təcrübəçi kimi işə götürüb sonra da daimi işlə təmin edilsə daha effektiv olar.

-Həqiqətən bacarıqlı öz üzərində işləyən gənclərə şans yaradılmalıdır, görüb keçirlər, ya da məsləhət verirlər ki, savadlısan çox yaxsı yerlərə gələ bilərsən. Heç kəs özü gəncləri qabağa çəkmir, lakin bacardıqları köməyi əsirgəməməlidirlər.

-Ümumiyyətlə tələbələri əzbərçi sistemdən çıxarıb, ixtisasının inkişafı istiqamətində yetişdirmək lazımdır, praktiki və sosial biliklər önəmlidir.

-Rayonlarda yeni iş yerlərinin açılması vacibdir. Çünki Bakıya iş adıyla gələn rayon əhalisi çoxluq təşkil edir, şəhərdə sıxlıq yaranır. Ali təhsil müəssisələri də rayonlarda açılsa orada insanların həm təhsil, həm iş ehtiyacı qarşılanar.

## Nəticə / Conclusion

Sorğuların təhlili onu göstərdi ki, işəgötürənlərin nöqteyi nəzərincə təhsilin keyfiyyətinin inkişaf etdirilməsinə və təhsil sisteminin əmək bazarının ehtiyacları ilə daha yaxşı uzlaşdırılmasına ehtiyac var. Məşğulluq xidmətini işəgötürənlərin əksəriyyətinin göndərilən kadrlara biganəliyi, qoyduqları hədsiz kriteriyalar narahat edir. Gələcəyin gənc kadrları işəgötürənləri onlara təcrübə üçün şərait yaratmamaqda qınayırlar. Gördüyümüz kimi Məşğulluq xidməti, işəgötürənlər və işaxtaranlar hər biri qarşı tərəfi günahlandırır. Lakin günahkar axtarmaqdansa, Kayzen fəlsəfəsində olduğu kimi, problemin həllinə birgə çalışmaq daha effektiv olar.

Baxdığımız sorğunun xüsusilə sonuncu sualını qoymaqda məqsədimiz məşğulluq problemlərini gənclərin gözü ilə görmək, çıxış yollarını bilavasitə onların özündən eşitmək idi. Belə cavablarla da rastlaşdıq, bu isə o deməkdir ki, gələcəyin tədqiqatçıları yetişir. Onların diqqətəlayiq olan fikirlərini də nəzərə alaraq aşağıdakı təklif və tövsiyələri irəli sürə bilərik:

***-Təhsil sisteminin üzərinə düşən vəzifə:*** tələbələrlə tədris zamanı həvəsləndirmə və maarifləndirmə işləri daha yüksək səviyyədə həyata keçirilməlidir. Aldıqları təhsilin və təlimlərin gələcəkdə gənclərə nə dərəcədə gərəkli və yararlı olacağı barədə məlumatlar daha ətraflı olmalı, tələbələrdə öz ixtisaslarına həvəs oyadılmalıdır. Ümumiyyətlə, tələbələri əzbərçiliyə öyrətmək yox, ixtisasının inkişafı istiqamətində yetişdirmək lazımdır, praktiki və sosial biliklərin aşılanması çox önəmlidir.

***-İşəgötürənlərin üzərinə düşən məsuliyyət:*** Təhsil müəssisəsini yenicə bitirib iş axtarışına çıxan gənclərin hər dəfə təcrübə tələbi ilə rastlaşması onlara mane olur və ruhdan salır. Yaxşı olardı ki, gənc kadrlar iş yerlərində təcrübəçi kimi işə götürülüb sonra da daimi işlə təmin edilsinlər. Xüsusilə də bacarıqlı, öz üzərində işləyən gənclərə şans yaradılmalıdır, gənclərin də qeyd etdiyi kimi sadəcə görüb keçməklə, ya da məsləhət verməklə kifayətlənmək olmaz, hər kəs bacardığı köməyi əsirgəməməlidir.

- ***Dövlətin və işəgötürənlərin birgə məsuliyyəti:*** Rayonlarda yeni iş yerlərinin açılması vacibdir, çünki Bakıya işləmək məqsədilə gələn rayon əhalisi çoxluq təşkil edir, şəhərdə sıxlıq yaranır. Ali təhsil müəssisələri də rayonlarda açılarsa orada insanların həm təhsil, həm də iş ehtiyacı qarşılanar.

Onu da əlavə edək ki, burada peşə təhsilinin də imkanlarından faydalanmaq nəzərdən qaçırılmamalıdır. Belə ki, 34,7 faiz respondent *"ali təhsillə yanaşı hər hansı peşə öyrənmək imkanı yaradılması"* barədə fikrimizi dəstəkləmişdi.

- ***Gənclərin məsuliyyəti:*** Sorğuda iştirak edənlərin 36,8 faizi *"gənclər özləri fəal və təşəbbüskar olmalıdır"* cavab variantı ilə razılaşmışdı. Əlbəttə ki, gənclər özləri də çalışqan və axtarışçı, təşəbbüskar olmalı, sevdikləri və bacardıqları peşə və ixtisasa yönəlməkdə qətiyyətli olmalı və öz işlərinin peşəkarı olmaq üçün çox səy göstərməlidirlər. Sonrasında isə doğru karyera planı qurmalı,

əlçatan hədəflər qoymalı, iqtisadi fəaliyyət sahəsini düşünülmüş şəkildə seçməli, karyera yolunda həm şəxsi, həm də ictimai mənafeləri uzlaşdırmağı bacarmalı, əzmkar olmalıdırlar.

**İstifadə olunmuş ədəbiyyat / References**


1. Ali təhsil alan gənclər arasında məşğulluq sorğusu. May-iyun ayları 2024-cü il. https://forms.gle/E85vv3k3dnZMm3Nt9
2. Qurbanova İ.M. Azərbaycanda peşə təhsili sisteminin inkişafı və məşğulluğa təsirinin artırılması. İqtisadiyyat üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almaq üçün dissertasiya // Bakı. –2022, –163 səhifə. https://economics.org.az/images/fotos/dissertasiyalar/%C4%B0ntizar_disert.pdf
3. Məzunların məşğulluq reytinqi. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Agentliyinin saytı https://dma.gov.az/layiheler/mezunlarin-mesgulluq-reytinqi (son müraciət edilmə tarixi: 28.07.2024)
4. Sərdarov T.Ə. Bazar münasibətləri şəraitində Azərbaycan Respublikasında əhalinin və məşğulluğun formalaşması / T.Ə.Sərdarov. – Bakı: Avropa, – 2009. – 240 s.
5. Дудырев Ф.Ф. Система профессионального образования: как научиться слышать сигналы рынка труда? / Ф.Ф.Дудырев, О.А.Романова, А.И.Шабалин // Национальный исследовательский университет «Высшая школа экономики», Институт образования (Серия: Современная аналитика образования № 1 (18)). –М.: НИУ ВШЭ, – 2018, –44 с.
6. Хохлова, М.Г. Молодежь на Европейском рынке труда / М.Г.Хохлова, И.И Хохлов. // Мировая экономика и Международные отношения, – 2017. т. 61, № 6, – с. 48–56.
7. Rutkowski J. J. Demand for skills: Main results of the Azerbaijan STEP employer survey (English). – Washington, D.C. World Bank Group. – 2015. –10 p. URL: https://openknowledge.worldbank.org/bitstream/handle/10986/22508/Demand0for0ski0STEP0employer0survey.pdf?sequence=1&isAllowed=y


# Ключевые вопросы, связанные с трудоустройством молодежи с высшим образованием: проблемы и пути решения


**Интизар Гурбанова**
Доктор философии по экономике, Старший научный сотрудник
Институт экономики Министерства науки и образования,
Отдел "Демография и проблемы занятости"
E-mail: q.intizar@mail.ru



**Резюме:** В статье рассматриваются проблемы трудоустройства молодежи в современное время, причины этих проблем и пути их решения. Отмечается, важность проведения опросов работодателей для изучения потребностей рынка труда. В статье отражены результаты онлайн-опроса занятости, проведенного автором среди студентов вузов в мае-июне 2024 года. В статье автор прокомментировал проблемы трудоустройства молодежи в соответствии с позициями студентов вузов, а также высказал свои предложения и рекомендации по направлению решения проблем. В заключительном разделе предложения и рекомендации классифицируются по группам: задача системы образования: ответственность работодателей, совместная ответственность государства и работодателей, ответственность молодежи.



**Ключевые слова:** занятость, студенты вузов, работодатели, опросы, проблемы трудоустройства, рабочие места, служба занятости.

**UOT: 331.5 JEL: E24, İ25, J21, J24**

DOI: https://doi.org/10.36719/2707-9317/03/69-77

# Improving the mechanism of regulation of communication and internet services

**Ulker Mammadova**
Institute of Economics of the Ministry of Science and Education of the Republic of Azerbaijan
Senior researcher
E-mail: ulker13@rambler.ru

**Abstract:** The rapid development of the information society and the expansion of the digital economy have further increased the importance of communication and internet services. The existence of effective regulatory mechanisms in this area is important both in terms of ensuring economic development and improving the quality of life of citizens. The issues of regulation and improvement of communication and internet services in Azerbaijan are aimed at solving existing problems and improving service quality. In this article, the current situation and improvement directions for the regulation of communication and internet services in Azerbaijan will be examined.

**Key words:** Communication, internet, Speedtest Global Index, mechanism

# Rabitə və internet xidmətlərinin təzimləməsinin mexanizimləminin təkmilləşdirilməsi

**Ülkər Məmmədova**
ETN İqtisadiyyat İnstitutu
Böyük elmi işçi
E-mail: ulker13@rambler.ru
Mob: 0502558089

**Xülasə:** İnformasiya cəmiyyətinin sürətli inkişafı və rəqəmsal iqtisadiyyatın genişlənməsi, rabitə və internet xidmətlərinin əhəmiyyətini daha da artırmışdır. Bu sahədə effektiv tənzimləmə mexanizmlərinin mövcudluğu həm iqtisadi inkişafın təmin edilməsi, həm də vətəndaşların həyat keyfiyyətinin yaxşılaşdırılması baxımından vacibdir. Azərbaycanda rabitə və internet xidmətlərinin tənzimlənməsi və təkmilləşdirilməsi məsələləri, mövcud problemlərin həlli və xidmət keyfiyyətinin yüksəldilməsi məqsədi daşıyır. Bu məqalədə, Azərbaycanın rabitə və internet xidmətlərinin tənzimlənməsi üzrə mövcud vəziyyət və təkmilləşdirmə istiqamətləri araşdırılacaqdır.

**Açar sözlər**: Rabitə, internet, Speedtest Global Index, mexanizm

**Giriş**

Rəqəmsal iqtisadiyyatın inkişafı ilə əlaqədar olaraq, internet xidmətlərinə olan tələbat sürətlə artır. Ona görə də rabitə və internet xidmətlərinin tənzimlənməsinə daha çox ehtiyac duyulur. Azərbaycanda, bu sahədəki qanunvericilik və tənzimləmə mexanizmlərinin mövcudluğu, xidmət keyfiyyətinin təmin edilməsi üçün kifayət qədər effektiv olmayıb. Bunları nəzərə alaraq, tənzimləmə mexanizmlərinin təkmilləşdirilməsi və beynəlxalq təcrübələrə uyğunlaşdırılması aktuallığını qoruyur.

**Əsas mətn**

Rabitə və internet xidmətlərinin tənzimlənməsi, müasir dövrdə informasiya cəmiyyətinin əsas tələblərindən biridir. Bu xidmətlər cəmiyyətin sosial, iqtisadi və mədəni inkişafında mühüm rol oynayır və onların effektiv tənzimlənməsi dövlətlər üçün prioritet məsələdir. Rabitə və internet xidmətlərinin tənzimlənməsi əsasən iki istiqamətdə qanunvericilik və texnoloji infrastrukturun idarə olunması vasitəsilə aparılır.

**Ədəbiyyatların təhlili**

Rabitə və internet xidmətlərinin tənzimlənməsi və təkmilləşdirilməsi sahəsində bir sıra tanınmış tədqiqatçılar və ekspertlər var. Onlar müxtəlif ölkələrdə və qlobal səviyyədə telekommunikasiya siyasəti, rəqəmsal texnologiyaların inkişafı və internetin tənzimlənməsi ilə bağlı yeniliklər edib. M.Castells [1] "The Information Age" (Məlumat Əsri) trilogiyası ilə informasiya və rabitə texnologiyalarının (İKT) sosial strukturları necə dəyişdiyini izah edir. O, internet və telekommunikasiya sahəsindəki qlobal tənzimləmələrə və bu texnologiyaların sosial və iqtisadi təsirlərinə diqqət yetirir. Eli Noam, telekommunikasiya siyasəti və internet tənzimləməsi üzrə geniş tədqiqatlar aparan aparıcı mütəxəssislərdən biridir. O, telekommunikasiya bazarlarının liberallaşdırılması və rəqəmsal texnologiyaların qlobal inkişafı üzərində işlər görüb.

L.Lessig, [3] internetin tənzimlənməsi və rəqəmsal hüquq sahəsində pionerlərdən biridir. O, internet üzərində qanunvericiliyin və siyasətin necə formalaşdırıldığını təhlil edərək, internetin açıq və azad qalmasını təmin etmək üçün tənzimləmə mexanizmləri təklif edir. Tim Wu, "Net Neutrality" [7] (Şəbəkə Neytrallığı) konsepsiyasının yaradıcısıdır. Onun tədqiqatları internetin neytral və açıq qalmasının vacibliyini və internet provayderlərinin istifadəçilərə eyni şərtlər daxilində xidmət göstərməsinin əhəmiyyətini vurğulayır. Y.Benkler [8] rəqəmsal texnologiyalar və internet tənzimləmələri üzrə geniş tədqiqatlar aparmışdır. O, internetin iqtisadi və hüquqi çərçivələrə təsirini öyrənir və açıq mənbəli (open-source) internet modellərini dəstəkləyir.

Bu tədqiqatçılar internetin tənzimlənməsi və telekommunikasiya siyasəti sahəsində əsas yeniliklər etmiş mütəxəssislərdir. Robin Mansell [4]isə "Imagining the Internet: Communication, Innovation, and Governance" kitabında irəli sürdüyü əsas yenilik, internetin yalnız texnoloji bir inkişaf olaraq deyil, həm də sosial, iqtisadi və siyasi təsirləri olan bir fenomen kimi dərk edilməsidir. O,

internetin idarə olunmasında iştirak edən fərqli maraq qruplarını, texnologiyaların innovasiyasını və kommunikasiya vasitələrinin gələcəyini necə formalaşdıracağını ətraflı təhlil edir. Mansell internetin qlobal idarəçiliyi ilə bağlı müxtəlif modelləri və təklifləri müzakirə edir. O, internetin inkişafı ilə bağlı tənzimləyici qurumlar, hökumətlər, qeyri-hökumət təşkilatları və özəl sektor arasındakı əməkdaşlığın vacibliyini vurğulayır.

**Metodologiya**

Rabitə və internet xidmətlərinin tənzimlənməsində ən önəmli addım, müvafiq qanunvericilik bazasının yaradılmasıdır. Bu qanunlar xidmət təminatçılarının lisenziyalaşdırılması, onların fəaliyyətinin monitorinqi və xidmət keyfiyyətinin təmin olunması üçün tələbləri əhatə etməsi, istehlakçıların hüquqlarının qorunması, xidmətlərin keyfiyyətinin təmin edilməsi və qiymətlərin ədalətli olması üçün qanunlar qəbul edilir. Digər tərəfdən, internet üzərindən göndərilən və saxlanılan məlumatların təhlükəsizliyini təmin etmək üçün qanunlar və qaydalar hazırlanır. Bu, xüsusilə şəxsi məlumatların qorunmasını əhatə edir. Dövlətin rabitə və internet xidmətlərinin tənzimlənməsində ilə bağlı yuxarıda sadaladığımız  və digər institusional tədbirlər ölkədən ölkəyə dəyişir. Bu tədbirlərin səmərəliliyindən asılı olaraq, bu xidmətin inkişafı stimullaşır. Rabitə və internet xidmətlərinin inkişafı üçün nəzərdə tutulan institusional tədbirlərin səmərəliliyinin artırılması isə ciddi elmi tədqiqatın aparılmasını tələb edir.

Texnoloji infrastrukturun idarə olunması, rabitə və internet xidmətlərinin keyfiyyətini və davamlılığını təmin etmək üçün çox vacibdir. Burada əsas diqqət yetirilən sahələr:

1. “Şəbəkənin inkişafı və modernləşdirilməsi” şəbəkənin genişləndirilməsi və modernləşdirilməsi üçün yatırımların edilməsi, xüsusilə kənd və uzaq bölgələrdə internetə çıxışın təmin edilməsi lazımdır.

2. “Tezliklərin tənzimlənməsi” mobil rabitə xidmətlərinin təmin olunması üçün tezlik spektrinin ədalətli və effektiv bölüşdürülməsi vacibdir. Bu, həm də innovasiyaların tətbiqinə imkan yaradır.

3. “Texniki standartların müəyyən edilməsi” infrastrukturun və xidmətlərin müəyyən texniki standartlara uyğun olması təmin edilir ki, bu da xidmətlərin keyfiyyətini yüksəldir və innovasiyaların tətbiqinə şərait yaradır.

Dünyada rabitə və internet xidmətlərinin tənzimlənməsi üzrə bir çox uğurlu təcrübələr mövcuddur. Xüsusilə, İEÖ-də bu sahədə tətbiq edilən tənzimləmə mexanizmləri və qanunvericilik bazası Azərbaycanın da nəzərdən keçirə biləcəyi nümunələr təqdim edir. Avropa Birliyində telekommunikasiya xidmətləri üzrə tətbiq olunan tənzimləmə mexanizmləri yüksək səviyyədə rəqabət mühitini təmin edir. Bu tənzimləmələr, həmçinin istifadəçilərin hüquqlarının qorunmasına və xidmət keyfiyyətinin təmin edilməsinə yönəlmişdir. Cənubi Koreya internet sürəti və xidmət keyfiyyəti üzrə dünya lideridir. Burada tətbiq olunan dövlət-özəl sektor əməkdaşlığı və rəqabət siyasətləri, internet xidmətlərinin sürətli inkişafına səbəb olmuşdur.

Rabitə və internet xidmətlərinin tənzimlənməsində beynəlxalq əməkdaşlıq və razılaşmalar mühüm rol oynayır. Bu əməkdaşlıq, xüsusilə beynəlxalq internet trafikinin idarə olunması, kibertəhlükəsizlik və beynəlxalq tezlik spektrinin bölüşdürülməsi sahələrində vacibdir. Beynəlxalq Telekommunikasiya Birliyi (ITU) və digər beynəlxalq təşkilatlar, bu sahədə normativ bazanın və standartların formalaşdırılmasında aktiv rol oynayırlar .

Azərbaycanda rabitə və internet xidmətlərinin tənzimlənməsi, ölkənin informasiya cəmiyyətinə doğru inkişafında mühüm rol oynayan sahələrdən biridir. Bu sahənin tənzimlənməsi həm qanunvericilik, həm də texnoloji infrastrukturun idarə olunması baxımından əhəmiyyətlidir.

Azərbaycanda rabitə və internet xidmətlərinin tənzimlənməsi üçün mövcud qanunvericilik bazası, ölkənin informasiya və kommunikasiya texnologiyaları (İKT) sektorunun davamlı inkişafını təmin etmək məqsədilə hazırlanmışdır. Əsas qanunlar və qaydalar aşağıdakıları əhatə edir:

1. "Telekommunikasiya haqqında": Bu qanun, telekommunikasiya xidmətlərinin göstərilməsi və istifadəsi üçün hüquqi əsasları müəyyən edir. Qanun, xidmət təminatçılarının lisenziyalaşdırılması, fəaliyyətlərinin tənzimlənməsi və keyfiyyət standartlarının müəyyənləşdirilməsini əhatə edir.

2. "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Qanun: Bu qanun, informasiya təhlükəsizliyi və şəxsi məlumatların qorunması sahəsində tələbləri müəyyən edir. Məxfi məlumatların qorunması və kibertəhlükəsizliyin təmin edilməsi üçün tədbirlər nəzərdə tutulur.

3. "Elektron imza və elektron sənəd haqqında": Elektron xidmətlərin inkişafı üçün hüquqi bazanı təmin edən bu qanun, elektron imza və sənədlərin hüquqi qüvvəsini tanıyır.

Azərbaycanda rabitə və internet xidmətlərinin tənzimlənməsinə məsul olan əsas qurumlar:

1. "Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi": Nazirlik, İKT sahəsində dövlət siyasətini həyata keçirir və tənzimləyici funksiyaları yerinə yetirir. Nazirlik, həmçinin rabitə xidmətlərinin inkişafını təşviq edir və keyfiyyət standartlarının təmin olunmasına nəzarət edir.

2. "Azərbaycan İnternet Forum": Bu təşkilat, internet xidmətlərinin inkişafını dəstəkləyən və istehlakçıların hüquqlarını qoruyan qeyri-hökumət təşkilatıdır. İnternetin təhlükəsizliyi və məxfiliyi ilə bağlı məsələləri də əhatə edir.

Azərbaycanda texnoloji infrastrukturun inkişafı və modernləşdirilməsi sahəsində mühüm işlər görülür. Bu sahədə diqqət yetirilən əsas məsələlər:

1. "Şəbəkənin genişləndirilməsi": Azərbaycanın müxtəlif bölgələrində, xüsusilə kənd yerlərində internetə çıxış imkanlarının artırılması üçün yatırımlar edilir. Fiber-optik kabel şəbəkələrinin genişləndirilməsi və 4G, 5G texnologiyalarının tətbiqi bu sahədəki əsas addımlardandır.

2. "Tezliklərin tənzimlənməsi": Mobil rabitə xidmətlərinin effektiv və ədalətli bölüşdürülməsi üçün tezlik spektri idarə olunur. Bu, həmçinin yeni texnologiyaların tətbiqinə imkan yaradır.

3. "Texniki standartların müəyyən edilməsi": Rabitə və internet xidmətlərinin keyfiyyətini yüksəltmək üçün texniki standartlar müəyyən edilir və tətbiq olunur. Bu, xidmət təminatçılarının müəyyən keyfiyyət standartlarına cavab verməsini təmin edir.

Azərbaycanın rabitə və internet xidmətləri sahəsində son illərdə bir sıra müsbət dəyişikliklər baş versə də, hələ də bir çox problemlər mövcuddur. İnternetin sürəti və mövcudluğu, xidmətlərin qiyməti, rəqabət mühiti və tənzimləmə mexanizmlərinin effektivliyi bu problemlərin əsasını təşkil edir.

Azərbaycanda rabitə və internet xidmətlərinin tənzimlənməsində beynəlxalq əməkdaşlıq da vacibdir. Beynəlxalq Telekommunikasiya Birliyi (ITU) və digər beynəlxalq təşkilatlarla əməkdaşlıq çərçivəsində normativ bazanın və texniki standartların inkişafı təmin edilir. Azərbaycanın beynəlxalq kibertəhlükəsizlik təşəbbüslərinə qatılması və bu sahədə beynəlxalq təcrübələrin öyrənilməsi də mühüm əhəmiyyət kəsb edir.

Azərbaycanda rabitə və internet xidmətlərinin tənzimlənməsi, ölkənin informasiya cəmiyyətinə keçidində və iqtisadi inkişafında strateji əhəmiyyət daşıyan bir sahədir. Qanunvericilik bazasının və texnoloji infrastrukturun inkişafı, xidmətlərin keyfiyyətinin artırılması və istehlakçı hüquqlarının qorunması üçün mühüm addımlardır. Dövlətin bu sahədə fəal siyasəti və beynəlxalq əməkdaşlıq, Azərbaycanın rabitə və internet xidmətlərinin davamlı inkişafını təmin edir.

Ümumilikdə, Azərbaycanda rabitə və internet xidmətlərinin qiymət artımı həm daxili, həm də xarici amillərlə izah olunur və bu artımın əsas səbəbləri infrastrukturun yenilənməsi, idxal xərcləri və rəqabət mühiti ilə bağlıdır. 2022-ci ildə Azərbaycanda rabitə və internet xidmətlərinin qiymətləri 2021-ci illə müqayisədə təxminən 25-30% artmışdır. 2023-cü ildə isə bu artım müəyyən xidmət növləri üzrə davam etmişdir. Avqust 2024-cü ildə Azərbaycanda internet xidmətlərinin qiymətləri təxminən 38-40% artıb. Xüsusilə, Aztelekom və Baktelekom tərəfindən internet xidmətləri üçün minimum aylıq abunə haqqı 18 manatdan 25 manata qaldırılıb, bu da təxminən 38.9% artım deməkdir. Belə qiymət artımlarının əsas səbəbi kimi, Azərbaycanın beynəlxalq internet bazarındakı ümumi qiymət tendensiyaları və yerli provayderlərin bazar üstünlüyü göstərilir. Bu artımlar həm də ölkədəki rəqabətsiz mühitin bir nəticəsi kimi qiymətləndirilir, çünki əsas internet təminatçıları monopoliyaya malikdir və buna görə də qiymətləri asanlıqla artırmaq imkanına sahibdirlər. Bu artım istifadəçilər üçün daha ucuz variantları aradan qaldırdığı üçün istehlakçılar arasında narazılıq yaradıb.

Müasir maliyyə idarəçiliyi baxımından, müəssisələrin kapital strukturunu optimallaşdırması üçün texnologiya və rəqəmsallaşmanın rolu da artır. Azərbaycanda, xüsusilə bank sektorunda rəqəmsal texnologiyaların tətbiqi və maliyyə xidmətlərinin rəqəmsallaşdırılması kapital idarəçiliyini daha çevik və səmərəli edə bilər. Texnologiyaların tətbiqi ilə maliyyə əməliyyatlarının daha şəffaf və səmərəli olması kapital strukturlarının daha effektiv idarə edilməsinə şərait yaradır. Bu da müəssisələrin borc maliyyələşməsi və kapital planlaşdırması üzrə daha dəqiq qərarlar qəbul etməsinə kömək edir. Dövlət siyasətinin də kapital strukturunun optimallaşdırılmasına dəstəyi mühüm əhəmiyyət kəsb edir. Xüsusilə vergi güzəştləri və dövlət tərəfindən verilən maliyyə stimulları müəssisələrin borclanma və kapital mənbələrini səmərəli istifadə etməsinə kömək edə bilər. Bu, xüsusilə qeyri-neft sektorunda fəaliyyət göstərən kiçik və orta müəssisələr üçün vacibdir. Azərbaycanda iqtisadi islahatların davam etdirilməsi və maliyyə bazarlarının inkişaf etdirilməsi kapital strukturunun optimallaşdırılmasını daha əlçatan və effektiv edəcəkdir. Ümumilikdə, kapital strukturunun optimallaşdırılması müəssisələr üçün yalnız maliyyə sabitliyini təmin etmək baxımından deyil, həm də uzunmüddətli iqtisadi inkişafı dəstəkləyən əsas strategiyalardan biri kimi çıxış edir. Azərbaycanın davamlı iqtisadi inkişafı və beynəlxalq bazarlarda rəqabət qabiliyyətini artırmaq üçün müəssisələrin kapital strukturlarını optimallaşdırması strateji əhəmiyyət kəsb edir. Bu prosesin uğurla həyata keçirilməsi həm dövlətin dəstəyini, həm də müəssisələrin strateji maliyyə idarəçiliyini tələb edir.

Kapital strukturunun optimallaşdırılması məsələsinə davam edərək qeyd etmək lazımdır ki, bu prosesin effektiv həyata keçirilməsi müəssisələr üçün risklərin düzgün idarə olunması və maliyyə sağlamlığının qorunması baxımından vacibdir. Müəssisələr, kapital strukturunu tənzimləyərkən, maliyyələşmə mənbələrinin müxtəlifliyini təmin etməli və yalnız bir mənbədən asılı olmamalıdırlar. Bu yanaşma, xüsusilə xarici və daxili şoklara qarşı daha dayanıqlı maliyyə mövqeləri yaratmağa kömək edir. Azərbaycanda bu yanaşmanın tətbiqi, xüsusilə qeyri-neft sektorunda fəaliyyət göstərən şirkətlər üçün vacibdir, çünki bu sektorlar xarici investisiyalar və daxili borclanma imkanları arasında balans yaratmalıdırlar. Maliyyələşmə mənbələrinin diversifikasiyası, həm də müəssisələrin maliyyə sabitliyini artırmaq üçün borc və öz kapitalı arasında düzgün nisbətin təmin olunması deməkdir. Azərbaycanın iqtisadi mühiti, xüsusilə beynəlxalq maliyyə bazarlarına inteqrasiya baxımından böyüməkdə olan bir bazardır. Buna görə də, beynəlxalq maliyyələşmə imkanlarından səmərəli şəkildə istifadə etmək kapital strukturunun optimallaşdırılması prosesində mühüm yer tutur. Xarici borclanma xüsusilə iri dövlət müəssisələri və banklar üçün əlverişli maliyyə mənbəyi olsa da, bu, valyuta risklərini də özü ilə gətirir. Bu səbəbdən, valyuta risklərinin idarə edilməsi kapital strukturunun bir hissəsi kimi qəbul edilməlidir.

SOCAR kimi iri dövlət müəssisələri üçün xarici borclanma strategiyası, şirkətin uzunmüddətli maliyyə dayanıqlığını qorumaq üçün vacibdir. Bu şirkətlər, beynəlxalq bazarlardan daha aşağı faiz dərəcələri ilə borc cəlb edərək daxili maliyyə ehtiyaclarını ödəyə bilər. Lakin neft qiymətlərinin dəyişkənliyi və qlobal maliyyə bazarlarında baş verən dəyişikliklər nəzərə alınaraq, SOCAR və bu kimi digər iri şirkətlər borc maliyyələşməsinin valyuta risklərini idarə etməlidir. Bu, Azərbaycanın iqtisadi dayanıqlığı və maliyyə sabitliyi üçün mühüm faktordur. Qeyri-neft sektoru isə öz kapitalına daha çox güvənərək fəaliyyət göstərir. Bu sektorlar üçün kapital strukturunun optimallaşdırılması daxili investisiya mənbələrinə çıxışı genişləndirmək və xarici investorları cəlb etmək üçün vacibdir. Azərbaycanın iqtisadi diversifikasiya strategiyası çərçivəsində qeyri-neft sektoruna yönəldilən investisiyalar ölkə iqtisadiyyatının dayanıqlı inkişafına kömək edəcəkdir. Bu müəssisələr öz kapitalını artırmaq üçün daha çox innovasiya layihələrinə sərmayə yatıra və bu yolla kapitalın maya dəyərini optimallaşdıra bilərlər. Kapital strukturunun optimallaşdırılması prosesində nəzərə alınmalı olan digər vacib amil isə əməliyyat riskləridir. Maliyyə idarəçiliyi prosesində borc maliyyələşməsi müəyyən əməliyyat risklərini artıra bilər. Bu risklər, xüsusilə borc öhdəliklərinin yerinə yetirilməsi ilə bağlıdır. Müəssisələr, kapital strukturunu tənzimləyərkən borc öhdəliklərinin icrasını təmin etmək üçün likvid aktivlərə malik olmalıdırlar. Bu, qısa müddətli maliyyə böhranlarının və öhdəliklərin yerinə yetirilməməsi kimi halların qarşısını almağa kömək edəcəkdir. Müasir maliyyə idarəçiliyi baxımından, müəssisələrin kapital strukturunu optimallaşdırması üçün texnologiya və rəqəmsallaşmanın rolu da artır. Azərbaycanda, xüsusilə bank sektorunda rəqəmsal texnologiyaların tətbiqi və maliyyə

xidmətlərinin rəqəmsallaşdırılması kapital idarəçiliyini daha çevik və səmərəli edə bilər. Texnologiyaların tətbiqi ilə maliyyə əməliyyatlarının daha şəffaf və səmərəli olması kapital strukturlarının daha effektiv idarə edilməsinə şərait yaradır. Bu da müəssisələrin borc maliyyələşməsi və kapital planlaşdırması üzrə daha dəqiq qərarlar qəbul etməsinə kömək edir. Dövlət siyasətinin də kapital strukturunun optimallaşdırılmasına dəstəyi mühüm əhəmiyyət kəsb edir. Xüsusilə vergi güzəştləri və dövlət tərəfindən verilən maliyyə stimulları müəssisələrin borclanma və kapital mənbələrini səmərəli istifadə etməsinə kömək edə bilər. Bu, xüsusilə qeyri-neft sektorunda fəaliyyət göstərən kiçik və orta müəssisələr üçün vacibdir. Azərbaycanda iqtisadi islahatların davam etdirilməsi və maliyyə bazarlarının inkişaf etdirilməsi kapital strukturunun optimallaşdırılmasını daha əlçatan və effektiv edəcəkdir.

Ümumilikdə, kapital strukturunun optimallaşdırılması müəssisələr üçün yalnız maliyyə sabitliyini təmin etmək baxımından deyil, həm də uzunmüddətli iqtisadi inkişafı dəstəkləyən əsas strategiyalardan biri kimi çıxış edir. Azərbaycanın davamlı iqtisadi inkişafı və beynəlxalq bazarlarda rəqabət qabiliyyətini artırmaq üçün müəssisələrin kapital strukturlarını optimallaşdırması strateji əhəmiyyət kəsb edir. Bu prosesin uğurla həyata keçirilməsi həm dövlətin dəstəyini, həm də müəssisələrin strateji maliyyə idarəçiliyini tələb edir.

**Nəticə**

Kapital strukturunun optimallaşdırılması hər bir müəssisənin və iqtisadiyyatın uzunmüddətli sabitliyini və inkişafını təmin etmək üçün mühüm bir prosesdir. Bu yanaşma, müəssisələrin maliyyə resurslarını səmərəli şəkildə idarə etmələrinə, borc və öz kapitalı arasında düzgün balansı tapmalarına və xarici şoklara qarşı daha dayanıqlı olmasına imkan verir. Azərbaycanda kapital strukturunun optimallaşdırılması, xüsusilə strateji sektorlar, o cümlədən neft-qaz və qeyri-neft sahələrində fəaliyyət göstərən müəssisələr üçün əhəmiyyətli bir rola malikdir.

Kapital strukturunun optimallaşdırılması müəssisələrin maliyyə risklərini minimuma endirir, maliyyə resurslarının daha səmərəli istifadəsini təmin edir və uzunmüddətli gəlirliliyi artırır. Bu prosesin uğurlu həyata keçirilməsi, ölkənin iqtisadi diversifikasiyasına və qeyri-neft sektorunun inkişafına töhfə verəcək, eyni zamanda Azərbaycanın beynəlxalq bazarlarda rəqabət qabiliyyətini gücləndirəcəkdir. Müasir maliyyə idarəçiliyində kapital strukturunun optimallaşdırılması, likvidliyin qorunması, risklərin idarə olunması və innovasiya yönümlü investisiyaların dəstəklənməsi kimi aspektlərdə mühüm əhəmiyyət daşıyır.

Azərbaycan iqtisadiyyatında kapital bazarlarının genişləndirilməsi, maliyyə alətlərinin diversifikasiyası və dövlət tərəfindən verilən vergi güzəştləri kapital strukturunun optimallaşdırılmasını dəstəkləyən əsas amillərdəndir. Bu yanaşma, xüsusilə qeyri-neft sektorunda fəaliyyət göstərən kiçik və orta müəssisələr üçün dayanıqlı inkişafın təmin olunmasına kömək edəcəkdir. Ümumilikdə, kapital strukturunun optimallaşdırılması, Azərbaycanın iqtisadiyyatının möhkəmləndirilməsi və uzunmüddətli inkişafına nail olmaq üçün strateji əhəmiyyət kəsb edən bir yanaşmadır. Kapital strukturunun optimallaşdırılması təkcə maliyyə dayanıqlığını təmin etməklə kifayətlənmir, həm də müəssisələrin böyümə və genişlənmə imkanlarını artırır. Optimal kapital strukturu, borclanma və öz kapitalının harmonik şəkildə idarə edilməsi, müəssisələrə həm daxili, həm də xarici maliyyələşmə imkanlarından maksimum dərəcədə yararlanmağa şərait yaradır. Bu yanaşma, həm riskləri azaldaraq daha sağlam maliyyə göstəricilərini təmin edir, həm də gələcəkdə yeni investisiya layihələrinin reallaşmasına təkan verir. Azərbaycanda kapital strukturunun optimallaşdırılması iqtisadi diversifikasiya və qeyri-neft sektorunun inkişafı üçün mühüm rol oynayır. Qeyri-neft sektorunda fəaliyyət göstərən müəssisələrin optimal kapital strukturuna malik olması onların beynəlxalq bazarlara çıxışını asanlaşdıracaq və rəqabət qabiliyyətini artıracaqdır. Bu, həmçinin xarici investorların diqqətini cəlb edərək daha çox investisiya axınını təmin edəcəkdir.

Dövlətin bu sahədə islahatları və dəstəyi də kapital strukturunun optimallaşdırılmasına töhfə verə bilər. Vergi güzəştləri, maliyyə stimulları və qanunvericilikdəki dəyişiklər, xüsusilə kiçik və orta müəssisələrin maliyyə imkanlarını artırmaq üçün mühüm vasitədir. Kapital bazarlarının genişləndirilməsi və maliyyə alətlərinin diversifikasiyası isə daha çox maliyyələşmə variantları yaradaraq, müəssisələrə borc və öz kapitalı arasında balansı daha səmərəli şəkildə tənzimləməyə imkan

verir. Kapital strukturunun optimallaşdırılması həmçinin beynəlxalq maliyyə bazarları ilə inteqrasiyanı gücləndirir. Müəssisələrin beynəlxalq borc bazarlarından faydalanması, onların maliyyə resurslarını artıraraq, qlobal səviyyədə rəqabət aparmasına imkan yaradır. Bu, xüsusilə böyük dövlət müəssisələri, o cümlədən SOCAR üçün əhəmiyyətlidir, çünki onların xarici bazarlara çıxışı Azərbaycanın ümumi iqtisadi sabitliyinə və gələcək inkişafına birbaşa təsir göstərir.

### İstifadə olunmuş ədəbiyyat

1. Bağırov M.M., (2013), "Banklar və bank əməliyyatları:" dərslik. Bakı. Nurlan - 532 s.

2. Məmmədov Z.F. (2017), "Qloballaşma şəraitində bank böhranı və bank sektoru islahatı." Bakı: Azərnəşr, 392 s.

3. Murşudli F.F. (2018), "Maliyyə qloballaşması şəraitində Azərbaycanın xarici iqtisadi fəaliyyəti üçün bank xidmətləri." Bakı: Şərq-Qarb, 416 s.

4. Maliyyə Sağlamlığına baxış. Bakı: Azərbaycan Respublikası Mərkəzi Bankı, 2018.

5. Kərimov A.E., (2018), "Bank xidmətləri bazarı: nəzəriyyə və təcrübə (Azərbaycan Respublikasının kommersiya banklarının timsalında)". Bakı "İqtisadiyyat Universiteti" 400 s.

6. Багиров М.М., (2013), "Банки и банковские операции:" учебное пособие. Баку. Нурлан-532 с.

7. Гаджиев Д.Ф. (2018), "Денежно-кредитная система и Международный банк Азербайджана". Москва: Финансы и статистика, 240 с.

8. Мамедов З.Ф. (2016). "Банковский сектор Азербайджана: анализ и оценка" // Научные труды. Академии управления при Президенте Республики Беларусь. - Часть I. С. 345.

9. Эриашвили Н.Д.,Тавасиев А.М., Москвин В.А, (2012), "Банковское дело:" учебное пособие / 297с.

## Оптимизация общей структуры капитала

**Мехраб Керимли**
Докторант, Азербайджанский Государственный Экономический Университет
mehrabkerimli96@gmail.com, 055-460-64-56

**Резюме:** Тема «Оптимизация структуры совокупного капитала» освещает процесс формирования структуры капитала предприятий наиболее эффективным способом. Оптимальная структура капитала требует нахождения правильного соотношения между заемным и собственным капиталом, что улучшит финансовые показатели предприятия в долгосрочной перспективе. Оптимизированная структура капитала сводит к минимуму процентные расходы по долгам и повышает прибыльность и финансовую стабильность. В Азербайджане, особенно для таких стратегических сфер, как банковский сектор и нефтегазовая отрасль, правильное управление совокупным капиталом имеет особое значение. Оптимизация структуры капитала также важна с точки зрения снижения финансовых рисков и привлечения инвесторов. Такой подход в конечном итоге повышает конкурентоспособность предприятий и способствует общему развитию экономики. Оптимизация структуры капитала важна как с теоретической, так и с практической точки зрения. Хотя теоретически теорема Модильяни-Миллера утверждает, что структура капитала не влияет на стоимость предприятия, в реальных экономических условиях этот эффект, по-видимому, существует. Оптимизация капитала в Азербайджане, особенно для банковского сектора и нефтегазовой отрасли, должна проводиться с учетом волатильности экономической среды. На практике для оптимизации общего капитала предприятия должны правильно регулировать баланс между заемным и собственным капиталом. Если лимит долга не определен должным образом, предприятие может столкнуться с долгами высокого риска и потенциальными финансовыми трудностями. Чрезмерная зависимость от собственного капитала может увеличить стоимость капитала и снизить прибыльность компании.

**Ключевые слова:** капитал, долг, структура капитала, финансы, банковский сектор.

DOI: https://doi.org/10.36719/2707-9317/03/88-96

# Evaluating exports of petrochemical products of SOCAR to European markets

**Elmir Mehdiyev**
Researcher of the Scientific Center for Reconstruction of Post-Conflict Territories Institute of Economy of the Ministry of Science and Education
of the Republic of Azerbaijan
PhD student of Azerbaijan State Economic University (UNEC)
*elmirmehdiyev@gmail.com*
ORCİD-ID:0000-0002-8351-1361
(+994 55) 673 36 72

**Abstract:** The article analyzes the current situation with the export of petrochemical products manufactured by SOCAR Polymer LLC and urea plants, residents of the Sumgait Chemical Industrial Park, to European markets. Using the EVews-12 software package, the article estimates the impact of SOCAR plant urea exports to Europe in value terms on the export quota expressed as a share of exports in GDP. The study found that an increase in the value of SOCAR urea plant exports of the same products to Europe leads to an increase in Azerbaijan's export quota.

**Key words:** petrochemical industry, high-density polyethylene, polypropylene, urea, export quota, correlation, regression, elasticity coefficient, software package.

# SOCAR-ın neft-kimya məhsullarının Avropa bazarlarına ixracının qiymətləndirilməsi

**Elmir Mehdiyev**
AR. ETN İqtisadiyyat İnstitutu
elmi işçi
Azərbaycan Dövlət İqtisad Universitetinin doktorantı
elmirmehdiyev@gmail.com
(+994 55) 673 36 72

**Xülasə:** Məqalədə Sumqayıt Kimya Sənaye Parkında rezident olan "SOCAR Polymer" MMC və Karbamid zavodları tərəfindən istehsal olunan neft-kimya sənayesi məhsullarının Avropa bazarlarına ixracının mövcud vəziyyəti təhlil edilmişdir. Məqalədə həmçinin SOCAR-ın Karbamid zavodunun eyniadlı məhsulunun Avropaya ixracının dəyər ifadəsində həcminin Azərbaycan üzrə ixracın ÜDM-də payı ilə ifadə edilən ixrac kvotasına təsiri EVews-12 proqram paketinin tətbiqi ilə qiymətləndirilmişdir. Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, SOCAR-ın Karbamid zavodunun eyniadlı məhsulunun Avropaya ixracının dəyər ifadəsində həcminin artması Azərbaycanın ixrac kvotasının artması ilə nəticələnir.

**Açar sözlər:** neft-kimya sənayesi, yüksək sıxlıqlı polietilen, polipropilen, karbamid, ixrac kvotası, korrelyasiya, reqressiya, elastiklik əmsalı, proqram paketi.

## Giriş

Dünya iqtisadiyyatının qloballaşdığı bir şəraitdə və müasir inkişaf mərhələsində neft-kimya sənayesi iqtisadiyyatın müxtəlif sahələrinin, o cümlədən sənaye, tikinti və kənd təsərrüfatının inkişafına əhəmiyyətli dərəcədə təsir göstərir. Kompozit materiallara keçidin sürətlənməsi və plastik materiallardan istifadənin artması tendensiyası nəzərə alınmaqla texnoloji komponentlərdən istifadə edən sənaye sahələrinin inkişafı müasir neft-kimya sənayesi olmadan mümkün deyildir. [2,6].

Araşdırmalar göstərir ki, dünyanın inkişaf etmiş ölkələri iqtisadi inkişafın perspektivli sahələrindən biri kimi neft-kimya məhsullarının istehsalını dəstəkləyir və inkişaf etdirir. Neft-kimya sənayesi əməyin avtomatlaşdırılması və texnoloji inkişafının yüksək səviyyəsi ilə xarakterizə olunur ki, bu da onu digər sənaye sahələrindən fərqləndirir [1,6]. Neft-kimya sənayesinin sürətli inkişafı iqtisadiyyatın bütün sahələrində neft-kimya məhsullarından istifadənin artması ilə bağlıdır. Ucuz karbohidrogen ehtiyatlarına malik olan ölkələr qiymət üstünlüyünü təmin etməklə irimiqyaslı neft-kimya məhsullarının istehsalını dinamik şəkildə inkişaf etdirirlər. İnkişaf etmiş ölkələr qlobal bazarda rəqabət üstünlüklərini qorumaq üçün getdikcə daha çox yüksək texnologiyalı və bilik tutumlu məhsullar istehsal etməyə, xüsusən də bərpa olunan xammaldan məhsulların və ekoloji təhlükəsizlik tələbləri artırılan məhsulların istehsalı sahələrini inkişaf etdirməyə məcburdurlar.

Dünya təcrübəsi göstərir ki, neft-kimya sənayesinin inkişafı infrastruktur layihələrinin dövlət tərəfindən maliyyələşdirilməsi, həmçinin bu cür layihələrin həyata keçirilməsində dövlət-özəl sektor tərəfdaşlığı çərçivəsində səmərəli dövlət dəstəyi sayəsində mümkündür [7].

Son zamanlar dünyada neft-kimya məhsullarından istifadənin artması və onların istehsalı üçün tələb olunan texnologiyaların geniş yayılması neft-kimya kompleksinin sürətli inkişafına əsaslı şərait yaratmışdır. Neft-kimya məhsullarının tətbiqi sahələrinin getdikcə genişlənməsi və yeni plastik materialların istifadəsinin artması səbəbindən dünya iqtisadiyyatının kimyalaşması tendensiyası davam edir. 2030-cu ilə qədər dünyada adambaşına düşən polimer məhsullarının istehlakının artması gözlənilir ki, bu göstəricinin 128 dollara qədər yüksəlməsinə səbəb olacaq [11].

## Əsas hissə

Son illər ərzində Azərbaycanda neftin hasilatının getdikcə azalması neft-kimya məhsullarını istehsal etməklə yeni əlavə dəyərlərin yaradılmasını şərtləndirir. Beləliklə, Azərbaycanda neft-kimya sənayesinin inkişafı, istehsal zəncirində əlavə dəyərin yaradılması, həmçinin yeni iş yerlərinin açılması məqsədilə Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) tərəfindən Yüksək Sıxlıqlı

Polietilen (YSPE) və Polipropilen (PP) məhsullarının istehsalı üçün "SOCAR Polymer" MMC və karbamid (azot gübrəsi) məhsulunun istehsalı üçün isə "Karbamid zavodu" təsis edilmiş, İqtisadi Zonaların İnkişafı Agentliyinin idarəetməsində olan Sumqayıt Kimya Sənaye Parkının rezidentləri olmuş və 2019-cu ildən etibarən istehsal fəaliyyətinə başlamışlar.

"SOCAR Polymer" MMC və Karbamid zavodu Sumqayıt Kimya Sənaye Parkının rezidenti olmaqla xüsusi imtiyazlardan faydalanır. Sumqayıt Kimya Sənaye Parkı - "Sumqayıt Kimya Sənaye Parkının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 21 dekabr tarixli 548 nömrəli Fərmanı ilə yaradılmışdır. Sənaye parkının yaradılmasında məqsəd - ölkədə innovativ və yüksək texnologiyalar əsasında rəqabətqabiliyyətli sənaye istehsalının inkişafı üçün münbit şəraitin yaradılması, bu sahədə sahibkarlığın dəstəklənməsi, qeyri-neft sektorunun davamlı inkişafının təmin edilməsi, əhalinin istehsal sahəsində məşğulluğunun artırılmasıdır. İstehsal üçün zəruri infrastruktur tamamilə dövlət tərəfindən təmin edilir. Sənaye parklarının rezidentləri 10 il müddətinə əmlak, torpaq, mənfəət vergisi, eləcə də istehsal məqsədilə idxal olunan texnika, texnoloji avadanlıq və qurğulara görə ƏDV-dən və 7 il müddətinə gömrük rüsumlarından azad olunurlar. Beləliklə, tətbiq edilən imtiyazlar müəssisə tərəfindən istehsal edilən məhsulların maya dəyərinin azalmasına gətirib çıxarır ki, bu da nəticədə məhsulların bazarda rəqabətqabiliyyətliliyini artırmış olur.

"SOCAR Polymer" MMC-nin zavodunda iki çeşiddə məhsul - Yüksək Sıxlıqlı Polietilen (YSPE) və Polipropilen (PP) istehsal olunur ki, bu məhsulların da böyük sənaye əhəmiyyəti vardır. Neft-kimya məhsulları plastik materiallardan hazırlanan istehlak malları üçün əsas xammal kimi istifadə olunur. Yüksək Sıxlıqlı Polietilen (HDPE) ev təsərrüfatlarında ərzağın saxlanması üçün qabların, oyuncaqların, turbaların və digər sənaye əhəmiyyətli məhsulların istehsalında istifadə olunur. Polipropilen (PP) isə kənd təsərrüfatı sahəsi üçün kisələr, birdəfəlik şpris, elektron sənayesi üçün plyonkalar və digər sənaye əhəmiyyətli məhsulların istehsal olunması üçün əsas xammaldır. SOCAR-ın Karbamid zavodunda karbamid (azot gübrəsi) istehsal olunur ki, bu da kənd təsərrüfatı bitkilərinin məhsuldarlığını artırmaq üçün istifadə edilir.

## 1. İstehsal edilmiş polimer məhsullarının və karbamidin ixracının mövcud vəziyyəti

Araşdırmalar göstərir ki, Azərbaycanda polimer məhsulları (Yüksək Sıxlıqlı Polietilen və Polipropilen) və karbamid istehsalının orta hesabla 90%-dən çoxu ixraca yönəldilmişdir. Daxili bazar qiyməti ilə müqayisədə bu məhsulların ixrac qiymətinin aşağı olması, bilavasitə həmin məhsulların ixracının artırılmasına gətirib çıxarmışdır. Qeyd edək ki, bu məhsulların istehsal həcminin yüksəlməsi və Avropa bazarlarına ixracının artması Azərbaycanın Avropa ölkələri ilə ticarət əlaqələrinin möhkəmlənməsində mühüm rol oynayır. Aşağıdakı qrafikdə 2019-2023-cü illərin 1-ci və 2-ci yarımilliklərində SOCAR-ın Polimer və Karbamid zavodlarının məhsullarının Avropa bazarlarına ixracının dəyər ifadəsində həcminin artması ilə ölkə üzrə ÜDM-nin artması arasında əlaqə göstərilmişdir [4, 5, 8, 9, 10].




**Qrafik 1.1. 2019-2023-cü illərin 1-ci və 2-ci yarımilliklərində SOCAR-ın Polimer və Karbamid zavodlarının məhsullarının Avropa bazarlarına ixracının və ölkə üzrə ÜDM-in məbləği, mln. ABŞ Dolları ilə**

*Mənbə. (9)*

Qrafikdən göründüyü kimi 2019-2023-cü illərin 1-ci və 2-ci yarımilliklərində SOCAR-ın Polimer və Karbamid zavodlarının məhsullarının Avropa bazarlarına ixrac dinamikası həmin dövrlərdə dəyişikliklərlə müşahidə edilmişdir. Ümumilikdə, 2019-2023-cü ilə üzrə SOCAR-ın Polimer zavodunda Polimer ixracının həcmi 648,061 mln. ABŞ Dolları, karbamid ixracı isə 440,99 mln. ABŞ Dolları təşkil etmişdir. İxrac edilmiş polimer məhsulunun dəyəri 2020-ci ildə COVİD-19 pandemiyasının təsiri ilə 4,161 mln dollar azalsa da, sonrakı illərdə 2019-cu illə müqayisədə 2021-ci ildə 2,3 dəfə, 2022-ci ildə üzrə 1,9 dəfə, 2023-cü ildə isə 2,5 dəfə artmışdır. Analoji artım karbamid ixracında da müşahidə edilmişdir. Bu artım əsasən ixracın həcminin yüksəlməsində mühüm əhəmiyyət kəsb edərək ölkə üzrə ümumi ixracın artmasını şərtləndirmişdir.

Qeyd etmək lazımdır ki, SOCAR-ın Polimer zavodunun ixrac etdiyi polimer məhsulları və Karbamid zavodunun ixrac etdiyi karbamid məhsulunun qiyməti daxili bazarla müqayisədə aşağıdır. Sözügedən məhsulların ixrac qiymətlərinin aşağı olmasına baxmayaraq hər iki məhsulun ixrac satış qiymətinin ümumi xərcləri üstələməsi, həmçinin Avropa bazarlarında bu məhsulların rəqabət qabiliyyətinin artırılması üçün ixrac qiymətlərinin Avropa Birliyi ölkələrinin tələbinə uyğunlaşdırılması həmin regionun bazarlarına neft-kimya məhsullarının ixracının artmasında mühüm rol oynayır. Aşağıdakı qrafikdə 2019-2023-cü illərin yarımillikləri üzrə Azərbaycamn Respublikasında ixrac kvotasının dinamikası göstərilmişdir.




**Qrafik 1.2. 2019-2023-cü illərin 1-ci və 2-ci yarımilliklərində Azərbaycamn Respublikası üzrə ÜDM, karbamid ixracı və ixrac kvotasının dinamikası.**

*Mənbə. (4), (5), (8), (9) və (10) məluumatlarına əsasən tərtib edilib.*

Qrafikə görə 2021-ci ilin 1-ci yarımilliyində ÜDM və ixrac məhsullarının həcmi COVİD-19 pandemiyasının təsiri ilə əlaqədar olaraq, 2019-2020-ci illərlə müqayisədə azaldığından ixrac kvotası 2020-ci ilin eyni dövrü ilə müqayisədə 25,9% azalaraq 32% təşkil etmişdir. Bu azalma ixracın dəyər ifadəsində həcminin sonrakı illərdə əvvəlki dövrlə müqayisədə azalması hesabına ixrac kvotasının azalması ilə nəticələnmişdir.

**2. SOCAR-ın Karbamid zavodunun eyniadlı məhsulunun Avropaya ixracının dəyər ifadəsində həcminin Azərbaycanın ixrac kvotasına təsirinin qiymətləndirilməsi.**

Tədqiqatlar göstərir ki, ixracla iqtisadiyyatın açıqlıq dərəcəsi, xüsusən də ixrac kvotası arasında sıx əlaqə vardır. Bu baxımdan həmin əlaqənin qiymətləndirilməsi mühüm əhəmiyyət kəsb edir.

Qrafik 1.1. və 1.2. məlumatları əsasında SOCAR-ın Karbamid zavodu üzrə karbamid məhsulunun Avropa bazarlarına ixrac dəyəri ilə Azərbaycan üzrə ixrac kvotası arasındakı asılılığın reqressiya analizini aparsaq aşağıdakı nəticə alınacaqdır.

*Cədvəl 2.1.*

**Korrelyasiya-reqressiya analizinin nəticəsi**

| | | |
|---|---|---|
| Dependent Variable: IK | | |
| Method: Least Squares | | |
| Date: 09/20/24 Time: 16:37 | | |
| Sample: 2019S1 2023S2 | | |

| Included observations: 10 | | | | |
|---|---|---|---|---|
| Variable | Coefficient | Std. Error | t-Statistic | Prob. |
| IKAR_ | 0.001453 | 0.000320 | 4.547505 | 0.0019 |
| C | 0.306923 | 0.019320 | 15.88651 | 0.0000 |
| R-squared | 0.721058 | Mean dependent var | 0.371000 | |
| Adjusted R-squared | 0.686190 | S.D. dependent var | 0.074614 | |
| S.E. of regression | 0.041798 | Akaike info criterion | -3.335096 | |
| Sum squared resid | 0.013976 | Schwarz criterion | -3.274578 | |
| Log likelihood | 18.67548 | Hannan-Quinn criter. | -3.401483 | |
| F-statistic | 20.67980 | Durbin-Watson stat | 1.285109 | |
| Prob(F-statistic) | 0.001881 | | | |

***Mənbə.*** *EVews-12 proqram paketi*

EVews-12 proqram paketinə əsasən göstəricilər arasındakı əlaqəni ifadə edən xətti reqressiya tənliyi aşağıdakı kimi olacaqdır.

Estimation Command:
=========================
LS IK IKAR_ C

Estimation Equation:
=========================
IK = C (1) * IKAR_ + C (2)

Substituted Coefficients:
=========================
IK = 0.00145303468027*IKAR_ + 0.306922823635 (1)

Burada, İKAR – Karbamidin ixracının dəyər ifadəsində həcmi, İK – Azərbaycan üzrə ixrac kvotası göstəricisidir.

Cədvəl 1.1-dən göründüyü kimi izahedici dəyişənin əmsalı və sərbəst həddin qiyməti üzrə standart xətalar həmin göstəricilərdən əhəmiyyətli dərəcədə kiçikdir. Bu isə model üzrə əmsalın statistik əhəmiyyətli olduğunu göstərir.

F-Fişer kriteriyasının köməkliyi ilə reqressiya tənliyinin statistik əhəmiyyətliliyinin yoxlanılması məqsədi ilə, F- Fişer kriteriyası, $F_{cədvəl}\ (\alpha; \mathrm{m}; \mathrm{n}-\mathrm{m}-1) = F_{cədvəl}\ (0{,}05; 1; 8) = 5{,}32$ qiyməti ilə müqayisə əsasında, F-Fişer kriteriyası (20,68) $>$ $F_{cədvəl}$ (5,32) olduğundan, reqressiya tənliyi ümumilikdə statistik əhəmiyyətlidir.

Eviews-12 tətbiqi proqram paketinə əsasən alınmış cədvələ uyğun olaraq reqressiya tənliyi ilə Eviews-12 tətbiqi proqram paketinə uyğun olaraq alınan (Fitted) və faktiki (Actual) qiymətlərinin, habelə onların arasındakı qalıqların (Residual) dinamikası aşağıdakı qrafik 1.2.-də verilmişdir.




**Qrafik 2.1 Eviews-12 tətbiqi proqram paketinə əsasən model üzrə alınan və faktiki qiymətlərinin, onların arasındakı qalıqların dinamikası.**

***Mənbə:*** *Eviews-12 tətbiqi proqram paketi*

Əgər Eviews-12 tətbiqi proqram paketinə Q-statistikası üzrə qalıq diaqnostikanı və histoqram testini aparsaq aşağıdakı nəticələri alarıq.

<table>
<tr><td colspan="4">Date: 09/20/24 Time: 16:43</td><td></td><td></td><td></td></tr>
<tr><td colspan="2">Sample: 2019S1 2023S2</td><td></td><td></td><td></td><td></td><td></td></tr>
<tr><td colspan="3">Included observations: 10</td><td></td><td></td><td></td><td></td></tr>
<tr><td>Autocorrelation</td><td>Partial Correlation</td><td></td><td>AC</td><td>PAC</td><td>Q-Stat</td><td>Prob</td></tr>
<tr><td>. |* . |</td><td>. |* . |</td><td>1</td><td>0.124</td><td>0.124</td><td>0.2041</td><td>0.651</td></tr>
<tr><td>. ***| . |</td><td>. ***| . |</td><td>2</td><td>-0.416</td><td>-0.438</td><td>2.8034</td><td>0.246</td></tr>
<tr><td>. | . |</td><td>. |* . |</td><td>3</td><td>0.019</td><td>0.185</td><td>2.8094</td><td>0.422</td></tr>
<tr><td>. *| . |</td><td>.****| . |</td><td>4</td><td>-0.163</td><td>-0.503</td><td>3.3407</td><td>0.503</td></tr>
<tr><td>. ***| . |</td><td>. *| . |</td><td>5</td><td>-0.350</td><td>-0.150</td><td>6.2824</td><td>0.280</td></tr>
<tr><td>. |* . |</td><td>. | . |</td><td>6</td><td>0.187</td><td>0.005</td><td>7.3271</td><td>0.292</td></tr>
<tr><td>. |** . |</td><td>. | . |</td><td>7</td><td>0.303</td><td>-0.001</td><td>11.008</td><td>0.138</td></tr>
<tr><td>. *| . |</td><td>. *| . |</td><td>8</td><td>-0.102</td><td>-0.103</td><td>11.627</td><td>0.169</td></tr>
<tr><td>. *| . |</td><td>. *| . |</td><td>9</td><td>-0.101</td><td>-0.140</td><td>12.860</td><td>0.169</td></tr>
</table>

**Qrafik 2.1. 2019-2023-cü illərin 1-ci və 2-ci yarımilliklərində SOCAR-ın Karbamid zavodunun məhsullarının Avropa bazarlarına ixracının və ölkə üzrə ixrac kvotasının Ewievs-12 proqram paketində Q-statistikası üzrə avtokorrelyasiya testi**

***Mənbə:*** *EViews tətbiqi proqram paketinə əsasən müəllif tərəfindən hazırlanmışdır.*




***Qrafik 1.5. Histoqram normallıq testi***
***Mənbə:*** *Eviews-12 tətbiqi proqram paketi*

Qrafik 1.5-də Paylanma histoqramı və zaman sıralarının statistik xüsusiyyətləri Eviews-12 tətbiqi proqram paketində hesablanmışdır. Qrafikdən göründüyü kimi Jarques-Bera testi üçün əhəmiyyətlilik səviyyəsi üzrə, alınan dəyəri ε=0,05 həddi ilə müqayisə etdikdə, p>ε olduğunu görürük. Bu isə onu deməyə əsas verir ki, sıfır hipotezi ($H_0$) rədd edilmir. Nəticə onu göstərir ki, Jacques-Bera meyarı üzrə 5%-li əhəmiyyətlilik səviyyəsində tədqiq olunan dövr üzrə normal paylanma qanununa tabedir.

IK = 0.00145303468027*IKAR_ + 0.306922823635 modelinin spesifikasiyasının doğruluğu modeldə avtokorrelyasiyaya əsasən müəyyən edilir. Darbon-Uotson statistikası Eviews-12 tətbiqi proqram paketinə görə DW=1.285 olduğundan, $\alpha = 0,05$ əhəmiyyətlilik səviyyəsində (m=1) izahedici dəyişən və n=10 müşahidə dövrü ilə Darbon-Uotsonun böhran nöqtələri aşağıdakı kimidir [3].

$$d_l = 0,879\,, \qquad d_u = 1,320$$

Məlumdur ki, Darbon-Uotson meyarlarına görə $d_l \leq \text{DW} < d_u$ şərti ödənilərsə, göstəricilər arasında avtokorrelyasiyanın mövcudluğu haqqında nəticə təyin edilməmiş hesab olunur [3].

$d_l = 0,879 \leq \text{DW} = 1,285 < d_u = 1,320$ olduğundan göstəricilər arasında avtokorrelyasiyanın mövcudluğu haqqında nəticə təyin edilməmişdir [3].

Əlavə dəyərə təsir edən amillər üzrə elastiklik əmsalını hesablasaq aşağıdakı nəticəni alarıq [3].

$$E_{\text{Karbamid}} = \frac{\alpha_1 \times \overline{IKAR}}{\overline{\text{IK}}} = \frac{0,00145 \times 44,099}{0,371} = 0,172354$$

Göründüyü kimi SOCAR-ın Karbamid zavodunun ixrac etdiyi karbamidin dəyərinin artması ölkə üzrə ixrac kvotasının artmasını şərtləndirir.

SOCAR-ın Karbamid zavodunda ixrac edilən karbamidin dəyəri ilə ölkə üzrə ixrac kvotası arasındakı asılılığa uyğun olaraq, Eviews-12 tətbiqi proqram paketində modelin proqnoz xarakteristikalarını yoxlasaq aşağıdakı nəticəni alarıq.




**Qrafik 1.6. Modelin proqnoz xarakteristikaları**
*Mənbə: Eviews-12 tətbiqi proqram paketi*

Qrafikdən göründüyü kimi modelin proqnoz xarakteristikaları bütövlükdə qurulmuş modelin proqnoza yararlılığını ifadə edir.

**Nəticə.** Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, polimer tərkibli plastik materiallardan emal sənayesinin müxtəlif sahələrində - daha çox gündəlik tələbat mallarının istehsalında, karbamid məhsullarından isə kənd təsərrüfatı sahəsində məhsuldarlığın artırılmasında geniş istifadə olunduğundan Avropa bazarlarında bu məhsullara tələb artan dinamika ilə inkişaf edir. Karbamid və polimer məhsullarına dünya bazarında olan qlobal tələbin inkişaf meylləri gələcəkdə Azərbaycanda bu məhsulların istehsalını şərtləndirərək əsas hədəf bazarı kimi Avropanın bir çox ölkələrinə, o cümlədən Türkiyə, Gürcüstan, Ukrayna, Rumıniya, Bolqarıstan, Moldova, Albaniya, İtaliya, İspaniya, Polşa, Yunanıstan və Sloveniya kimi ölkələrə ixracını daha da artıracaqdır.

Tədqiqat işində SOCAR-ın Karbamid zavodunun eyniadlı məhsulunun Avropa bazarlarına ixracı və 2019-2023-cü illərin 1-ci və 2-ci yarımillikləri üzrə ölkə üzrə ixrac kvotası barədə statistik məlumatlar əsasında Ewievs-12 proqram paketinin tətbiqi ilə müəyyən edilmişdir ki, SOCAR-ın Karbamid zavodunun ixrac etdiyi eyniadlı məhsulun dəyər ifadəsində həcmi ilə ölkə üzrə ixrac kvotası arasında IK = 0.00145303468027*IKAR_ + 0.306922823635 xətti reqressiya tənliyi ilə ifadə olunan yüksək korrelyasiya asılılığı vardır və SOCAR-ın Karbamid zavodunun ixrac etdiyi eyniadlı məhsulun dəyər ifadəsində həcminin 1% artması ölkə üzrə ixrac kvotasının 0,17% artması ilə nəticələnir. Tədqiqat işində Eviews-12 tətbiqi proqram paketinə əsasən modelin proqnoz xarakteristikaları yoxlanılaraq proqnoza yararlılığı müəyyən edilmişdir.

## İstifadə olunmuş ədəbiyyat

1. Hüseynova A.D. “Elm və innovasiya fəaliyyəti: ölçmə və qiymətləndirmə”, Bakı: TUNA, 2020, 374 s.
2. Elmir Mehdiyev "Azərbaycanın neft-kimya sənaye məhsullarının Avropa bazarlarına çıxışının təhlili və qiymətləndirilməsi", “ENECO Enerji iqtisadiyyatı mərkəzinin xəbərləri” jurnalı, UNEC, 2024, № 1
3. Yadigarov T.A. “Əməliyyatlar tədqiqi və ekonometrik məsələlərin MS Excel və Eviews proqram paketlərində həlli: nəzəriyyə və praktika”, Bakı-2020, 352 səh.
4. “SOCAR Karbamid” MMC-nin statistik məlumatları
5. “SOCAR Polymer” MMC-nin statistik məlumatları
6. “Экономика химической промышленности” / под ред. В.Д. Якобсона. – М. : Высш. шк., 2004. – 259 с.
7. Микушева Т.Ю. “Зарубежный опыт государственного регулирования инновационной

деятельности" / Труды шестой всероссийской научно-практической конференции, М., 2010, с. 86-90
8. https://www.stat.gov.az/source/industry/
9. https://customs.gov.az/az/faydali/gomruk-statistikasi/xarici-ticaretin-veziyyeti-haqqinda
10. https://economiczones.gov.az/
11. https://www.worldbank.org/

# Оценка экспорта нефтехимических продукций SOCAR на европейские рынки

**Эльмир Мехтиев**
Научный сотрудник Научного центра
реконструкции постконфликтных территорий
Института Экономики Министерства
Науки и Образования Азербайджанской Республики
Докторант Азербайджанского Государственного
Экономического Университета
*elmirmehdiyev@gmail.com*
ORCİD-ID:0000-0002-8351-1361
(+994 55) 673 36 72

**Резюме:** В статье анализируется текущая ситуация с экспортом продукции нефтехимической промышленности, производимой ООО «SOCAR Polymer» и заводами карбамида, резидентами Сумгайытского химико-промышленного парка, на европейские рынки. В статье с помощью программного пакета EVews-12 оценено влияние экспорта карбамида завода SOCAR в Европу в стоимостном выражении на экспортную квоту, выраженную долей экспорта в ВВП. В результате исследования установлено, что увеличение стоимости экспорта карбамидного завода SOCAR той же продукции в Европу приводит к увеличению экспортной квоты Азербайджана.

**Ключевые слова:** нефтехимическая промышленность, полиэтилен высокой плотности, полипропилен, карбамид, экспортная квота, корреляция, регрессия, коэффициент эластичности, программный пакет.

DOI: https://doi.org/10.36719/2707-9317/03/97-105

# Characteristics and assessment of women's employment

**Rafiga Abdalova**
Institute of Economics of the Ministry of Science and Education of the Republic of Azerbaijan,
Head of the Department "Demography and employment problems"
e-mail: abdalovarafiga@gmail.com
https://orcid.org/0009-0000-7074-9234

**Summary:** In the presented article, the characteristics and evaluation of women's employment are given. First, general provisions on women's employment were grouped and noted that the development of policies and programs that support women's employment in every society helps to create a more equal and inclusive society. In addition, the article noted the level of women's employment by the countries of the International Labor Organization and carried out certain analyses. In particular, it is emphasized that, in general, it is very important to calculate and measure the level of employment of women in economic activities. This directly helps to achieve concrete results in terms of both gender equality and determination of the sectoral structure of employment.

**Key words:** female employment, labor market, labor relations, gender equality, pandemic, ILO, labor force, unemployment, international experience, income inequality, vocational training, programs, etc.

**UOT: 314.08**

# Qadın məşğulluğunun təmin olunması xüsusiyyətləri və qiymətləndirilməsi

**Rəfiqə Abdalova**
AR ETN İqtisadiyyat İnstitutunun "Demoqrafiya və məşğulluq problemləri" şöbəsinin kiçik elmi işçisi
e-mail: abdalovarafiga@gmail.com
https://orcid.org/0009-0000-7074-9234

**Xülasə:** Təqdim olunmuş məqalədə qadın məşğulluğunun təmin olunma xüsusiyyətləri və qiymətləndirilməsi verilmişdir. İlk olaraq qadın məşğulluğu üzrə ümumi müddəalar qruplaşdırılmış və qeyd edilmişdir ki, hər bir cəmiyyətdə qadınların məşğulluğunu dəstəkləyən siyasət və proqramların inkişafı daha bərabər və əhatəli bir cəmiyyət yaratmağa kömək edir. Bundan başqa məqalədə Beynəlxalq Əmək Təşkilatının ölkələr üzrə qadın məşğulluğunun səviyyəsi qeyd edilərək müəyyən təhlillər də aparılmışdır. Xüsusən də vurğulanır ki, ümumiyyətlə, iqtisadi fəaliyyət növləri üzrə qadınların məşğulluq səviyyəsinin hesablanması və ölçülməsi olduqca vacibdir. Bu hal bilavasitə olaraq həm gender bərabərliyi, həm də məşğulluğun sahəvi strukturunun müəyyənliyi baxımdından konkret nəticələr əldə etməyə kömək edir.

**Açar sözlər:** qadın məşğulluğu, əmək bazarı, əmək münasibətləri, gender bərabərliyi, pandemiya, BƏT, işçi qüvvəsi, işsizlik, beynəlxalq təcrübə, gəlir bərabərsizliyi, peşə hazırlığı, proqramlar və s.

**UOT: 314.08**

## Giriş

Qadın məşğulluğu müasir cəmiyyətlərdə mühüm əhəmiyyət kəsb edən sosial-iqtisadi mövzudur. Qadınların əmək bazarına qatılması yalnız onların iqtisadi müstəqilliyini təmin etmir, həm də ölkənin ümumi inkişafına böyük töhfə verir. Müasir dünyada qadınların iş həyatında fəal rol oynaması, onların təhsil səviyyəsinin artması ilə birbaşa əlaqəlidir. Əmək bazarında qadınların iştirakının artırılması həm gender bərabərliyinə nail olmaq, həm də iqtisadi inkişafı sürətləndirmək üçün vacibdir. Buna baxmayaraq, bir çox ölkələrdə qadınlar hələ də iş yerlərində müxtəlif ayrı-seçkiliklərə məruz qalırlar. Bu ayrı-seçkiliklər qadınların karyera yüksəlişi, əmək haqqı, iş şəraiti və digər sahələrdə özünü göstərir. Qadınların iş həyatında qarşılaşdıqları problemlərin həlli üçün dövlət siyasətləri və qanunvericilikdə dəyişikliklər etmək zəruridir. Eyni zamanda, cəmiyyətin mentalitetinin dəyişdirilməsi, qadınların iş həyatında iştirakını dəstəkləyən bir mühitin yaradılması üçün önəmlidir. Qadınların iş həyatında daha fəal iştirak etməsi, onların ailə həyatını balanslaşdırma qabiliyyəti ilə də əlaqəlidir. Bu səbəbdən, iş yerlərində elastik iş saatları və digər sosial dəstək mexanizmlərinin yaradılması vacibdir. Qadınların iqtisadiyyata qatqısı, müxtəlif sektorlar üzrə fəaliyyət göstərmələri və idarəetmədə iştirakları ölkələrin davamlı inkişafının təməl daşlarından biridir. Təhsil və peşə hazırlığı sahəsində qadınlara bərabər imkanların yaradılması, onların əmək bazarına uğurla daxil olmalarına şərait yaradır. Qadınların sahibkarlıq fəaliyyətinə cəlb edilməsi, yeni iş yerlərinin yaradılması və innovativ iqtisadiyyatın inkişafına təkan verir. Onların iqtisadi fəallığının artırılması, həmçinin yoxsulluğun azaldılmasına və sosial bərabərliyin təmin olunmasına xidmət edir. Dövlət və qeyri-hökumət təşkilatları, qadınların məşğulluğunun artırılması üçün müxtəlif təşviqedici proqramlar həyata keçirirlər. Buna baxmayaraq, bəzi qadınlar ənənəvi gender rollarına görə iş həyatına tam qatıla bilmirlər. Belə hallarda, cəmiyyətin və ailələrin dəstəyi, qadınların iqtisadi fəaliyyətə qatılmasını asanlaşdırır. Qadın məşğulluğunun artırılması, həmçinin qadınların özünə inamını artırır və onların şəxsi inkişafına şərait yaradır. Bütün bu amillər nəzərə alınaraq, qadınların əmək bazarında bərabər hüquqlarla təmsil olunması cəmiyyətin ümumi rifahının yüksəlməsinə mühüm töhfə verir.

**Qadın məşğulluğunun təmin olunması üzrə ümumi müddəalar**

Qeyd edildi ki, məşğulluğun təmin olunmasında qadınlar mühüm rol oynayır və məşğulluq məsələləri üzrə geniş ictimai əhəmiyyətə malikdir. Qadınların məşğulluğu ilə bağlı bəzi ümumi

müddəalar aşağıdakıları özündə birləşdirir:

**- Əmək əldə etməkdə bərabərliyi:** qadınlar cinsiyyətə əsaslanan ayrı-seçkilik etmədən əmək resurslarına, təhsilə, təlimə və işə çıxışda bərabər imkanlara malik olmalıdırlar.

**- Ailə və peşə həyatının birləşməsi:** qadınlar ailə vəzifələrini peşə fəaliyyəti ilə birləşdirmək çətinliyi ilə üzləşirlər. Dövlət və özəl şirkətlər çevik iş cədvəlləri, ödənişli valideyn məzuniyyəti və digər ailə dəstəyi tədbirləri təqdim etməlidirlər.

**- Əmək haqqı və karyera boşluğu ilə mübarizə:** bəzi hallarda qadınlar cinslərinə görə əmək haqqı bərabərsizliyi və karyera yüksəlişində maneələrlə qarşılaşa bilərlər. Buna qərəzli münasibətlər və ya işə qəbulda, işdə irəliləmədə bərabərliyin olmaması səbəb ola bilər.

**- Sahibkarlıqda qadınlara dəstək:** sahibkarlıq fəaliyyətində qadınlara dəstək onların iqtisadiyyatda iştirakının artırılmasının vacib aspektidir. Buraya kreditlərə giriş, təlim və biznesin idarə edilməsi məsləhətləri daxildir.

**Təhsil və peşə təhsili:** qadınların keyfiyyətli təhsil və peşə hazırlığına çıxışını təmin etmək onların uğurlu məşğulluğunda və karyera yüksəlişində əsas rol oynayır.

**İş yerində ayrıseçkiliklə mübarizə**: qadınlara iş yerində ayrıseçkilik və şiddət qorxusu olmadan işləyə biləcəyi təhlükəsiz və qorunan iş mühitləri yaratmaq vacibdir.

Qadınların məşğulluğunu dəstəkləmək üçün siyasət və proqramların inkişafı daha bərabər və əhatəli bir cəmiyyət yaratmağa kömək edir. Qadınlarla beynəlxalq təcrübə bərabərliyin artırılmasına, qadın hüquqlarının qorunmasına və cəmiyyətdə və əmək bazarında mövqelərinin yaxşılaşdırılmasına yönəlmiş geniş proqram, siyasət və təşəbbüsləri əhatə edir [1, s.119-120]. Bunlardan bəzilərini aşağıdakı kimi qruplaşdırmaq olar: -**Beynəlxalq konvensiyalar və müqavilələr:** BMT və Beynəlxalq əmək Təşkilatı (BƏT) kimi müxtəlif beynəlxalq təşkilatlar əmək və cəmiyyətdə qadın hüquqlarının qorunmasına yönəlmiş konvensiyalar, bəyannamələr və müqavilələr hazırlayır və qəbul edirlər. Buna misal olaraq BMT-nin Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğvi haqqında Konvensiyasını göstərmək olar. -**İnkişaf proqramları:** Dünya Bankı, Beynəlxalq Valyuta Fondu (BVF) və bir çox qeyri-hökumət təşkilatı kimi beynəlxalq təşkilatlar qadınların iqtisadiyyata, təhsilə, səhiyyəyə və digər sahələrə daxil edilməsini fəal şəkildə dəstəkləyən inkişaf proqramları həyata keçirirlər. -**Siyasətdə qadınların təmsilçiliyinin artırılması:** bir çox ölkə parlamentlərdə və digər hökumətlərdə qadınların təmsilçiliyini artırmaq üçün kvotalar və digər tədbirlər tətbiq edir. Bu, qadınların qərar qəbul etmə proseslərində və siyasətlərin formalaşmasında daha bərabər iştirakına kömək edir. -**Şiddət və məişət zorakılığı proqramları:** bir çox beynəlxalq təşkilat və hökumət məişət zorakılığı, cinsi zorakılıq və insan alveri də daxil olmaqla qadın və qızlara qarşı zorakılığa qarşı proqramlar və təşəbbüslər həyata keçirir. -**İqtisadi azadlıq:** bir çox layihə və proqram kredit, təlim və bacarıqların inkişafı, sahibkarlıq dəstəyi və iş yerlərinin yaradılması yolu ilə qadınların iqtisadi müstəqilliyini təmin etməyi hədəfləyir. Bu səylər qadınlarla işləməkdə daha bərabər, əhatəli və davamlı bir cəmiyyət yaratmağı hədəfləyən əhəmiyyətli bir beynəlxalq təcrübəni təmsil edir.

**Qadın məşğulluğunun təmin olunması üzrə qiymətləndirmə**

Beynəlxalq Əmək Təşkilatının hesablamalarına görə 2020-ci il üçün qadınların ümumi məşğulluq səviyyəsi 10 ölkə üzrə aşağıdakı kimi olmuşdur..

***Cədvəl 1***

**Bəzi ölkələrdə qadınların ümumi məşğulluq səviyyəsi, faizlə.**

| № | Ölkələr | Qadınların məşğulluq səviyyəsi, %-lə |
|---|---|---|
| 1 | Almaniya | 73,1 |
| 2 | B.Britaniya | 67,8 |
| 3 | Fransa | 65,2 |
| 4 | Çin | 60,5 |
| 5 | Rusiya | 58,3 |
| 6 | ABŞ | 57,7 |
| 7 | Brazilya | 55,6 |
| 8 | Yaponiya | 49,8 |
| 9 | C.Afrika | 46,9 |
| 10 | Hindistan | 22,3 |

Mənbə: [7]

Cədvələ əsasən 2020-ci il üçün 10 ölkə üzrə qadınların məşğulluq səviyyəsində ən yüksək göstərici Almaniyada-73,1 faiz, ən aşağı göstərici isə Hindistanda-22,3 faizdir. Almaniyada hər 10 qadından 7-si işləyir. Burada orta məktəb məzunlarının yarıdan çoxunu, universitetlər və doktorantların isə 45 faizini qadınlar təşkil edir. İdarəçilik və rəhbər vəzifələrdə, həmçinin alim və ekspert kimi qadınlar Almaniya iqtisadiyyatında mühüm rol oynayır. Lakin, qadın və kişilərin arasında gəlir balanssızlığı vardır. Qadınların əmək haqqı kişilərlə müqayisədə aşağı faiz təşkil edir. 2022-ci ildə məşğulluqda hər 100 nəfərə 46,8 qadın düşür. Qadınların ümumi əhalidəki payı (50,9%) ilə müqayisədə Almaniyada hələ də iqtisadi həyatda qadınlar kifayət qədər təmsil olunmayıb. Kişi və qadınların iş həyatında iştirakındakı fərq yalnız idarəedici peşələrdə işləyən şəxslərə nəzər saldıqda daha aydın görünür. 2022-ci ildə hər üç menecerdən yalnız biri qadın olub (həmçinin bax "İdarəçilik peşələrində qadınlar"). [8].

Qadın məşğulluğunun yüksək səviyyəsi əsasən əmək münasibətlərinin qeyri-klassik (məsələn, işçilərin icarəsi və ya kreditlə işləmək) formalarının artması ilə izah edilir. Əvvəllər, işəgötürənlərin digər şirkətə təqdim etdiyi işçilərin üçdə ikisi kişilər idisə, indi artıq bu say qadınların tərəfindədir.

Hesablamalarda ən aşağı faiz göstəricisi Hindistandadır. Burada əməkqabiliyyətli qadınların cəmi 20 faizi işləyir. Bu, bir çox hind qadınlarının rəsmi məşğulluq hesablarına daxil edilməyən sərbəst istehsalatda işləmələri ilə əlaqədardır. Eyni zamanda bütün dünyada olduğu kimi hind qadınlarının da əsas problem qaynağı kişilərin dominant rol oynadığı patriarxal cəmiyyətin olmasıdır.

***Cədvəl 2***

**Azərbaycanda işçi qüvvəsinin cins üzrə bölgüsü, min nəfərlə**

| | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|---|---|---|---|
| **İşçi qüvvəsinin sayı-cəmi, min nəfər** | 4915,3 | 5012,7 | 5073,8 | 5133,1 | 5037,7 | 5089,9 | 5141,6 | 5194,4 |
| **Kişilər** | 2510,8 | 2573,2 | 2609 | 2637,4 | 2623,6 | 2638,5 | 2663,9 | 2685,7 |
| **Qadınlar** | 2404,5 | 2439,5 | 2464,8 | 2495,7 | 2414,1 | 2451,4 | 2477,7 | 2508,7 |
| **Məşğul əhalinin sayı-cəmi, min nəfər** | 4671,6 | 4759,9 | 4822,1 | 4879,3 | 4785,6 | 4721,2 | 4831,1 | 4901,1 |
| **Kişilər** | 2408,2 | 2465,7 | 2502,8 | 2529,4 | 2511,1 | 2476,7 | 2526,8 | 2556,5 |
| **Qadınlar** | 2263,4 | 2294,2 | 2319,3 | 2349,9 | 2274,5 | 2244,5 | 2304,3 | 2344,6 |
| **İşsiz əhalinin sayı-cəmi, min nəfər** | 243,7 | 252,8 | 251,7 | 253,8 | 252,1 | 368,7 | 310,5 | 293,3 |
| **Kişilər** | 102,6 | 107,5 | 106,2 | 108 | 112,5 | 161,8 | 137,1 | 129,2 |
| **Qadınlar** | 141,1 | 145,3 | 145,5 | 145,8 | 139,6 | 206,9 | 173,4 | 164,1 |
| **İşsiz statusu verilmişlər-cəmi, nəfərlə** | 28877 | 32972 | 38481 | 20088 | 81272[3)] | … | … | … |
| **Kişilər** | 17728 | 20418 | 24496 | 12608 | 50625 | … | … | … |
| **Qadınlar** | 11149 | 12554 | 13985 | 7480 | 30647 | … | … | … |
| **Onlardan:** | | | | | | | | |
| **İşsizliyə görə müavinət alanlar-cəmi, nəfər** | 1543 | 1857 | 6974 | 11174 | 5404 | 7274 | … | … |
| **Kişilər** | 1087 | 1238 | 4748 | 668 | 283 | 467 | … | … |
| **Qadınlar** | 456 | 619 | 2226 | 449 | 257 | 260 | … | … |

Mənbə: [1].

2-ci cədvəlin məlumatlarına əsasən 2015-2022-ci illər üzrə Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən Azərbaycanda işçi qüvvəsi üzrə məşğul əhali arasında qadınların sayı kişilərə nisbətən aşağıdır. Belə ki, 2022-ci ildə 4901,1 min nəfər məşğul əhalinin 2556,5 min nəfəri kişilərin; 2344,6 min nəfəri qadınların payına düşmüşdür. Bu rəqəmlərə əsasən Azərbaycanda qadınların məşğulluq səviyyəsi təxminən 45,1 faiz təşkil edir. 1-ci cədvəldə qeyd edilmiş ölkələrlə müqayisədə Azərbaycanın 45,1 faizlə C.Afrikadan (46,9 faiz) geri qalaraq sadəcə Hindistandan (22,3 faiz) öndə olduğunu göstərir.

2015-2022-ci illərdə işsiz əhali arasında qadınların sayı (164,1 min nəfər) kişilərin (129,2 min nəfər) sayından 34,9 min nəfər çoxdur. Bu da mənfi hal kimi qiymətləndirilir. Qeyd olunan illər ərzində işsiz qadınların sayında ən yuxarı göstərici 2020-ci ildə 206,9 min nəfər qeydə alınmışdır ki, əvvəlki il ilə müqayisədə (2019-cu il 139,6 min nəfər) kəskin fərq görünür. Bu isə Koronavirus (COVID-19) pandemiyası *dövrünə* təsadüf edir. P*andemiya iqtisadiyyata* ciddi risklər yaratdı, əsasən xüsusi karantin rejiminin tətbiq olunması, çox sayda iş yerlərinin bağlanması işsiz əhalinin, həmçinin də işsiz qadınların sayının artmasına səbəb olmuşdur.

***Cədvəl 3***

**Muzdla çalışan qadınların yaş qrupları və sayı, min nəfərlə**

| Yaş qrupları | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|---|---|---|
| **Cəmi** | **1514,3** | **1525,0** | **1551,7** | **1646,6** | **1698,7** | **1709,1** | **1738,7** |
| **15-19** | 3,2 | 2,9 | 2,8 | 4,8 | 3,4 | 5,4 | 4,3 |
| **20-24** | 124,7 | 123,6 | 130,9 | 127,8 | 130,4 | 134,1 | 141,1 |
| **25-29** | 218,5 | 221,0 | 234,9 | 243,2 | 245,9 | 244,6 | 249,8 |
| **30-34** | 238,8 | 243,5 | 251,6 | 277,6 | 285,3 | 287,8 | 290,7 |
| **35-39** | 217,2 | 222,6 | 228,1 | 259,5 | 267,0 | 271,5 | 275,5 |
| **40-44** | 178,1 | 184,6 | 185,6 | 199,3 | 211,7 | 216,3 | 219,7 |
| **45-49** | 164,5 | 161,8 | 155,6 | 163,1 | 166,9 | 166,4 | 170,6 |
| **50-54** | 158,6 | 154,7 | 147,6 | 147,2 | 149,4 | 144,8 | 141,0 |
| **55-59** | 132,1 | 131,1 | 130,3 | 129,5 | 132,2 | 126,2 | 126,2 |
| **60-64** | 59,5 | 60,6 | 64,7 | 72,7 | 82,4 | 87,0 | 94,6 |
| **65+** | 19,1 | 18,6 | 19,6 | 21,9 | 24,1 | 25,0 | 25,2 |
| **Qadınlar** | **625,8** | **627,0** | **632,6** | **659,7** | **670,5** | **675,6** | **692,6** |
| **15-19** | 1,2 | 1,6 | 1,3 | 1,9 | 1,4 | 2,0 | 1,6 |
| **20-24** | 49,0 | 48,3 | 49,2 | 50,6 | 52,1 | 53,6 | 57,4 |
| **25-29** | 85,2 | 81,9 | 86,1 | 90,0 | 91,0 | 90,8 | 94,2 |
Qrafik 3-dən aydın olur ki, son üç ildə işğaldan azad olunan torpaqlarımıza yönəldilən investisiyalar bərpa və yenidənqurma məqsədi daşımışdır. 2020-2023-cü illərdə "nəqliyyat və anbar təsərrüfatı" və "tikinti" sferalarına yönəldilən investisiyalar hər üç ildə post-konflikt ərazilərimizə yönəldilən investisiyaların həcminin 70%-dən artığını təşkil edir. Belə ki, iqtisadiyyatın bu iki sahəsinə yönəldilən investisiyalar 2021-ci ildə ümumi sərmayə qoyuluşunun 86.4%-ni, 2022-ci ildə 87.7%-ni, 2023-cü ildə isə 74.6%-ni təşkil etmişdir. Digər bir diqqət çəkən məqam isə budur ki, Qarabağda və Şərqi Zəngəzurda sənayeyə qoyulan investisyaların həcmində artım müşahidə olunmaqdadır. 2023-cü ildə post-konflikt ərazilərimizdə sənayeyə qoyulan investisiyalar 918 890 500 manat təşkil etmişdir ki, bu da ötən illə müqayisədə 4 dəfə çoxdur. 2022-ci ildə sənayeyə yönəldilən investisiyalar ümumi kapital qoyuluşlarının 5.6%-ni təşkil edirdisə, 2023-cü ildə bu göstərici 14.3% olmuşdur. Sənayeyə yönləndirilən investisiyaların həcmindəki artımın əsas səbəblərindən biri də post-konflikt ərazilərimizdəki rayonlardan bəzilərində bərpa və yenidənqurma işlərinin mühüm hissəsinin başa çatmış olmasıdır.

**Qrafik 4. Post-konflikt ərazilərimizdə 2023-cü ildə sənayeyə yönəldilmiş investisiyalar (min manatla)**




***Mənbə:*** *"Azərbaycanda tikinti" Statistik məcmuə / 2024 göstəriciləri əsasında müəllif tərəfindən tərtib edilmişdir.*

Qrafik 4-ə əsasən deyə bilərik ki, 2023-cü ildə Şərqi Zəngəzur iqtisadi rayonunda sənayeyə daha çox investisiya qoyuluşu edilmişdir. 2023-cü ildə Qarabağ iqtisadi rayonunda sənayeyə 240262.9 min manat vəsait yönəldilmişdir ki, bu investisiyanın 65.9%-i Şuşa rayonunun payına düşmüşdür. Şərqi Zəngəzur iqtisadi rayonuna isə 678627.6 min sərmayə qoyulmuşdur. Yönəldilən investisiyanın 43.1%-i Cəbrayıl rayonunun payına düşür. Şərqi Zəngəzur iqtisadi rayonunda sənayeyə qoyulan investisiyaların 38.8%-i isə Laçın rayonuna yönəldilmişdir. Şərqi Zəngəzur iqtisadi rayonunda sənayeyə qoyulan investisiyalar Cəbrayıl rayonunda salınan "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkına və Laçın rayonunda yerləşən "Laçın Aqro və Sənaye Parkı"na yönəldilmişdir. Yaxın gələcəkdə Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkı, "Laçın Aqro və Sənaye Parkı" və Zəngilanda əsası qoyulan "Dost Aqropark"ı post-konflikt ərazilərimizdə sənayenin və kənd təsərrüfatının inkişafına təkan verən əsas sənaye mərkəzlərinə çevriləcəkdir.

2021-2023-cü illərdə işğaldan azad olunan ərazilərimizə qoyulan investisiyaların böyük hissəsi "nəqliyyat və anbar təsərrüfatı"na yönəldilmişdir. Belə ki, "nəqliyyat və anbar təsərrüfatı"na yönəldilən investisiyalar 2021-ci ildə ümumi investisiyaların 72.7%-ni, 2022-ci ildə 78.1%-ni, 2023-cü ildə isə 54%-ni təşkil etmişdir. 2021-ci ildə "nəqliyyat və anbar təsərrüfatı"na 1.6 milyard vəsait qoyulmuşdusa, 2022-ci ildə bu məbləğ iki dəfə artmışdır. 2023-cü ildə isə sözügedən sahəyə yönəldilən investisiyanın həcmi ötən illə müqayisədə 5.1% artmışdır.

"Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq" sferası post-konflikt ərazilərimizdə iqtisadiyyatın əsas sahələrindən biri kimi qiymətləndirilir. İşğaldan azad olunan ərazilərimizin mühüm bir hissəsinin minalarla çirkənmiş olması bu sahəyə sərmayə qoyuluşunu gecikdirən əsas amildir. Bununla belə, Qarabağ və Şərqi Zəngəzurda kənd təsərrüfatına yönəldilən investisiyaların həcmində də artım müşahidə olunmaqdadır. Belə ki, bu sahəyə 2021-ci ildə 13 milyon manat, 2022-ci ildə 54 milyon manat yönəldilmişdisə 2023-cü ildə bu vəsait 348 milyon manat olmuşdur.

Tikinti sektoruna yönəldilən investisiyalarda da artım müşahidə olunmaqdadır. 2021-ci ildə post-konflikt ərazilərimizdə "tikinti" sektoruna 254.6 milyon manat investisiya qoyulmuşdur. 2022-ci ildə bu vəsait 24.1% artaraq 335.2 milyon manat olmuşdur. 2023-cü ildə isə "tikinti" sektoruna əvvəlki illə müqayisədə 3.8 dəfə çox (1 276.7 milyon manat) sərmayə qoyulmuşdur.

Statistik məlumatların təhlilinə əsasən deyə bilərik ki, torpaqlarımızın işğaldan azad edilməsindən bu günə qədər, ötən 4 il ərzində Qarabağ və Şərqi Zəngəzura qoyulan investisiyaların böyük hissəsi bərpa və yenidənqurma işlərinə yönəldilmişdir. Lakin hər ötən il iqtisadiyyatın digər sahələrinə yönəldilən investisiyaların həcmində artım müşahidə olunmaqdadır. 2023-cü ildə sənayeyə və kənd təsərrüfatına qoyulan investisiyalar ümumi investisiyaların 20%-ni təşkil etmişdir. Bu, post-konflikt ərazilərimizdə əsas infrastruktur təminatının bərpasından sonra iqtisadiyyatın digər sahələrinə daha çox sərmayə qoyulacağını deməyə əsas verir.

## NƏTİCƏ

Azərbaycanın post-konflikt ərazilərində investisiya fəaliyyətinin səmərəliliyini artırmaq və işğaldan azad olunan ərazilərimizə xarici investisiyaların cəlbedilməsi üçün bir neçə əsas istiqamət üzrə tədbirlər görülməsi lazımdır:

- **İnfrastrukturun inkişafı:** Minimum infrastruktur təminatının olması xarici investisiyanın cəlbində əsas şərtlərdən biridir. Nəqliyyat yolları, su təchizatı, elektrik enerjisi və telekommunikasiya kimi əsas infrastrukturun bərpası və inkişafı xarici investisiyaların cəlb edilməsi üçün vacibdir. Respublikamızın post-konflikt ərazilərinə yönəldilən dövlət investisiyalarının mühüm bir hissəsinin məhz bu problemin həllinə yönəlməsi həm investisiya fəaliyyətinin səmərəliliyini artıracaq, həm də yaxın gələcəkdə xarici investisiyaların cəlbində əhəmiyyətli rol oynayacaqdır.
- **Normativ hüquqi bazanın təkmilləşdirilməsi:** Qarabağ və Şərqi Zəngəzura xarici investisiyaların cəlb edilməsi və səmərəli investisiya fəaliyyətinin təmini istiqamətində mühüm addımlardan biri də investisiya fəaliyyəti ilə bağlı qanunvericilik bazasının və hüquqi-normativ aktların təkmilləşdirilməsidir.
- **İnvestisiya fəaliyyətinə təşviq**: Xarici investisiyanın cəlbində dövlət tərəfindən həyata keçirilən bir sıra təşviq mexanizmlərinin (vergi kreditləri, gömrük güzəştləri, vergidən azadolmalar və s.) mühüm rolu vardır. Lakin bir sıra tədqiqatçılar xarici investisiyaların cəlbində diaspora

fəaliyyətinin də danılmaz rolunu qeyd edirlər. Xarici ölkələrdə fəaliyyət göstərən Azərbaycan diasporalarının fəalları həmin ölkələrdəki biznes mühitinin aparıcı şəxsləri ilə təmaslar qura bilərlər. İşğaldan azad olunan ərazilərimizdəki hazırkı vəziyyətlə bağlı, həmçinin Qarabağ və Şərqi Zəngəzurun iqtisadi potensialı ilə bağlı Azərbaycan diasporalarının xarici investorlarla apardığı fikir mübadiləsi xarici investisiyanın cəlbi prosesinə müsbət təsir göstərəcəkdir.

- **İntelektual investisiyalar:** Səmərəli investisiya fəaliyyətində əsas meyarlardan biri investisiya obyektinin düzgün müəyyənləşdirilməsidir. Post-konflikt ərazilərimizdə bütün infrastruktur təminatının otuz il ərzində məhv edilməsi dövlətin diqqətini ilk növbədə real investisiyalara yönəltmişdir. Qarabağ və Şərqi Zəngəzurda investisiya fəaliyyətinin səmərəliliyinin artırılması üçün intelektual investisiya fəaliyyətini ön plana çəkmək faydalı olardı. İntelektual investisiyalar dedikdə insan kapitalının yetişdirilməsinə və elmi-tədqiqat işlərinin maliyyələşdirilməsinə qoyulan sərmayə nəzərdə tutulur. Xankəndi şəhərində Qarabağ Universitetinin yaradılmasını bu istiqamətdə önəmli addım kimi qeyd edə bilərik. Lakin bu yetərli deyil. Qarabağ və Şərqi Zəngəzuru mühüm elmi-tədqiqatlar mərkəzi etmək əsas hədəfimiz olmalıdır.
- **Beynəlxalq əməkdaşlıq və tərəfdaşlıq:** Xarici investisiyanın cəlbedilməsi istiqamətində dövlət qurumlarının, qeyri-hökümət təşkilatlarının və yerli biznes subyektlərinin üzərinə çox iş düşür. Dövlət və qeyri-dövlət təşkilatları tərəfdaşlıq etdikləri dövlətlər və təşkilatların post-konflikt ərazilərimizdə investisiya fəaliyyətinə maraq göstərmələrinə çalışmalıdırlar.

Qarabağ və Şərqi Zəngəzurda investisiya fəaliyyətinin səmərəli təşkili bu ərazilərin bərpası və iqtisadi reinteqrasiyası üçün əsas şərtdir. Bu baxımdan, yuxarıda sadalanan istiqamətlər üzrə tədbirlərin həyata keçirilməsi respublikamızın post-konflikt ərazilərində investisiya fəaliyyətinin səmərəliliyini artıracaq və xarici investorları Qarabağ və Şərqi Zəngəzurda investisiya fəaliyyətinə stimullaşdıracaqdır.

### İstifadə olunmuş ədəbiyyat

1. Həsənli, S. Azad olunan ərazilərdə minalarla çirkləndirilmiş sahələrin həcmi açıqlanıb: [Elektron resurs] / Report. – Bakı, 2023. URL:https://report.az/daxili-siyaset/azad-olunan-erazilerde-minalarla-yuksek-ve-orta-seviyyede-cirklenmis-sahelerin-hecmi-aciqlanib/
2. 2020-ci ilin noyabrından bu günə qədər 148 min hektar ərazi minalardan təmizlənib: [Elektron resurs] / AZƏRTAC. – Bakı, 2024. URL:https://azertag.az/xeber/2020_ci_ilin_noyabrindan_bu_gune_qeder_148_min_hektar_erazi_minalardan_temizlenib-3103246
3. Kamalqızı, R. İşğaldan azad edilmiş ərazilərdə müasır yol-nəqliyyat infrastrukturu: [Elektron resurs] / "Səs" qəzeti. – Bakı, 2023 URL:https://sesqazeti.az/news/politics/1103762.html
4. Ağaməmmədov, T. İşğaldan azad olunan ərazilərdə indiyədək tikilən su elektrik stansiyalarının gücü 270 MVt-a bərabərdir: [Elektron resurs] / AZƏRTAC. – Kəlbəcər, 2023. URL:https://azertag.az/xeber/isgaldan_azad_olunan_erazilerde_indiyedek_tikilen_su_elektrik_stansiyalarinin_gucu_270_mvt_a_beraberdir-3163642
5. Seymurqızı, G. İndiyədək azad edilmiş ərazilərə iki mindən çox ailə köçürülüb: [Elektron resurs] / Report. – Bakı, 2024. URL:https://report.az/daxili-siyaset/indiyedek-azad-edilmis-erazilere-kocurulen-ailelerin-sayi-aciqlanib/
6. “Azərbaycanda tikinti” Statistik məcmuə / 2024 // – Bakı: Azmega Group, – 2024. – 254 s.
7. Bayramov, V. Qarabağ və Şərqi Zəngəzurun xarabalıqları cənnətə çevrilir: [Elektron resurs] / Xalq qəzeti. – Bakı, 2023. URL:https://www.xalqqazeti.az/az/iqtisadiyyat/147571-qarabag-serqi-zengezurun-xarabaliqlari-cennete

# Направления анализа инвестиционной деятельности и повышения инвестиционной привлекательности Азербайджана на постконфликтных территориях

**Джаваншир Бурханзаде**
Младший научный сотрудник Научного центра “восстановление постконфликтных территорий” Института экономики Министерства науки и образования Азербайджанской Республики, докторант Института экономики
Электронная почта: cavanshirburhanzadeh@gmail.com
https://orcid.org/0009-0006-0285-3754

**Резюме:** Восстановительные и строительные работы, проводимые на постконфликтных территориях Азербайджана, продолжаются быстрыми темпами. Реставрационные и восстановительные работы, проводимые в Карабахе и Восточном Зангезуре, осуществляются за счет государственного финансирования. Поэтому важное значение имеет эффективная организация инвестиционной деятельности на освобожденных от оккупации территориях, а также привлечение иностранных инвестиций на постконфликтные территории. В статье рассказывается о проделанной работе на наших постконфликтных территориях, анализируются инвестиции, направляемые в Карабах и Восточный Зангезур, даются предложения по повышению эффективности направляемых инвестиций, а также привлечению иностранных инвестиций.

**Ключевые слова:** постконфликтные территории, Карабах и Восточный Зангезур, инвестиции, большая отдача, интеллектуальные инвестиции.

DOI: https://doi.org/10.36719/2707-9317/03/120-129

# Analysis of Granger causality between GDP growth rate and fixed capital investment growth rate: a comparative analysis of countries

**Murad Shikhiyev**
Institute of Economics of the Ministry of Science and Education of the Republic of Azerbaijan
Junior researcher
mrd3616@gmail.com

**Abstract:** Studying the interrelationship between Gross Domestic Product and Gross Fixed Capital Formation which are important indicators of the economy can help predict the development in the country. In some countries, a causality test was conducted between the growth rate of oil prices, GDP and Gross Fixed Capital Formation. The purpose of the conducted research is to study the mutual cause and effect relationship of the growth rate of these indicators in different countries. To study this relationship, an econometric model was built and the Granger causality test was used, and the normality of these econometric models was checked. This interaction was positive in certain countries based on the obtained results. The results of checking the normality of the established econometric models were also completed positively.

**Key words:** GDP (Gross Domestic Product), GDP_A (Gross Domestic Product growth rate), I_A (Fixed capital investment growth rate), NQ_A (Oil price growth rate)

**JEL Code: B23 UOT: 330.43**

# ÜDM artım tempi və Əsas kapitala yönəlmiş investisiyaların artım tempi arasında Granger səbəbiyyət əlaqələrinin analizi: ölkələrin müqayisəli təhlili

**Murad Şıxıyev**
Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutu
Kiçik elmi işçi
mrd3616@gmail.com

**Xülasə:** İqtisadiyyatın vacib göstəricilərindən olan Ümumi Daxili Məhsul və əsas kapitala yönəlmiş investisiyalar arasında qarşılıqlı əlaqələrin öyrənilməsi iqtisadiyyatda inkişafın proqnozlaşdırılmasına kömək edə bilər. Bəzi seçilmiş ölkələrdə neft qiymətlərinin artım tempi ilə ÜDM və əsas kapitala yönəlmiş investisiyalar arasında səbəb əlaqələri testi aparılmışdır. Aparılmış tədqiqatın məqsədi bu göstəricilərin artım tempinin müxtəlif ölkələrdə bir biri ilə qarşılıqlı səbəb-nəticə əlaqəsini öyrənməkdir. Bu əlaqənin öyrənilməsi üçün ekonometrik model qurularaq Granger səbəb əlaqələri testindən istifadə olunmuş və bu ekonometrik modellərin normallığı yoxlanılmışdır. Alınmış nəticələrə əsasən müəyyən ölkələrdə bu qarşılıqlı təsir müsbət olmuşdur. Qurulmuş ekonometrik modellərin normallığının yoxlanılması nəticələri də müsbət olaraq tamamlanmışdır.

**Açar sözlər:** ÜDM (Ümumi Daxili Məhsul), ÜDM_A (Ümumi Daxili Məhsul artım tempi), İ_A (Əsas kapitala yönəlmiş investisiyalar artım tempi), NQ_A (Neft qiymətləri artım tempi)

**JEL Code: B23 UOT: 330.43**

## Giriş

Granger səbəb əlaqələri asılılıqlarını müəyyən etmək üçün bir çox statistik testlər inkişaf etdirilmişdir. Granger birbaşa testi (Granger 1969) və Sims testi (Sims 1972) ən məşhurlarındandır. Səbəb əlaqələri bəzi bərabərlik parametrləri statistik olaraq əhəmiyyətli olduqda müəyyən edilir. Geweke (və b. 1984) deduktiv olaraq sübut edir ki, onların düşünmüş olduqları səkkiz testin gücü müxtəlifdir, yəni onlar sıfır hipotezini müxtəlif tezliklərdə rədd edirlər. Eyni nəticələr Nelson və b. (1982) və Geweke və b. (1984) tərəfindən Monte Carlo metodu vasitəsilə əldə olunmuşdur. Beləliklə, iki Granger səbəb əlaqələri testini eyni məlumatlar toplusuna tətbiq etmək və fərqli nəticələr əldə etmək mümkündür: birincisi sıfır hipotezini təsdiq etmək və digəri rədd etmək olar. [1, Səh. 92]

Granger (1969) əsas məqaləsində $y_t$ zaman seriyasının keçmiş dəyərlərinin digər $x_t$ seriyanın gələcək dəyərlərini nə qədər yaxşı proqnozlaşdıra biləcəyinə əsaslanan "səbəbiyyət" anlayışını təklif etdi. $H_{<t}$ , t – 1 zamana qədər bütün müvafiq məlumatların tarixi, P($x_t$| $H_{<t}$) isə $H_{<t}$ verilmiş $x_t$ -nin optimal proqnozu olsun. Granger y-i x üçün "səbəb" olaraq təyin etdi, əgər

$$var\ [x_t - P(x_t|\ H_{<t})] < var\ [x_t - P(x_t|\ H_{<t}\backslash y_{<t})]\ ,$$

hansı ki, burada $H_{<t}\backslash y_{<t}$ $H_{<t}$-dən $y_{<t}$-nin qiymətlərini istisna etməklə göstərir. Yəni x-in optimal proqnoz xətasının dispersiyasını y tarixini daxil etməklə azaldır (qeyri-formal olaraq, əgər y-in keçmiş dəyərləri x-in proqnozunu yaxşılaşdırırsa, y x-in "səbəbi"-dir). Bu xarakteristikləşdirmə açıq şəkildə proqnozlaşdırıla bilərliyə əsaslanır və y-in x-ə birbaşa səbəb təsirinə işarə etmir, y x-in proqnozlaşdırılmasının yaxşılaşdırılması y-in x-ə səbəb olması demək deyil. Buna baxmayaraq, səbəb-nəticələrin vaxtında sıralandığını güman etsək (yəni, təsirdən əvvəl səbəb), Granger iddia etdi ki, bəzi fərziyyələrə əsasən, əgər y x-i proqnozlaşdıra bilirsə, onda orada mexaniki (səbəb-nəticə) olmalıdır, yəni proqnozlaşdırıla bilərlik səbəb-nəticə deməkdir. [2, Səh. 2-3]

Tədqiqatçılar reqressiya əmsallarını qiymətləndirmək üçün ixtiyari olaraq nəzərə alınan bir sıra geriləmələr seçməlidirlər. [1, Səh. 93]

Sıfır hipotezinin rəddi xətti Granger səbəb əlaqəsinin olduğunu bildirir. Digər tərəfdən,qeyri-xətti əlaqənin ortaya çıxa bilməsinə baxmayaraq, sıfır hipotezinin rədd edilməməsi səbəb əlaqəsinin azlığı kimi şərh oluna bilər. [1, Səh. 93]

Səbəb-nəticələri haqqında məhdud və ümumiyyətlə məlumatlı olmasa da, Granger səbəbiyyət anlayışı zamanla müşahidə edilən təsadüfi dəyişənlər arasında qarşılıqlı təsirlər haqqında faydalı fikirlərə səbəb ola bilər. [2, Səh. 5]

Empirik modelləşdirmə alqoritminə əsasən, qurulacaq modelin xüsusiyyətlərini model dəyişənlərinin ehtimal-statistik xarakteristikaları müəyyən edir. Model dəyişənlərinin I(O) və ya I(1) sinfindən olması modelin spesifikasiyasının müəyyənləşdirilməsində başlıca rol oynayır. Dəyişənlərin I(O) və ya I(1) ailəsindən olduğu vahid kök testlərinin köməyi ilə müəyyənləşdirilir. [4, Səh 96] Zaman sıralarının təhlilində seriyanın stasionarlıq dərəcəsi vacibdir. [10, Səh 893]

Seçilmiş iqtisadi göstəricilər arasında səbəb əlaqələrinin öyrənilməsi iqtisadi tədqiqatlar üçün əhəmiyyətlidir. Bir sıra tədqiqatlar inkişaf etməkdə olan iqtisadiyyatlarda artan maliyyə inklüzivliyi və iqtisadi artım arasında müsbət korrelyasiya olduğunu göstərmişdir.[5, Səh 18] İqtisadi artımda fiziki sərmayəyə olduqca əhəmiyyət verilir. [8, Səh 3] Maliyyə inkişafının iqtisadi artıma müsbət təsir göstərdiyi iddia olunur. [9, Səh 55]

Ölkə iqtisadiyyatları qloballaşmanın ortaya çıxardığı rəqabət şərtlərinə uyğunlaşmaq və rifah səviyyələrini artırmaq üçün iqtisadi artıma əhəmiyyət verirlər. [6, Səh 1] Yüksək Real ÜDM bir ölkənin rifah göstəricisi hesab olunur. [7, Səh 370]

### Seçilmiş ölkələr üçün Granger səbəb əlaqələri testi

Ölkə daxilində əsas kapitala yönəlmiş investisiyalar ilə Ümumi Daxili Məhsul (ÜDM) arasında olan əlaqənin əhəmiyyətliliyini öyrənmək üçün bir neçə müxtəlif ölkənin statistik göstəricilərinə əsasən ekonometrik model qurmaq və Granger səbəb əlaqələri (GC) aparmaq mümkündür. Əldə olunmuş statistik göstəricilərə əsasən əvvəlcə müəyyən edilmiş müddət ərzində ÜDM və əsas kapitala yönəlmiş investisiyaların dəyişimindəki artım tempi hesablanmışdır. Daha sonra eyni vaxt aralığında olan bu statistik göstəricilər üçün ekonometrik model qurulmuş və aralarında GC aparılmışdır. Aşağıdakı ölkələr üçün ekonometrik təhlil aparılmışdır:

1. Anqola
2. Kolumbiya
3. Qabon
4. Gürcüstan
5. İtaliya
6. Qazaxıstan
7. Norveç
8. Türkiyə
9. Türkmənistan

Ölkələr arasında seçim bəzi neft hasilatı ölkələri, Avropa ölkələri və yaxın iqtisadi əlaqələr baxımından aparılmışdır. Seçilmiş ölkələr üçün statistik iqtisadi göstəricilər Amerika Birləşmiş Ştatları dolları valyutasına (2023-cü il) əsasən Dünya Bankı Statistik bazasından təmin edilmişdir. Müəyyən olunmuş illər ərzində qeydə alınmış ÜDM və ölkə daxilində əsas kapitala yönəlmiş investisiyalar ilə bağlı statistik məlumatlar toplanmışdır. Statistik göstəricilərə əsasən hər bir il üçün bir öncəki ilə nisbətən artım hesablanmış və nəticələr müəyyən edilmişdir. Əldə olunmuş nəticələr əsasında ekonometrik model qurulmuş və hər iki iqtisadi göstərici arasında GC aparılmışdır. Aşağıdakı cədvəldə hesablanmış nəticələr əks olunmuşdur.

***Cədvəl 1.***

| | **Lag** | **Sıfır Hipotezi** | **P-dəyəri** |
|---|---|---|---|
| **Anqola (2001-2021)** | 2 | İ_A does not Granger Cause ÜDM_A | 0.9485 |
| | | ÜDM_A does not Granger Cause İ_A | 0.5958 |
| | 5 | İ_A does not Granger Cause ÜDM_A | 0.9240 |

| | | | |
|---|---|---|---|
| | | ÜDM_A does not Granger Cause İ_A | 0.5851 |
| **Kolumbiya (1996-2021)** | 2 | İ_A does not Granger Cause ÜDM_A | 0.4362 |
| | | ÜDM_A does not Granger Cause İ_A | 0.3018 |
| | 5 | İ_A does not Granger Cause ÜDM_A | 0.6269 |
| | | ÜDM_A does not Granger Cause İ_A | 0.7843 |
| **Qabon (1996-2021)** | 2 | İ_A does not Granger Cause ÜDM_A | 0.5868 |
| | | ÜDM_A does not Granger Cause İ_A | 0.2680 |
| | 5 | İ_A does not Granger Cause ÜDM_A | 0.5481 |
| | | ÜDM_A does not Granger Cause İ_A | 0.0470 |
| **Gürcüstan (1998-2020)** | 2 | İ_A does not Granger Cause ÜDM_A | 0.9566 |
| | | ÜDM_A does not Granger Cause İ_A | 0.6593 |
| | 5 | İ_A does not Granger Cause ÜDM_A | 0.9090 |
| | | ÜDM_A does not Granger Cause İ_A | 0.8115 |
| **İtaliya (1996-2020)** | 2 | İ_A does not Granger Cause ÜDM_A | 0.5427 |
| | | ÜDM_A does not Granger Cause İ_A | 0.3756 |
| | 5 | İ_A does not Granger Cause ÜDM_A | 0.5284 |
| | | ÜDM_A does not Granger Cause İ_A | 0.6881 |
| **Qazaxıstan (1996-2020)** | 2 | İ_A does not Granger Cause ÜDM_A | 0.4414 |
| | | ÜDM_A does not Granger Cause İ_A | 0.7258 |
| | 5 | İ_A does not Granger Cause ÜDM_A | 0.7352 |

| | | | |
|---|---|---|---|
| | | ÜDM_A does not Granger Cause İ_A | 0.8610 |
| **Norveç (1996-2021)** | 2 | İ_A does not Granger Cause ÜDM_A | 0.8298 |
| | | ÜDM_A does not Granger Cause İ_A | 0.5922 |
| | 5 | İ_A does not Granger Cause ÜDM_A | 0.7080 |
| | | ÜDM_A does not Granger Cause İ_A | 0.5510 |
| **Türkiyə (1996-2020)** | 2 | İ_A does not Granger Cause ÜDM_A | 0.5228 |
| | | ÜDM_A does not Granger Cause İ_A | 0.8308 |
| | 5 | İ_A does not Granger Cause ÜDM_A | 0.3609 |
| | | ÜDM_A does not Granger Cause İ_A | 0.4139 |
| **Türkmənistan (1997-2012)** | 2 | İ_A does not Granger Cause ÜDM_A | 0.1564 |
| | | ÜDM_A does not Granger Cause İ_A | 0.5467 |
| | 4 | İ_A does not Granger Cause ÜDM_A | 0.7478 |
| | | ÜDM_A does not Granger Cause İ_A | 0.6942 |

Modelə əsasən verilmiş sıfır hipotezi əsas kapitala yönəlmiş investisiyaların artım tempi (İ_A) Ümumi Daxili Məhsul artım tempinə (ÜDM_A) təsir etmir və ÜDM_A İ_A-nə təsir etmir olaraq müəyyən olunmuşdur. Əldə olunmuş P-dəyərinin 0.05 qiymətindən böyük olması sıfır hipotezinin 95% əminliklə qəbul olunması deməkdir. Belə ki, P-dəyəri 0.05 qiymətindən kiçik olduqda sıfır hipotezi qəbul edilmir.

Cədvəl 1-də göstərilən nəticələrə əsasən Qabon Respublikasında 5 il müddətinə aralıqlarla ÜDM artım tempinin investisiyaların artım tempinə təsir etdiyini demək mümkündür. Çünkü, əldə olunmuş P-dəyəri 0.0470 qiymətini almışdır. Belə ki, P-dəyəri 0.05 qiymətindən kiçikdir.

Digər ölkələrdə göstərilmiş vaxt aralığında 2 və 5 il aralıqlarla Granger səbəb əlaqələri yoxlanılmışdır. P-dəyərinin qiymətlərinə əsasən bu ölkələr üçün sıfır hipotezini qəbul etmək mümkündür. Buna əsasən bu ölkələrdə daxil edilmiş göstəricilər əsasında iki iqtisadi göstəricilərin bir birinə iki tərəfli olaraq təsir etmədiyini qəbul etmək olar.

*Cədvəl 2.*

**Seçilmiş ölkələr üçün neft qiymətləri artımı, ÜDM artım tempi və investisiyalar artım tempi arasında Granger səbəb əlaqələri**

| | **Lags** | **Sıfır Hipotez** | **P-dəyəri** |
|---|---|---|---|
| **Angola (2012-2021)** | 2 | NQ_A does not Granger Cause ÜDM_A | 0.5328 |
| | | ÜDM_A does not Granger Cause NQ_A | 0.6468 |
| | | NQ_A does not Granger Cause İ_A | 0.9953 |
| | | İ_A does not Granger Cause NQ_A | 0.6705 |
| **Colombia (2012-2021)** | 2 | NQ_A does not Granger Cause ÜDM_A | 0.4810 |
| | | ÜDM_A does not Granger Cause NQ_A | 0.6806 |
| | | NQ_A does not Granger Cause İ_A | 0.2116 |
| | | İ_A does not Granger Cause NQ_A | 0.1460 |
| **Gabon (2012-2021)** | 2 | NQ_A does not Granger Cause ÜDM_A | 0.7355 |
| | | ÜDM_A does not Granger Cause NQ_A | 0.8771 |
| | | NQ_A does not Granger Cause İ_A | 0.6428 |
| | | İ_A does not Granger Cause NQ_A | 0.6516 |
| **Norway (2012-2021)** | 2 | NQ_A does not Granger Cause ÜDM_A | 0.9146 |
| | | ÜDM_A does not Granger Cause NQ_A | 0.6947 |
| | | NQ_A does not Granger Cause İ_A | 0.8306 |
| | | İ_A does not Granger Cause NQ_A | 0.9808 |

Bəzi neft hasilatı ölkələrində göstərilən vaxt aralığında ÜDM artım tempi və əsas kapitala yönəlmiş investisiyalar ilə bərabər illik neft qiymətləri artım tempi də müəllif tərəfindən hesablanmış və əlavə olunaraq ekonometrik model qurulmuşdur. Cədvəl 2-də Neft qiymətləri artım tempi (NQ_A) və ÜDM_A, NQ_A və İ_A arasında GC testinin P-dəyərləri göstərilmişdir. Nəticələrə əsasən göstərilən ölkələrdə NQ_A tempi və ÜDM_A, İ_A tempi arasında iki tərəfli şəkildə təsirin olmadığını demək mümkündür.

### Qurulmuş ekonometrik modellərin normallığının yoxlanılması

Əlavə olaraq qurulmuş ekonometrik modelin normallığını yoxlamaq üçün bir neçə test aparılmışdır. Bu testlər aparılmadan öncə modelin parametrlərinin stasionar olub-olmadığı ADF Fisher testinə uyğun olaraq aparılmış və nəticələrə əsasən ən kiçik kvadratlar metodu və ya ARDL metodu istifadə olunmuşdur.

Həm ADF, həm də PP vahid kök testləri aşağıdakı reqressiya modelinin müxtəlif spesifikasiyalarından istifadə edir:

$$\Delta x_t = \propto + \beta x_{t-1} + \lambda t + \sum_{s=1}^{n} y_s \Delta x_{t-s} + \varepsilon_t$$

Burada $x_t$ faiz dəyişəni, $\varepsilon_t$ pozğunluq müddəti və $t$ isə zaman tendensiyasıdır. Fərz edək ki, dəyişənlərin hər biri səviyyələrdə vahid kök ehtiva edir, lakin birinci dərəcədən deyil. [3, Səh. 37]

Ən kiçik kvadratlar metodu, bir çox Granger səbəb əlaqələrində bərabərlik parametrlərini qiymətləndirmək üçün istifadə olunurdu, belə ki, bu metod düzgün nəticələr əldə etmək üçün bir neçə şərtlər tələb edir. Əgər qeyri-xəttilik ortaya çıxarsa məlumat xəttiləşdirilməlidir. [1, Səh. 93]

Düzgün spesifikasiyanın seçildiyi isə Ramsey testi ilə müəyyən olunmuşdur. Modelin qalıqlarının avtokorrelyasiyasının olub-olmadığını müəyyən etmək üçün Breusch-Godfrey Serial Correlation LM Test (B-G SC LM Test), qalıqların normal paylanmada olmasını öyrənmək üçün Jarqua-Bera testi (J-B Test), modelin qalıqlarının homoskedastik olub-olmadığını təyin etmək üçün heteroskedastik testlərdən olan Glesjer testindən (Gl Test), modelin spesifikasiyanının düzgünlüyünü təhlil etmək üçün Ramsey Reset testindən (RR Test), modelin parametrlərinin stabilliyini müəyyən etmək üçün isə Cusum testi (C Test) istifadə olunmuşdur.

1. B-G SC LM Test sıfır hipotezi: “Modelin qalıqlarının avtokorrelyasiyası yoxdur”
2. J-B Test sıfır hipotezi: “Qalıqlar normal paylanmadadır.”
3. Gl Test sıfır hipotezi: “Modelin qalıqları homoskedastikdir.”
4. RR Test sıfır hipotezi: “ Model üçün seçilmiş funksional forma doğrudur.”
5. Cusum Testi: “Əgər statistikanın qrafiki etibarlılıq sərhədlərini aşmırsa, modelin parametrləri stabil hesab olunur.”

Aparılmış test nəticəsində əldə edilmiş P-dəyərinin 0.05-dən böyük olması sıfır hipotezinin qəbul edildiyini bildirir. Əks halda isə sıfır hipotezinin rədd edildiyini göstərir.

Anqola üçün cədvəl 1-də qurulmuş modelin normallığının yoxlanılması testinin nəticələri(LS):

1. B-G SC LM Test: P-dəyəri=0.5248>0.05
2. J-B Test: P-dəyəri=0.9774>0.05
3. Gl Test: P-dəyəri=0.9660>0.05
4. RR Test: P-dəyəri=0.7645>0.05
5. 


Kolumbiya üçün cədvəl 1-də qurulmuş modelin normallığının yoxlanılması testinin nəticələri(LS):

1. B-G SC LM Test: P-dəyəri=0.7531>0.05
2. J-B Test: P-dəyəri=0.8315>0.05
3. Gl Test: P-dəyəri=0.2390>0.05
4. RR Test: P-dəyəri=0.0533>0.05
5. 


Qabon üçün cədvəl 1-də qurulmuş modelin normallığının yoxlanılması testinin nəticələri (LS):

1. B-G SC LM Test: P-dəyəri=0.2158>0.05
2. J-B Test: P-dəyəri=0.7563>0.05
3. Gl Test: P-dəyəri=0.1415>0.05
4. RR Test: P-dəyəri=0.9371>0.05
5. 


Gürcüstan üçün cədvəl 1-də qurulmuş modelin normallığının yoxlanılması testinin nəticələri (ARDL):

1. B-G SC LM Test: P-dəyəri=0.2143>0.05
2. J-B Test: P-dəyəri=0.5539>0.05
3. Gl Test: P-dəyəri=0.2743>0.05
4. RR Test: P-dəyəri=0.9565>0.05
5. 


İtaliya üçün cədvəl 1-də qurulmuş modelin normallığının yoxlanılması testinin nəticələri(LS):

1. B-G SC LM Test: P-dəyəri=0.0721>0.05
2. J-B Test: P-dəyəri=0.4331>0.05
3. Gl Test: P-dəyəri=0.2090>0.05
4. RR Test: P-dəyəri=0.0881>0.05
5. 


Qazaxıstan üçün cədvəl 1-də qurulmuş modelin normallığının yoxlanılması testinin nəticələri (ARDL):

1. B-G SC LM Test: P-dəyəri=0.6739>0.05
2. J-B Test: P-dəyəri=0.5721>0.05
3. Gl Test: P-dəyəri=0.5320>0.05
4. RR Test: P-dəyəri=0.6974>0.05
5. 


Norveç üçün cədvəl 1-də qurulmuş modelin normallığının yoxlanılması testinin nəticələri(LS):

1. B-G SC LM Test: P-dəyəri=0.3240>0.05
2. J-B Test: P-dəyəri=0.8370>0.05
3. Gl Test: P-dəyəri=0.2511>0.05
4. RR Test: P-dəyəri=0.3184>0.05




5.

Türkmənistan üçün cədvəl 1-də qurulmuş modelin normallığının yoxlanılması testinin nəticələri (ARDL):

1. B-G SC LM Test: P-dəyəri=0.3730>0.05
2. J-B Test: P-dəyəri=0.5042>0.05
3. Gl Test: P-dəyəri=0.4745>0.05
4. RR Test: P-dəyəri=0.3118>0.05




5.

## Nəticə

Məqalədə tədqiqat aparılmış ölkələrdə müəyyən olunmuş illər ərzində ÜDM artım tempi və əsas kapitala yönəlmiş investisiyaların artım tempi, seçilmiş bəzi neft hasilatı ölkələri üçün əlavə olaraq neft qiymətləri də modelə daxil edilərək bu göstəricinin ÜDM artım tempi və əsas kapitala yönəlmiş investisiyaların artım tempi ilə arasında Granger səbəb əlaqələri testi aparılmış və ölkələrdə bu təsirin əhəmiyyətliliyi öyrənilmişdir. Nəticələrə əsasən, Qabon Respublikasında 5 il müddətinə aralıqlarla ÜDM artım tempinin əsas kapitala yönəlmiş investisiyaların artım tempinə təsir etdiyi müəyyən olunmuşdur. Bu ekonometrik modellərin Breusch-Godfrey Serial Correlation LM, Jarqua-Bera, Glesjer, Ramsey Reset, Cusum testləri aparılaraq qurulmuş modelin bir neçə istiqamətdən normallığı yoxlanılmışdır.

## İstifadə olunmuş ədəbiyyat

1. Mariusz Maziarz. “A review of the Granger-causality fallacy”. The Journal of Philosophical Economics: Reflections on Economic and Social Issues. VIII: 2 (2015). Səh.92-93

2. Ali Shojaie, Emily B. Fox. ”Granger Causality: A Review and Recent Advances”. University of Washington.
https://www.researchgate.net/publication/351369049_Granger_Causality_A_Review_and_Recent_Advances

3. Daniel Francois MEYER, Kaseem Abimbola SANUSI. “A Causality Analysis of the Relationships between Gross Fixed Capital Formation, Economic Growth and Employment in South Africa”. STUDIA UNIVERSITATIS BABEŞ-BOLYAI OECONOMICA VOLUME 64, ISSUE 1, 2019, pp. 33-44
https://www.researchgate.net/publication/333428126_A_Causality_Analysis_of_the_Relationships_Between_Gross_Fixed_Capital_Formation_Economic_Growth_and_Employment_in_South_Africa

4. Əsədova R.İ. “AZƏRBAYCAN RESPUBLİKASI ÜÇÜN İQTİSADİ ARTIM VƏ ONUN BƏZİ DETERMİNANTLARI: NARDL ÇƏRÇİVƏSİNDƏ ANALİZ”. Sumqayıt Dövlət Universiteti Konfrans materialları. №1. 2023.

5. Dr. Marshal Iwedi. “Digital Payment Channels and Economic Growth in Nigeria”. Department of Finance, Faculty of Administration and Management Rivers State University, Nkpolu-Oroworukwo, Port Harcourt. Volume 9, Issue 3, Mart 2024.

6. Aslı Karataş, Kurtuluş Bozkurt. "Ekonomik Büyüme ve Teknolojik Gelişmeler: Bir Nedensellik Analizi". Yönetim ve Ekonomi Dergisi. Cilt: 29, Sayı: 2, 2022.

7. Yasin Yılmaz, Abdullah Miraç Bükey. "Ekonomik Büyüme ve Enflasyonist Baskının Grevlere Etkisi: Türkiye Örneği". Sosyal Siyaset Konferansları Dergisi. 80, 365-402. 2021.

8. Erol Çakmak, Sevda Gümüş. "Eğitim ve Ekonomik Büyüme: Bir Literatür Araştırması". https://avesis.atauni.edu.tr/yayin/65dd60e7-bec0-47c4-b45e-9dca2949eb84/egitim-ve-ekonomik-buyume-bir-literatur-arastirmasi/document.pdf

9. Meltem Kılıç, Aydın Gürbüz, Yücel Ayrıçay. "Finansal Gelişme ve Ekonomik Büyüme İlişkisi: Türkiye Örneği". Kahramanmaraş Sütçü İmam Üniversitesi İktisadi ve İdari Bilimler Fakültesi Dergisi. Cilt: 9, Sayı 1, 2019.

10. Erdem Bağcı, Mustafa Kerem Börü. "Ekonomik Büyüme ve İşsizlik Arasında İlişki: Türkiyede Ekonometrik Bir Analiz". International Journal of Academic Value Studies. Vol: 4, Issue: 22, pp. 890-897. 2018.

# Анализ причинно-следственной связи Грейнджера между темпами роста ВВП и темпами роста инвестиций в основной капитал: сравнительный анализ стран

**Мурад Шихиев**
Институт Экономики Министерства Науки и
Образования Азербайджанской Республики
Младший научный сотрудник
mrd3616@gmail.com

**Резюме:** Изучение взаимосвязи между валовым внутренним продуктом и валовым накоплением основного капитала, которые являются важными показателями экономики, может помочь спрогнозировать развитие страны. В некоторых странах был проведен тест причинно-следственной связи между темпами роста цен на нефть, ВВП и валовым накоплением основного капитала. Цель проведенного исследования – изучить причинно-следственную связь темпов роста этих показателей в разных странах. Для изучения этой связи была построена эконометрическая модель, использован тест причинности Грейнджера и проверена нормальность этих эконометрических моделей. Судя по полученным результатам, в некоторых странах это взаимодействие было положительным. Результаты проверки нормальности установленных эконометрических моделей также завершились положительно.

**Ключевые слова:** ВВП (Валовой внутренний продукт), GDP_A (Темпы роста валового внутреннего продукта), I_A (Темпы роста инвестиций в основной капитал), NQ_A (Темпы роста цен на нефть).

DOI: https://doi.org/10.36719/2707-9317/03/130-135

# Economic solutions and mechanisms for increasing the economic efficiency of universities

**Ayten Aghayeva**
Doctoral student of the Institute of Economics of the Ministry
of Science and Education of Azerbaijan
e-mail: a.c.aghayeva@gmail.com
ORCID: 0000-0001-9675-4437
Mobile phone. 994557676895

**Abstract:** Education is the engine for the economic growth of society, creation of social welfare, democratization, civil rights, ethno-cultural and cross-cultural stabilization, global prosperity and transition to balanced, sustainable development. As higher education is an important component of education in general, the development of higher education is an important condition for comprehensive, balanced and sustainable socio-economic development. This prompts universities to prepare certain solutions and mechanisms in order to increase their economic efficiency. In the article, literature analysis, economic solutions for universities, cost reduction strategies, income diversification approaches, efficiency improvement techniques were analyzed in connection with increasing the economic efficiency of higher education institutions.

**Key words**: higher education, economic efficiency, cost, income, economic solution, income diversification.

# Universitetlərin iqtisadi səmərəliliyinin artırılması üçün iqtisadi həll və mexanizmlər

**Aytən Ağayeva**
Azərbaycan Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutunun doktorantı
E-mail: a.c.aghayeva@gmail.com
ORCID: 0000-0001-9675-4437
Mobil tel. 994557676895

**Xülasə:** Təhsil cəmiyyətin iqtisadi artımı, sosial rifahın yaranması, demokratikləşmə, vətəndaş hüquqları, etnomədəni və mədəniyyətlərarası sabitləşmə, qlobal rifah və tarazlı, davamlı inkişafa keçid üçün mühərrikdir. Ali təhsil ümumilikdə təhsilin vacib tərkib hissəsi olmaqla ali təhsilin inkişafı hərtərəfli, tarazlı və davamlı sosial-iqtisadi yüksəliş üçün vacib şərtdir. Bu universitetlərə iqtisadi səmərliliklərinin artırılması istiqamətində müəyyən həll və mexanizmləri hazırlamağa vadar edir. Məqalədə ali təhsil müəssisələrinin iqtisadi səmərliliyinin artırılması ilə əlaqədar ədəbiyyat təhlili, universitetlər üçün iqtisadi həllər, xərclərin azaldılması strategiyaları, gəlirlərin diversifikasiyası üzrə yanaşmalar, səmərəliliyin təkmilləşdirilməsi texnikaları təhlil edilmişdir.

**Açar sözlər:** ali təhsil, iqtisadi səmərəlilik, xərc, gəlir, iqtisadi həll, gəlirlərin deversifikasiyası.

**JEL A2:A23**
**UOT 330**

## 1. Giriş

Universitetlərin biliklərin yaranmasında, yayılmasında və tətbiqində rolları daim artır. Bu gün universitet təhsilinin qarşılaşdığı problemlər kompleks xarakter daşıyır. Konsultativ və çevik idarəetmənin olmaması postsovet ölkələrində universitetlərin idarə edilməsində özünü göstərir və problemlərin mütəmadi olaraq artmasına səbəb olur. Onlardan ən aktual məsələ təhsildə yüksək keyfiyyət və səmərəliliyə nail olmaq imkanı; büdcənin bölüşdürülməsi nəticəsində və ya gəlirli layihələrin həyata keçirilməsindən əldə edilən maliyyə vəsaitinin kifayət qədər olması; bazar tələbatı ilə universitetlər tərəfindən təklif arasında uyğunsuzluq daxildir. Ali təhsil bu gün mühüm dövlət prioritetidir, çünki onun dövlət siyasəti bütün vətəndaşların ali təhsil müəssisələrinə sərbəst girişinə şərait yaratmağa, ali təhsil müəssisələrinin iqtisadi fəaliyyətinin effektiv idarə olunmasını qorumağa, eləcə də ali təhsilə və qlobal təcrübəyə dövlət etimadının birgə təmin edilməsinə yönəlib. Bu baxımdan, ali təhsilin iqtisadi səmərəliliyi və onun fərdi və dövlət səviyyələrində, eləcə də ali təhsil müəssisəsi sistemi səviyyəsində müşahidəsinin artırılması imkanları maraq doğurur. Bu tədqiqatın məqsədi universitetlərin iqtisadi səmərəliliyinin artırılması üçün iqtisadi həll yollarını və mexanizmlərini müəyyən etməkdir. Bu məqsəd ali təhsilin mahiyyətini və iqtisadi səmərəliliyini müəyyənləşdirmək və mövcud iqtisadi mexanizmlərin təhlilini aparmaq yolu ilə həyata keçirilir. Ali təhsil iqtisadiyyatın rəqabət qabiliyyətini müəyyən edən sosial-iqtisadi inkişafın tərkib hissəsidir.

2. Ədəbiyyatların təhlili

Ali təhsildə iqtisadi səmərəlilik anlayışı 1980-ci illərdə həm Qərbi, həm də Şərqi Avropada cəmiyyətin bir çox digər sektorlarında səmərəlilik tədqiqatlarının ortaya çıxması nəticəsində məşhurlaşdı( McPherson və M. & Schapiro, M, 2021, s. 142). O vaxtdan bəri ali təhsilin müxtəlif sahələrində bir sıra tədqiqat layihələri iqtisadi səmərəlilik konsepsiyası üzrə aparılır. Xüsusilə qeyri-parametrik metoddan istifadə etməklə universitetlərin iqtisadi səmərəliliyini təhlil etmək üçün bir çox tədqiqat işləri görülmüşdür. Bununla belə, 1990-cı illərin sonlarından başlayaraq parametrik yanaşmaların (məsələn, Stoxastik Sərhəd Yanaşması, SFA) tətbiqi başlanmışdır. (Camanho, A. S və b, 2024, s. 9)

Bəzi ölkələrdə ali təhsil müəssisələrinin iqtisadi səmərililiyinin ölçülməsi üçün bütün DEA modellərindən istifadə olunmuşdur. Aparılan tədqiqatlar nəticəsindən məlum olur ki, iqtisadi

səmərəliliyin artması üçün iqtisadi mexanizm və ya həllər universitetin effektivliyini tam təmin etməsə də . universitetlər iqtisadi səmərəliliyinin xeyli azalmasına səbəb oldu.

**3. Metodologiya**

Məqalədə məlumatların toplanması metodları və məlumatların təhlili üsullarının da daxil olduğu bu tədqiqatda qəbul edilmiş metodologiya təqdim edilir. Universitetlərin iqtisadi səmərəliliyinin artırılmasının iqtisadi həll yollarını və mexanizmlərini araşdırmaq üçün sistemli və ətraflı ədəbiyyat icmalından istifadə olunur. Sistemli baxış müəyyən suala cavab vermək məqsədilə bütün müvafiq tədqiqat ədəbiyyatının müəyyən edilməsi, qiymətləndirilməsi və sintezi vasitəsidir. Bu halda, əsas sual universitetlərin iqtisadi səmərəliliyinin artırılması üçün hər hansı iqtisadi həll və mexanizmlərin olub-olmamasıdır. İqtisadi səmərəliliyin artırılması üçün iqtisadi həllər və mexanizmlər haqqında ədəbiyyatın sistemli axtarışı "İqtisadi səmərəlilik" VƏ "Universitetlər" meyarları altında rəyləşdirilmiş məqalələrlə məhdudlaşır. Məqalədə istifadə olunan məlumat bazaları ScienceDirect, SpringerLink, Sage Jurnalları, Eric-dir. ScienceDirect elmi məqalələrin onlayn toplusudur.

**4. Universitetlər üçün İqtisadi Həllər**

Universitetlər üçün iqtisadi həllər xərclərin azaldılması strategiyalarına, gəlirlərin diversifikasiyası yanaşmalarına və səmərəliliyin artırılması üsullarına əsaslanır. İqtisadi həllər həllin xarakterinə görə üç qrupa bölünür: xərclərin azaldılması strategiyaları, gəlirlərin diversifikasiyası yanaşmaları və səmərəliliyin artırılması üsulları.

Xərclərin Azaldılması Strategiyaları. Maliyyə məhdudiyyətləri ilə yadda qalan bir dövrdə akademik sektor xərcləri ehtiva etmək və eyni zamanda keyfiyyəti saxlamaq üçün bir çox üsula əl atır. Belə bir problemi reallaşdırmaq vəzifəsi maraqlı tərəflərin, məsələn: akademik menecerlər, informasiya sistemləri mütəxəssisləri, professorlar, tədqiqatçılar və tələbələrin üzərinə düşür. Proqram qiymətləndirməsi, akademik təşkilat qiymətləndirməsi, tələbə seçimi modelləri, təhsil resursu modellərinin ayrılması, öyrənmə tərzinin qiymətləndirilməsi və tələbənin riskli identifikasiyası modelləşdirmə üsulları vasitəsilə həm ABŞ-da, həm də bütün dünyada həll edilən problemlərdir.

Karyerada baş verən qlobal dəyişikliklər, sürətlə artan texnoloji tələblərin gələcəyə itələnməsi ali təhsil müəssisələrinin fəaliyyət göstərdiyi mühiti daha da mürəkkəbləşdirir (Yannis, G və b, 2020, s.418).

Son on il ərzində bu tendensiyaların dövlət universitetlərinin rəqabətədavamlı mövqelərinə və strateji ehtiyaclarına, xüsusilə də gələcək vəzifələrinin formalaşmasına və yeni tələblərə və dəyişən şəraitə daha yaxşı cavab verməsinə təsirinə daha çox diqqət yetirilib.

**Gəlirlərin Diversifikasiyası üzrə Yanaşmalar**. Universitetlər dərəcəsiz tələbələrə onlayn kurslar təklif etmək, tədqiqat parkları yaratmaq və maliyyə bazarlarına vəsait qoymaq kimi yeni gəlir mənbələrini araşdırır (Samosir, D və b, 2020, s. 213). Əlavə olaraq, onlar bizneslə müqavilələr qurur və konsaltinq xidmətləri təklif edirlər. Universitetlər parkinq və yemək ləvazimatlarından da gəlir əldə edir. Bəzi səylər təcrübi mərhələdədir. Lakin hər bir vasitənin gəlir gətirən potensialı aydın deyil.

Gəlir mənbələrinin diversifikasiyası Gini əmsalından istifadə etməklə hesablanır ki, bu da universitetin gəlirlərinin bir çox mənbələrdə necə bərabər və ya qeyri-bərabər paylandığını müqayisə edir. ABŞ universitetləri üzrə gəlirlərin ümumi diversifikasiyası həyata keçirilir. Universitetlərin üçdə birindən az hissəsi gəlirlərinin beşdə dörd hissəsindən çoxunu hər hansı bir mənbəyə etibar edir və gəlir mənbələrinin bərabər bölüşdürüldüyünü göstərir (Mohammed, A., və Kora, R, 2023, s. 761). Əldə olunan nəticələrə əsasən ali təhsil müəssisələrinin təxminən onda biri gəlirlərinin beşdə ikisindən çoxunu ya təhsil haqqından, ya da federal qrantlardan əldə edir. Bu fakt Amerika universitetlərində gəlirlər arasında daha az diversifikasiya yaşadığını göstərir.

**5. Səmərəliliyin Təkmilləşdirilməsi Texnikaları**

Səmərəliliyin artırılması üsulları universitetlər də daxil olmaqla müxtəlif təşkilatların səmərəliliyini artırmaq üçün istifadə edilən bir sıra metod və alətləri əhatə edir. Bunların bəziləri aşağıdakılardır: (Jiang, W və Marggraf, R, 2021, s.6)

1. SWOT təhlili: təşkilatların, universitetlərin və şirkətlərin səmərəliliyinə təsir edən daxili və xarici amilləri müəyyən etmək üçün istifadə olunan geniş tanınmış üsuldur. Bu üsul müxtəlif təşkilat və şirkətlərdə tətbiq edilib və təşkilatların səmərəliliyini təmin edən amillərin müəyyən edilməsində effektiv olub.

4. Benchmarking: Geniş tanınmış iqtisadi təkmilləşmə texnikası kimi təşkilatların gələcək təkmilləşdirmə təşəbbüsləri üçün fəaliyyət boşluqlarını müəyyən etmək məqsədilə məhsullarını, xidmətlərini və təcrübələrini rəqiblər və ya digər sənaye sahələri ilə müqayisə etməsi davamlı sistemli proses kimi müəyyən edilə bilər. Universitet sektorunda bəzi bençmarkinq tədqiqatları mövcuddur və bençmarkinq səmərəliliyin artırılması üçün effektiv iqtisadi həll yolu hesab edilir.

5. Fəaliyyətə əsaslanan xərcləmə (ABC) : əvvəlcə istifadə edilən fəaliyyətlər və resurslar əsasında xərcləri yığmaq və təyin etmək üçün hazırlanmışdır. Xərc təşkilatların performansının ölçülməsi üçün geniş tanınmış və işlənmiş iqtisadi üsullardan biri olmaqla əksər təşkilatlar tərəfindən istifadəsi edilir (Li, Z və b, 2022, s.281). Həmçinin səmərəliliyi artırmaq üçün effektiv iqtisadi həll və texnika kimi də qəbul edilir.

6. Məlumat Zərfinin Təhlili (Dea): Səmərliliyin təhlili üçün qeyri-parametrik riyazi proqram olan Məlumat Zərfinin Təhlili (Dea) universitetlər də daxil olmaqla müxtəlif sahələrdə çalışan ən məşhur və geniş yayılmış mexaniki səmərəliliyin artırılması üsullarından biridir (Gidey Gebru bə b, 2021, s. 3428**).** Dünyadakı universitet sektorlarında çoxlu sayda Dea tətbiqləri mövcuddur.

8. Stoxastik Sərhəd Təhlili (SFA): Bu üsul istehsal və ya xərc funksiyasını özündə birləşdirən ekonometrik statistik modellərdən istifadə etməklə təşkilatların səmərəliliyini qiymətləndirmək üçün hazırlanmış mexaniki parametrik metoddur (Titus, M. A və b, 2021, s.15). SFA-nın universitet sektorunda tətbiqləri DEA kimi qeyri-parametrik üsullarla müqayisədə çox məhdud və daha azdır.

9. Risklərin İdarə Edilməsi (RM): təşkilat və ya şirkətlərin üzləşdiyi riskləri idarə etmək və minimuma endirməklə səmərəliliyi artırmaq üçün istifadə edilə bilən mexanizmdir. Bu mexanizm müxtəlif təşkilat və şirkətlərdə tətbiq edilməklə müxtəlif növ risklərin aradan qaldırılması, azaldılması və minimuma endirilməsi üçün optimal variantdır. Lakin, getdikcə artan əhəmiyyətinə baxmayaraq, universitetlərdə bu tətbiq az istifadə olunur.

Universitetlər təhsilin, elmin və innovasiyaların yüksək səviyyəsini və göstərilən xidmətlərin keyfiyyətini qorumaq üçün çalışır ki, bu da səmərəli və tanınmış təhsil müəssisələrinə çevrilmək üçün zəruri şərtlərdir. Lakin bazar iqtisadiyyatının formalaşması dövründə universitetlər də öz fəaliyyətlərinə daha çox diqqət yetirməlidirlər. Həm xarici, həm də daxili amillərin təsiri altında ali təhsil müəssisəsinin fəaliyyət konsepsiyası dəyişib, ali təhsil müəssisəsinin irəliləməsinin analitik, maliyyə, informasiya, texniki və mexanizm vasitələri ilə qiymətləndirilməsindən keçir.

**6. Strateji Planlaşdırma və Büdcə**

Ali təhsilin iqtisadi səmərliliyinin yüksəldilməsində strateji planlaşdırma və büdcə təşkilatın fəaliyyətinin təmin olunması təsiredici amildir. Strateji planlaşdırma və büdcə prosesinə başladıqdan sonra təşkilatın fəaliyyət göstərdiyi mühitin hərtərəfli təhlili aparılır . Bu təhlil təşkilatın xarici mühitinə, o cümlədən rəqabətə davamlılığa, maliyyənin mövcudluğuna, sosial və texnoloji şərtlərə yönəlmişdir.

Eyni zamanda institutsional güclü və zəif tərəflərdən ibarət olan daxili mühit araşdırılır. Strateji plan yekunlaşdıqda, yaxşı hazırlanmış təklif olunan tədbirlər xüsusi maliyyə tələbləri ilə ölçülür və büdcəyə çevrilir. Ümumiyyətlə, qurumun büdcəsi hədəflərin və onlara nail olmaq üçün tələb olunan resursların açıq şəkildə ifadəsidir. Büdcə əsas plana əsaslanır və müəyyən müddət ərzində müxtəlif fəaliyyətlərdən gözlənilən nəticələri müəyyən edir. Büdcələr bir və ya iki aydan iki və ya üç ilə qədər dəyişə bilər; lakin bir ildən çox olan büdcələr nadir hallarda effektiv olur. Büdcənin, xüsusilə də illik büdcənin əsas məqsədi gözlənilən xərclərin və gəlirlərin yaxından uyğun gəlməsini təmin etməkdir**.** (G.Thomas, 2017, s. 362)

Strateji planının hazırlanması üçün hər hansı bir universitet tərəfindən işə salınan proses üç mərhələyə bölünür. Birinci mərhələ mühitdə vəziyyətin diaqnostikası və cari fəaliyyətlə əlaqəli sualların verilməsidir. Təşkilatın gələcəkdə qarşıya qoymalı olduğu strateji məsələlər bu mərhələdən ortaya çıxacaq. İkinci mərhələ strateji məsələlərin təhlilidir. Üçüncü mərhələ alternativ fəaliyyət kursları arasında seçim etmək, fəaliyyət planı hazırlamaq və fəaliyyət planını büdcəyə tərcümə etmək daxildir.

**NƏTİCƏ**

Aparılan araşdırmalar təklif olunan metodologiyaya əsaslanaraq universitetlərin və digər təhsil müəssisələrinin iqtisadi səmərəliliyinin artmasına töhfə verə biləcək həllərin formalaşdırılmasına

imkan verib. Mövcud maliyyə dəstəyi mexanizmlərinin təhsil sistemi tərəfindən modernləşdirilməsi müəssisələrin həmtəsisçiləri olan müəssisə və təşkilatlarla əməkdaşlığı balanslaşdırmaq və sosial müqavilə institutunu genişləndirmək məqsədi daşıyır. Universitetlərin iqtisadi səmərəliliyinin artırılması məqsədinin prioritetləşdirilməsi universitet daxilində müvafiq şöbələr tərəfindən tərtib edilən marketinq xidmətindən onların rəqabət xarakteri üzrə universitetin təklif etdiyi təhsil şöbələri və proqramlarının təhlili üçün istifadə ediləcək bir mexanizm kimi istifadə edilməsinə imkan verir.

Xərclərin azaldılması strategiyaları ali təhsil təhsil müəssisələrinin iqtisadi səmərililiyinin yüksəldilməsində həlledici amildir. Bu təcrübədən Amerika universitetlərində istifadə olunur. Ölkəmizin ali təhsil sistemlərində bu kimi təşəbbüslər dayanıqlı inkişaf üçün hərəkətverici qüvvədir. Ali təhsil müəssisələrində xərclərin azaldılması ilə yanaşı gəlirlərin diversifikasiyası da vacib amildir. Bu əldə olunan gəlirlər düzgün bölüşdürülməsi üçün əhəmiyyətli strategiyadır. Səmərəliliyin təkmilləşdirilməsi üçün istifadə olunan texnikalar yəni, SWOT təhlili, Benchmarking, Fəaliyyətə əsaslanan xərcləmə (ABC), Məlumat Zərfinin Təhlili (Dea), Stoxastik Sərhəd Təhlili (SFA), Risklərin İdarə Edilməsi (RM) dünya təcrübəsində ali təhsil müəssisələrinə tətbiq edilməklə müsbət töhfələr vermişdir. Ali təhsil müəssisəlində strateji büdcə planlaşdırılması xərclərin idarə olunması üçün əhəmiyyətli strategiyadır. Ölkəmizin ali təhsil sistemində bu kimi həll və mexanizmlərdən istifadə ali təhsil sisteminin iqtisadi səmərəliliyinə müsbət təsir edəcəkdir.

**İstifadə olunmuş ədəbiyyat**


1. Camanho, A. S., Silva, M. C., Piran, F. S., & Lacerda, D. P. (2024). A literature review of economic efficiency assessments using Data Envelopment Analysis. European Journal of Operational Research, 315(1), 1-18 https://doi.org/10.1016/j.ejor.2023.07.027
2. G. Thomas Sav. (2017) Efficiency Evaluations of U.S. Public Higher Education and Effects of State Funding and Pell Grants: Panel Data Estimates Using Two Stage Data Envelopment Analysis, 2004-2013 Academic Years. *Journal of Education Finance,* 42(4), 357-385.
3. Gidey Gebru, M., Raza, S., & Shaukat Khan, M. (2021). Efficiency of higher education in the presence of shared inputs using data envelopment analysis. Sains Malaysiana. 50(11), pp 3421-3438 http://doi.org/10.17576/jsm-2021-5011-25
4. Jiang, W. & Marggraf, R. (2021). The origin of cost–benefit analysis: a comparative view of France and the United States. Cost Effectiveness and Resource Allocation.1-11 https://doi.org/10.1186/s12962-021-00330-3
5. Li, Z., Feng, C., & Tang, Y. (2022). Bank efficiency and failure prediction: a nonparametric and dynamic model based on data envelopment analysis. Annals of Operations Research. 315, 279–315 https://doi.org/10.1007/s10479-022-04597-4
6. McPherson, M. & Schapiro, M. (2021). The student aid game: Meeting need and rewarding talent in American higher education. 1-169 ed.gov
7. Mohammed, A., & Kora, R. (2023). A comprehensive review on ensemble deep learning: Opportunities and challenges. Journal of King Saud University-Computer and Information Sciences, 35(2), 757-774 https://doi.org/10.1016/j.jksuci.2023.01.014
8. Samosir, D. K. B. M., Murwaningsari, E., Augustine, Y., & Mayangsari, S. (2020). The benefit of green building for cost efficiency. International Journal of Financial, Accounting, and Management, 1(4), 209-219 https://doi.org/10.35912/ijfam.v1i4.152
9. Titus, M. A., Vamosiu, A., Buenaflor, S. H., & Lukszo, C. M. (2021). Persistent cost efficiency at public community colleges in the US: A stochastic frontier analysis. Research in Higher Education, 1-30. https://doi.org/10.1007/s11162-021-09634-y
10. Yannis, G., Kopsacheili, A., Dragomanovits, A., & Petraki, V. (2020). State-of-the-art review on multi-criteria decision-making in the transport sector. Journal of traffic and transportation engineering (English edition), 7(4), 413-431 https://doi.org/10.1016/j.jtte.2020.05.005

# Экономические решения и механизмы повышения экономической эффективности вузов

**Айтен Агаева**
Докторант Института Экономики Министерства Науки и Образования Азербайджана
электронная почта: a.c.aghayeva@gmail.com
ОРЦИД: 0000-0001-9675-4437
Мобильный телефон. 994557676895

**Резюме:** Образование является двигателем экономического роста общества, создания социального благосостояния, демократизации, гражданских прав, этнокультурной и межкультурной стабилизации, глобального процветания и перехода к сбалансированному, устойчивому развитию. Поскольку высшее образование является важной составляющей образования в целом, развитие высшего образования является важным условием всестороннего, сбалансированного и устойчивого социально-экономического развития. Это побуждает университеты готовить определенные решения и механизмы для повышения своей экономической эффективности. В статье анализ литературы, экономические решения для университетов, стратегии снижения затрат, подходы к диверсификации доходов, методы повышения эффективности были проанализированы в связи с повышением экономической эффективности высших учебных заведений.

**Ключевые слова**: высшее образование, экономическая эффективность, стоимость, доход, экономическое решение, диверсификация доходов.

DOI: https://doi.org/10.36719/2707-9317/03/136-149

# Conceptual approach to the social protectıon system in the context of social forecasting (in the example of the Republic of Azerbaijan)

**Emin Alirzayev**
alirzayev@gmail.com

**Abstract:** In the article, as a mechanism for improving social protection in the environment of social relations in the Republic of Azerbaijan, the analysis of the conceptual bases and actual problems of economic forecasting at the level of organization and management of social protection is carried out. At the current stage of development of the social protection infrastructure, theoretically based opinions are put forward about the main problems and priority directions related to forecasting, and justified proposals are given about the solution mechanisms that are considered relevant.

**The purpose of the research** is to contribute to the strengthening of the theoretical and economic basis of forecasting as an important mechanism for improving the provision of financial resources, which is the basis of management in social protection for the purpose of the development of the social protection system and the qualitative improvement of the social protection of the population.

**Applied importance.** The article is aimed at the formation of a conceptual vision for scientific research, as well as for making more progressive decisions calculated on the perspective at the management level, by identifying the main factors that can affect the effective use of financial resources in the directions considered as priorities.

The research object of the work is the regulation of the social protection system, the ultimate goal of which is to improve the social welfare of the population in Azerbaijan.

**Research methods.** Based on the content of the selected problem, empirical-theoretical understanding and research, analysis and synthesis, inductive and deductive approach, comparison, theoretical modeling, abstraction methods, and information from other various sources were used in the analysis.

**The originality and scientific novelty of the research** is the examination of the current problems of forecasting on the basis of the modern national social protection model formed in Azerbaijan and the provision of specific proposals in this direction.

**The results of the research work.** The problems analyzed within the framework of the work and the proposals given serve to strengthen the conceptual vision for making socio-economically effective decisions calculated in perspective.

**Key words:** social protection, social security, budget system, budget forecasting, extra-budgetary funds

**JEL: A10, E60, E70, H00;  H53; H55; I30; I31; I32; I38**

# Sosial proqnozlaşdırma kontekstində sosial müdafiə sisteminə konseptual yanaşma (Azərbaycan Respublikası nümunəsində)

**Emin Əlirzayev**
alirzayev@gmail.com

**Xülasə:** Məqalədə Azərbaycan Respublikasında sosial münasibətlər mühitində sosial müdafiənin təkmilləşdirilməsi mexanizmi olaraq, sosial müdafiə sahəsinin təşkili və idarə olunması müstəvisində iqtisadi proqnozlaşdırmanın konseptual əsaslarının və aktual problemlərinin təhlili aparılır, sosial müdafiə infrastrukturunun hazırkı inkişafı mərhələsində proqnozlaşdırılmanın aparılması ilə bağlı başlıca problemlər və prioritet istiqamətlər barədə nəzəri əsaslandırılmış mülahizələr irəli sürülür, aktual hesab edilən həll mexanizmləri barədə əsaslandırılmış təkliflər verilir.

**Tədqiqatın məqsədi** - sosial müdafiə sisteminin inkişafı və əhalinin sosial müdafiəsinin keyfiyyətcə yüksəldilməsi məqsədilə sosial müdafiədə idarəetmənin əsasını təşkil edən –maliyyə resurs təminatının yaxşılaşdırılması istiqamətində mühüm mexanizm kimi, proqnozlaşdırılmanın nəzəri-iqtisadi bazasının gücləndirilməsinə töhfə verilməsidir.

**Tətbiqi əhəmiyyəti**. Məqalə - prioritet hesab edilən istiqamətlər üzrə maliyyə resurslarından səmərəli istifadə edilməsinə təsir göstərə bilən əsas amillərin müəyyən edilməsilə elmi tədqiqat, eləcə də idarəetmə səviyyəsində perspektivə hesablanmış daha mütərəqqi qərarların verilməsi üçün konseptual baxışın formalaşdırılmasına yönəldilmişdir.

**İşin tədqiqat obyektini** - son hədəfi Azərbaycanda əhalinin sosial rifahının yüksəldilməsi olan sosial müdafiə sisteminin tənzimlənməsi təşkil edir.

**Tədqiqat metodları.** Təhlillərin aparılmasında seçilən problemin məzmunundan irəli gəlməklə empirik-nəzəri dərketmə və araşdırma, analiz və sintez, induktiv və deduktiv yanaşma, müqayisə, nəzəri modelləşdirmə, abstraktlaşdırma metodlarına əsaslanılmış, digər müxtəlif mənbələr üzrə informasiyalardan istifadə edilmişdir.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi -** Azərbaycanda formalaşmış müasir milli sosial müdafiə modeli bazasında proqnozlaşdırılmanın aktual problemlərinin araşdırılması və bu istiqamətdə konkret təkliflərin verilməsidir.

**Tədqiqat işinin nəticələri.** İş çərçivəsində təhlil edilən problemlər və irəli sürülən təkliflər perspektivə hesablanmış sosial-iqtisadi cəhətdən effektiv qərarların verilməsi üçün konseptual baxışın möhkəmləndirilməsinə xidmət edir.

**Açar sozlər:** sosial müdafiə, sosial təminat, büdcə sistemi, büdcə proqnozlaşdırılması, büdcədənkənar fondlar

**JEL: A10, E60, E70, H00; H53; H55; I30; I31; I32; I38**
**UOT 33**

## Giriş

Elmi istiqamət olaraq iqtisadiyyatda proqnozlaşdırmaya ümumi şəkildə müxtəlif sosial-iqtisadi mahiyyətli göstəricilərin statistikası və dəyişməsi üzərində riyazi metodların tətbiqi müstəvisində növbəti dövrlər üçün iqtisadi parametrlər üzrə göstəricilərin dəyişməsinin qabaqcadan qiymətləndirilməsi kimi baxılır.

İqtisadiyyatın sosial münasibətlərə əsaslanan spesifik sahəsi olaraq sosial müdafiədə proqnozlaşdırılmanın aparılması bir çox hallarda iqtisadi sferadan kənarda baş verən hadisə və tendensiyaların nəzərə alımnmasını və çoxcəhətli dəyərləndirilmələr tələb etməklə sosial proqnozlaşdırmanın komplikativ sahəsi olaraq xarakerizə olunur.

Makroiqtisadi proqnozlaşdırılma obyekti olan sosial müdafiə sistemində sahələr üzrə proqnoz göstəricilərinin müəyyən edilməsi üçün ilk növbədə həmin sahələrin iqtisadi tənzimlənilməsinin əsaslanıldığı mövcud qanunvericilik çərçvəsi ilə müəyyən edilən şərtlər və həmin müddəaların sahə

üzrə sosial-iqtisadi proseslərin növbəti tendensiyasının ehtimal edilməsinə aparan alqoritmik əlaqələri nəzərə alınır.

Sosial müdafiənin tədqiqat obyektinə alınan sahəsinin spesifikasına uyğun olaraq, bu zaman proqnozlaşdırılma üçün nəzərə alınan elementlər, o cümlədən hesablama üçün verilənlər (dəyişənlər) sahə üzrə icra göstəricilərinin ötən yaxın illərdəki dinamikasına əsaslanmaqla, təkcə sahəyə təsirli olan makroiqtisadi göstəricilərin proqnozunun da nəzərə alınmasını deyil, eyni zamanda müvafiq demoqrafik dəyişmələrin, bəzi hallarda isə siyasi-idarəetmə və normativ amillərin də təsirlərinin nəzərə alınmasını tələb edir ki, bu da sosial müdafiədə proqnozlaşdırılmanının fərqli (spesifik) xüsusiyyətlərini formalaşdırır.

Sosial müdafiənin çoxşaxəli struktur sahələrinin xüsusiyyətlərilə bilavasitə əlaqəli olaraq sahəyə təsir edən amillərdə və onların təsirində zamanla dəyişmələr baş verdiyi üçün sosial mühitin tənzimlənilməsi, xüsusən sosial rifahın təmin olunması baxımından əhalinin sosial və maddi ehtiyaclarının, sosial müdafiə sistemində çatışmazlıqların müəyyənləşdirilməsi və uyğun həll yollarının işlənilməsi üçün sosial müdafiənin də proqnozlaşdırılması davamlı zərurət olaraq ortaya çıxır.

Bu baxımdan sosial müdafiədə proqnozlaşdırılma onun təşkili və səmərəli idarə olunmasının baza mexanizmlərindən hesab edilməklə, davamlı elmi-tədqiqat zərurəti əhəmiyyət kəsb edir.

**Material və metodlar**

Təhlillərin aparılmasında seçilən problemin məzmunundan irəli gəlməklə empirik-nəzəri dərketmə və araşdırma, analiz və sintez, induktiv və deduktiv yanaşma, müqayisə, nəzəri modelləşdirmə, abstraktlaşdırma metodlarına əsaslanılmış, riyazi-statistik hesablamalar və yanaşmalardan, normativ sənədlər, eləcə də digər müxtəlif mənbələr üzrə informasiyalardan istifadə edilmişdir.

**Müzakirə**

**1. Azərbaycan Respublikasında sosial müdafiə sahəsinin proqnozlaşdırılmasının konseptual əsasları**

Sosial müdafiənin özünün ümumnəzəri, həmçinin Azərbaycanda aktual problemlərini az tədqiq olunan mövzulardan hesab etmək lazımdır. Sahə üzrə yerli alimlər səviyyəsində iqtisadi əsasların, o cümlədən proqnozlaşdırılma məsələləri ilə bağlı, qeyd etmək lazımdır ki, əsasən prof. Ə.Əlirzayev və digərləri tərəfindən elmi-nəzəri bazanın genişləndirilməsi istiqamətində çox mühüm tədqiqatlar ərsəyə gətirilsə belə, həmin tədqiqatlardan sonra ötən əhəmiyyətli müddət baxmından da sosial müdafiənin spesifik sosial və digər faktorların təsiri mühitində daimi təkmilləşdirilmə və formalaşan ətraf şərtlərə transformasiyası nəzərə alınaraq sfera olaraq mövcud şəraitdə onun aktuallıq kəsb edən məsələlərinin elmi araşdırılması və sahə üzrə təkmilləşdirilməsi mümkün olan bütün istiqamətlərdə innovativ və optimal həll metodlarının və mexanizmlərinin işlənilməsi mütəmadi zərurət əhəmiyyəti kəsb etməkdədir.

Araşdırma nəticələri göstərir ki, yerli elmi mənbələrdə mövzu ayrıca tədqiq olunmamaqla yanaşı, sosial proqnozlaşdırılmaya eyni zamanda sosial müdafiə və digər mexanizmlərlə yanaşı olaraq sosial sferanın tədqiq edilməsi və tənzimlənilməsinin texnoloji aləti kimi baxıldığı yanaşmasına da rast gəlinməkdədir [1, s. 76].

Sosial proqnozlaşdırma - daha çox hər bir ölkədə sosial mühitin tənzimlənməsi mexanizmlərindən biri kimi, sosial mahiyyətli əhali ehtiyaclarının, cəmiyyətdə baş verən proseslərin və gözlənilən tendensiyaların prospektiv olaraq müəyyələnləşdirilməsi məqsədilə dövlət səviyyəsində sahələr üzrə idarəetmə subyektləri tərəfindən aparılan tədbirlər sisteminin məcmusu kimi başa düşülə bilər. Sosial proqnozlaşdırma ilk növbədə riyazi üsullara əsaslanan proqnozlaşdırma elminin metodoloji imkanlarından istifadə olunmaqla aparılan tədqiqatlara söykənməklə, sosial sferanın mahiyyətindən irəli gələrək sosioloji və demoqrafik aspektlərdə tədqiqat mahiyyəti kəsb etməsinə baxmayaraq, onun iqtisadi baxımdan aparılması müstəsna əhəmiyyət kəsb etməkdədir.

Sosial proqnozlaşdırılmanın iqtisadi müstəvidə aparılmasının əhəmiyyətinin kökündə cəmiyyətin sosial həyat keyfiyyətinin formalaşdırılmasının birbaşa surətdə onun sosial-iqtisadi imkanları ilə bağlı

olması dayanmaqdadır. Belə ki, fərd tərəfindən dərk edilən sosial mühitin keyfiyyəti birbaşa surətdə iqtisadiyyatın da tədqiqat dairəsində olan sosial rifahın inkişafı ilə bağlıdır və əhalinin rifah halı isə iqtisadiyyatın özəl sektorunun inkişafı ilə yanaşı, sosial mühiti təşkil edən digər amillərin, o cümlədən əhali gəlirlərinin formalaşmasına təsir edən sosial müdafiə sisteminin imkanlarından əhəmiyyətli dərəcədə asılıdır.

Sosial müdafiənin proqnozlaşdırılması – onun maliyyə idarəetməsinin əsası hesab edilməlidir. Burada proqnozlaşdırılmanın aparılmasının əsas mahiyyəti və məqsədi – özünü sosial müdafiənin idarə olunmasında növbəti strateji siyasət kursun müəyyən edilməsinə xidmət olunmasında göstərir.

Hər bir ölkədə proqnozlaşdırılmanın informasiya bazasının əhatəsinin tərkibi və xüsusiyyətlərindən asılı olaraq sahələr üzrə proqnozlaşdırılmaya metodoloji yanaşmalar müəyyən olunur və həmin metodologiyaya dəyişən ətraf mühit amillərinin təsiri baxımından vaxtaşırı olaraq yenidən baxılır. Bununla əlaqədar sosial müdafiədə proqnozlaşdırılmanın metodoloji bazası sahələr üzrə formalaşır və təkmilləşdirilir.

Son nəticə etibarilə dolayısı ilə sosial müdafiənin daha səmərəli təşkili, nəzarətdə saxlanılması və inkişafı üçün dövlətin sosial məqsədlərinə və siyasətinə xidmət edən sosial proqnozlaşdırılmanın başlıca obyekti kimi – sosial müdafiənin proqnozlaşdırılmasının aparılması ilə əlaqədar dövlət orqanları səviyyəsində proqnozlaşdırılma metodologiyalarının da praktiki olaraq işlənilməsi həyata keçirilir. Dövlət orqanlarının buna məsul struktur bölmələrinə həvalə onunan davamlı proses olaraq proqnozların hazırlanması təcrübəsində proqnoz-modellərin də formalaşması baş verir ki, bu da sosial müdafiənin proqnozlaşdırılmasında modelləşdirilmənin yeri və əhəmiyyətini vurğulamağa əsas verir.

Əsasında modelləşdirməyə dayanan proqnozlaşdırmanın dəqiqliyi riyaziyyata əsaslanan klassik iqtisadi modellərlə və müasir dünyada təkcə idarəetmə sahəsi üzrə müxtəlif icra və sahələr üzrə proqnoz göstəricilərindən riyazi metodlar çərçivəsində növbəti dövrlər üçün proqnoz rəqəmlərinin müəyyən olunması yanaşması hesabına təmin oluna bilməməkdədir. Bu gün proqnozlaşdırılmada dəqiqliyin təmin edilməsi üçün tələblər daha da genişlənmiş və ozündə riyaziyyatla yanaşı, iqtisadiyyatın yeni tətbiqi elm sahəsi kimi getdikcə daha çox əhəmiyyət qazanmağa başlayan ekonometriyanın, habelə aktuarçılığın da nəzərə alınmasını zərurətə çevirməkdədir. Digər bir trend isə - proqnozlaşdırılmanın informasiya texnologiyaları bazasında aparılmasının zərurət halını almağa başlamasıdır.

Proqnozlaşdırmaya münasibətdə sosial müdafiə ilə bağlı xarakterik cəhətlərdən biri - müasir şəraitdə sosial müdafiəyə təsir edən və daim dəiyən amillər çoxluğundan irəli gələrək proqnozlaşdırılma metodologiyalarının da uyğunluğunun təmin olunması ehtiyacıdır. Bu baxımdan sosial müdafiədə proqnozlaşdırılma ilə bağlı olan əsas problem kimi, qeyri-statik proses və ya hadisələrdən asılı olaraq proqnozlaşdırılmada kənarlaşmaların (xətalılığın) minimuma endirilməsi yönündə səylərin davamlılığın saxlanılması şərtinin özünü biruzə verməsi çıxış edir.

Hazırda sosial müdafiədə proqnozlaşdırılmanın aparılmasında nəzərə alınmalı olan əsas amilləri, yaxud proqnozlaşdırma problemlərini aşağıdakı üç istiqamətdə təsnifatlaşdırmaq olar:

- müvafiq zaman müddəti aralığında sosial müdafiə sahəsinə təsir edən amillərin düzgün olaraq müəyyən edilməsi;
- sosial müdafiənin istiqamətləri üzrə dərininə genişləndirilməsinin prioritetliyinin qəbul edilməsi;
- istiqamətə uyğun müəyyən edilən amillər nəzərə alınmaqla daha az kənarlaşma ilə nəticələnəcək uyğun kalkulyasiya modelinin seçilməsi;
- modellər çərçivəsində nəzərə alınmaq üçün əhatəli və əlçatan məlumat (verilənlər) bazasının olması.

Sosial müdafiədə proqnozlaşdırılmanın tətbiqi və dərinləşdirilməsi zərurəti onun ayrı-ayrı istiqamətlərinə münasibətdə həmin sahələrin maliyyətutumlu olması dərəcəsi ilə bağlıdır. Sahə üzrə proqnozlaşdırılmanın metodoloji əsasını - əsası riyazi, riyazi-iqtisadi, riyazi-statistik və riyazi-ekonometrik yanaşmaların tətbiqi təşkil etməklə, proqnoz nəticələrinin dəqiqliyi tətbiq edilən metodlarların adekvatlığı ilə mütənasib əlaqəlidir.

Sosial müdafiədə proqnozlaşdırılma üzrə tərtib edilən düstur və formullar heç də xətti mahiyyətli prosesləri əks etdirmədiyindən və sosial-müdafiə sistemindən kənar amillərlə əlaqədə qiymətləndirilmə

tələb etdiyindən iqtisadi proqnozlaşdırılmanın digər bir çox sahələri ilə müqayisədə sosial müdafiədə hesablamaların aparılması bir çox hallarda simulyativ proqram təminatları vasitəsilə avtomatlaşdırılma tətbiq oluna bilinməməklə, birbaşa mütəxəssis səviyyəsində subyektiv təsirlərin nəzərə alınması və ya tətbiqi şəraitində baş verməlidir.

Bütövlükdə sosial müdafiə sahəsinin tərkib strukturu nəzərə alınmaqla sosial müdafiənin proqnozlaşdırılmasının amilləri mühitini aşağıdakı sxematik təsvirlə vermək mümkündür (şəkil 1):




**Şəkil 1. Sosial müdafiədə proqnozlaşdırılma prosesinin konseptual təsviri**
*(müəllif tərəfindən tərtib edilmişdir)*

Azərbaycanda da sosial müdafiə sosial məsələlərlə birbaşa bağlılıq əlaqəsində həyata keçirilir ki, bu da sosial sahənin proqnozlaşdırılmasının əsasən maliyyə aspektinin dayandığını əks etdirir. Dövlətin sosial müdafiə xərcləri dövlətin sosial xərclərinin əsas hissəsini təşkil edir.

Sosial müdafiənin proqnozlaşdırılması – ölkənin iqtisadi, sosial və digər strateji proqramlarının və problemlərinin həlli, dövlətin funksiyalarının həyata keçirilməsi üçün qanunvericiliklə müəyyən edilmiş qaydada maliyyə vəsaitinin toplanması və istifadəsinin təmin edilməsi olan – dövlət büdcəsinin tərtibi prosesinin tərkib hissəsi olaraq məqsədli həyata keçirilir. Bu prosesin həyata keçirilməsi zamanı proqnozlaşdırılmanın şaxələnməsi baş verir ki, burada diversifikasiya meyarının müəyyənləşməsinin əsas cəhəti kimi, sosial müdafiə xərclərinin maliyyələşmə mənbələrinə görə ayrılması özünü göstərir.

Azərbaycanda sosial müdafiə xərclərinin proqnozlaşdırılmasında dövlət büdcəsi və mövcud büdcə sistemi haqqında qanunvericiliyə əsasən icmal büdcənin tərkib hissəsi hesab edilən – büdcədənkənar dövlət fondları səviyyəsində ayrılıqda spesifik xüsusiyyətlər nəzərə alındığı metodoloji yanaşmalar istifadə olunur və icmal büdcə çərçivəsində həmin büdcələrin koordinasiyası və birləşdirilməsi həyata keçirilir.

Ümumən belə xarakterizə etmək mümkündür ki, ölkədə sosial-iqtisadi makro göstəricilərin proqnozlaşdırılması üçün səlahiyyətli orqan statusu AR İqtisadiyyat Nazirliyinə aid edilmişdir. Dövlət büdcəsinin tərtibi predmeti olan istənilən məlumatların əldə olunması isə Maliyyə Nazirliyinin funksiyaları çərçivəsində özünü göstərir. Dövlət büdcəsinin tərtibinin özünün qayəsində isə proqnozlaşdırılma dayanmaqla, sahələr üzrə dövlət büdcəsindən maliyyələşən bütün aidiyyəti dövlət orqanları, qurumlar və təşkilatlar tərəfindən onların tələbatlarına müvafiq proqnoz göstəricilərinin tərtib edilərək vaxtaşırı Maliyyə Nazirliyinə təqdim edilməsi və icmal büdcə prizmasından büdcələrin tərtibi

ölkədə budcə idarə olunması işinin təşkilinin əsas mahiyyəti olaraq təsvir edilə bilər.

Azərbaycanda növbəti büdcə ili üzrə dövlət büdcəsinin layihəsi ölkənin iqtisadi və sosial inkişafının makroiqtisadi proqnozları, məqsədli proqramlar, iqtisadiyyatın sahələrinin, inzibati rayonların, mülkiyyət formasından asılı olmayaraq bütün müəssisələrin cari və növbəti il üzrə maliyyə-təsərrüfat fəaliyyətinin nəticələrinin qiymətləndirilməsi əsasında hazırlanır. Büdcəyə daxilolmaların vəziyyətindən asılı olmayaraq sosial müdafiə mahiyyətli olmaqla iqtisadi təsnifatın əmək haqqı, əmək haqqına üstəlik, pensiya, başqa sosial müavinətlər və ödənişlər maddələri üzrə xərclər müdafiə olunan xərc maddələri hesab edilir və onlara sekvestr tətbiq olunmur [2].

Dövlət büdcəsi çərçivəsində sosial müdafiənin proqnozlaşdırılması ortamüddətli dövr (növbəti il və sonrakı üç il) üçün tətbiq edilməkdədir.

Sosial müdafiə ilə bağlı göstəricilərin proqnozlaşdırılması İqtisadiyyat Nazirliyinin təqdim etdiyi göstəricilər, Dövlət Statistika Komitəsinin açıqladığı informasiyalar və Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyi tərəfindən özünün hesabatlılıq və digər məlumat bazası resursları üzrə icra göstəricilərindən istifadə olunmaqla aparılmaqdıdır.

Bu çərçivədə ölkədə sosial müdafiənin aparıcı həlqələrindən olmaqla, əmək pensiyalarının, məcburi dövlət sosial sığorta haqları hesabına ödənilən sosial müavinətlərin maliyyələşdirilməsi mənbəyi kimi çıxış edən – dövlət sosial müdafiə fondunun və sığortaolunanların itirilmiş əməkhaqlarının kompensasiya olunması, eləcə də işsizliyin yaranması hallarının qarşısının alınması üçün qabaqlayıcı tədbirlərin görülməsi yolu ilə əhalinin sosial müdafiəsinin gücləndirilməsinə təminat verilməsi məqsədini daşıyan – işsizlikdən sığorta fondunun büdcələrinin tərtib olunması da ortamüddətli dövr üçün həyata keçirilməkdədir.

Azərbaycanda sosial müdafiənin maliyyələşdirilməsində əhəmiyyətli payı və rolu nəzərə alınmaqla, hesab edirik ki, dövlət sosial müdafiə fondu ilə bağlı proqnozlaşdırılmanın əsaslarının konseptual mənzərəsinin verilməsi məqsədəuyğundur:

Dövlət sosial müdafiə fondunun (bundan sonra – Fond) hər il üzrə büdcə layihələri "Büdcə sistemi haqqında", "Sosial sığorta haqqında", "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası qanunlarının, "Dövlət büdcəsinin, büdcədənkənar dövlət fondları büdcələrinin tərtibi, icrası və icrasına nəzarət üzrə əməliyyatların əlaqələndirilməsinə dair Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq Qərarının və hər il üçün qəbul edilən Azərbaycan Respublikasının dövlət büdcəsi layihəsinin, habelə ölkənin iqtisadi və sosial inkişaf konsepsiyasının və ortamüddətli proqnoz göstəricilərinin hazırlanması barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq Sərəncamının, habelə digər normativ hüquqi aktların tələbləri nəzərə alınmaqla, ümumilikdə növbəti il üçün ölkənin iqtisadi və sosial inkişafa dair proqnozlara və demoqrafik göstəricilərə əsaslanılaraq hazırlanılır.

Ötən ortamüddətli dövr və cari ilin tamamlanmış dövrünü əhatə edən ölkənin əsas iqtisadi və sosial göstəriciləri (ümumi daxili məhsul, əhalinin nominal gəlir və xərcləri, orta aylıq nominal əməkhaqqı, minimum əməkhaqqı, minimum pensiya məbləği, əmək pensiyalarının orta aylıq məbləği, istehlak qiymətləri indeksi, məşğulluq və demoqrafiya göstəriciləri və s.), habelə ölkənin ortamüddətli iqtisadi və sosial inkişaf proqnozları, ayrı-ayrı kateqoriyadan olan şəxslərin sosial müdafiəsinin gücləndirilməsinə istiqamətlənmiş layihələr, növbəti il üçün büdcədən maliyyələşən təşkilatlar üzrə əməkhaqqı, o cümlədən vahid tarif cədvəli sistemi üzrə mümkün dəyişikliklər və digər aidiyyəti göstəricilərin proqnozlarına dair məlumatlar Fondun büdcəsinin layihəsini formalaşdıracaq əsas iqtisadi istiqamətləri müəyyən edir.

Qeyd edilən məlumatlar əsasında ölkənin demoqrafik vəziyyəti (əhalinin ümumi sayı, gender tərkibi, yaş qrupları üzrə əhali sayı, iqtisadi fəal əhalinin sayı, muzdla işləyənlərin sayı, yaş qrupları üzrə doğum, doğum ardıcıllığı, doğumun yaş əmsalları, doğum zamanı ananın orta yaşı, cins və yaş qrupları üzrə ölüm, yaş qrupları üzrə ölüm əmsalı, təbii artım, ömür uzunluğu, ailədə uşaqların sayı, əhalinin orta yaşı və s.) qiymətləndirilməklə Fondun büdcəsinin proqnoz hesablamaları aparılır. Daha sonra bu göstəricilərin sığorta-pensiya sisteminə təsiri müəyyən edilir və sistemin xüsusiyyətindən asılı olaraq kateqoriyalar üzrə sistemə daxil olacaq və çıxacaq şəxslərin, sığortaolunanların, eləcə də pensiyaçıların sayının dəyişməsinin proqnozları tərtib edilir. Eyni zamanda Fondun məlumat bazasında mövcud olan göstəricilər əsasında pensiyaçıların, eləcə də məcburi dövlət sosial sığorta haqları

hesabına müavinət alanların sayının son illərdə dəyişməsinin sistemin maliyyə fəaliyyətinə təsiri təhlil edilir. Bununla yanaşı, ölkə üzrə məşğulluq göstəriciləri (əmək qabiliyyətli yaşda olan əmək qabiliyyətli əhalinin sayı, iqtisadi fəal əhali, əmək ehtiyatları, sahələr üzrə iqtisadiyyatda məşğul olanlar, muzdla işləyənlər, özünüməşğul şəxslər, işsizlər və s.) qiymətləndirilir və bu göstəricilərin Fondun büdcə gəlirlərinin və xərclərinin formalaşmasına təsiri ilə bağlı proqnozlar müəyyən edilir.

Qeyd edilənlər baxımından, sosial müdafədə sahələr üzrə proqnozlaşdırılmanın aparılması üçün təsirli hesab edilən faktorlar üzrə minimal zəruri hesab olunan göstəricilər sistemini aşağıdakı istiqamətlərdə təsnifatlaşdırmaq olar:

1. **Sığorta-pensiya sisteminin (dövlət sosial müdafiə fondunun gəlir və xərclərinin) proqnozlaşdırılma üzrə**

- **Makrosəviyyəli sosial-iqtisadi mahiyyətli göstəricilər:** Ümumi daxili məhsulun artım tempi, ölkə üzrə ötən iki ildə hesablanmış, cari ildə gözlənilən və növbəti ildə proqnozlaşdırılan əməkhaqqı fondu, ötən il üzrə toplanmış və cari ildə gözlənilən məcburi dövlət sosial sığorta haqqı məbləği, sosial sığorta haqqı normativi, m.d.s.s.h. üzrə debitor borclar, məcburi dövlət sosial sığortasına cəlb edilməyən (azad olunan) m.d.s.s.h. potensialı, pensiya qanunvericiliyinə əsasən dövlət büdcəsinin öhdəlikləri kimi müəyyən olunmuş pensiya xərclərinin məbləği, fondun büdcəsinin balanslaşdırılması üçün transfertin məbləğinin müəyyənləşdirilməsi, orta aylıq əməkhaqqı və onun artım tempi, minimum əməkhaqqı, minimum əməkhaqqı alanların sayı, istehlak qiymətləri indeksinin artımı (inflyasiya), iqtisadiyyatda muzdla işləyənlərin sayı (o cümlədən muzdla işləyənlərin tərkibində qeyri-dövlət və dövlət sektorunda işləyənlərin payı), dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə çalışan işçilərin aylıq vəzifə (tarif) maaşlarının tənzimlənilməsini nəzərdə tutan vahid tarif cədvəlinə uyğun olaraq müəyyən olunan əməkhaqqı dərəcələri və müvafiq tarif dərəcələri üzrə işləyənlərin sayı və s.
- **Demoqrafik göstəricilər:** əhalinin təbii artımı (o cümlədən doğulandan gözlənilən ömür uzunluğu, doğum və ölüm əmsalları, uşaq ölümü), əhalinin yaş strukturu (o cümlədən əmək qabiliyyətli yaşda və pensiya yaşında əhalinin sayı göstəriciləri) və s.
- **Siyasi-inzibati, idarəetmə mahiyyətli gözləntilər:** sığorta-pensiya sisteminin saxlanması və idarə olunması ilə bağlı xərclərin tənzimlənməsi, normativ baza üzrə şərtlərdə gözlənilən dəyişikliklər və s.

2. **İşsizlikdən sığorta fondunun (gəlir və xərclərinin) proqnozlaşdırılması üzrə**

- **Makrosəviyyəli sosial-iqtisadi mahiyyətli göstəricilər:** ölkə üzrə ötən iki ildə hesablanmış, cari ildə gözlənilən və növbəti ildə proqnozlaşdırılan əməkhaqqı fondu, əməkhaqqı fondunun maliyyə mənbələrinə görə bölgüsü (büdcə təşkilatları və qeyri-büdcə sektoru üzrə), ötən il üzrə toplanmış və cari ildə gözlənilən məcburi dövlət sosial sığorta haqqı məbləği, işsizlikdən sığorta haqqı normativi, orta aylıq nominal əməkhaqqı və onun artım tempi, iqtisadiyyatda muzdla işləyənlərin sayı (o cümlədən muzdla işləyənlərin tərkibində qeyri-dövlət və dövlət sektorunda işləyənlərin payı), işsizlikdən sığorta üzrə debitor borclar, işsizlikdən sığortaya cəlb edilməyən (azad olunan) yığım potensialı, ötən iki ildə işsizlik dərəcəsinin artım tempi və s.
- **Siyasi-inzibati və idarəetmə mahiyyətli gözləntilər:** işsizlikdən sığorta fondunun hazırda mövcud qanunvericiliyinə əsasən xərc istiqamətlərini təşkil edən – işsizliyə görə sığorta ödənişləri, peşə hazırlığı və əlavə təhsilin təşkili, peşə yönümünə dair məsləhət xidmətlərinin göstərilməsi, əmək yarmarkalarının, əmək birjalarının təşkili, haqqı ödənilən ictimai işlərin təşkili, özünüməşğulluq tədbirlərinin təşkili, sosial iş yerlərində işçilərin əməkhaqqının bir hissəsinin maliyyələşdirilməsi, peşə standartlarının hazırlanması, saxlanma xərcləri, sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslərin məşğulluğunun təmin olunması üçün kvotadan əlavə iş yerlərinin yaradılması, sosial müəssisələrin yaradılması və məqsədli proqramların həyata keçirilməsi sahələri üzrə ötən iki ilin icra göstəriləri və onlarla bağlı gözlənilən (nəzərdə tutulan) artımlar və s.

3. **Ünvanlı dövlət sosial yardımının (xərclərinin) proqnozlaşdırılması üzrə:**

- **Sosial-iqtisadi mahiyyətli göstəricilər:** ev təsərrüfatlarının sosial-iqtisadi göstəriciləri, növbəti il üzrə ehtiyac meyarının məbləğinin proqnozu, son iki ildə və cari ildə yoxsulluq səviyyəsi, iqtisadi artımın səviyyəsi, yoxsulluq həddi və s.

4. **Dövlət büdcəsi hesabına sosial mahiyyətli xərclərin tərkibində digər sosial müdafiə xarakterli xərclərinin proqnozlaşdırılması üzrə:**

- sahələr üzrə əvvəlki ilin büdcəsinin proqnoz və kassa icrası göstəriciləri, ölkə iqtisadiyyatının növbəti ildə inkişaf parametrləri və digər bir sıra göstəricilər və s.
- dövlət büdcəsində əmək haqqı, əmək haqqına üstəlik, Fonda ayırmaların cari ildəki göstəriciləri və s.

Yuxarıda sosial müdafiə sahəsinin inkişafının hərəkətverici amili olaraq qiymətləndirdiyimiz – onun maliyyətutumlu istiqamətləri ilə bağlı nümunəvi məqsədli təsnifatlaşdırma aparılmışdır. Belə ki, proqnozlaşdırılmada nəzərə alınan göstəricilər və ya parametrlərə münasibətdə isə məhdudiyyət olmamaqla, proqnozların dəqiqiləşdirilməsi istiqamətində burada istifadə edilən göstəricilər sistemi proqnozlaşma mütəxəssisi mövqeyindən istənilən qədər genişləndirilə bilər. Bu təsnifatlaşdırma əsasında, belə bir ümumiləşdirici mülahizəyə də gəlmək olur ki, sosial müdafiədə proqnozlaşdırma aparılmasında dövlət büdcəsi və büdcədənkənar fondlara münasibətdə spesifik proqnozlaşdırılma yanaşmalarından istifadə olunması mütləqdir.

Büdcədənkənar vəsaitlər hesabına formalaşdırılan fondlar üzrə və dövlət büdcəsi çərçivəsində gəlir və xərclərin istiqamətlər üzrə proqnozlaşdırılması həmin istiqamətlərin məzmunu, tənzimlənilmə və formalaşma əsasları və xüsusiyyətlərinə uyğun yanaşmaların tətbiqilə təmin edilir və təkmilləşdirilir.

Azərbaycanda sosial müdafiənin proqnozlaşdırılma əsasları büdcə sisteminin tənzimlənilməsi ilə bağlı formalaşmış normativ baza üzərində qurulmaqla, onun maliyyə miqyası dövlət büdcəsinin, eləcə də büdcədənkənar dövlət fondlarının maliyyə imkanları hesabına formalaşdırılır.

Sosial müdafiənin (sosial müdafiə və təminat istiqamətlərinə ayırılmaqla) ölkədə 2024-cü il dövlət büdcəsi qanunu ilə proqnozlaşdırılmış maliyyə miqyası 4,54 mlrd. manat (və ya dövlət büdcəsinin cəmi xərclərinin 12,36 faizi qədər), dövlət sosial müdafiə fondu vasitəsilə isə 6,68 mlrd. manat həcmində müəyyən olunduğunu hesab etmək olar [3].

Bu baxımdan hesab etmək olar ki, dövlət büdcəsinin cəmi xərclərinə münasibətdə ümumən sosial müdafiə xərclərinin nisbəti 18,19 faiz uyğunluğundadır. Bu da funksional təsnifat üzrə 2024-cü ildə iqtisadi fəaliyyət xərclərinə ayrılan vəsaitlər (7,38 mlrd. manat və ya cəmi xərclərdə xüsusi çəkisi 20,3 faiz), ümumi dövlət xidmətləri üzrə xərclərinə 4,81 mlrd. manat (xüsusi çəkisi 13,2 faiz), müdafiə və milli təhlükəsizlik üzrə xərclərə 6,42 mlrd. manat (xüsusi çəkisi 17,7 faiz) ayrılan vəsaitlərlə yanaşı qabaqcıl xərc istiqamətlərindəndir.

Dövlət büdcəsinin sosial müdafiə əhəmiyyətli proqnoz göstəricilərinin müəyyənləşdirilməsində əvvəlki illərin göstəriciləri üzərində ilk növbədə növbəti il (illər) üçün sahəvi strateji hədəflərə (dövlət proqramları, konsepsiyalar və qanunlar) uyğunlaşdırılmış mövqe tutulmaqla iqtisadiyyatın şaxələndirilməsi ilə bağlı sektoral prioritetlərin təsiri imkanları da əsas tutulan amillərdən biri olaraq özünü göstərir.

Azərbaycanda sosial dövlət modelinin seçilməsi dövlət büdcəsinin tərtibatının da strukturunun formalaşmasına öz təsirini göstərir. Burada dövlət büdcəsinin gəlir hissəsində neft və qeyri-neft/qaz gəlirləri üzrə daxilolmaların dünya bazarında formalaşan qiymət indeksləri onun proqnozlaşdırılmasının spesifiklik xüsusiyyətlərini formalaşdırır.

Azərbaycan Respublikası Maliyyə Nazirliyinin "2024-cü ilin icmal və dövlət büdcələrinin ilkin göstəricilərinə dair Açıqlama" məlumatına da əsaslanmaqla, qeyd etmək olar ki, dövlət büdcəsi gəlirlərinin əhəmiyyətli hissəsinin neft sektorundan daxil olmasının əhəmiyyətli səviyyədə olması (49,6 faiz) dövlət modelinə uyğun tutulmuş sosial-iqtisadi tənzimləmə kursunun da möhkəmləndirilməsinə imkan verəcək sosial müdafiə (və sosial təminat) xərclərinin növbəti il (illər) üçün artırılması üçün də əlavə imkanlar yaradılmasına şərait yaradır [4].

## 2. Azərbaycanda sosial müdafiənin proqnozlaşdırılması ilə bağlı aktual problemlər

Vurğuladığımız kimi, sosial müdafiənin proqnozlaşdırılması diskret proqnozlaşdırılma tərtibatına uyğun olmamaqla, onun dəqiqliyi istənilən zaman kəsiyində sosial müdafiəyə təsir

göstərməklə daim dəyişən amillərin aşkarlanması, həmin amillərin sistemə təsiri imkanlarının dəyərləndirilməsi, proqnozlaşdırlma modelləri çərçivəsində nəzərə alınması vacibliyinin müəyyən olunması və nəhayət, proqnoz hesablanması üçün nəzərə alınan verilənlərin (göstəricilərin) qurulmuş alqoritmlərə əsasalanan hesablama metodologiyaları tərkibində nəzərə alınması ilə bağlı səriştəlilikdən, eləcə də daxil edilən faktor- elementlərin dərinliyi və təfərrüatlılığından bilavasitə asılıdır.

Dövlət sosial müdafiə fonduna ödənişlər (məcburi dövlət sosial sığorta haqları) digər dövlət gəlir mənbələri (vergi və vergi olmayan gəlirlər, Naxçıvan MR-in gəlirlərindən və dövlət neft fondunun gəlirləri) ilə yanaşı icmal dövlət büdcəsinin tərkib hissəsi hesab edilir.

Yuxarıda qeyd etdiyimiz göstəricidən də göründüyü kimi, dövlət sosial müdafiə fondu vasitəsilə maliyyələşdirilən sosial müdafiə xərcləri dövlət büdcəsi xətti ilə olan maliyyələşdirməni üstələməkdədir ki, bu da dövlət sosial müdafiə fondunun gəlir və xərclərinin icrası, eləcə də proqnozlaşdırılması ilə bağlı təkmilləşdirilmələrin davamlı aparılması zərurətini ön plana çıxarır.

Hazırkı mərhələdə sosial müdafiədə proqnozlaşdırılmanın əsas altsahəsi kimi, dövlət sosial müdafiə fondu ilə əlaqədar proqnozlaşdırılmanın aparılması ilə bağlı bəzi müasir problemlərə nəzər salmağı vacib hesab edirik:

Hazırda dövlət səviyyəsində Maliyyə Nazirliyinin 10.15.2012-ci il tarixli qərarı ilə təsdiq edilmiş “Dövlət gəlirlərinin proqnozlaşdırılması və modelləşdirilməsi metodologiyası” sənədini icmal büdcə gəlirlərinin tərkib istiqaməti kimi dövlət sosial müdafiə fonduna məcburi sosial sığorta ödənişlərinin proqnozlaşdırılması ilə bağlı yeganə normativ mənbə hesab etmək olar [5].

Bununla belə, istər zaman aşımı baxımından, istərsə də proqnozlaşdırılmada dəqiqiliyin artırılması məqsədli dərinləşdirilmənin təmin olunması üçün bu metodologiyanın özünə də baxılması zərurəti əhəmiyyət kəsb edəcəkdir. Xüsusilə, bu metodoloji mənbə yalnız proqnozlaşdırılan cəmi məbləğin hesablanmasına şamil olunmaqdadır ki, bu da qurumlar səviyyəsində aparılan proqnozlaşdırılmanın miqyası ilə üst-üstə düşməməklə, sənədin özünün də təkmilləşdirilməsinə ehtiyac olduğunu deməyə əsas verir. Halbuki, dövlət qurumları səviyyəsində proqnozlaşdırılma nəticələri əsasında sosial müdafiə qərarlarının verilməsi üçün daha çox şaxəli istiqamətlər üzrə detallı proqnozlaşdırma modellərinin işlənilməsi və istifadəsi tələb olunur.

Dövlət sosial müdafiə fondunun büdcəsi haqqında qanunun strukturu ötən bütün illərdə indiyədək gəlir və xərclərin balanslılığı prinsipi əsasında tərtibata əsaslanmışdır. Bu baxımdan, təbii ki, onun büdcəsinin xərclərinin müəyyənləşdirilməsi zamanı gəlir mənbələrinə uyğun bölgü yanaşmasından istifadə olunmuşdur. Burada yalnız xüsusi bir məqam - dövlət sosial müdafiə fondunun gəlir mənbəyi istiqamətləri arasında məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmalardan sonra ən mühüm xərc istiqamətinin dövlət büdcəsindən ayrılan transfert məbləğlərinin olmasıdır.

2017-ci ildə "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının 7 fevral 2006-cı il tarixli 54-IIIQ nömrəli Qanununa edilən müvafiq dəyişiklərə əsasən, pensiyaların sığorta prinsipilə müəyyən edilməsinin gücləndirilməsi və digər məqsədlərlə pensiyaların dövlət büdcəsi hesabına ödənilən – baza hissəsi yanaşmasının ləğv edilərək, ödənilən sığorta haqlarından fərdi hesablara yönəldilmə payının artırılmaqla pensiyaların yalnız sığorta hissəsindən ibarət olmaqla yenidən şərti hesablanmasına və təyinatına keçildi ki, bu, əsas maliyyə xarakterli dəyişikliklərdən biri kimi, pensiyanın dövlət büdcəsi hesabına ödənilən baza hissəsinin ləğv edilməsi və pensiya sisteminin xərclərinin sığorta prinsipinə əsaslanmadığı hesab edilən güzəşt xarakterli təminat istiqamətləri üzrə hissəsinin maliyyələşdirilməsi öhdəliyinin dövlət büdcəsinin üzərinə qoyulması ilə nəticələndi (eyni zamanda fondun maliyyə dayanıqlılığı baxımından proqnozlaşdırılma əhəmiyyəti daşıyan – “sığorta ehtiyatı” yanaşmasının tətbiqinə keçildi (bununla bağlı məsələyə aşağıda toxunulmuşdur)) [6].

Bu zaman sözügedən dəyişkliklərdən sonra növbəti illərdə (indiyədək) dövlət sosial müdafiə fondunun büdcə sənədi qismində həmin vaxtadək qəbul edilmiş qanunlarda büdcənin gəlir istiqamətlərindən biri olaraq istifadə edilmiş – “dövlət büdcəsindən ayımalar” ifadəsindən uzaqlaşılmaqla, gəlir istiqaməti olaraq “sosial təminatı və müdafiəni həyata keçirən müvafiq icra hakimiyyəti orqanının büdcəsinin balanslaşdırılması məqsədilə dövlət büdcəsinin öhdəliklərinin maliyyələşdirilməsi üçün dövlət büdcəsindən ayrılan vəsait” ifadəsinin istifadəsinə keçildi ki, bu da hazırda dövlət büdcəsindən ayrılan transfertin əsas məqsədinin Fondun büdcəsinin kəsir

yaranmaması məqsədilə balanslılığının təmin edilməsi məqsədinin əsas götürüldüyünü anlamağa imkan verir. Bu, fondun məcburi dövlət sosial sığorta haqları üzrə gəlirlərinin təkbaşına sosial-iqtisadi və demoqrafik proseslər (məşğulluq və sahibkarlıq mühitinin struktur dəyişmələri, əhali dinamikası, yaşlı əhali payındakı tərəddüdlərlə əlaqədar) və inzibati-iqtisadi təsirlər nəticəsində (sosial rifah mühitinin tənzimlənilməsi məqsədilə inflyasiya, orta aylıq nominal əməkhaqlarının artımı indekslərinin idarəetmədə nəzərə alınması ilə əlaqədar verilən qərarlarla) ilbəil artmaqda olan pensiya xərclərini özlüyündə qarşılaya bilməyəcəyi reallığı ilə də əlaqələndirilə bilər. Bununla belə, eyni vaxtda hərbi qulluqçular, xüsusi rütbəli şəxslər və digər xüsusi (spesifik) kateqoriyadan olan sığortaolunanlara münasibətdə sığorta əsası olmayan güzəşt (imtiyaz) xarakterli pensiya təminatını əhatə edən maliyyələşmə öhdəliklərinin dövlət büdcəsinin üzərinə keçirilməsi Fond qarşısında hər il onun büdcə qanunu ilə təsdiqlənməklə transfert şəklində ayrılan vəsaitin proqnozlaşdırılması, uçotu və hesabatlılığın artması məsuliyyətinin də önəmli ölçüdə artmasını şərtləndirmişdir. Bu isə eyni zamanda proqnozlaşdırlma obyekti olan – pensiyaların xərcləri üzrə dövlət öhdəliyi məbləğlərinin dəqiq müəyyən edilməsi üçün yalnız sahə üzrə hesabat məlumatlarının, yaxud əldə olunan digər makroiqtisadi statistik göstəricilər kifayət etməməklə, olduqca geniş parametrli elektron verilənlər-baza məlumatlarına əsaslanan hesablamaların aparılmasını tələb etməkdədir. Bu halda Fondun mövcud büdcə quruluşunda onun büdcəsinin balansılılığının ekonometrik mahiyyətindən də başa düşüləndir ki, Fonda köçürülən transfert məbləğləri dövlət öhdəliklərini tam əhatə etmədiyi, yəni qanun sənədi çərçivəsində daha az proqnozlaşdırıldığı və ya təsdiqlənildiyi təqdirdə, cari məcburi dövlət sosial sığorta ehtiyatlarından xərclənmə baş verəcəkdir ki, bu da sığorta-pensiya sisteminin maliyyə dayanıqlılığı baxımından mənfi təsirə malik olacaqdır.

Bu fikri Azərbaycan Respublikası Hesablama Palatası tərəfindən "Dövlət sosial müdafiə fondunun 2024-cü il üçün büdcə layihəsinə Azərbaycan Respublikası Hesablama Palatasının Rəyi" sənədi ilə açıqlanmış münasibət də təsdiq etməkdədir [7, s. 13-14].




**Şəkil 2. Dövlət büdcəsindən Fonda köçürülən vəsait haqqında məlumat.**

*Mənbə: Azərbaycan Respublikası Hesablama Palatası*

2-ci şəkildən görmək olar ki, son illərdə Fondun sistemdaxili hərəkətlilik və indeksləşdirilmə nəticəsində xərclərinin yüksəldiyi, pensiya xərclərinin xərctutumlu qismi kimi, proqnozlaşdırılma obyekti olmaqla, dövlət öhdəlikləri kimi müəyyən olunan xərclər də artmalı olduğu halda, dövlət büdcəsindən köçürülən transfertlərin səviyyəsi dəyişməmiş, hətta bəzi illərdə əvvəlki ilə nisbətən azalma da qeydə alınmışdır.

Belə ki, Palata tərəfindən də qeyd olunur ki (şəkil 2-dən göründüyü kimi), 2018-ci illə müqayisədə 2024-cü ildə dövlət büdcəsindən köçürüləcək vəsaitin ümumi xərclərdə xüsusi çəkisi 15,5 faiz bəndi azalmış, qeyd edilən azalma Fondun xərclərinin 84,2% artımı fonunda baş verəcəkdir ki, bu da artımın əsasən sosial sığorta gəlirləri hesabına maliyyələşəcəyini göstərir [7].

"Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən, sosial sığorta ehtiyatı – sığortaolunanlar üzrə ödənilmiş məcburi dövlət sosial sığorta haqlarının fərdi hesabın sığorta hissəsinə və idarəetmə xərclərinə yönəldilən hissəsi çıxıldıqdan sonra yerdə qalan məbləğdə formalaşdırılan, əmək pensiyalarının bu Qanunda müəyyən olunmuş əmək pensiyasının minimum məbləğinə çatdırılması, məcburi dövlət sosial sığorta haqları hesabına müavinətlər və digər ödəmələr üzrə xərclərin maliyyələşdirilməsinə yönəldilən, istifadə qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunan və ilin sonuna istifadə edilməmiş qalığı növbəti ilə keçən vəsaitdir.

Qanuna əsasən, fərdi hesabın sığorta hissəsi - əmək pensiyasının sığorta hissəsinin hesablanması üçün nəzərə alınan, sığortaolunanlar üzrə ödənilmiş məcburi dövlət sosial sığorta haqlarının 90 faizinin (dəyişikliklərə qədər bu nisbət – 50 faiz olaraq nəzərə alınırdı) və xüsusi hesabdakı vəsaitin qeydə alındığı subhesabdır, idarəetmə xərcləri isə – məcburi dövlət sosial sığortası, fərdi uçot, əmək pensiyası və digər sosial ödənişlər sisteminin idarə edilməsinə yönəldilən və yuxarı həddi sığortaolunanlar üzrə ödənilmiş məcburi dövlət sosial sığorta haqlarının 2,5 faizi məbləğində müəyyənləşdirilən xərclərdir.

Bu xərclərin təsdiq edilən məbləğdən artıq olan hissəsi və istifadə edilməmiş qalığı sosial sığorta ehtiyatına aid edilir [8].

Sığorta-pensiya sisteminin maliyyə dayanıqlılığının artırılması ilə bağlı strateji məqsədlərə uyğun olaraq, əhalinin sosial müdafiəsinin gücləndirilməsinə, həmçinin məhz iqtisadi nöqteyi-nəzərdən əhali gəlirlərinin mühüm hissəsi kimi, pensiya gəlirlərinin alıcılıq qabiliyyətinin tədricən aşağı düşməsinin təsirinin yumşaldılmasına və sosial cəhətdən həssas əhali təbəqəsinin həyat səviyyəsinin saxlanılmasına xidmət etməklə illik əsasda aparılan və çox hallarda dövlət sosial müdafiə fonduna məcburi dövlət sosial sığorta haqları daxilolmalarının illik artım templərini üstələyən indeksləşdirilmə tədbirləri, eləcə də inzibati əsasda tətbiq edilən digər artımlar pensiya sisteminin xərclərinin eyni zamanda dinamik şəkildə artmasını da şərtləndirməkdədir.

Xərclərinin təqribən 95 faizi ətrafında hissəsini təkcə pensiya xərcləri təşkil edən və balanslaşdırılma prinsipilə indiyədək tərtibi və idarə olunması həyata keçirilmiş dövlət sosial müdafiə fondununun məcburi dövlət sosial sığorta haqqı daxilolmaları ilə yanaşı, digər əhəmiyyətli gəlir istiqamətini təşkil edən – onun büdcəsinin balanslaşdırılması məqsədilə dövlət büdcəsinin öhdəliklərinin maliyyələşdirilməsi üçün dövlət büdcəsindən ayrılan vəsaitlərin məbləğinin müəyyənləşdirilməməsi ilə bağlı qeyri-dəqiqlik vəziyyətində həmçinin dövlət sosial müdafiə fondu vəsaitlərinin idarəetməsini həyata keçirən Dövlət Sosial Müdafiə Fondunun daxili imkanları hesabına ekonometrik yanaşmalardan istifadə olunmaqla hesablanılaraq il ərzində dövlət büdcəsindən transfert şəklində köçürüləcək vəsaitin məbləğinin Maliyyə Nazirliyi ilə bölgü sənədi əsasında razılaşdırılmaqla müəyyənləşdirilmiş məbləğlərinin də tam həcmdə (əvvəlki illərin təcrübəsi ilə də təsdiqini tapdığı kimi) Fonda açılmaması nəzərə alınaraq Fondun sığorta əsaslı vəsaitlərinin getdikcə daha çox xərclənməsinə gətirib çıxaracağını demək mümkündür.

Düşünmək olar ki, sığorta-pensiya sisteminin maliyyələşmə mənbəyinin struktur tərkib elementləri arasında nisbi çəki baxımından riyazi-ekonometrik asılılıq əlaqələrinin mövcudluğu nəzərə alınmaqla mövcud vəziyyətdə sistemdə sığorta ehtiyatları hesabına baş verməkdə olan maliyyələşmələr daha da dərinləşəcəkdir.

Qeyd edilənlər əsas götürüldükdə, ölkədə iqtisadi artım prosesi üçün potensial imkanların gözlənilməsi və əhali gəlirlərinin gözlənilən artımı fonunda dövlət sosial müdafiə fonduna daxil olan sığorta ayırmalarının da artım tendensiyası nəzərə alınmaqla mövcud islahatlılıq şəraitində sığortaolunanlar üzrə ödənilmiş məcburi dövlət sosial sığorta haqlarının əmək pensiyasının sığorta hissəsinin hesablanması üçün fərdi şəxsi hesabın sığorta hissəsində nəzərə alınan hissə parametrinə (90 faiz) qənaətcillik nöqteyi-nəzərdən əhatəli qiymətləndirmələr nəticəsində yenidən baxılmasını uzunmüddətli perspektivdə sığorta-pensiya sisteminin benefisiarlarının sosial müdafiəsinə mənfi yöndə təsirli olaraq qiymətləndirməməklə, maliyyə dayanıqlılığı aspektindən sığorta-pensiya sisteminin imkanlarını daha çox artıracağını hesab etmək olar.

Belə ki, hesab edirik ki, bilavasitə sığorta ehtiyatlarının məbləğinin qiymətləndirilməsi ilə bağlı aparılacaq hesablama nəticələri il sonuna sığorta ehtiyatı qalıqlarının kumulyativ tendensiyasını göstərə bilər ki, bu da nəzəri olaraq sığorta-pensiya sisteminin həmrəylik prinsipilə məcburi dövlət sosial sığortasına əsaslanmaqla fəaliyyət göstərən hazırkı sxemi (tərtibatı) çərçivəsində maliyyə dayanıqlılığını zəiflədən başlıca amillərdən biri kimi diqqət tələb edən və inzibati idarəetmə səviyyəsində geniş verilənlər (data) əsasında təhlillərə söykənməklə mütamadi nəzarətdə saxlanılmalı proqnozlaşdırılma problemi mahiyyəti kəsb etməkdədir.

2018-ci ildə Azərbaycan Respublikası Vergi Məcəlləsinə və "Sosial sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda edilən dəyişikliklərə əsasən, 2019-cu ildən etibarən məcburi dövlət sosial sığortası ilə bağlı yığım və nəzarət-hesabatlılıq funksiyaları Fond orqanları üzərindən

götürülərək dövlət vergi orqanlarının səlahiyyətləri çərçivəsinə daxil edilmişdir. Bu əsasda həmin vaxtdan məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmaların proqnozunun müəyyən edilməsi ilə bağlı birbaşa vəzifələr (yalnız AR Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə (Fondla) razılaşdırılmaqla) dövlət vergi orqanlarının (hazırda AR İqtisadiyyat Nazirliyinin tabeliyində Dövlət Vergi Xidməti) üzərinə keçirilmişdir. Bu çərçivədə isə qanunvericilik tələblərində yer almaqla Fondun hər il üçün qəbul edilən büdcəsi haqqında qanunun tətbiqi haqqında müvafiq fərmanlarla məcburi dövlət sosial sığorta haqları üzrə gəlirlərin aylıq və rüblük bölgüsünün 10 (on) gün müddətində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Maliyyə Nazirliyi ilə razılaşdırmaqla təsdiq edilməsi İqtisadiyyat Nazirliyinə tapşırılır [7].

Proqnozlaşdırma nöqteyi-nəzərdən bu dəyişikliyin təsirlərinə nəzər yetirsək, qeyd edə bilərik ki, doğrudur ki, sığorta-pensiya sisteminin qeyd etdiyimiz dəyişikliklərə qədərki fəaliyyəti ərəfəsində fəaliyyətin təşkili mexanizminin əsas cəhətləri belə idi ki, Fondda yığım funksiyası Fondun ərazi (yerli) orqanları səviyyəsində əsasən qəbz və ya nəğd ödəmə üsulları ilə həyata keçirilməklə yanaşı, Fond məcburi dövlət sosial sığortasına cəlb edilən gəlirlərin və həmin gəlirlərin şamil edildiyi sığortaolunanlar barədə hesabatların toplanmasını və sonrakı uçotunu da özü həyata keçirirdi və yalnız vergi orqanları ilə əməkdaşlıq mahiyyətində sığortaedənlərin fəaliyyətinin olub-olmaması, eləcə də rüblər ərzində həmin sığortaedənlərdə muzdla işləyənlərin sayı barədə fiziki şəkildə dövri əldə olunan məlumatlarla üzləşdirilmələrin aparılması həyata keçirilə bilirdi ki, bu kimi hallar bu istiqamətdə işin təşkili ilə bağlı subyektiv hallara – misal olaraq, əsas mahiyyəti etibarilə təsərrüfat fəaliyyəti göstərildiyi halda Fonda fəaliyyətin olmadığı barədə bəyannamələr verilməsi və ya işçi sayının az göstərilməsi yolu ilə məcburi dövlət sosial sığortasına cəlb olunan yığım bazasının azaldılmasına və nəticədə maliyyə potensialının proqnozlaşdırılma qaydasında tam qiymətləndirilə bilməməsinə də imkanlar açırdı. Bu baxımdan hesab etmək olar ki, məcburi dövlət sosial sığorta haqları ilə bağlı yığım-hesabatlılıq-nəzarət funksiyalarının qeyd etdiyimiz dəyişikliklərə uyğun olaraq dövlət vergi orqanlarına verilməsi hesabatlılığın qəbulu ilə bağlı prosedurların sığortaedən üçün sadələşdirilməsinə (elektron formatda təşkil edilməklə vergi, icbari tibbi sığorta ödəmələri ilə eyni vaxtda vahid (konsolidə edilmiş) hesabat formasında təqdim olunma baxımından) gətirib çıxarsa da, Fondu isə hesabatlılığın təşkili və nəzarət işi ilə bağlı təşkilati-idarəetmə yükündən azad etsə də, hələ ki, Fond tərəfindən sığorta-pensiya sisteminin cari və potensial maliyyə imkanlarının tam və düzgün qiymətləndirilməsi ilə bağlı təhlil-yoxlama imkanlarında məhdudlaşmaları da özü ilə gətirməkdədir. Belə ki, hazırkı mərhələdə bu proseslərdə Fondun mövqeyi yalnız dövlət vergi orqanları tərəfindən elektron qaydada rüblük toplanılan hesabatlar üzrə maliyyə göstəricilərinin, eləcə də Fondun xəzinədarlıq hesablarına daxil olan (lakin yenə də qanunvericiliklə də icazə verilmiş təyinatı baxımından həmin ödəmələrin hesablararası yerdəyişməsini nəzərdə tutan müxabirləşmə əməliyyatları aparılmaqla) vəsait məbləğləri barədə məlumatlar əldə edilməsi əsasında cari və onun üzərində proqnoz-maliyyə imkanlarını müəyyən edilə bilməsi çərçivəsini almışdır.

Beləliklə, Fondun qeyd edilən istiqamətdə monitorinq etmə imkanlarının zəifləməsi eyni zamanda sığortaedənlərə (işəgötürənlərə) münasibətdə yığım-maliyyə imkanları və tendensiyalarına da Fondun xeyrinə təsir göstərilmə imkanlarını məhdudlaşdırmışdır. Bu isə eyni vaxtda sosial-iqtisadi mahiyyəti vergi ödəmələrindən tamamən ayrı olan - məcburi dövlət sosial sığortaya cəlb edilmə bazasının vergiyə cəlb edilmə bazası ilə eyni götürülməsi mexanizmi üzərində sığorta-pensiya sisteminin yığım bazası kimi, növbəti illər üzrə məcburi dövlət sosial sığorta haqları üzrə Fondun gəlirlərinin proqnozunun müəyyənləşdirilməsi rıçaqlarının, dövlət vergi orqanlarının, bir növ, təsirinə daha çox düşməsi mahiyyətində (debitor-kreditor borclarının, daxilolmaların tənzimlənilməsinə təkbaşına mümkün təsir imkanları baxımından) təsəvvür oluna bilər ki, bu məqamlar da, hesab edirik ki, müasir şəraitdə ölkədə nəzəri olaraq sosial müdafiənin təmin olunmasında mühüm paya malik olan məcburi dövlət sosial sığortasında proqnozlaşdırılma əhəmiyyətli problemlər sırasındadır.

**Son nəticə**

Nəzəri olaraq dəyərləndirilən problemlər, həmçinin müşahidələrimizə də əsasən Azərbaycanda sosial müdafiənin hazırkı inkişafı mərhələsində, hesab edirik ki, təkmilləşmə istiqamətində proqnozlaşdırılmanın aparılması ilə bağlı aktual problemləri aşağıdakı istiqamətlərdə icmallaşdıra bilərik:

- proqnozlaşdırılmanın əsasən əvvəlki illərin sahələr üzrə faktiki illik icra göstəriciləri üzərində az zayda makrodəyişənlərin nəzərə alınması şəraitində aparılması;
- əksər aidiyyəti qurumlar səviyyəsində proqnozlaşdırılmanın dərininə genişləndirilməsi ilə bağlı təşəbbüslərin yetərincə hiss olunmamaqda olması;
- proqnozlaşdırılmanın dərininə genişləndirilməsi üçün mərkəzləşdirilmiş elektron informasiya resurslarının məlumat bazasının imkanları ilə bağlı çatışmazlıq ehtimallarının mövcudluğu;
- açıqlanan rəsmi dövlət statistikası göstəricilərinin müxtəlifliyinin (çeşidliyinin) proqnozlaşdırılmanın dərinləşdirilməsinə tam imkan verməməsi;
- sosial müdafiədə əhaliyə sosial ödənişlərlə bağlı olan büdcə proqnozlaşdırılmasını tələb edən sahələr üzrə tətbiq edilən proqnozlaşdırılma metodologiyaları ilə bağlı informasiyaların ictimai əlçatanlığı ilə bağlı vəziyyətin yaxşılaşdırılmasının məqsədəmüvafiq olması;
- sosial müdafiənin bütün sahələrində maliyyə tələbatının müəyyən edilməsində əhaliyə ödənişləri əks etdirən istiqamətlər istisna olmqla, digər bütün xərc istiqamətləri (idarəetmə, saxlanma və s.) qənaət prinsipinin qorunmasının əsas tutulması vacibliyinin nəzərə alınması, bu zaman qoyulan proqnozun tam icra olunmasının hədəf olaraq görülməsi yanaşmasının aradan qaldırılmasının əhəmiyyətli olması;
- sosial müdafiə sahələrində proqnozlaşdırılma tələb edən istiqamətlərdə proqnoz hesablamalarının aparılmasında verilənlər qismində istifadə məqsədilə müvafiq qurumlar arasında məlumat bazalarının inteqrasiyası üzrə qarşılıqlı işin təşkilinin hələ də lazımı koordinasiya mühitində qurulmaması və konkret məlumatlar üzrə zəruri məlumat mübadiləsinin normativ çərçivəyə salınmasının vacibliyi;
- sahələr üzrə proqnozlaşdırılma işinin nəticələrinin daha çox gəlir və xərc istiqamətləri üzrə qoyulmuş proqnozların icrası vəziyyətinin təkcə faizlə qiymətləndirilməsi metodu ilə qiymətləndirilməsi (mövcud praktikaya əsasən “100 faizlik” hədəf ətrafında yolverilən 5 faizlik tərəddüdlər çərçivəsində) yanaşmasının, inkişaf baxımından əlavə spesifik üsullarla da genişləndirilməsinin səmərəliliyi artıracağına baxılmasının zəruri hesab edilməsi.

## İstifadə olunmuş ədəbiyyat


1. Rəhmanov F. Sosial sfera və sosial siyasət. Dərs vəsaiti. Bakı: 2021, 438 s., s. 76.
2. "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanunu (https://e-qanun.az/framework/1126)
3. "Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanunu (https://e-qanun.az/framework/55872 )
4. [Elektron resurs] /Azərbaycan Respublikası Maliyyə Nazirliyi, Azərbaycan Respublikasının 2024-cü ilin dövlət və icmal büdcələrinin ilkin göstəricilərinədair açıqlama, Bakı-2023 https://www.maliyye.gov.az/scripts/pdfjs/web/viewer.html?file=/uploads/news_files/650c0c4bb43b2.pdf [Müraciət tarixi: 31.07.2024].
5. “Dövlət gəlirlərinin proqnozlaşdırılması və modelləşdirilməsi metodologiyası”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Maliyyə Nazirliyinin 10.05.2012-ci il tarixli Q-05 nömrəli Qərarı // https://e-qanun.az/framework/23594
6. “Əmək pensiyaları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 10 mart 2017-ci il tarixli 543-VQD nömrəli Qanunu (https://e-qanun.az/framework/35345)
7. [Elektron resurs] / Azərbaycan Respublikası Azərbaycan Respublikası Hesablama Palatası,“Dövlət sosial müdafiə fondunun 2024-cü il üçün büdcə layihəsinə Rəy”[Müraciət tarixi: 31.08.2024].
8. “Əmək pensiyaları haqqında” Azərbaycan Respublikasının Qanunu (https://e-qanun.az/framework/11566 )

9. “Dövlət sosial müdafiə fondunun 2024-cü il büdcəsi haqqında” Azərbaycan Respublikasının 2023-cü il 5 dekabr tarixli 1029-VIQ nömrəli Qanununun tətbiqi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı (https://e-qanun.az/framework/55876)
10. “Sosial sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu (https://e-qanun.az/framework/41096)
11. Azərbaycan Respublikasının Vergi Məcəlləsi (https://e-qanun.az/framework/46948)

# Концептуальный подход к системе социальной защиты в контексте социального прогнозирования (на примере Азербайджанской Республики)

**Эмин Алирзаев**
alirzayev@gmail.com

**Резюме:** В статье в качестве механизма совершенствования социальной защиты в среде общественных отношений в Азербайджанской Республике проводится анализ концептуальных основ и актуальных проблем экономического прогнозирования на уровне организации и управления социальной защитой. На современном этапе развития инфраструктуры социальной защиты выдвигаются теоретически обоснованные мнения об основных проблемах и приоритетных направлениях, связанных с прогнозированием, а также даются обоснованные предложения о механизмах решения, которые считаются актуальными.

**Цель исследования** – способствовать укреплению теоретической и экономической основы прогнозирования как важного механизма совершенствования обеспечения финансовыми ресурсами, что является основой управления в сфере социальной защиты населения в целях развития системы социальной защиты населения. системы и качественное улучшение социальной защиты населения.

**Прикладное значение.** Статья направлена на формирование концептуального видения научных исследований, а также как приоритеты на принятие более прогрессивных, рассчитанных на перспективу решений на уровне управления, путем выявления основных факторов, способных повлиять на эффективное использование финансовых ресурсов по рассмотренным направлениям.

**Объектом исследования работы** - является регулирование системы социальной защиты, конечной целью которой является повышение социального благосостояния населения в Азербайджане.

**Методы исследования.** Исходя из содержания выбранной проблемы, в анализе использовались эмпирико-теоретическое осмысление и исследование, анализ и синтез, индуктивный и дедуктивный подход, сравнение, теоретическое моделирование, методы абстрагирования, а также информация из других различных источников.

**Оригинальность и научная новизна исследования** - заключается в рассмотрении актуальных проблем прогнозирования на основе сформировавшейся в Азербайджане современной национальной модели социальной защиты и предоставлении конкретных предложений в этом направлении.

**Результаты исследовательской работы**. Анализируемые в рамках работы проблемы и приведенные предложения служат укреплению концептуального видения для принятия рассчитанных на перспективу социально-экономически эффективных решений.

**Ключевые слова:** социальная защита, социальное обеспечение, бюджетная система, бюджетное прогнозирование, внебюджетные фонды.

**JEL: A10, E60, E70, H00; H53; H55; I30; I31; I32; I38**

DOI: https://doi.org/10.36719/2707-9317/03/150-155

# Calculation of the fragility index of the banking system in Azerbaijan

**Hasan Ganbarov**
PhD student of the Ministry of Science and Education of the Republic of Azerbaijan, Institute of Economics

**Abstract:** The purpose of the study is to determine the level of fragility of the banking system in Azerbaijan and to calculate the fragility index of the banking system. Comparative analysis, logical generalization, systematic approach, and mathematical analysis methods were used in the research work. The fundamental analyzes examined in the study can be used to improve economic efficiency and regulate interbank competitive relations. Determining the fragility of the banking system is important in determining and regulating the prospects for banks. Therefore, consideration of current trends may be important for stimulating the banking system. As the originality and scientific novelty of the research, the bank fragility index was calculated both for the banking system as a whole and for individual banks.

**Key words:** banking crises, currency, fragility index, deposit, liability, credit, etc.

# Azərbaycanda bank sisteminin kövrəklik indeksinin hesablanması

**Həsən Qənbərov**
AR Elm və Təhsil Nazirliyi, İqtisadiyyat İnstitutunun doktorantı

**Xülasə:** Tədqiqatın məqsədi Azərbaycanda bank sisteminin kövrəklik səviyyəsinin müəyyənləşdirilməsi və bank sisteminin kövrəklik indeksinin hesablanmasıdır. Tədqiqat işində müqayisəli təhlil, məntiqi ümumiləşdirmə, sistemli yanaşma, riyazi təhlil metodlarından istifadə edilmişdir. Tədqiqatda araşdırılmış əsaslı təhlillər iqtisadi səmərəliliyin yüksəltmək və banklararası rəqabət münasibətlərini tənzimlənməsi üçün istifadə edilə bilər. Bank sisteminin kövrəkliyinin müəyyələşdirilməsi banklar üzrə perspektivlərin müəyyənləşdirilməsində və tənzimlənməsində önəmlidir. Buna görə mövcud meyllərin nəzərə alınması bank sisteminin stimullaşdırılması üçün əhəmiyyətli ola bilər. Tədqiqatın orijinallığı və elmi yeniliyi olaraq həm bütövlükdə bank sistemi üzrə və həm də ayrı-ayrı banklar üzrə bankların kövrəklik indeksi hesablanmışdır.

**Açar sözlər**: bank böhranları, valyuta, kövrəklik indeksi, depozit, öhdəlik, kredit və s.

## Giriş

20-ci əsrin son iki onilliyində ayrı-ayrı ölkələrin iqtisadiyyatında müşahidə olunan məqamlardan biri də bir çox ölkədə valyuta, qiymətli kağızlarla bağlı baş verən problemlər və nəticədə bank sistemində böhranların baş verməsidir. Konkret olaraq 1994-1995-ci illər Meksika, 1997-1998-ci il Asiya, 1998-ci il Rusiya, 2007-2008-ci illərdə ABŞ, Avropa və sonradan dünyanın bir çox ölkəsində və nəhayət 2016-cı ildə Azərbaycanda milli valyutanın devalvasiyası ölkənin bank sistemində böhranlarına səbəb olmuş və bir çox bank müflis olaraq bank sistemindən çıxması ilə nəticələnmişdir. Bank böhranları ilə bağlı müxtəlif səviyyələrdə müzakirə, təhlil və qiymətləndirmələr həyata keçirilsə də ümumən maliyyə sabitliyinin qorunması və idarə olunması hazırda bir çox ölkədə ən çox müzakirə olunan məsələlərdəndir. Bu baxımdan bütün bu qeyd edilənlər bank sektorunun dayanıqlığının qiymətləndirilməsinin zəruri olduğunu və qiymətlən-dirmə üzrə meyarların müəyyənləşdirilməsini əhəmiyyətli olduğunu ortaya qoyur. Digər tərəfdən Azərbaycan iqtisadiyyatının qlobal iqtisadi aləmdən asılılıq dərəcəsinin yüksək olmasını və valyuta risklərinə açıq olması tədqiqatın əhəmiyyətini artırır.

## Nəzəri yanaşma və metodologiya

Bank sektorunun kövrəkliyi ilə maliyyə böhranları arasındakı əlaqə 90-cı illərdən bəri müzakirə olunan əsas məsələlərdən biri olmuşdur. 2008-ci ildə ABŞ-da başlayan və qlobal aləmə sıçrayan maliyyə böhranı ilə bank sektoru arasındakı əlaqəyə xüsusi diqqətin yetirilməsinin zəruriliyini ortaya qoydu. Böhrandan sonra dünyanın əksər ölkələrində artan monetar ekspansiya və kredit həcminin genişlənməsi qiymət sabitliyi ilə yanaşı maliyyə sabitliyinin də mərkəzi bankların iqtisadi siyasətlərinin məqsədlərinə daxil edilməsinə səbəb olmuşdur.

Kapitalın bank sistemindən çıxarılması və leverec xarakterli əməliyyatların çoxalması maliyyə sabitliyini təhdid kimi qiymətləndirilir. Belə ki, qlobal aləmdə son elmi təhlillərdə aktivlərin qiymətləri ilə leverec əmsalları arasındakı əlaqə riskə aparan yol və ya risklərin artırılması kimi izah edilir. Riskli davranışlar bank sisteminin sabitliyini pozduğundan, bu sahənin mütəxəssisləri bank sektorunun sabitliyini proqnozlaşdırmaq üçün “siqnal effekt”lərinə xüsusi əhəmiyyət verirlər. Bu baxımdan maliyyə sabitliyi və ya bank sektorunun kövrəklik indeksi “siqnal effek”liyini təmin edir. Bank sisteminin sabitliyini müəyyənləşdirmək və siqnal effektinə nail olmaq üçün çağdaş dövrümüzdə bir çox alim və mütəxəssis bu vaxta qədər müxtəlif səpkili və elmi əsaslı yanaşmalar ortaya qoymuşlar. Onlardan 1994-cü ildə Eichengreen, Rose Wyplosz müəllifi olduqları “Spekulyativ Təzyiq İndeksi” (SPI), 2003-cü ildə A.Kibritçioğlu tərəfindən hazırlanan “Bank Sektorunun Kövrəklik İndeksi” (BSKİ) və 2013-cü ildə Bayraktaroğlu, Ege ve Yazıcı adlı mütəxəssislərin müəyyənləşdirdiyi “Həddindən artıq Risk İndeksi” (HARI) kimi elmi əsaslı təhlillərdəndir. Lakin bu qeyd edilən hesablamalar arasında BSKİ öz aktuallığı ilə seçilmiş və bir çox mütəxəssis tərəfindən qəbul edilmiş və hazırda da dünyanın

bir çox mərkəzi bank sistemində əsas ölçü meyarlarından biri kimi qəbul edilib və dövrü olaraq nəzərə alınır. Bank sektorunun kövrəklik indeksi (BSF) bank sektorunun böhranlara qarşı dayanıqlığını ölçmək üçün hazırlanmışdır və Kibritçioğlu (2003), Joosten (2004), Shen və Chen (2008) araşdırmalarına əsaslanır. Bu işlər çərçivəsində indeks;

- kövrək olmayan,
- orta kövrək,
- və yüksək kövrək kimi təsnif edilir.

Bildirək ki, bu indeksin modifikasiyası üçün 2014-cü ildən bəri müəlliflərin müəyyən tədqiqatları dərinləşdirdiyini də qeyd etmək lazımdır. Bildirək ki, burada bank sektorunun kövrəkliyinə təsir edən amillər kimi spesifik amillər, mikroiqtisadi amillər və makroiqtisadi amillər nəzərə alınır.

Lee, Ryu və Tsomocos 2012-ci ildə araşdıqları araşdırmalarına görə inflyasiya dərəcəsi, ÜDM-in artım sürəti, real faiz dərəcəsi, pul kütləsi və kredit artımı bank sektorunda kövrəkliyə təsir edən əsas makroiqtisadi dəyişənlər kimi göstərilmişdir [4.səh.79]. Eni zamanda Gonzales-Hermosillo, Pazarbaşıoğlu və Billings [6.səh.299], Festic, Kavkler və Repina [5.səh.314] tərəfindən aparılan araşdırmalarda makroiqtisadi faktorların bank sektorunun kövrəkliyini artırdığını müəyyən edimişdir. Daha dəqiq desək, tədqiqatçıların qənaətincə mənfi makroiqtisadi şoklar bankın kövrəkliyini artırır. Günselin isə araşdırmaları nəticəsində bankın kövrəkliyinə mikroiqtisadi və banka xas faktorların da təsir etdiyini qeyd etmişdir[7.səh.1325]. Ümumilikdə bank sektorunun kövrəkliyinə makroiqtisadi və mikroiqtisadi amillərlə yanaşı, qlobal maliyyə faktorları da təsir göstərir.

Bütün bu qeyd edilənlərlə yanaşı həddindən artıq likvidlik, kredit, faiz və ya məzənnə riski də bankı öhdəliklərinin daxili konvertasiyasını dayandırmağa sövq edir. Nəzərə almaq lazımdır ki, Əgər bank uğursuzluğu problemi bütün bank sistemini sarsıdırsa bilər və böhran sistemli ola bilər. Bu baxımdan bank sistemində baş verən proseslərin əvvəlcədən müəyyənləşdirilməsi baxımından bank sisteminin kövrəkliyinin müəyyənləşdirilməsi zəruridir.

Bank sistemində bankların kövrəkliyinin müəyyələşdirilməsi onların müflisolma ehtimalını qarşılamaq və buna uyğun müvafiq tədbirlərin görülməsi baxımından da faydalıdır. Bu baxımdan fikrimcə, Azərbaycanın ölkənin bank sisteminin ümumilikdə və fəaliyyət göstərən ayrı-ayrı banklar üzrə necə və ya hansı dərəcədə həssas olduğunu müəyyənləşdirmək faydalı olar. Bank sektorunun həssaslığını müəyyənləşdirmək üçün beynəlxalq təcrübədə bank sektorunun kövrəklik indeksindən (BSKİ) istifadə edilir. BSKİ-in hesablanmasında aşağıdakı indikatordan istifadə olunur[2.səh.53]:

- Banklarda depozitlərin məcmusu və ya məbləği,
- Banklar tərəfindən verilmiş kreditlərin məcmusu və ya məbləği,
- Bankların xarici öhdəliklərinin məcmusu və ya məbləği.

Əslində depozitlərin məbləği kövrəklik indeksi hesablanan bankın likvidliklə bağlı problemini və ya riskini, verilmiş kreditlərin məbləği kredit riski ilə bağlı vəziyyəti, öhdəliklərin məbləği isə bankın borclarının, xüsusilə bankın xarici borcları ilə bağlı vəziyyəti müəyyənləşdirməyə və ya məzənnə riskini ifadə edir.

Beləliklə də BSKİ riyazi formula olaraq aşağıdakı kimi göstərmək olar[2.səh.54]:

$$BSK\dot{I}_3 = \frac{\left(\frac{KR_t - \mu}{\sigma}\right) + \left(\frac{OH_t - \mu}{\sigma}\right) + \left(\frac{DEP_t - \mu}{\sigma}\right)}{3} \qquad (1)$$

Qeyd edilən bu indeks ümumiləşdirilmiş göstərici kimi çıxış edir və bu indeksin hesablanmasının alt elementləri kimi isə aşağıdakı indikatorlar daxil edilir[2.səh.55]:

$$KR_t = \left(\frac{VKR_t - VKR_{t-12}}{VKR_{t-12}}\right) \qquad (2)$$

$$OH_t = \left(\frac{AOH_t - AOH_{t-12}}{AOH_{t-12}}\right) \qquad (3)$$

$$DEP_t = \left(\frac{ADEP_t - ADEP_{t-12}}{ADEP_{t-12}}\right) \qquad (4)$$

Göstərilən modeldə qeyd edilən hərfi işarələr aşağıdakı mənaları ifadə edir.

$BSKİ_3$ - bank sektorunda kövrəklik indeksi,

KR- verilmiş kreditlərin məbləğini,

OH-öhdəliklərin məbləğini,

DEP- depozitlərin məbləğini ifadə edir,

$\mu$- riyazi gözləmə,

$\sigma$ –standart kənarlaşmadır.

Onu da bildirək ki, istifadə olunan rəqəmlər həm mütləq ifadə ilə həm də orta illik dəyişmə ilə ifadə oluna bilər.

BSKİ indeksi bankların inkişafda olma dövrü ilə enmə dövrlərini müqayisə etmək üçün istifadə edilir.

Qeyd edək ki, BSKİ dörd intervalda dəyişə bilər ki, onu da aşağıdakı kimi göstərmək olar.

Əgər BSKİ üzrə alınan əmsallar (-0.5; 0) aralığında olduqda bu o, deməkdir ki, sistemdə orta kövrəklik olduğunu, (0; 0,5) aralığında olduqda bank sistemində artımın yüksək inkişaf tempə malik olduğunu, (0.5; və yuxarı) bank sistemində hərarətlənmənin olmasını və nəhayət (-0.5; və aşağı) olduqda isə risklərin reallaşması imkanlarının artmasını göstərir.

BSKİ adətən aylıq hesablanır. Bunun səbəbi isə ondan ibarətdir ki, bank sistemində iqtisadi proseslər qısa bir zaman ərzində dəyişə bilir. Buna görə də BSKİ on iki aylıq bir dövrdə necə dəyişməni xarakterizə etmək üçün istifadə edilir. Digər tərəfdən onu da bildirək ki, bank sektoru əksər risklərə qarşı olduqca həssasdır.

Biz isə tədqiqatımızda BSKİ ilə bağlı bu prosesi 2022-2023-cü illərin son rübləri yəni, bankların kreditləri, depozitləri və öhdəlikləri üzrə müvafiq illərin rüblərini ümumiləşdirərək hesablanmışdır. Bunun səbəbi isə banklar adətən öz hesabatlarını mərkəzi banka aylıq əsasda təqdim edir. Lakin hər bir bank özlərinin internet ünvanında bu barədə ümumiləşdirilmiş formada rüblük əsasda qeyd edir. Bizdə 2022-2023-cü illər üzrə BSKİ-i hesablamaq üçün bankların internet ünvanına yerləşdirdiyi kredit, öhdəlik və depozit informasiya bazası əsasında verilmiş məlumatlar götürülmüş və hesablanmış və əldə edilən nəticələr aşağıdakı cədvəldə verilmişdir.

## Azərbaycanda bank sisteminin kövrəklik indeksinin qiymətləndirilməsi

Azərbaycanda BSKİ hesablanılması üçün ilk növbədə 2022-2023-cü illər üzrə ölkənin bank sisteminin hər biri üzrə banklarda depozitlərin məcmusunu göstərən göstəricilər, banklar tərəfindən verilmiş kreditlərin məcmusunu göstərən göstəricilər və bankların xarici öhdəliklərinin məcmusunu əks etdirən göstəricilər sistemləşdirilmiş, ilkin hesablamalar aparılmış və hər üç göstərici ilkin şərtlər yerinə yetirilmişdir. Aşağıda verilən nəticəni əldə etmək üçün təhlil üçün göstərilən hər bir ilin dörd rübü üzrə müvafiq göstəricilər götürülüm və müvafiq ümumiləşdirmələr aparılmışdır.

Beləliklə də Azərbaycanın bank sektorunda ayrı-ayrı banklar üzrə və bütövlükdə bank sistemi üzrə BSKİ üzrə alınan nəticələrə nəzər salaq.

***Cədvəl 1.***

**Bank sisteminin kövrəklik indeksi**

| Bankların adı | 2022 | 2023 | ədədi orta | Median |
|---|---|---|---|---|
| AccessBank | -0.40 | -0.18 | -0.3 | **-0.3** |
| AFB Bank | -0.04 | -0.18 | -0.1 | **-0.1** |
| Azər Türk Bank | -0.29 | -0.29 | -0.3 | **-0.3** |
| Azərbaycan Beynəlxalq Bankı | -0.04 | -0.5 | -0.3 | **-0.3** |
| Azərbaycan Sənaye Bankı | -0.28 | -0.01 | -0.1 | **-0.1** |
| Bank Avrasiya | -0.23 | 0.00 | -0.1 | **-0.1** |
| Bank BTB | 0.50 | -0.22 | 0.1 | **0.1** |
| Bank Melli İran Bakı filialı | -0.67 | 0.04 | -0.3 | **-0.3** |
| Bank of Baku | -0.12 | -0.37 | -0.2 | **-0.2** |
| Bank Respublika | -0.21 | -0.24 | -0.2 | **-0.2** |

| | | | | |
|---|---|---|---|---|
| Bank VTB (Azərbaycan) | 0.27 | -0.29 | 0.0 | **0.0** |
| Expressbank | 0.64 | -0.29 | 0.2 | **0.2** |
| Kapital Bank | -0.10 | -0.15 | -0.1 | **-0.1** |
| Yelo Bank | -0.15 | -0.34 | -0.2 | **-0.2** |
| PAŞA Bank | 0.06 | -0.11 | 0.0 | **0.0** |
| Rabitəbank | -0.41 | -0.22 | -0.3 | **-0.3** |
| Premium Bank | -0.14 | 0.34 | 0.1 | **0.1** |
| TuranBank | -0.45 | -0.08 | -0.3 | **-0.3** |
| Unibank KB | -0.55 | 0.09 | -0.2 | **-0.2** |
| Xalq Bank | 0.35 | -0.35 | 0.0 | **0.0** |
| Yapı Kredi Bank Azərbaycan | 0.00 | -0.26 | -0.1 | **-0.1** |
| Ziraat Bank Azərbaycan | -0.10 | -0.20 | -0.2 | **-0.2** |
| **Orta göstərici (BSKİ)** | **-0.12** | **-0.22** | **-0.17** | **-0.17** |

*Qeyd: Cədvəl https://aba.az/ məlumatları əsasında müəllif hesablamalarına əsaslanır.*

Göründüyü kimi bir sıra bankların vəziyyəti 2022-ci ildə 2023-cü illə müqayisədə daha yaxşı olmuşdur. 2023-cü ildə BSKİ-in pisləşməsi təbii olaraq 2023-ci ilin ikinci yarısında və 2024-ci ilin birinci rübündə bir sıra bankların xüsusilə də "Günaybank", "Muğanbank" və həmin ilin ikinci rübündə isə "Naxçıvanbank"ın bank sistemindən kənarlaşmasına səbəb olmuşdur.

Ümumiyyətlə, bildirsək ölkəmizin bank sistemi 2022-2023-cü illərdə orta kövrəklik dərəcəsində olmuşdur. Onu da bildirək ki, 2022-2023-cü illər üzrə BSKİ hesablanması üzrə hesablanan ədədi orta və medianı hər ikisi 0.17-ədədinə bərabər olmuşdur. Bu isə o deməkdir ki, təhlil olunan 2022-2023-cü illərdə BSKİ simmetrik paylanmışdır. Eyni zamanda, Azərbaycanın bank sisteminin kövrəklik indeksinin təhlili onu deməyə əsas verir ki, 2023-cü illə müqayisədə 2022-ci ildə Yapı Kredi Bank Azərbaycan, Xalq Bank, PAŞA Bank və Bank BTB-də banklarında artımın yüksək inkişaf tempə malik olduğu görünür.

## NƏTİCƏ

Ölkənin bank sisteminin kövrəkliyi ilə bağlı 2022-2023-cü illər üzrə aparılan təhlil göstərmişdir ki, ölkənin ümumi bank sistemi üzrə orta kövrəklik dərəcəsinə malik olduğunu və müvafiq olaraq ədədi orta ilə medianın üst-üstə düşməsi nəticənin reallığı əks etdirdiyini deməyə əsas vermişdir. Təəssüflər olsun ki, ölkənin bank sistemində BSKİ üzrə müsbət dinamika ayrı-ayrı banklar üzrə müsbət dinamika uzun olmamışdır.

## İstifadə edilmiş ədəbiyyat


1. Eichengreen, B., Rose, A.K. ve Wyplosz, C. (1994). Speculatıve Attacks on Pegged Exchange Rates: an Empırıcal Exploratıon with Specıal Reference to the European Monetary System, *NBER Working Paper*, No: 4898, October
2. Kibritçioğlu, A. (2003). Monitoring Banking Sector Fragility, *The Arab Bank Rewiev*, 5(2), 51-66.
3. Bayrakdaroglu, A., Ege, İ. ve Yazici, N. (2013). A Panel Data Analysis of Capital Structure Determinants: Empirical Results from Turkish Capital Market, International Journal of Economics and Finance, 5(4), 131-147.
4. Lee J.H., Ryu, J. ve Tsomocos, D.P. Measures of Systemic Risk and Financial Fragility in Korea, *University of Oxford Sais Business School, Working Paper,* September 2012. P. 77-92.
5. Festić, M., Kavkler, A. ve Repina, S. (2011). The Macroeconomic Sources of Systemic Risk in The Banking Sectors of Five New EU Member States, *Journal of Banking & Finance,* 35(2), 310-322.

6. Gonzalez-Hermosillo, B., Pazarbaşioğlu, C. ve Billings, R. (1997). Determinants of Banking System Fragility: A case study of Mexico, *Staff Papers-International Monetary Fund,* 44(3), 295-314
7. Gunsel, N. (2012). Micro And Macro Determinants of Bank Fragility in North Cyprus Economy, *African Journal of Business Management*, 6(4), 1323-1329.
8. https://aba.az/

## Расчет индекса хрупкости банковской системы Азербайджана

**Хасан Ганбаров**
Аспирант Министерства науки и образования Азербайджанской Республики, Института экономики

**Резюме:** Целью исследования является определение уровня хрупкости банковской системы Азербайджана и расчет индекса хрупкости банковской системы. В исследовательской работе использовались методы сравнительного анализа, логического обобщения, системного подхода и математического анализа. Рассмотренные в исследовании фундаментальные анализы могут быть использованы для повышения экономической эффективности и регулирования межбанковских конкурентных отношений. Определение хрупкости банковской системы имеет важное значение при определении и регулировании перспектив банков. Поэтому учет современных тенденций может иметь важное значение для стимулирования банковской системы. В качестве оригинальности и научной новизны исследования индекс хрупкости банков был рассчитан как для банковской системы в целом, так и для отдельных банков.

**Ключевые слова:** банковские кризисы, валюта, индекс хрупкости, депозит, ответственность, кредит и т. д.

DOI: https://doi.org/10.36719/2707-9317/03/156-160

# Sensitivity analysis in economic decision making

**Gunay Huseynzade**
Doctoral student,
Azerbaijan State Oil and Industry UniversityE-
mail: gunayhuseynzada@gmail.com
https://orcid.org/ 0000-0003-0616-1158

**Abstract:** The article examines methods for analyzing the impact of uncertainty on the results of economic models. Sensitivity analysis helps determine how changes in input parameters affect the results. In economic decision-making, this process is critical to assessing the reliability of results, especially when variables such as costs, benefits, or probabilities are uncertain. Basic approaches include univariate and multivariate sensitivity analyses, which allow decision makers to adjust single or multiple variables and allows you to check their influence on the results of decisions. In the article, linguistic evaluations of criteria and alternatives by experts in personnel selection process, which is the most important field of economy, were analyzed and included with values. In the main content of the research, actions on Z numbers, founded by Lotfi A.Zadeh, and their sensitivity analyzes are discussed and analyzed. The main importance of this research is to address the current challenges faced by decision makers in the reliability of economic evaluations to improve the accuracy and efficiency of employee selection in an uncertain environment.

**Key words:** Z numbers, economic decision making, uncertain information.

**JEL D 83; UDC 338**

# İqtisadi qərarların qəbulunda həssaslıq analizi

**Günay Hüseynzadə**
Dissertant, Azərbaycan Dövlət Neft və Sənaye UniversitetiE-mail: gunayhuseynzada@gmail.com
https://orcid.org/0000-0003-0616-1158

**Xülasə:** Məqalə qeyri-müəyyənliyin iqtisadi modellərin nəticələrinə təsirini təhlil etmək üsullarını araşdırır. Həssaslıq təhlili giriş parametrlərindəki dəyişikliklərin nəticələrə necə təsir etdiyini müəyyən etməyə kömək edir. İqtisadi qərarların qəbulu zamanı bu proses, xüsusən də xərclər, faydalar və ya ehtimallar kimi dəyişənlər qeyri-müəyyən olduqda, nəticələrin etibarlılığını qiymətləndirmək üçün çox vacibdir.Əsas yanaşmalara birtərəfli və çoxtərəfli həssaslıq təhlilləri daxildir ki, bu da qərar verənlərə tək və ya çox dəyişənləri tənzimləməyə və onların qərarların nəticələrinə təsirini yoxlamağa imkan verir. Məqalədə iqtisadiyyatın ən mühüm sahəsi olan kadr seçimi prosesində meyar və alternativlərin ekspertlər tərəfindən linqvistik qiymətləndirmələri təhlil edilmiş və müvafiq qiymətlərlə ehtiva edilmişdir. Tədqiqatın əsas məzmununda Lütfizadə tərəfindən əsası qoyulmuş Z ədədlər üzərində əməllər və onların vasitəsiylə həssaslıq təhlillərinin aparılması müzakirə və təhlil edilir. Bu tədqiqatın əsas əhəmiyyəti qeyri-müəyyən mühitdə işçi seçiminin dəqiqliyini və effektivliyini artırmaq üçün iqtisadi qiymətləndirmələrin etibarlılığının və qərar qəbul edənlərin üzləşdiyi müasir problemləri həll etməkdir.

**Açar sözlər**: Z ədədlər, iqtisadi qərar qəbuletmə, qeyri-səlis informasiya.

**JEL D 83; UDC 338**

## İntroduction

Sensitivity analysis is an important element in the model development and result communication processes. Sensitivity analysis provides important insights into model behavior, structure, and responsiveness to changes in model inputs. numerous interrogations are feasible, and numerous sensitivity analysis approaches have been devised, resulting in an extensive and developing literature. We provide an overview of available approaches, categorizing them into local and global ways. (E.Borgonovo , E.Plischke-2016 ) Sensitivity investigation serves as a foundation in understanding the steadiness and responsiveness of choice models when stood up to with shifting inputs. By subjecting the MADM demonstrate to distinctive scenarios and input varieties, this considers points to un-veil the model's affectability to changes in Z-number esteemed information. Through experimental examination and real-world applications, the article endeavors to shed light on how uncertainties inserted within the venture scene can be successfully overseen through the amalgamation of MADM strategies and Z-number esteemed information. Personnel selection is the crucial part of any business activity, no matter this business related with economy, education, entertainment etc. Regarding to the current idea, it is the process of selecting a candidate from a pool of candidates who all meet the qualifications to execute a certain job in the best way possible. Every firm's success involves the recruitment and selection of qualified employees. The capacity of an organization to deliver a high-quality product at a reasonable price and on time is heavily determined by its personnel' abilities. When employing new personnel, the most critical aspect is to match the right individual to the right place. (Gunay A. Huseynzada-2022)

## *Main part*

### Literature review

Based on a fuzzy unbalance scale, proposals to measure asymmetry deepening in the structural mismatching of the professional labor market in the individual IT sphere, as well as the existing imbalance on the supply and demand sides, are illustrated. The fuzzy state classification algorithm of imbalance helps in this situation a number of parties to make decisions regarding the differentiation in

the demand for IT workers. Article (Z.Mammadova, M, Jabrayilova, Z, Mammadzada-2015) analyses modeling the dynamics of supply and demand in the employment of IT specialists. In this research we will examine employee selection decision making through Z numbers calculation methodology by using unique and the only calculation application Z-lab software, which created under the guidance of professor Rafiq Aliyev. Unfortunately, at the present time, there has been little research in multi-attribute decision optimization under Z-environment. Considering real world problems, the idea of Z-number was put forward by Professor Zadeh. A Z-number consists of two fuzzy numbers contributing to the value of the Z number. Every information should be trustworthy in order to be considered useful. In this essence, Z number deals with the problem of information reliability. The Z-number Z has two components Z = (A, B). A is the first component and it defines the limitation or the constraint on the set of possible real values of the uncertain variable, X. The second component, B, is a measure of the degree of certainty in the first component. (Zadeh, LA -2011) The idea of a Z-quantity is introduced and strategies of computation with Z-numbers are outlined. The concept of a Z-wide variety has a ability for plenty programs, mainly inside the realms of economics, decision analysis, risk evaluation, prediction, anticipation and rule-primarily based characterization of obscure functions and relations.

Main idea in this research selecting the best IT engineer to the vacancy in any business. After preliminary examination 3 alternatives were able to obsess the main requirements. Also 5 criteria were evaluated according to 3 alternatives. C1 - Emotional steadiness, C2 - Oral Communication, C3 – Personality, C4 -Past experience, C5 - Self confidence.( E. Agakishiyev-2016)

**Methodology**

Z numbers are used in this study to evaluate each of the three probability using five different criteria. As a first stage, binary matrices representing each expert's judgment were developed. Pairwise matrixes according to experts' linguistic opinions evaluated and given with Z numbers. Then consistent aggregated pairwise matrix was completed, next step identifying eigen vector and weights vectors, normalizing decision matrix was created, vector of alternatives was obtained and the last step ranking of alternatives was identified. The following stage was doing a sensitivity analysis by regulating the appropriate numbers. Trapezoidal Z-numbers are shown as information about alternatives. We specified any changes in output if data were performed in the form of a trapezoidal Z-numbers. (L.Hasanova, K.Jabbarova-2023)

**Result and discussions**

Tabe 1. Consistent pairwise matrix due to criteria.

| | $C_1$ | $C_2$ | $C_3$ |
|---|---|---|---|
| $C_1$ | {[0.75, 0.775, 1.025, 1.06], [0.85, 0.95, 0.95, 1.0]} | {[1.067, 1.098, 1.159, 1.19], [0.85, 0.95, 0.95, 1.0]} | {[2.27, 2.332, 2.457, 2.519 [0.85, 0.95, 0.95, 1.0]} |
| $C_2$ | {[0.685, 0.694, 0.735, 0.757], [0.85, 0.95, 0.95, 1.0]} | {[0.85, 0.875, 1.025, 1.05], [0.85, 0.95, 0.95, 1.0]} | {[1.829, 1.879, 2.081, 2.132 [0.85, 0.95, 0.95, 1.0]} |
| $C_3$ | {[0.282, 0.291, 0.311, 0.322], [0.85, 0.95, 0.95, 1.0]} | {[0.369, 0.381, 0.405, 0.418], [0.85, 0.95, 0.95, 1.0]} | {[0.85, 0.875, 1.025, 1.05], [0.85, 0.95, 0.95, 1.0]} |
| $C_4$ | {[0.241, 0.249, 0.267, 0.277], [0.85, 0.95, 0.95, 1.0]} | {[0.319, 0.329, 0.351, 0.363], [0.85, 0.95, 0.95, 1.0]} | {[0.751, 0.772, 0.816, 0.84], [0.85, 0.95, 0.95, 1.0]} |
| $C_5$ | {[0.228, 0.236, 0.253, 0.263], [0.85, 0.95, 0.95, 1.0]} | 0.403, 0.413, 0.434, 0.445], [0.85, 0.95, 0.95, 1.0]} | {[0.718, 0.738, 0.781, 0.804], [0.85, 0.95, 0.95, 1.0]} |

Table 2. Proceeding part of Table

| | $C_4$ | $C_5$ |
|---|---|---|
| $C_1$ | {[2.553, 2.622, 2.662, 2.832], [0.95, 0.97, 0.98, 1.0]} | {[2.658, 2.731, 2.876, 3.048], [0.95, 0.97, 0.98, 1.0]} |
| $C_2$ | {[2.059, 2.116, 2.229, 2.286], [0.95, 0.97, 0.98, 1.0]} | {[2.145, 2.204, 2.322, 2.381], [0.95, 0.97, 0.98, 1.0]} |
| $C_3$ | {[1.063, 1.091, 1.147, 1.175], [0.95, 0.97, 0.98, 1.0]} | {[1.106, 1.135, 1.193, 1.222], [0.95, 0.97, 0.98, 1.0]} |
| $C_4$ | {[0.85, 0.875, 1.025, 1.05], [0.95, 0.97, 0.98, 1.0]} | {[0.888, 1.014, 1.066, 1.092], [0.95, 0.97, 0.98, 1.0]} |

| | | |
|---|---|---|
| $C_5$ | {[0.816, 0.838, 0.886, 1.012], [0.95, 0.97, 0.98, 1.0]} | {[0.85, 0.875, 1.025, 1.05], [0.95, 0.97, 0.98, 1.0]} |

Table 3. Normalized decision matrix

| | ***Emotional steadiness*** **(**$C_1$***)*** | ***Oral Communication*** **(**$C_2$***)*** | ***Personality*** **(**$C_3$***)*** |
|---|---|---|---|
| $A_1$ | {[0.0, 0.0001, 0.0001, 0.0002], [0.51, 0.58, 0.6, 0.69]} | {[0.0, 0.0001, 0.0001, 0.0002], [0.66, 0.76, 0.76, 0.91]} | {[0.52, 0.84, 1.0, 1.0 ], [0.64, 0.76, 0.76, 0.91]} |
| $A_2$ | {[0.0, 0.0001, 0.0001, 0.0002], [0.51, 0.58, 0.6, 0.69]} | {[0.79, 0.91, 1.0, 1.0], [0.64, 0.76, 0.76, 0.91]} | {[0.52, 0.84, 1.0, 1.0], [0.64, 0.76, 0.76, 0.91]} |
| $A_3$ | {[0.0, 0.0001, 0.0001, 0.0002], [0.51, 0.58, 0.6, 0.69]} | {[0.79, 0.91, 1.0, 1.0], [0.64, 0.76, 0.76, 0.91]} | {[0.52, 0.84, 1.0, 1.0], [0.64, 0.76, 0.76, 0.91]} |

Table 4.Proceeding part of Table

| | ***Past experience*** **(**$C_4$***)*** | ***Self confidence*** **(**$C_5$***)*** |
|---|---|---|
| $A_1$ | {[0.66, 0.95, 1.0, 1.0], [0.66, 0.76, 0.76, 0.88]} | {[0.48, 0.98, 1.0, 1.0], [0.44, 0.54, 0.54, 0.69]} |
| $A_2$ | {[0.0, 0.0001, 0.0001, 0.0002], [0.68, 0.76, 0.76, 0.88]} | {[0.48, 0.98, 1.0, 1.0], [0.44, 0.54, 0.54, 0.69]} |
| $A_3$ | {[0.66, 0.95, 1.0, 1.0], [0.66, 0.76, 0.76, 0.88]} | {[0.0, 0.0001, 0.0001, 0.0002], [0.51, 0.58, 0.58, 0.71]} |

According to the calculation through Z-lab software we get following ranking outcome 1>3>2. It refers that the first candidate is the most appropriate alternative according to requirements and evaluation. Now we will examine iterations due to changed values for reliability (B component) regarding to the following schedule.

Table 5. Linguistic evaluation.

| Linguistic Variable | **B** component |
|---|---|
| Not Sure | (0.09,1.2,1.26,1.3) |
| Neutral | (0.35,0.41,0.46,0.51) |
| Somewhat Sure | (0.4,0.5,0.52,0.6) |
| Fairly Sure | (0.61,0.69,0.75,0.8) |
| Very Sure | (0.81,0.9,0.96,1) |

Next we examine several times unique calculation by changing different reliability parts for each other. After doing 10 iterations we get such outcome that first candidate is the best candidate. Most part of calculation shows us fluctuations in the reliability parts can not affect the main result of the research.

## *Conclusion*

This article focuses on doing a sensitivity analysis of the IT engineer sampling model using Z-valued data. The conducted study conclusively indicated that the suggested technique produces an ideally informed outcome. Slight variations in the trustworthiness of data connected to various alternatives and criteria do not cause major changes in the order of rankings. Using Z-numbers significantly improves decision-making in choosing IT engineers. Z-numbers combine fuzzy constraints with data reliability, offering a more sophisticated and realistic way to address uncertainty in personnel assessment compared to conventional approaches. By enabling decision-makers to consider imprecise and partially reliable information, Z-numbers enhance the accuracy and relevance of the selection process. This method is particularly beneficial in areas like IT, where skill assessments and performance metrics often involve subjective and uncertain evaluations. The study underscores that Z-numbers can be incorporated into multi-attribute decision-making frameworks to boost decision

reliability and effectiveness overall.

## References

1. Emanuele Borgonovo , Elmar Plischke "Sensitivity analysis: A review of recent advances" European Journal of Operational Research. Volume 248, Issue 3, 1 February 2016, Pages 869-887
2. Gunay A. Huseynzada "Z -Decision making for the selection of IT engineers" 15th International Conference on Applications of Fuzzy Systems, Soft Computing and Artificial Intelligence Tools – ICAFS-2022
3. Z.Mammadova, M, Jabrayilova, Z, Mammadzada, F: Fuzzy approach to estimate the demand and supply quantitative imbalance at the labor market of information technology specialists. IJISAE..(2015). Doi: 10.18201/ijisae.24856.1039
4. Zadeh, LA.: A note on a Z-number, Inform Sciences 2011; 181:2923-2932
5. E. Agakishiyev: Supplier selection problem under Z-information. ICAFS 2016
6. Leyla Hasanova, Jabbarova Konul "Sensitivity Analysis of Portfolio Selection Model Based on Z-Number Information" 16th International Conference on Applications of Fuzzy Systems, Soft Computing and Artificial Intelligence Tools – ICAFS-2023

# Анализ чувствительности при принятии экономических решений

**Гюнай Гусейнзаде**
Докторант, Азербайджанский Государственный Университет Нефти и ПромышленностиE-mail: gunayhuseynzada@gmail.com

**Резюме:** В статье рассматриваются методы анализа влияния неопределенности на результаты экономических моделей. Анализ чувствительности помогает определить, как изменения входных параметров влияют на результаты. В принятии экономических решений этот процесс имеет решающее значение для оценки надежности результатов, особенно когда такие переменные, как затраты, выгоды или вероятности, являются неопределенными. Основные подходы включают одномерный и многомерный анализ чувствительности, которые позволяют лицам, принимающим решения, корректировать одну или несколько переменных и позволяют проверять их влияние на результаты решений. В статье были проанализированы и включены со значениями лингвистические оценки критериев и альтернатив экспертами в процессе отбора персонала, который является важнейшей областью экономики. В основном содержании исследования обсуждаются и анализируются действия над числами Z, основанные Лютфизаде, и их анализы чувствительности. Главное значение этого исследования заключается в решении текущих проблем, с которыми сталкиваются лица, принимающие решения, в надежности экономических оценок для повышения точности и эффективности отбора сотрудников в неопределенной среде.

**Ключевые слова**: Z-числа, принятие экономических решений, неопределенная информация.

**JEL D 83; UDC 338**